# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# SƏKSƏN İKİNCİ KİTAB

## AVQUST 2017 - OKTYABR 2017

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının BMT Baş Assambleyasının 72-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində beynəlxalq sammitdə, yüksək səviyyəli görüş və tədbirlərdə çıxışları və digər materiallar torlanılmışdır.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da, demək olar olar ki, hər bir cilddə öz əksini tapır.

Oxucular bu cilddə, həmçinin dövlət başçısının Neftçala, Qobustan, Salyan, Şamaxı, Lənkəran və Cəlilabad rayonlarına səfərləri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü, Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində geniş nitqi və bu rayonlarda sosial infrastruktur layihələrinin və məişət obyektlərinin açılışı zamanı etdiyi çıxışları ilə də tanış ola bilərlər.

**ISBN 978-9952-8100-7-3**

$$\text{Я}\ \frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$$

**ББК - 32**

© Azərnəşr, 2019

## YENİ İNŞA EDİLMİŞ «TUFAN» TİPLİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ İLƏ TANIŞLIQ

*24 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev avqustun 24-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş «Tufan» tipli sərhəd gözətçi gəmisi ilə tanış olmuş və növbəti «Tufan» tipli sərhəd gözətçi gəmisinin təməlini qoymuşdur.*

*Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevə Gəmi İnşası və Təmiri Mərkəzində görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində indiyədək «Şahdağ» tipli 6, «Tufan» tipli 4 sərhəd gözətçi gəmisi inşa olunub. 2016-cı ilin avqustunda DSX Sahil Mühafizəsinin «Tufan» tipli sərhəd gözətçi gəmilərindən biri Rusiya Federasiyasının Həştərxan şəhərinə dostluq səfəri edib, «Dənizdə qanunsuz tədbirlərə qarşı əks-tədbirlər, həmçinin Xəzər dənizi hövzəsində yaranmış müxtəlif şəraitlərdə reaksiya göstərilməsi üzrə birgə hərəkətlərin işlənilməsi» mövzusunda sərhəd təliminə qatılıb. Bu ilin avqustunda isə «Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində qaçaqmalçılıq, qeyri-qanuni ticarət, mütəşəkkil cinayətkarlıq və enerji infrastrukturuna qarşı terror-təxribat aktlarının qarşısının alınması zamanı Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən axtarış əməliyyatları keçirməklə, terrorçu qrupların zərərsizləşdirilməsi və dəniz təhlükəsizliyinin təmin olunması» mövzusunda döyüş atışlı*

*taktiki sərhəd təlimləri keçirilib. Taktiki təlimə cəlb olunmuş gəmilərin əksəriyyəti prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı əsasında yaradılmış Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşa edilibdir.*

*Dövlət başçısı növbəti «Tufan» tipli sərhəd gözətçi gəmisinin təməlini qoydu.*

*Prezident İlham Əliyevə Dövlət Sərhəd Xidmətinin yeni xüsusi təyinatlı döyüş texnikası, silah və sursatları haqqında məlumat verildi. Burada nümayiş olunan hərbi texnika arasında Müdafiə Sənayesi Nazirliyinin istehsalı olan «Zərbə» K-1 döyüş başlıqlı pilotsuz uçuş aparatı, «Kobra» döyüş maşını üzərində quraşdırılmış məsafədən idarə olunan və 8 kilometr məsafədə düşmənin canlı qüvvəsini və zirehli texnikasını məhv etmə qabiliyyətinə malik «Lahat» sistemi döyüş modulu, «ZTR-70» üzərində quraşdırılan avtomatlaşdırılmış hədəfə yönləndirmə sisteminə malik yüksək dəqiqlikli 120 millimetrlik minaatan qurğusu, dövlət sərhədinin mühafizəsində istifadə təyinatlı hərəkətə həssas avadanlıqlar, radarlar və müşahidə qurğuları, snayper tüfəngləri, optik təyinatlı nişangah və cihazlar, daşınan lazer hədəf göstəriciləri vardır.*

*Azərbaycan Sərhəd Mühafizəsinin xidməti döyüş fəaliyyətinin formalaşdırılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində isə Azərbaycan sərhədçilərinin xidməti döyüş fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, bu xidmət ən müasir silah, sursat və hərbi texnika ilə təchiz olunub. Bu gün əminliklə söyləmək olar ki, sərhədçilər prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə istənilən tapşırığı yerinə yetirmək iqtidarındadır.*

*Sonra prezident İlham Əliyev «Tufan» tipli sərhəd gözətçi gəmisi ilə yaxından tanış oldu. Su tutumu 470 ton olan gəmi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir*

*silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı kompleks, gecə-gündüz görmə müşahidə sistemləri və hidroakustik qurğu, həmçinin Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən itisürətli qayıqla təchiz edilib. Uzunluğu 62 metr olan sərhəd gözətçi gəmisinin dəniz şəraitində göyərtəsinə helikopterin enməsi də mümkündür. Yeni gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhədboyu rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmini istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə ediləcəkdir.*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İQOR DODONA**

Hörmətli cənab Prezident!

Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Moldova arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Moldova xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2017-ci il*

## «BUTA AİRWAYS» AVİAŞİRKƏTİNİN BAKIYA GƏTİRİLƏN İLK «EMBRAER 190» TƏYYARƏSİ İLƏ TANIŞLIQ

*25 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də «Azərbaycan Hava Yolları» QSC-nin nəzdində yaradılan «Buta Airways» aviaşirkətinin Bakıya gətirilən ilk «Embraer 190» təyyarəsi ilə tanış olmuşdur.*

*Azərbaycanda turizmin inkişaf etdirilməsi dövlətin əsas prioritet sahələrindən biridir. Prezident İlham Əliyevin tapşırığı ilə ölkədə turizm obyektlərinin yaradılması ilə yanaşı, nəqliyyat infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. «Buta Airways» aviaşirkətinin lou-kosterinin yaradılması da dövlət başçısının Nazirlər Kabinetinin iclasında aviabiletlərin qiymətinin aşağı salınması ilə bağlı verdiyi müvafiq tapşırığına əsasən görülən işlərdəndir.*

*«Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov «Buta Airways» aviaşirkətinin yeni «Embraer 190» təyyarəsi barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, ekonom-sinif modifikasiyalı bu təyyarə 106 sərnişin tutumuna malikdir. «Buta Airways» ən çox tələb olunan istiqamətlərə uçuşlar yerinə yetirəcək. Sentyabrın 1-dən etibarən Bakıdan Moskva, Kiyev, Antalya, Kazan, Mineralnıye Vodı, Tbilisi və Tehrana, oktyabrın 29-dan isə tətbiq ediləcək qış uçuş cədvəlinin başlamasıyla, Bakıdan İstanbula və Sankt-Peterburqa, eləcə də Gəncədən Moskvaya uçuşlar olacaqdır. Bütün istiqamətlər üzrə minimal tarif bir tərəfə 29 avro təşkil edir. «Buta Airways» tipik lou-koster sxemi üzrə fəaliyyət göstərir və baqajın daşınması,*

*təyyarədə isti yeməklər, yer seçimi və digər xidmətlər əlavə ödəniş müqabilində təklif ediləcəkdir.*

*Yaxın günlərdə şirkətin daha bir yeni «Embraer 190» təyyarəsinin Bakıya gətirilməsi nəzərdə tutulur. Ümumilikdə isə aviaşirkətin hava gəmiləri parkında «Embraer 190» təyyarələrinin sayı 8-ə çatdırılacaq. Bu layihənin icra edilməsi ölkə vətəndaşlarının daha ucuz qiymətə dünyanın müxtəlif şəhərlərinə səyahət etməsinə imkan yaratmaqla yanaşı, Azərbaycana turist axınının artmasına da əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir.*

## MALAYZİYANIN XV ALİ BAŞÇISI ƏLAHƏZRƏT SULTAN V MƏHƏMMƏDƏ

Əlahəzrət!

Malayziyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Malayziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Malayziya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2017-ci il*

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şarşenoviç!

Sizi və bütün Qırğızıstan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızı bir-birinə bağlayan xeyirxah dostluq və qarşılıqlı dəstək ənənələri Azərbaycan ilə Qırğızıstan arasında qarşılıqlı faydalı münasibətlərin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün bundan sonra da etibarlı təməl olacaqdır.

Hörmətli Almazbek Şarşenoviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Qırğızıstan xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2017-ci il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mənəvi kamillik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən islam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

İslamın bir din kimi tamamlanmasını, mənəvi və əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək gündə bir daha hamınıza ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2017-ci il*

**SLOVAKİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ANDREY KİSKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Konstitusiya Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Slovakiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2017-ci il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAVKAT MİRZİYOYEVƏ**

Hörmətli Şavkat Miromonoviç!

Özbəkistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Müstəqillik yolu ilə inamla irəliləyən qardaş Özbəkistanın dövlətçiliyin möhkəmləndirilməsi, sosial-iqtisadi və mədəni sahələrdə əldə etdiyi uğurlar bizi sevindirir.

Azərbaycan ilə Özbəkistanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan ikitərəfli münasibətlərimiz xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Şavkat Miromonoviç, bu xoş fürsətdən istifadə edərək, müqəddəs Qurban bayramı münasibətilə Sizə və ölkənizin bütün müsəlmanlarına ən səmimi təbriklərimi yetirirəm. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Özbəkistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2017-ci il*

**SAN-MARİNO RESPUBLİKASININ
KAPİTAN-REGENTLƏRİ
XANIM MİMMA ZAVOLİYƏ VƏ
XANIM VANESSA D'AMBROSİOYA**

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost San-Marino xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2017-ci il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DAY KUANQA**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Vyetnam münasibətləri xoş ənənələrə əsaslanır. İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlığın daha da möhkəmlənməsi və inkişafı yolunda atdığımız addımlar bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2017-ci il*

**SVAZİLEND KRALI**
**ƏLAHƏZRƏT III MSVATİYƏ**

Əlahəzrət!

Svazilend Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2017-ci il*

## CƏLİLABAD RAYONUNA SƏFƏR

*2 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Cəlilabad rayonuna səfərə gəlmişdir.*

*Azərbaycan Prezidenti Cəlilabad şəhərində Heydər Əliyev parkında ulu öndərin abidəsi önünə gül dəstəsi qoyaraq, xatirəsini dərin ehtiramla yad etdi.*

*Parkda və ümumilikdə rayonda görülən abadlıq-quruculuq işləri barədə prezident İlham Əliyevə məlumat verildi.*

*Bildirildi ki, Heydər Əliyev parkı rayon sakinlərinin istirahət üçün üz tutduqları ən çox sevilən məkanlardan biridir. Burada fəvvarələr quraşdırılıb, müasir işıq dirəkləri və oturacaqlar qoyulub, yaşıllıq zolağı salınıbdır. Parkda sakinlərin istirahətinin səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıbdır.*

### Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 22,2 kilometrlik Lənkəran–Masallı hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 22,2 kilometrlik Lənkəran–Masallı hissəsinin açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun tikintisi regionların 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, Azərbaycan hökuməti ilə Asiya İnkişaf Bankı arasında 2008-ci*

*ildə imzalanmış Saziş əsasında aparılır. Yolun 22,2 kilometrlik Lənkəran–Masallı hissəsinin tikintisi yüksək keyfiyyətlə həyata keçirilib. «1B» texniki dərəcəli və 4 hərəkət zolağından ibarət yolun eni 26,5 metrdir. Layihə çərçivəsində yol üzərində 10 körpü tikilib, 142 dairəvi və düzbucaqlı boru inşa olunub, mal-qara keçidləri quraşdırılıbdır. Bu, yolda avtomobillərin rahat hərəkətinin tam təmin edilməsinə şərait yaradır.*

*Ümumiyyətlə, ölkəmizdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq, avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən magistralların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Belə layihələr sırasında Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 22,2 kilometr uzunluğunda Lənkəran–Masallı hissəsinin tikintisi xüsusi əhəmiyyəti ilə seçilir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 32,2 kilometrlik Masallı–Cəlilabad hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 32,2 kilometrlik Masallı–Cəlilabad hissəsinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısına görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 31-ci kilometrliyindən başlayaraq, Astaraya qədər inşa olunan yeni yolun bir çox hissəsində tikinti işləri artıq yekunlaşıb. Yolun ümumi uzunluğu 173,6 kilometrdir. Layihəyə əsasən yeni yol 1-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Yol 2 gediş və 2 gəliş olmaqla, 4 hərəkət zolağından ibarətdir. Yolun hərəkət hissəsinin eni 15 metrdir. Bu avtomobil yolu bir neçə hissə üzrə inşa olunur. Bunlar 25 kilometrlik Yenikənd–Salyan, 24,8 kilometrlik Salyan–Şorsulu, 30,1 kilometrlik Şorsulu–Cəlilabad, 32,2 kilometrlik Masallı–Cəlilabad və 61,4 kilometrlik Masallı–Astara hissələridir. Yolun Salyan–Şorsulu və Şorsulu–Cəlilabad hissələrində işlər sürətlə və yüksək keyfiyyətlə davam etdirilir. Şorsulu–Cəlilabad hissəsində 12,5 kilometrlik yol Mahmudçala və Ağçala bataqlıq-göl ərazilərindən keçdiyi üçün burada yol yatağı torpağın xüsusi bərkitmə texnologiyası əsasında inşa edilib. Bu ərazilərdə heç vaxt məskunlaşma və yol strukturu olmadığından yol yatağının tikintisi üçün əraziyə qaya və daş parçaları gətirilib. Ümumilikdə magistral yolun 55 kilometr uzunluğunda bu 2 hissəsi üzrə tikinti işləri gələn il yekunlaşdırılacaqdır.*

*Diqqətə çatdırıldı ki, burada işlər texnoloji ardıcıllığa uyğun qaydada aparılıb. Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 32,2 kilometrlik Masallı–Cəlilabad hissəsi müasir səviyyədə yenidən qurulub. Avtomobil yolunun tikintisi prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq aparılıb. Yol 1-ci texniki dərəcəyə aiddir. 4 hərəkət zolaqlı yolun eni 26,5 metrdir. Layihəyə əsasən, yolboyu 14 yeni körpü və 2 tunel tikilib, 5 yerdə mal-qara keçidi yaradılıbdır. Hazırda mövcud olan Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun ümumi uzunluğu 243 kilometrdir. İnşası aparılan yeni yol istifadəyə verildikdə isə bu məsafə 38 kilometr qısalaraq, 205 kilometr olacaqdır.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Böyük iqtisadi və sosial əhəmiyyəti ilə seçilən bu layihənin həyata keçirilməsi bölgədə turizmin və kənd təsərrüfatının inkişafına da öz töhfəsini verəcəkdir. Bundan başqa, bu layihənin icrası şimaldan cənuba doğru və əks istiqamətdə yükdaşımaların həcmini artıracaq, Şimal–Cənub dəhlizinin əsas elementlərindən biri olan Ələt–Astara avtomobil yolu ilə daşımaların daha rahat şəkildə həyata keçirilməsinə hərtərəfli şərait yaradacaqdır.*

## CƏLİLABADIN İÇMƏLİ SU TƏCHİZATI SİSTEMİNİN VƏ KANALİZASİYA ŞƏBƏKƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Cəlilabad şəhərinin içməli su təchizatı sisteminin və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə «Cəlilabad şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və kanalizasiya infrastrukturunun yaradılması» layihəsi barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, bu layihə «Meliorasiya və Su Təsərrüfatı» ASC-nin sifarişi əsasında Dünya Bankı ilə birgə maliyyələşdirilən «Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi» çərçivəsində həyata keçirilir. Layihə çərçivəsində Cəlilabad şəhərinin 2030-cu il üçün proqnozlaşdırılan 77 min nəfər əhalisini ekoloji təmiz içməli su ilə təmin etmək məqsədilə 11035 evin su təchizatı və kanalizasiya şəbəkəsinə qoşulması nəzərdə tutulub. Tikinti işlərinə 2012-ci ildə başlanılıb və 2018-ci ilin 1-ci rübünə tam başa çatdırılması planlaşdırılır. Masallı rayonu ərazisində inşa olunmuş su anbarından suyun Cəlilabad şəhərində hər birinin tutumu 5000 kubmetr olan 2 su anbarına öz axını ilə verilməsi üçün ümumi uzunluğu 30048 metr olan magistral boru xətti çəkilib, ümumi uzunluğu 230225*

*metr olan müxtəlif diametrli borulardan içməli su şəbəkəsi yaradılıb, evlər su sayğacları ilə təmin edilibdir.*

*Qeyd olundu ki, çirkab sularının nəqli üçün diametri 1000 millimetr və uzunluğu 6905 metr olan kanalizasiya kollektor xətti, uzunluğu 1734 metr olan müxtəlif diametrli təzyiqli çirkab su xətti və 186383 metr uzunluğunda çirkab su şəbəkəsi çəkilib. Kanalizasiya şəbəkəsi üzərində 4371 baxış quyusu inşa edilib, evlər bu şəbəkəyə qoşulub. Layihə üzrə 5 kanalizasiya nasos stansiyasının ikisində işlər tam yekunlaşdırılıb, üçündə isə inşaat işləri başa çatdırılaraq, mexaniki və elektromexaniki işlər davam etdirilir. Hazırda gündəlik gücü 11356 kubmetr olan çirkab sutəmizləyici qurğuda inşaat işləri davam etdirilir.*

*Cəlilabad şəhərinin su təchizatı və kanalizasiya sistemləri ötən əsrin 60-cı illərində yaradılıb. Yeni layihənin icrasınadək şəhərə içməli su subartezian quyularından verilirdi. Su şəbəkəsi şəhər əhalisinin yalnız 6,1 faizinə xidmət edirdi. İçməli su gün ərzində 2–4 saatlıq qrafik əsasında verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Cəlilabad şəhərinin kanalizasiya sistemi də müasir tələblərə cavab vermirdi.*

*Sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** Xoş gördük. Sizi ilk növbədə, Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm. Cəlilabad rayonunun bütün sakinlərinə uğurlar, xoşbəxtlik, cansağlığı arzulayıram.

Bu gözəl bayram günlərində Cəlilabad şəhərinin içməli su problemi də öz həllini tapır. Mən bilirəm ki, uzun illər ərzində su problemi Cəlilabad sakinlərini çox narahat edirdi, su fasilələrlə, gündə bir neçə saat verilirdi. Elə günlər var idi ki, su, ümumiyyətlə, olmurdu. İndi isə bu məsələ birdəfəlik öz həllini tapıbdır və Cəlilabad şəhərinə sutkada 24 saat keyfiyyətli, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun içməli su verilir. Bu çox böyük tarixi hadisədir. Mən bunu həmişə qeyd edirəm, bu layihənin icrası onu göstərir ki, bizim siyasətimizin

mərkəzində Azərbaycan vətəndaşı dayanır. Çünki bu, sırf sosial layihədir. Bu layihə çox böyük vəsait tələb edirdi və Azərbaycan dövləti bu vəsaiti ayırdı ki, Cəlilabad sakinləri təmiz, keyfiyyətli içməli su ilə təmin olunsunlar. Bu layihənin icrası ölkəmizin inkişafını göstərir. Göstərir ki, bu gün də Azərbaycan uğurla inkişaf edir, sosial-iqtisadi layihələrə böyük vəsait ayrılır. Bizim kifayət qədər böyük maliyyə imkanlarımız vardır. Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır və ölkə qarşısında duran bütün vəzifələrin icrası üçün ardıcıl siyasət aparılır.

İndi içməli su layihələrinin icrası ölkəmizdə geniş vüsət alıb. Qarşıya vəzifə qoyulubdur ki, hər bir şəhərin içməli su məsələsi öz həllini tapsın və biz bu məqsədə yaxınlaşırıq. Eyni zamanda, kəndlərdə də, qəsəbələrdə də bu məsələlər öz həllini tapır. Biz müxtəlif imkanlardan istifadə edirik. Həm çayboyu kəndlərdə təmizləyici qurğular quraşdırılır, eyni zamanda, magistral su xətləri çəkilir. Bir sözlə, içməli su problemi Azərbaycanda əsaslı şəkildə öz həllini tapır və tapacaqdır. Deyə bilərəm ki, bu da insan sağlamlığına ən çox müsbət təsir edən amildir. Çünki su həyatdır, təmiz su isə sağlam həyat deməkdir. Azərbaycan vətəndaşları sağlam olmalıdırlar. Azərbaycan dövləti bu məqsədə çatmaq üçün bir çox tədbirlər görür.

Siz yaxşı bilirsiniz ki, artıq neçə ildir ölkəmizdə tibbi müayinədən keçən insanların sayı 5 milyona çatıbdır. Biz bu xidməti pulsuz, dövlət hesabına təqdim edirik. Bu nəyə görə mümkün olub? Ona görə ki, indi hər bir yerdə müasir tibb ocaqları vardır, o cümlədən Cəlilabad rayonunda. Mən hər iki tibb müəssisəsinin – həm Müalicə-Diaqnostika Mərkəzinin, həm də Mərkəzi Rayon Xəstəxanasının açılışında iştirak etmişəm. Bu iki böyük tibb ocağı Cəlilabad rayon sakinlərinə çox yaxşı xidmət edir.

Ümumiyyətlə, Cəlilabad rayonunun inkişafına böyük diqqət göstərilir. Mən rayonda dəfələrlə olmuşam. Bu səfər prezident kimi, mənim 8-ci səfərimdir və hər dəfə də müxtəlif tədbirlərin açılışında iştirak etmişəm. Son illər ərzində rayonda bir çox sosial layihələr icra edilib. Qeyd etdiyim kimi, xəstəxana, Müalicə-

Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi, Şahmat məktəbi, Gənclər evi, 20-dən çox məktəb tikilib. 4 kənd yolu layihəsi icra edilib və bu layihələrin icrası imkan verib ki, 100 min əhali bu yollardan istifadə etsin. Çünki bu 4 layihənin əhatə dairəsi çox böyükdür. Bu, 60-dan çox kəndi əhatə edir.

Bu gün mən Cəlilabad–Masallı, Masallı–Lənkəran magistral avtomobil yolunun açılışını etdim. Bu da çox gözəl layihədir. İndi Bakıdan Astaraya qədər çox gözəl magistral yol salınır. Əlbəttə ki, bu istiqamətdə yerləşən bütün rayonların sakinləri bu imkanlardan istifadə edəcəklər. Cəlilabad şəhəri üçün bunun xüsusi əhəmiyyəti vardır. Çünki əvvəlki magistral yol şəhər mərkəzindən keçirdi və istər-istəməz bu, müəyyən problemlərə gətirib çıxarırdı, həm yük maşınları, həm də ki, böyük maşın axını insanları narahat edirdi. İndi isə yeni tras açılıbdır və beləliklə, bu məsələ də öz həllini tapır.

Cəlilabadda digər məsələlər də həll olunur, qazlaşdırılma prosesi gedir. Hələ ki, 70 faiz səviyyəsindədir, ancaq bu artacaq. Əvvəlki illərlə müqayisədə bu, böyük nailiyyətdir. Ancaq biz çalışmalıyıq ki, kəndlərimiz maksimum qazlaşdırılsın. Cəlilabad rayonunda 100-dən çox kənd var və çalışacağıq ki, kəndlərin əksəriyyətinə qaz xətləri çəkilsin. İçməli su məsələsi bu gün öz həllini tapıbdır. Elektrik enerjisi ilə təminat hesab edirəm ki, problem yaratmır. Əlbəttə ki, sosial və iqtisadi məsələlər gündəlikdədir.

Cəlilabadda kənd təsərrüfatının inkişafı sürətlə gedir. Xüsusilə son vaxtlar kənd təsərrüfatının bütün sahələrinə böyük diqqət göstərilir. Cəlilabadda da vətəndaşlar, sahibkarlar buna çox müsbət reaksiya verirlər və kənd təsərrüfatının istehsalı artır. Mənə verilən məlumata görə, indi Cəlilabadda yetişdirilən kənd təsərrüfatı məhsulları xarici bazarlara çıxarılır. Bu, insanların dolanışığı üçün də yaxşıdır, ölkəmiz üçün də yaxşıdır, ölkəmizə valyuta gəlir. Biz, əlbəttə, növbəti illərdə bu sahəyə daha da böyük diqqət göstərəcəyik. Yeni suvarılan torpaqların dövriyyəyə cəlb edilməsi istiqamətində işlər gedəcək. Buna böyük

ehtiyac vardır. İndi ölkəmizdə on minlərlə hektar sahədə yeni suvarma layihələri icra edilir. Bu il indiyə qədər suvarılmayan 100 min hektardan çox torpağa su veriləcək, gələn il də həmçinin. Cəlilabad rayonunda isə suvarılan torpaqların həcmi o qədər də böyük deyil. Mənə məlumat verilib ki, indi torpaqların təqribən 10 faizi suvarılır. Biz əlavə tədbirlər görməliyik, vəsait ayrılmalıdır ki, suvarılan torpaqların sahəsi böyüsün. Belə olan halda, məhsuldarlıq daha da yaxşı olacaq. Əminəm ki, kənd təsərrüfatının, sahibkarlığın inkişafı, emal müəssisələrinin yaradılması növbəti illərdə Cəlilabad rayonu üçün əsas istiqamət olacaqdır.

O ki qaldı infrastruktur layihələrinə, onların, demək olar ki, hamısı icra edilib və edilir – içməli su, elektrik, qazlaşdırılma, kənd yolları, magistral yollar, sosial obyektlər, xəstəxana, Diaqnostika Mərkəzi, məktəblər. Yəni bütün sosial kompleks yenilənib. Şəhər də abadlaşır, gözəlləşir. Mən prezident kimi, ilk dəfə Cəlilabada 2004-cü ildə gəlmişdim. 13 il ərzində Cəlilabad böyük yol keçib, şəhər gözəlləşib, abadlaşıb və yeni imkanlar yaranıbdır.

Bugünkü hadisə çox əlamətdar hadisədir, müqəddəs Qurban bayramına təsadüf edir. Ancaq bu, təsadüfi deyil. Hesab edirəm ki, bu bayram günündə bu layihə Cəlilabad şəhəri üçün gözəl hədiyyədir. Sizi bir daha bu münasibətlə təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

* * *

**Qərənfil Əhmədova** *(Əməkdar müəllim)*: Möhtərəm cənab Prezident, rayonumuza xoş gəlmisiniz! Bu müqəddəs Qurban bayramı günündə rayonumuza səfərinizlə biz cəlilabadlılara ikiqat sevinc bəxş etdiniz. Biz də fürsətdən istifadə edərək, Sizi, ailənizi bu bayram münasibətilə ürəkdən təbrik edirik, Sizə cansağlığı arzulayırıq. Uca Tanrıdan kəsdiyiniz qurbanların qəbul olunmasını diləyirik. İnanırıq ki, kəsdiyiniz hər bir qurbanda, etdiyiniz duada bizi nəzərə almısınız, həmişə bizə –

Azərbaycan xalqına xoş gün-güzəran, əmin-amanlıq arzu etmisiniz.

Bu gün açılışına toplaşdığımız bu tədbirin əhəmiyyətini sözlə ifadə etmək çətindir. Suyun insan həyatı üçün nə dərəcədə əhəmiyyətli olduğunu hər kəs bilir. Su, yol çəkmək həmişə savab iş olub. Çox sevindirici haldır ki, bu gün rayonumuzda həm yeni su xətti, həm də yeni yol çəkilibdir.

Möhtərəm Prezident, bu müqəddəs gündə belə savab işlərə görə cəlilabadlıların Sizə etdiyi dualar həmişə köməyiniz olsun. Biz cəlilabadlılar uzun zaman idi içməli su sarıdan çox əziyyət çəkirdik. Hərə bir yolla, müxtəlif çətinliklərlə evinə su gətirirdi. Biz bu gün Allaha çox şükür edir, Sizə dərin təşəkkürümüzü bildiririk ki, məhz Sizin tapşırığınızla bu problem öz həllini tapdı. İcazə verin, gördüyünüz savab işə görə bu müqəddəs gündə Sizə bütün cəlilabadlılar adından dərin minnətdarlığımı bildirim, «Çox sağ olun!» – deyim. Su həyatdır, su aydınlıqdır, su şəffaflıqdır. Yolunuz həmişə aydın, işıqlı, şəffaf olsun, cənab Prezident! Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Cəlilabad şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

## Telekommunikasiya Qovşağının əsaslı şəkildə yenidən qurulan inzibati və texnoloji binasında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Cəlilabad Telekommunikasiya Qovşağının əsaslı şəkildə yenidən qurulan inzibati və texnoloji binasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Son illər ölkəmizdə bütün sahələrdə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sektorunda da mühüm uğurlar əldə edilib. Dövlət başçısının bu sahənin inkişafı ilə bağlı qəbul etdiyi qərarlar, imzaladığı sənədlər və verdiyi tapşırıqlar İKT sektorunun müasir tələblər səviyyəsinə çatmasına hərtərəfli zəmin yaradıb. Bu inkişaf özünü telekommunikasiya qovşaqları binalarının əsaslı şəkildə yenidən qurulmasında, ən müasir avadanlıqlarla təchiz olunmasında da aydın büruzə verir. Cəlilabadda Telekommunikasiya Qovşağının inzibati və texnoloji binasının əsaslı şəkildə yenidən qurulması bu işlərin coğrafiyasının ölkənin hər yerini əhatə etdiyini göstərir. Son dövrlərdə bu sahədə bir sıra mühüm layihələr icra olunub ki, bunlar da ilk növbədə, əhaliyə yüksək səviyyədə İKT xidmətləri göstərmək üçün hərtərəfli şərait yaradıb. Bu baxımdan «Şəbəkə» xidmət mərkəzlərinin də böyük rolu vardır. «Şəbəkə» müxtəlif xidmətlərin vahid məkanda cəmlənməsinə şərait yaradıb. Bu isə ilk növbədə, vətəndaşların vaxt itkisini aradan qaldırmağa, onların vahid məkanda bir neçə əməliyyatı yerinə yetirməsinə geniş imkan verir. Bundan başqa, bu xidmət həm də nağdsız ödənişlər üçün əlverişli zəmin yaradır. Bir sözlə, prezident İlham Əliyevin rəhbərliyi ilə İKT sektorunun inkişafı prioritet sahələrdən biri kimi qəbul edilib və bu istiqamətdə olduqca əhəmiyyətli addımlar atılıbdır.*

*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Cəlilabad Telekommunikasiya Qovşağının inzibati və texnoloji binasında görülən işlər barədə dövlət başçısına məlumat verdi. Sahəsi 1700 kvadratmetrdən çox olan dördmər-*

*təbəli bina əsaslı təmir-tikinti işləri aparılaraq, yenidən qurulub. Qovşağın ətrafında geniş abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıbdır.*

*Qovşağın birinci mərtəbəsində «Şəbəkə» xidmət mərkəzi yaradılıb. Nazirliyin qurumları tərəfindən vətəndaşlara göstərilən bütün poçt və telekommunikasiya xidmətləri artıq bir məkanda təqdim ediləcəkdir. «Şəbəkə» xidmət mərkəzində poçt xidmətləri, bütün növ ödənişlər, telefon çəkilişləri, internetə qoşulma, IMEI qeydiyyat, «Elektron hökumət», «Elektron imza», valyuta mübadiləsi, poçtamt xidməti, aviabiletlərin və turpaketlərin satışı və digər bir çox xidmətlər təqdim olunacaqdır. Sahəsi 450 kvadratmetr olan mərkəz əsaslı təmir edilib. Ən son texnoloji tələblərə uyğun avadanlıqlarla təchiz olunan mərkəzdə müasir çeşidləmə otağı yaradılıbdır.*

*Dövlət başçısına mərkəzdəki «Elektron hökumət» ödəmə sistemi barədə də məlumat verildi. Qeyd olundu ki, bu sistem vasitəsilə hazırda kommunal xərclər və digər ödənişlər mümkündür. Mərkəzdəki «Elektron imza» və «Elektron hökumət» portalı ilə bağlı həyata keçirilən yeniliklər barədə də ətraflı məlumat verildi. Diqqətə çatdırıldı ki, vətəndaşlar mərkəzdən aviabiletlər əldə edə bilərlər. Burada müvafiq təlimlər keçmiş işçilər həftənin 7 günü saat 09:00-dan 20:00-dək vətəndaşlara xidmət göstərəcəklər. Mərkəzdə könüllülər də fəaliyyət göstərirlər. Gələcəkdə onların bu müəssisədə çalışmaları nəzərdə tutulubdur.*

*Qovşağın inzibati binasının foyesində ulu öndər Heydər Əliyevin siyasi fəaliyyəti, həmçinin prezident İlham Əliyevin İKT sahəsinə göstərdiyi diqqət və qayğını əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Qovşaqda fəaliyyət göstərəcək «Elektron hökumət» Təlim-Tədris Mərkəzi də yenidən qurulub və müasir avadanlıqlarla təchiz edilib. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan «Elektron hökumət» Təlim-Tədris Mərkəzi əhalinin, dövlət qulluqçularının və dövlət müəssisələrində çalışan işçilərin informasiya*

*texnologiyalarından istifadə sahəsində hazırlıq səviyyələrinin artırılması və elektron idarəçilik üzrə bacarıqlarının inkişaf etdirilməsi məqsədilə yaradılıbdır. Ölkə üzrə 15 regionda 17 mərkəz fəaliyyət göstərir. Onlayn təhsil portalı vasitəsilə bütün regional mərkəzlər üçün real vaxt rejimində distant təlimlər keçirilir.*

*Prezident İlham Əliyevə respublika üzrə telekommunikasiya qovşaqlarında quraşdırılacaq yeni nəsil avadanlıqlar barədə də məlumat verildi.*

*Bildirildi ki, telekommunikasiya qovşaqlarının bu avadanlıqlarla təchiz edilməsi nəticəsində xidməti ən müasir səviyyəyə çatdırmaq mümkün olacaqdır. Azərbaycan Prezidentinin tapşırığına əsasən, regionlarda mövcud telekommunikasiya infrastrukturunun yenilənməsi və inkişafı istiqamətində layihələrə start verilib. Prezident İlham Əliyev tərəfindən təsdiq olunan Dövlət Proqramına uyğun olaraq, ölkə əhalisinin genişzolaqlı internetə çıxışının daha da yaxşılaşdırılması üçün aparılan işlər bütün regionları əhatə edəcəkdir.*

## Əsaslı təmir olunan Cəlilabad–Astanlı–Cəngan–Soltankənd avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də əsaslı təmir olunan Cəlilabad–Astanlı–Cəngan–Soltankənd avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son dövrlərdə ölkədə həyata keçirilən sosial-iqtisadi tədbirlər çərçivəsində yeni magistral yollar salınır və mövcud yollar müasir səviyyədə yenidən qurulur. Respublika əhəmiyyətli yollarla bərabər, kənd və qəsəbələrarası yolların təmirinə və yenidən qurulmasına göstərilən diqqət ölkədə ilk növbədə, sosial layihələrin ardıcıl xarakter aldığını aydın nümayiş etdirir. Belə layihələrdən biri də Cəlilabad–Astanlı–Cəngan–Soltankənd avtomobil yolunun əsaslı təmiri və yenidən qurulmasıdır.*

*Bu avtomobil yolu 2017-ci ildə ölkədə icra ediləcək «40 yol layihəsi» çərçivəsində «Azəravtoyol» Açıq Səhmdar Cəmiyyəti tərəfindən müasir səviyyədə yüksək keyfiyyətlə və texnoloji ardıcıllıqla təmir olunubdur.*

*Dövlət başçısına məlumat verildi ki, 20 min nəfər əhalinin yaşadığı 23 kəndi birləşdirən bu yolun ümumi uzunluğu 21,2 kilometrdir. 4-cü texniki dərəcəyə uyğun yolun eni 6 metrdir. 2 hərəkət zolaqlı avtomobil yolunun təmiri və yenidən qurulması zamanı müxtəlif diametrli suötürücü borular quraşdırılıb, müxtəlif yol nişanları və göstərici lövhələr qoyulubdur. Bu layihənin icrası yolboyu yerləşən yaşayış məntəqələri sakinlərinin sosial məsələlərinin həllinə, avtonəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinə, həmçinin yük və sərnişindaşımanın xeyli yaxşılaşmasına töhfə verəcəkdir.*

*Prezident İlham Əliyev Cəlilabad–Astanlı–Cəngan–Soltankənd avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

## «Avanqard» MMC-nin dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsinin istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Cəlilabadda «Avanqard» Məhdud Məsuliyyətli Cəmiyyətin dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına məlumat verildi ki, bu emal kompleksinin ümumi ərazisi 5 hektardır. Kompleksin tərkibinə taxıl anbarı, dəyirman, Paxlalı Bitkilər və Un Məmulatlarının Qablaşdırılması zavodu daxildir.*

*Bu zavodda paxlalı bitkilərin, o cümlədən noxud, lobya, mərci və digərlərinin çeşidlənməsi və qablaşdırılması üçün müasir avadanlıqlar quraşdırılıb. Gücü saatda 5 ton olan zavod məhsulun keyfiyyətli olması üçün bütün zəruri avadanlıqlarla təc-*

*hiz edilib. Emal kompleksində müasir tələblərə cavab verən taxıl anbarı və dəyirmanda Azərbaycan və Türkiyə, Paxlalı Bitkilər və Un Məmulatlarının Qablaşdırılması zavodunda isə Türkiyə istehsalı olan avadanlıqlar quraşdırılıbdır.*

*Prezident İlham Əliyevə Cəlilabadda istehsal olunan paxlalı bitkilər haqqında məlumat verildi. Bildirildi ki, bu il 0,7 min hektar sahədə mərci, 4,5 min hektar sahədə noxud, 4,5 min hektar sahədə lobya və 120 hektar sahədə qarabaşaq yetişdirilib. Ümumilikdə 1,1 min ton mərci, 8,1 min ton noxud, 11,2 min ton lobya, 240 ton qarabaşaq istehsal olunubdur.*

*Dövlət başçısı müəssisəni işə saldı.*

*Müəssisənin 100 faiz yerli xammal bazası əsasında fəaliyyət göstərməsi nəzərdə tutulub. Bu məqsədlə regionda fəaliyyət göstərən fermerlərlə müvafiq müqavilələr bağlanılıb və onlarla emal kompleksinin tələbatına uyğun olaraq məhsul istehsal etmələri istiqamətində təşviqat işləri aparılıbdır. Bu layihə emal müəssisəsinin fəaliyyəti zamanı idxaldan asılılığı azaltmaqla yanaşı, yerli fermerlərə stimul verir, onları məhsul istehsalının həcmini daha da artırmağa sövq edir.*

*Qeyd edildi ki, taxıl anbarının tutumu 10 min ton, müasir dəyirman kompleksinin emal gücü isə saatda 30 tondur. Ümumi dəyəri 5,3 milyon manat olan taxıl anbarı və dəyirman kompleksinin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1 milyon manat məbləğində güzəştli kredit, həmçinin dəyəri 850 min manat olan çeşidləmə və qablaşdırma avadanlıqları üçün investisiya təşviqi sənədi verilib, xammal və hazır məhsulların daşınması üçün iritutumlu 5 nəqliyyat vasitəsi alınıbdır.*

*Layihənin tam icrası nəticəsində 80-dək daimi yeni iş yeri yaradılacaqdır. Ölkədə belə müəssisələrin yaradılması idxaldan asılılığın aradan qaldırılması və ixracyönümlü məhsulların çeşidinin artırılmasında da mühüm rol oynayır.*

## «Günəşli-Aqro» MMC-nin aqroparkında

## yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də «Günəşli-Aqro» Məhdud Məsuliyyətli Cəmiyyətin aqroparkında yaradılan şəraitlə tanış olmuşdur.*

*Cəlilabadın Günəşli kəndində müasir tələblərə cavab verən aqroparkın yaradılması bir neçə vacib məqamı özündə birləşdirir. İlk növbədə, belə layihələrin həyata keçirilməsi kənd təsərrüfatının vacib sahələrindən olan heyvandarlığın inkişafına təkan verir, bu sahədə elmi yeniliklərin tətbiqinə şərait yaradır. Bundan başqa, belə aqroparklar ərzaq təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Ən əsası isə belə müəssisələrin fəaliyyətə başlaması rayonun iqtisadi imkanlarını artırmaqla, yeni iş yerlərinin yaranmasına səbəb olur. Eyni zamanda, həm də regionların özünü maliyyələşdirməsi, mövcud iqtisadi potensialdan daha səmərəli istifadə, idxalı əvəzləyən və ixracyönümlü istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması istiqamətində prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin tərkib hissəsi kimi xarakterizə edilir.*

*Dövlət başçısına məlumat verildi ki, aqroparkın sahəsi 1600 hektardır. Onun 1200 hektarında müasir suvarma – pivot sistemləri quraşdırılıb. Ümumi dəyəri 12,7 milyon manat olan bu sistemin qurulmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 4 milyon manat güzəştli kredit verilib. Aqroparkın torpaqlarının 563 hektarında arpa, 530 hektarında şəkər çuğunduru, 219 hektarında buğda, 160 hektarında pambıq, 68 hektarında qarğıdalı, 60 hektarında isə yonca əkilib. Əkilmiş sahələrdən 1745 ton arpa, 610 ton buğda, 1278 ton qarğıdalı, 20 min ədəd yonca və 30 min ədəd saman bağlaması götürülüb. 2018-ci ildə 173 hektarda pambıq, 240 hektarda buğda, 507 hektarda arpa, 80 hektarda qarğıdalı, 530 hektarda şəkər çuğunduru və 70 hektarda yonca əkilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyevə İqtisadiyyat Nazirliyinin təklifləri əsasında regionlarda yaradılan və yaradılacaq aqroparklar barədə də məlumat verildi.*

*Hazırda respublikada 26 rayon üzrə 157,8 min hektar ərazidə 37 aqroparkın yaradılması təşviq olunur. Bundan 23-ü iri bitkiçilik təsərrüfatı, 14-ü isə heyvandarlıq kompleksidir. Bu aqroparklarda 10 min yeni iş yerinin açılması nəzərdə tutulur. 10 aqropark üzrə dəyəri 390 milyon manat olan 13 layihəyə investisiya təşviqi sənədi verilib. İndiyədək 10 min hektar ərazidə 2 aqropark yaradılıb. Bunlar Xaçmaz rayonunda «Yalama Aqropark»ı və Şəmkir rayonunda «Şəmkir Aqropark»ıdır. Hazırda Hacıqabul, Goranboy, Samux, Ağcabədi, Qax, Salyan, Kürdəmir, Şamaxı, Saatlı, Cəlilabad, Füzuli və İsmayıllı rayonlarında 58 min hektar ərazidə 12 aqroparkın yaradılmasına başlanılıb. Aqroparklar tam fəaliyyətə başladıqdan sonra il ərzində təxminən 500 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal olunacaqdır.*

*Sonra dövlət başçısı «Günəşli-Aqro» MMC-nin aqroparkı ilə yaxından tanış oldu. İlkin mərhələdə burada 500 baş südlük istiqamətli heyvandarlıq kompleksi üzrə 2 ferma binası və talvarlar, yardımçı binalar tikilib və sağım sistemi quraşdırılıb. Gələcəkdə aqroparkda 2500 baş ətlik istiqamətli heyvan saxlanılması nəzərdə tutulur. Bununla da kompleksin tutumu 3000 başa çatdırılacaqdır. Təsərrüfata ilkin mərhələdə «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 232 baş cins inək gətirilib. Bundan başqa, aqropark üçün kənd təsərrüfatı texnikaları, o cümlədən Türkiyədən hər birindən 2 ədəd olmaqla, kombayn, qarğıdalıbiçən, silosdoğrayan, otbiçən, otbağlayan, gübrədaşıyan, otdoğrayan maşın, süd tankeri və taxılsəpən qoşqu, «Belarus» markalı 3 traktor, 3 qoşqu və 3 kotan alınıb, 40 ədəd elektron, 20 ədəd mexaniki sağım aparatı quraşdırılıbdır.*

*Aqroparka dəyəri 4,1 milyon manat olan heyvandarlıq kompleksi üçün investisiya təşviqi sənədi də verilib. Gələcəkdə aqroparkda dəyəri 5 milyon manat, gündəlik emal gücü 20 ton olan Süd zavodunun və dəyəri 1,5 milyon manat, illik gücü 1000 ton ət kəsimi*

*olan fabrikin yaradılması nəzərdə tutulur. Layihələrin icrası nəticəsində 350-dək yeni iş yeri yaradılacaqdır.*

*Belə aqroparkların yaradılması bir daha sübut edir ki, prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aqrar sahənin inkişafı istiqamətində görülən işlər, dövlət başçısının bu sahənin təkmilləşdirilməsi və müasirləşdirilməsi üçün qəbul etdiyi qərarlar artıq öz bəhrəsini verir.*

## LƏNKƏRAN RAYONUNA SƏFƏR

*2 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Lənkəran rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Lənkəran şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov prezident İlham Əliyevə abidənin ətrafında, eləcə də rayonda görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

### «Yaşıl Çay» MMC-nin plantasiyasında görülən işlərlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Lənkəranda fermer Araz Yaqubovun «Yaşıl Çay» MMC-nin plantasiyasında görülən işlərlə tanış olmuşdur.*

*Dövlət başçısına plantasiya barədə ətraflı məlumat verildi. Bildirildi ki, sovetlər dönəmində Lənkəranın İstisu qəsəbəsində böyük çay təsərrüfatı mövcud olub. Lakin durğunluq illərində həmin plantasiyalar sıradan çıxıb. Hazırda prezident İlham Əliyevin böyük diqqət ayırdığı aqrar sahə, o cümlədən çayçılıq yenidən inkişaf dövrünü yaşayır. «Yaşıl Çay» MMC də yaradılan bu şəraitdən səmərəli istifadə edir. Fermer təsərrüfatının 150 hektara yaxın torpaq sahəsi vardır. 2011-ci ildən başlayaraq, burada yüksək məhsuldarlığı ilə seçilən «Kolxida» sortundan ibarət çay plantasiyaları salınıb. 2015-ci ildə – ölkədə elan edilən «Kənd təsərrüfatı ili»ndə ilk dəfə seçmə üsulu ilə yığım aparan «Yaşıl Çay» fermer təsərrüfatının sahələrindən bu il daha bol məhsul gözlənilir. Təsərrüfatın ümumi*

*çay əkini sahəsi 61 hektardır. Gələcəkdə isə çay sahələrinin ümumi sahəsi 100 hektara çatdırılacaqdır. Sahələrin Hollandiyadan dəvət olunan mütəxəssislər tərəfindən qurulmuş suvarma şəbəkəsi vasitəsilə çiləmə üsulundan istifadə etməklə suvarılması həyata keçirilir. Təsərrüfatda xaricdən gətirilən ən müasir texnika və avadanlıqdan istifadə olunur. Plantasiyalara qulluq zamanı kimyəvi vasitələrdən istifadə edilmir. Mineral gübrələr əvəzinə üzvi gübrələrdən daha çox istifadə olunur. Bunun nəticəsində burada yetişdirilən çay yarpağı ekoloji cəhətdən tam təmiz olur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, yığılan yaşıl çay yarpağı müəssisənin nəzdindəki istehsal sahəsində emal edilir və qablaşdırılır. Burada yüksəkkeyfiyyətli «Lənkəran çayı» brendi altında müxtəlif çeşiddə çaylar istehsal edilir.*

*Dövlət başçısı «Yaşıl Çay» MMC-nin tut tingləri əkilən sahəsinə də baxdı. Bildirildi ki, hazırda ölkəmizdə baramaçılığın yem bazasının formalaşdırılması, tut tinglərinin əkilib-becərilməsi, barama toxumçuluğunun təşkili və digər istiqamətlər üzrə müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilir. Baramaçılığın inkişaf etdirilməsi üçün intensiv tipli yeni tut bağlarının salınması məqsədilə Çindən ölkəmizə gətirilən tinglərin 40 mini bölgü əsasında Lənkəran rayonuna göndərilib. Həmin tinglərin 12 mini rayonun «Yaşıl Çay» fermer təsərrüfatına verilib. Qısa müddətdə təsərrüfatın işçiləri tut tinglərini aqrotexniki qaydada hazırlanan torpaqlarda əkiblər. Bununla da təsərrüfatda yeni bir sahənin – baramaçılığın yem bazasının əsası qoyulubdur.*

*Sonra prezident İlham Əliyev fermer təsərrüfatının işçiləri ilə görüşdü.*

**İ ş ç i l ə r:** Xoş gəlmisiniz, cənab Prezident!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Necəsiniz?

**İ ş ç i l ə r:** Çox sağ olun, yaxşıyıq. Bayramınızı təbrik edirik, cənab Prezident. Qədəmləriniz uğurlu olsun!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən də sizi təbrik edirəm, bayramınız mübarək!

**İ ş ç i l ə r:** Bizim üçün bu şəraiti yaratdığınıza görə Sizə minnətdarlığımızı bildiririk.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Çox yaxşıdır ki, burada çayçılıq inkişaf edir. Lənkəran həmişə Azərbaycan çayçılığının mərkəzi olub. İndi də bu ənənəvi sahəni bərpa edirik. Çox şadam ki, bu sahə bərpa olunur. Sahələr artırılır və iş yerləri açılır, xüsusilə də qadınlar üçün. Çünki ənənəvi olaraq, Azərbaycanda çayçılıqla qadınlar məşğul olurlar. Necədir, işinizdən razısınız?

**İ ş ç i l ə r:** Bəli, cənab Prezident, razıyıq.

**İ l h a m Ə l i y e v:** Yaxşı maaş verilir?

**İ ş ç i l ə r:** Bəli, yaxşıdır.

**İ l h a m Ə l i y e v**: Çox yaxşı.

## «Astara Çay» MMC-nin plantasiyalarına baxış

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də «Astara Çay» Məhdud Məsuliyyətli Cəmiyyətin plantasiyalarına baxmışdır.*

*Azərbaycanda qeyri-neft sektorunun inkişafına göstərilən dövlət qayğısı, məhsul istehsalçılarına verilən subsidiyalar çayçılığın inkişafı üçün də geniş imkanlar yaradıb. Statistikaya görə, Azərbaycanda çay istehsalının 91 faizi Lənkəran iqtisadi rayonunun payına düşür. Bu sahənin daha da inkişaf etdirilməsi üçün «Azərbaycan Respublikasında 2017–2026-cı illərdə çayçılığın inkişafına dair Dövlət Proqramı»nın layihəsi işlənib hazırlanır. Proqramın həyata keçirilməsi nəticəsində çayçılığın inkişaf etdirilməsi ilə bağlı görülən işlər sürətlənəcək, çay plantasiyalarının əkin sahəsi xeyli artacaqdır. Təkcə ötən il ölkə üzrə 1000 ton çay istehsal edilib, 12 hektar ərazidə yeni çay plantasiyaları salınıb. Bundan başqa, çayçılığın inkişafı ilə bağlı sahibkarlara dövlət tərəfindən güzəştli kreditlər də verilir. Belə ki, bu sahədə çalışan sahibkarlara ümumilikdə 10,7 milyon manat güzəştli kredit verilib, bunun da nəticəsində 450 nəfər işlə təmin olunubdur.*

*«Astara Çay» Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru Talət Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, respublika üzrə mövcud 1016 hektar çay sahəsinin 568 hektarı Lənkəran, 345 hektarı Astara, 60 hektarı Zaqatala və 43 hektarı Masallı rayonlarının ərazisindədir. Bu ilin iyul ayınadək mövcud çay sahələrindən 444,1 ton yaşıl çay yarpağı istehsal olunub və hazırda bu proses davam etdirilir. Lənkəran rayonu ərazisində 568 hektar çay sahəsinin 289 hektarı «Astara Çay» MMC-yə məxsusdur.*

*«Astara Çay» MMC 2010-cu ildə təsis edilib. Quru çay istehsalı üçün istifadə edilən xammal yalnız Azərbaycanın subtropik bölgəsi olan Astara və Lənkəran rayonlarındakı plantasiyalardan tədarük olunur. Bu plantasiyalarda əkilən «Kolxida» çay toxumları Gürcüstanın Batumi şəhərinin Çayçılıq Elmi-Tədqiqat İnstitutunun tədris-təcrübə sahəsindən alınıb. Toxumlar sınaqdan keçirilib, yerli şəraitə uyğunlaşdırılaraq əkilib. Ekoloji cəhətdən təmiz şəraitdə yetişdirilən çayın becərilməsi və emalı zamanı heç bir kimyəvi qatqıdan istifadə edilmir. 4 ildir ki, çay sahələrində Almaniyanın LACON şirkəti tərəfindən ekoloji müşahidələr aparılır. Astara rayonu ərazisində, həmçinin Koreya Respublikası şirkətinin layihəsi əsasında Çay fabriki inşa edilib. Ərazisi 5 hektar olan fabrikdə xaricdən gətirilən ən müasir avadanlıqlar quraşdırılıb. Fabrik gündə 10 ton yaşıl çay emal etmək gücünə malikdir. Burada çəkisi 100, 200 və 400 qram olan çay bükümləri hazırlanır. Fabrikdə dəqiqədə 8 çay bükümü istehsal edilir. Astara Çay fabriki 2016-cı ildə «İSO 9001» və «İSO 14001» sertifikatlarına layiq görülübdür.*

*Prezident İlham Əliyev «Astara Çay» MMC-nin işçiləri ilə söhbət etdi.*

**İ ş ç i l ə r:** Xoş gəlmisiniz, cənab Prezident! Sizin səfəriniz əlamətdar günə təsadüf edir. Sizi və ailə üzvlərinizi Qurban bayramı münasibətilə təbrik edirik. Sizə uzun ömür, cansağlığı arzulayırıq. Sizin sayənizdə sakit, firavan həyat yaşayırıq. Allah Sizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən də Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Şadam ki, siz burada işləyirsiniz. Oradakı fotoşəkillərdə bu sahənin əvvəlki görüntüləri əks olunub. Burada heç bir təsərrüfat yox idi, kol-kos idi. İndi gözəl çay plantasiyaları yaradılıb və siz də ənənəvi işlə təmin olunmusunuz. Çünki çayçılıq cənub zonası, xüsusilə Lənkəran üçün ənənəvi sahədir. Burada həm dövlət üçün, həm də özünüz üçün fəaliyyət göstərirsiniz. Həm çayçılıq inkişaf edir, həm də siz əməkhaqqı alırsınız. Çayçılıq çox gözəl, ekoloji cəhətdən təmiz işdir. İşləmək də o qədər çətin deyil.

**İ ş ç i l ə r:** Buna görə də Sizə minnətdarıq. Çox sağ olun. Allah Sizə cansağlığı versin.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Lənkəranda çayçılıq daha da inkişaf etdiriləcək, yeni sahələr salınacaq. Çayçılığın əvvəlki şöhrətini bərpa edəcəyik.

## «Cənub-Aqro» MMC-nin çəltik sahələrinə baxış və Çəltik zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Lənkəranda «Cənub-Aqro» MMC-nin çəltik sahələrinə baxmış və Çəltik zavodunun açılışında iştirak etmişdir.*

*Son illərdə cənub bölgəsində, o cümlədən Lənkəran rayonunda ənənəvi əkin sahəsi olan çəltikçiliyin inkişafına diqqət daha da artırılıb. Lənkəran hələ qədimdən çəltikçiliyi ilə məşhurdur. Ətirli Lənkəran düyüsü yüzilliklər ərzində yerli əhalinin ən qiymətli ərzaq məhsulu olub. «Sədri», «Ənbərbu», «Haşimi», «Həsəni», «Akulə» və digər çəltik növündən olan düyü məhsulları öz ətri, dadı və bərəkəti ilə seçilib. İndi ölkədə aqrar sahəyə göstərilən dövlət dəstəyi Lənkəranda da uzun müddət tənəzzül dövrünü yaşayan çəltikçiliyin inkişafı üçün geniş imkanlar yaradıbdır.*

*Dövlət başçısına məlumat verildi ki, bu il «Cənub-Aqro» MMC tərəfindən ümumilikdə 100 hektar sahədə çəltik əkilib ki,*

*bunun da 35 hektarı Girdəni, 65 hektarı isə Siyavar kəndləri ərazisindədir. Gələn il isə müəssisə tərəfindən əlavə 127 hektar sahədə çəltik əkilməsi nəzərdə tutulur.*

*Azərbaycan Prezidentinə çəltik əkininin aparıldığı son texnologiya barədə məlumat verildi. Bildirildi ki, hazırda «Cənub-Aqro» MMC-nin sahələrindəki çəltik əkinində ən müasir texnoloji üsullardan və avadanlıqlardan istifadə olunur. Əvvəllər əl əməyindən istifadə edilərək, gündə 0,5 hektara yaxın sahədə çəltik əkilirdisə, hazırda yeni texnikalar vasitəsilə gün ərzində 2 hektar sahədə çəltik əkmək mümkündür. Texnika ilə əkilən sahələrdən yüksək məhsul əldə olunur və bu üsul təsərrüfat sahibləri üçün iqtisadi baxımdan səmərəlidir. Qeyd edildi ki, rayonda çəltikçilik əsasən Girdəni, Veravul, Ürgə, Siyavar, Hirkan, Xolmili, Şıxəkaran, Mamusta, Separadi və digər kəndlərdə inkişaf etdirilir. Bu da çəltikçiliyin gəlirli sahə olması ilə bağlıdır. Belə ki, hər hektardan 50–60 sentner məhsul götürülür və maya dəyərindən 10–15 dəfə bahasına satılır. Ekoloji cəhətdən təmiz və keyfiyyətli olduğu üçün bazarda yerli düyüyə tələbat da böyükdür. Yerli düyüyə tələbatın artması, qiymətlərin digər kənd təsərrüfatı məhsullarına nisbətən yüksək olması, eləcə də dövlətin fermerlərə dəstəyi və ölkəyə çəltik əkini üçün müasir texnikaların gətirilməsi bu sahənin Lənkəranda yenidən dirçəlməsinə səbəb olub. Çəltik əkini əsasən istifadəsiz qalan bələdiyyə və əhaliyə dövlət tərəfindən verilən pay torpaqlarında aparılır. Hazırda Lənkəranda 526,5 hektarda çəltik əkilib. Fermerlər tərəfindən çəltik əkini və yığımı, həmçinin becərmə və gübrə səpmək üçün xaricdə istehsal olunan yeni texnikalar gətirilibdir.*

*Sonra çəltik sahəsində ilk biçin həyata keçirildi.*

*Diqqətə çatdırıldı ki, Lənkəranda «Cənub-Aqro» MMC-nin Çəltik zavodunun inşası da mühüm əhəmiyyəti ilə seçilir. Regionda əhəmiyyətli layihələrdən olan bu müəssisə 1 hektar ərazidə tikilibdir.*

*Dövlət başçısı «Cənub-Aqro» MMC-nin Çəltik zavodunu işə saldı.*

*Məlumat verildi ki, zavodun tikintisinə 2016-cı ilin noyabrında başlanılıb və bu ilin avqustunda başa çatdırılıbdır.*

*Prezident İlham Əliyev müəssisədə istehsal prosesi ilə tanış oldu.*

*Bildirildi ki, zavodun aylıq emal gücü 300 ton, düyüqurutma gücü isə 900 tondur. Müəssisədə 15 nəfər daimi işlə təmin edilib. Gələcəkdə müəssisənin gücünün 2 dəfə artırılması və işçilərin sayının 60 nəfərə çatdırılması nəzərdə tutulub. Emal edilən düyünün daxili bazarda tələbata uyğun olaraq satışı üçün müxtəlif şirkətlərlə danışıqlar aparılıb və «Made in Azerbaijan» brendi ilə xarici bazarlara ixracı üçün sənədləşmə işləri davam etdirilir. Gələcəkdə müəssisənin ərazisində hazır məhsul anbarı, satış mərkəzi və əlavə istehsal sahəsinin yaradılması planlaşdırılır.*

*Qeyd olundu ki, çəltik Yer kürəsində əkin sahəsinə görə bütün bitkilər arasında 2-ci yeri tutur. Düyü dünya əhalisinin beşdə ikisini qidalandırır. Respublikamız çəltik əkinçiliyinə görə 3 zonaya bölünür. Birinci Lənkəran–Masallı, ikinci Şəki–Zaqatala, üçüncü isə Quba–Xaçmaz zonalarıdır.*

*Zavodda yaradılan şərait bir daha onu deməyə əsas verir ki, prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar ölkəmizin sosial-iqtisadi tərəqqisində, xüsusən də aqrar sektorun inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoyub. Azərbaycanda qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ötən dövr ərzində iqtisadiyyatın əsas sahələrindən biri kimi müəyyənləşdirilib və görülən məqsədyönlü tədbirlər nəticəsində bu sahənin inkişafı üçün əlverişli şərait yaradılıbdır.*

## «Xəzər Palace» hotel kompleksin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Lənkəranda «Xəzər Palace» hotel kompleksin açılışında iştirak etmişdir.*

*Lənkəranda inşası yeni başa çatan «Xəzər Palace» hotel kompleksi ölkəmizdə turizmin inkişafı istiqamətində həyata keçirilən əsaslı addımlardan biridir. Son illərdə bölgələrdə istifadəyə verilən müasir mehmanxana kompleksləri böyük əhəmiyyət kəsb edir. Belə komplekslərin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də ölkəyə gələn turistlərin sayının artmasına zəmin yaradır. Bu kompleks təkcə Lənkəran üçün deyil, bütün bölgə üçün əhəmiyyətli turizm obyektidir.*

*Dövlət başçısı «Xəzər Palace» hotel kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni turizm obyekti ilə tanışlıq zamanı Azərbaycan Prezidentinə məlumat verildi ki, hotel kompleksi 2 hektar sahədə inşa edilib. Hotelin beşmərtəbəli binasının tikintisinə 2015-ci ilin mayında başlanılıb və bu ilin avqustunda başa çatdırılıb. Müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi hotel kompleks müasir standartlar səviyyəsində inşa olunub. Binanın interyerinin tərtibatında orijinal mebel və aksesuarlardan istifadə edilib. 39 nömrədən ibarət hoteldə qonaqların rahat istirahəti üçün hər cür şərait yaradılıbdır.*

*Qeyd olundu ki, hoteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçib və onların əksəriyyətini yerli kadrlar təşkil edir. Əməkdaşlar hotelin istənilən xidmət sahəsində qonaqlara yüksək səviyyəli qulluğun göstərilməsi ilə bağlı xüsusi təlim kurslarına cəlb olunublar. Hotel kompleksdə müxtəlif tədbirlərin keçirilməsi üçün geniş imkanları olan konfrans zalı, müasir restoranlar da fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaqdır.*

*Dövlət başçısı hoteldəki nömrələrdə yaradılan şəraitlə maraqlandı. Müxtəlif kateqoriyalı bu nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Hoteldə uşaqların da*

*istirahətinin təşkili üçün lazımi şərait yaradılıb. Burada balacalar üçün müxtəlif əyləncə və idman sahələri qurulub. Hoteldə qonaqların vaxtlarını səmərəli keçirmələri üçün xüsusi idman zalları da vardır. Burada qonaqlara təqdim olunan xidmətlər çoxçeşidliliyi ilə fərqlənir. Müxtəlif trenajorlar, müasir idman avadanlığı və hovuzlar qonaqların istirahət imkanlarını daha da artırır.*

*«Xəzər Palace» hotel kompleksdə 100 nəfər üçün daimi iş yeri nəzərdə tutulur. Kompleksin ərazisi tam abadlaşdırılıb, yaşıllıq sahəsi salınıb. Hotel kompleksin ərazisində, həmçinin 8 kottec qonaqların istifadəsinə verilibdir.*

## «Gilan Orchards» MMC tərəfindən salınmış sitrus bağlarına baxış

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Lənkəranda «Gilan Orchards» MMC tərəfindən salınmış sitrus bağlarına baxış keçirmişdir.*

*Ölkəmizdə uğurla həyata keçirilən aqrar islahatlar nəticəsində qeyri-neft sektorunda böyük çəkiyə malik olan kənd təsərrüfatının dinamik inkişafı üçün etibarlı zəmin yaradılıb. Bütövlükdə kənd təsərrüfatının inkişafına dövlət tərəfindən xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin 2015-ci ili Azərbaycanda «Kənd təsərrüfatı ili» elan etməsi də dövlətin aqrar sahəyə diqqətinin növbəti əyani göstəricisi idi. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin və institusional dəyişikliklərin müəyyənləşdirilməsi bu sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoyub. Əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması, aqrar sahədə ixrac potensialının artırılması məqsədilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları yaradılır. Aqrar sahənin inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Bu sahədə yeni sitrus bağlarının salınması xüsusi əhəmiyyətə malikdir. Bunun*

*nəticəsidir ki, hazırda Lənkəranda 680 hektarda «Hallabonq» növlü yeni sitrus bağları salınıbdır.*

*Rayonun Sütəmurdov kəndi ərazisində 15 hektar sahədə əkilən bu növ sitrus bağından ötən il 1,5 ton məhsul yığılıb. Bu il isə Sütəmurdov kəndi ərazisində əlavə 3, Siyavar kəndində isz 5 hektar sahədə yeni sitrus bağları salınıbdır.*

*Məlumat verildi ki, yeni sitrus təsərrüfatının ümumi sahəsi 100 hektardır. Hazırda ərazidə Koreya Respublikasından gətirilən 45 min «Hallabonq» sitrus meyvəsinin ağacları əkilibdir.*

*Dövlət başçısına yetişdiriləcək meyvələrin və onlardan hazırlanan məhsulların nümunələri təqdim olundu. Bildirildi ki, hazırda suvarma damcı üsulu ilə həyata keçirilir və çiləmə üsulundan da istifadə edilməsi nəzərdə tutulub. Becərilən «Hallabonq» sitrus bağlarında yüksək dad keyfiyyətlərinə və əmtəəlik xüsusiyyətlərə malik meyvələr istehsal olunacaq və məhsuldarlıq hektardan orta hesabla 35–45 ton təşkil edəcəkdir. Bu da yerli növlərdən 2-3 dəfə çoxdur. Tədarük olunacaq meyvələrdən təzə halda və sənayenin qida, qənnadı, kosmetik, ətriyyat və digər sahələrində, həmçinin şirə istehsalında və şərabçılıqda istifadə edilməsi planlaşdırılır. Rayonda fəaliyyət göstərən «Gilan Holding»in Lənkəran Konserv zavodunda daxili bazarda satış üçün meyvə şirəsi istehsal olunacaqdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 100 hektar sitrus təsərrüfatından ümumilikdə 4000 ton məhsul götürülməsi nəzərdə tutulub. Gələcəkdə təsərrüfatın 500 hektaradək genişləndirilməsi, o cümlədən dağətəyi ərazilərdə terras əkin sxemləri ilə sitrus sahələrinin yaradılması istiqamətində hazırlıq işləri aparılır.*

*Təsərrüfatda ümumilikdə 200 nəfər işlə təmin olunubdur.*

# LƏNKƏRANDA ÇAY, ÇƏLTİK VƏ SİTRUS MEYVƏLƏRİ İSTEHSALININ İNKİŞAFI MƏSƏLƏLƏRİNƏ DAİR RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ* İŞTİRAK

*3 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə sentyabrın 3-də Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilmişdir.*

*Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.*

## Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Biz bugünkü müşavirədə ölkəmizdə çay, çəltik, sitrus meyvələri istehsalının inkişafı məsələlərini müzakirə edəcəyik. Şadam ki, son vaxtlar ölkəmizdə bu sahələrə dövlətin dəstəyi hesabına diqqət artır. Bu çox sevindirici haldır. Ümumiyyətlə, kənd təsərrüfatının hər bir sahəsi bizim üçün çox önəmlidir və son illər ərzində bu sahəyə göstərilən diqqət öz nəticəsini verir.

Əlbəttə, ilk növbədə, biz ərzaq təhlükəsizliyi məsələlərini həll etməli idik və bu istiqamətdə çox önəmli addımlar atılıbdır. Bu-

---

* Lяnkяranda чay, чяltik vя sitrus meyvяlяri istehsalынын inkiшafы mяsяlяlяrinя dair respublika mцшavirяsində Lяnkяran Шяhяr Иcra Hakimiyyяtinin baшчысы Taleh Qaraşov, «Astara Чay» Mяhdud Mяsuliyyяtli Cяmiyyяtin direktoru Tələt Məmmədov, Masallы Rayon Иcra Hakimiyyяtinin baшчысы Rafil Hüseynov, «Cяnub-Aqro» Mяhdud Mяsuliyyяtli Cяmiyyяtin aqronomu Fərman Abdullayev, Aьdaш Rayon Иcra Hakimiyyяtinin baшчысы Tofiq İbrahimov, «Gilan Orchards» Mяhdud Mяsuliyyяtli Cяmiyyяtin direktoru Vaqif Süleymanov və Astara Rayon Иcra Hakimiyyяtinin baшчысы Qəzənfər Ağayev çıxış etdilər.

nunla bərabər, biz kənd təsərrüfatının bütün ənənəvi sahələrini inkişaf etdirməli idik. Əslində 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının da əsas məqsədi bundan ibarət idi ki, regionlar inkişaf etsin, regionlarda infrastruktur layihələri icra edilsin, sahibkarlıq üçün şərait yaradılsın və ölkə iqtisadiyyatı şaxələndirilmiş şəkildə inkişaf etsin. Bu gün tam əminliklə deyə bilərik ki, biz bu məqsədlərə çatmışıq. Çünki infrastruktur olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Ona görə 2004-cü ildə və ondan sonra 2009-cu və 2014-cü illərdə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çox konkret proqramlar idi. Proqramların icrası nəticəsində bütün bölgələrdə, hər bir rayonda çox sürətli inkişaf gedibdir və bu gün də bu inkişaf davam edir.

Bu illər ərzində biz iqtisadi inkişafımızın əsasını qoyduq. Çünki proqramın icrasına başlayarkən Azərbaycanda vaxtilə yaradılmış infrastruktur, demək olar ki, köhnəlmişdi. Biz özümüzü elektrik enerjisi ilə, qazla təmin edə bilmirdik, idxaldan asılı idik. Belə olan halda, sənayenin, kənd təsərrüfatının inkişafından söhbət gedə bilməzdi. Biz ilk növbədə, inkişaf üçün baza yaratdıq. Son illərdə 20-dən çox elektrik stansiyası tikilib. Biz indi elektrik enerjisi ilə nəinki özümüzü təmin edirik, xarici ölkələrə də ixrac edirik.

Azərbaycanda qazlaşdırılma çox aşağı səviyyədə idi. Xatırlayıram, 2000-ci ildə parlament seçkiləri ərəfəsində mən Lənkəran rayonuna gəlmişdim. O vaxt vətəndaşlarla görüş zamanı ən çox qaldırılan məsələ təbii qazın olmaması idi. Mən o günləri xatırlayıram. Ancaq bu gün Lənkəran rayonunun təxminən 90 faizi qazlaşdırılıb. Ölkə üzrə isə qazlaşdırılma 93 faizə çatıbdır. Növbəti illərdə bütün bölgələrdə qazlaşdırılma işləri davam etdiriləcəkdir. Biz təbii qazı ixrac etməyə başlamışıq və ölkəmizə çox lazım olan valyuta gəlir.

Biz son illər ərzində 11 min kilometrdən çox yol salmışıq və dünən də bir neçə yol layihəsinin açılışını etdik. Bu yollar bütün bölgələri bir-biri ilə bağlayır. Şəhərlərarası yollar, magistral yollar,

qonşu ölkələrlə əlaqə yaradan yollar, kənd yolları ilə bağlı işlər çox geniş vüsət alıbdır. Bu həm sosial layihələrdir, eyni zamanda, iqtisadi layihələrdir. Çünki fermerlər, sahibkarlar yaxşı bilirlər ki, yol olmadan inkişafdan söhbət belə, gedə bilməz. Çünki gözəl yol kənd təsərrüfatının da, turizmin də inkişafına çox böyük təkan verir. Bu gün biz bunu əyani şəkildə görürük. Bir sözlə, biz sürətli iqtisadi inkişaf üçün əvvəlki illərdə yenilənmiş, müasir infrastruktur yaratdıq ki, bundan sonra bunun əsasında uğurla inkişaf edə bilək.

Bununla paralel olaraq sosial infrastruktur məsələlərinə də böyük diqqət göstərilibdir. Əlbəttə, bunun da çox böyük mənası vardır. Çünki həmişə qeyd etdiyim kimi, bu gün də qeyd etmək istəyirəm ki, bütün işlərimizin, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı yaxşı yaşamalıdır və yaxşı yaşamaq üçün imkan olmalıdır. Ona görə də sosial məsələlərin həlli, xüsusilə təhsillə, səhiyyə ilə bağlı məsələlər həmişə bizim üçün prioritet olubdur. Son illərdə 3000-dən çox məktəb, 600-dən çox tibb mərkəzi yaradılıb və onlar bu gün insanlara xidmət göstərir. Eyni zamanda, bölgələrdə yaradılmış şərait böyük şəhərlərə miqrasiyanın da qarşısını alır. Biz artıq bunu da görürük ki, əvvəlki illərdə Bakıya bütün bölgələrdən müşahidə olunan miqrasiya indi azalıbdır, eyni zamanda, əks proses də başlayıbdır. İndi insanlar şəhərlərdən kəndlərə qayıdırlar. Çünki kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar yaradılıbdır.

Yenə də qeyd etmək istəyirəm, əgər vaxtilə biz infrastruktur layihələrinə böyük vəsait ayırmasaydıq, bu gün inkişaf o qədər də sürətli olmazdı. Biz son illərdə ölkəmizdə işsizliyin kəskin azalmasına nail olduq və Azərbaycan bu göstəriciyə görə dünya miqyasında qabaqcıl yerlərdədir. Azərbaycanda işsizlik təqribən 5 faiz səviyyəsindədir. Xüsusilə bu gün bu qədər ki, inkişaf var, kənd təsərrüfatına bu qədər vəsait qoyulur, son 2 il ərzində minlərlə ictimai iş yeri yaradılıbdır, işləmək istəyən özü

üçün iş tapar. Yaradılan 1 milyon 600 mindən çox iş yeri də bizim siyasətimizin əlamətidir, onun təzahürüdür.

Fermerlərin, sahibkarların işini yüngülləşdirmək üçün bir çox önəmli tədbirlər görülübdür. İlk növbədə, onlara maddi resurs verilməli idi. Biz də bunu edirik. Son illər ərzində sahibkarlara dövlət tərəfindən 2 milyard manatdan çox güzəştli kreditlər verilibdir və əlbəttə, sahibkarlar da öz vəsaitlərini qoyublar. Bu təşəbbüs nəticəsində ölkə iqtisadiyyatının real sektoruna ümumilikdə təqribən 4 milyard manat, bəlkə də ondan da çox vəsait qoyulubdur. Kreditlər əsasən regionlara, kənd təsərrüfatına, emal sənayesinə ayrılıbdır. Metodik tövsiyələr verilir. Mən sahibkarlarla mütəmadi olaraq görüşürəm, onlara öz dəstəyimi verirəm. Bilirsiniz ki, yoxlamaların da sayı kəskin şəkildə aşağı düşüb. Yəni biz şərait yaradırıq ki, sahibkarlar qurub-yaratsınlar, yeni iş yerləri, yeni sənaye sahələri yaratsınlar və Azərbaycanda istehsal, ixrac artsın, idxal azalsın. Biz bunu görürük. Bu ilin 7 ayında ticarət dövriyyəmizin müsbət saldosu əhəmiyyətli dərəcədə artıbdır. Yəni biz daha çox ixrac edirik, nəinki idxal. Biz 7 ay ərzində valyuta ehtiyatlarımızı böyük dərəcədə artıra bilmişik. Baxmayaraq ki, neftin qiyməti bu gün də çox aşağı səviyyədədir, biz 7 ayda valyuta ehtiyatlarımızı 3 milyard 600 milyon dollar səviyyəsində artırmışıq. Mən deyəndə ki, ölkə qarşısında heç bir maliyyə çətinliyi yoxdur, bu rəqəmlər bunun bariz nümunəsidir.

Bir sözlə, 2017-ci ildə də Azərbaycan uğurlu inkişaf dinamikasını saxlayır, onu möhkəmləndirir, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atır. Beləliklə, biz gələcək inkişaf üçün də gözəl şərait yaradırıq.

Kənd təsərrüfatının inkişafı isə bizim üçün prioritet sahədir. Hesab edirəm ki, Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstək heç bir başqa ölkədə yoxdur. İlk növbədə, əgər biz vergi siyasətinə nəzər salsaq görərik ki, ölkəmizdə fermerlər bütün vergilərdən azad olunublar, təkcə torpaq vergisindən başqa. Əlbəttə ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük

dəstəkdir. Dövlət xətti ilə ən müasir texnika alınır. Dünən təsərrüfatlarla tanış olarkən mən yeni texnikanı da gördüm. Bu texnikasız kənd təsərrüfatını inkişaf etdirmək, ümumiyyətlə, mümkün deyil. Bu il Azərbaycana 10 min ən müasir texnika gətirilib. Fermerlərə subsidiyalar verilir. Qeyd etdiyim kimi, güzəştli şərtlərlə kreditlər verilir. Yanacağın, gübrənin böyük hissəsi dövlət tərəfindən təmin edilir, metodik tövsiyələr verilir. Dövlət tərəfindən verilən tövsiyələr əsasında 40-a yaxın müasir aqropark yaradılır. Yəni sahibkarlara, fermerlərə dövlət tərəfindən bu qədər dəstək verilir və biz bunun nəticəsini görürük. Sahibkarlar da, fermerlər də bu işlərə məsuliyyətlə yanaşırlar, götürülmüş kreditlər vaxtında qaytarılır. Növbəti illərdə bütün sahələr üzrə konkret işlər görüləcəkdir.

Azərbaycan ictimaiyyəti bilir ki, son vaxtlar kənd təsərrüfatının müxtəlif sahələri üzrə dövlət proqramları qəbul edilibdir. Bu proqramlar çox konkret proqramlardır. Orada bütün tapşırıqlar verilib, maliyyə təminatı təşkil edilib. Biz bu proqramların icrası nəticəsində kənd təsərrüfatının da şaxələndirilməsinə nail olacağıq.

Ərzaq təhlükəsizliyi, əlbəttə ki, bizim üçün əsas məsələlərdən biridir. Son illər ərzində bu istiqamətdə çox önəmli addımlar atılıbdır. Bizim üçün ənənəvi olmayan sahələri inkişaf etdirmişik. Biz əvvəlki illərdə – sovet dövründə əti, südü, toyuq ətini Azərbaycana başqa respublikalardan gətirirdik. Bu gün bu sahələr üzrə çox böyük inkişaf vardır. Ət istehsalı təxminən 100 faiz səviyyəsində daxili imkanlar hesabına təmin edilir. Toyuq əti 100 faiz, hətta ixrac edirik. Süd isə 80 faiz daxildə istehsal olunur. Görüləcək tədbirlər nəticəsində biz 100 faiz səviyyəsinə çatacağıq.

Bizim üçün ənənəvi olan sahələr də bu gün uğurla inkişaf etdirilir. Biz pambıqçılığın şöhrətini bərpa etdik. 2 il ərzində çox böyük işlər görüldü. Pambıq sahələri 17 min hektardan 136 min hektara çatdırıldı. 2 müşavirə keçirildi – Sabirabadda və Saatlıda. Tütünçülük, fındıqçılıq, baramaçılıq sürətlə inkişaf edir. Qax ra-

yonunda müşavirə keçirildi və tütün sahələri 3200 hektara, fındıq bağlarının sahəsi 30 min hektardan 55 min hektara çatdırıldı, gələcəkdə 80 min hektara çatdırılacaqdır. Barama istehsalı isə indi ölkəmizin bütün bölgələrində geniş vüsət alıb. Dünən Lənkəranda tut tingləri sahəsinə də baxış keçirdim. Görürəm ki, Lənkəranda da bu sahəyə böyük maraq vardır. Baxmayaraq ki, sovet vaxtında baramaçılıq Lənkəranda və bu zonada inkişaf etdirilmirdi. Bu sahələrin inkişafı məşğulluğu artırır, idxaldan asılılığı azaldır, ixrac potensialımızı gücləndirir. Bizim məqsədimiz bundan ibarətdir.

Bugünkü müşavirədə isə bizim üçün ənənəvi olan çayçılıq və çəltikçilik sahələrinin inkişafı ilə bağlı məsələləri müzakirə edəcəyik. Azərbaycanda bu sahələrin böyük ənənələri vardır. Eyni zamanda, cənub zonasının ənənəvi kənd təsərrüfatı məhsulu sitrus meyvələridir. Son vaxtlar bu istiqamətdə də önəmli addımlar atılır. Əminəm ki, bugünkü müşavirədən sonra bu 3 önəmli sahənin inkişafına yeni təkan veriləcəkdir. Çünki dövlət artıq bu sahələrə öz dəstəyini çox ciddi şəkildə ortaya qoyur.

Onu da qeyd etməliyəm ki, bizim təcrübəmiz də bunu göstərir, dövlət dəstəyi olmadan kənd təsərrüfatı uğurla inkişaf edə bilməz. Çünki dövlət bütün lazımi tədbirləri görür, vəsait ayırır, infrastruktur yaradır, texnika ilə, gübrələrlə təmin edir, laboratoriyalar təşkil edilir. Bütün ölkə üzrə toxumçuluq, baytarlıq, aqrokimya laboratoriyaları təşkil olunub. Metodik tövsiyələr verilir. Eyni zamanda, bu yaxınlarda yaradılmış tədarük-təchizat qurumu da fermerlərə kömək göstərir, məhsulu onlardan alır. Bu 3 ənənəvi sahəyə çox böyük diqqət göstərilir və göstəriləcəkdir. Əminəm ki, müşavirənin nəticəsində biz bu sahələrdə daha da sürətli inkişafı görəcəyik.

## YEKUN NİTQİ

Çıxışlarda səsləndirilən fikirlər, təkliflər təhlil ediləcəkdir. Bu təkliflərin icra edilməsi gələcək fəaliyyətimiz üçün də əhəmiyyət daşıyır.

Bugünkü müşavirə bir daha onu göstərir ki, Azərbaycanda kənd təsərrüfatı prioritet sahə olaraq qalır və qalacaqdır. Qeyd etdiyim kimi, kənd təsərrüfatının şaxələndirilmiş şəkildə inkişaf etdirilməsi də qarşıda duran əsas vəzifələrdən biridir. Kənd təsərrüfatının bütün sahələri bizim üçün əhəmiyyətlidir. Biz ölkəmiz üçün ənənəvi olan sahələri dirçəldirik, bərpa edirik, yeni sahələr yaradılır. Bir sözlə, Azərbaycanda ərzaq təhlükəsizliyi və idxaldan asılılığın azaldılması məsələləri diqqət mərkəzindədir. Son illərdə bu istiqamətdə çox böyük nəticələr əldə edilibdir. Bunu həm statistik göstəricilər, həm də real həyat göstərir. Son vaxtlar bütün bölgələrdə kənd təsərrüfatına göstərilən diqqət və dövlət tərəfindən aparılan siyasət artıq gözəl nəticələrini verir. Qarşıya vəzifə qoyulur ki, ənənəvi olan sahələrin bərpası, dirçəldilməsi prosesi növbəti illərdə daha da sürətlə getsin və biz tezliklə bu ənənəvi sahələri bərpa edə bilək. Bu gün müzakirə mövzusu olan ənənəvi sahələrin bərpası artıq böyük bir canlanmaya gətirib çıxarıb. Bu siyasət fermerlər tərəfindən bəyənilir. Artıq yüzlərlə, minlərlə yeni iş yeri yaradılır. Vaxtilə baxımsız olan, istifadəsiz qalan torpaqlarda indi çəltikçilik, çayçılıq inkişaf etdirilir, insanlar işə cəlb olunurlar. Beləliklə, biz kənd təsərrüfatının bütün sahələrini inkişaf etdirərək, bir neçə məqsədə çatmış oluruq. Ölkəmizin iqtisadi potensialı artır, idxaldan asılılıq azalır, yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılır və Azərbaycan dünya bazarlarına öz keyfiyyətli məhsulunu təqdim edir.

Onu da qeyd etməliyəm ki, Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsulları çox keyfiyyətlidir, təbiidir, orqanikdir. Əlbəttə, xarici bazarlarda da bizim məhsullarımıza böyük maraq vardır. Biz öz məhsullarımızı xarici bazarlara daha da böyük həcmdə təqdim etmək üçün indi müxtəlif tədbirlər görürük. Azərbaycanın ticarət evləri yaradılır. Artıq birinci belə Ticarət evi yaradılıb, növbəti evlərin yaradılması prosesi gedir. Müxtəlif ölkələrə ticarət missiyaları göndərilir. Mən də xarici səfərlərimdə və həmkarlarımı Azərbaycanda qəbul edərkən bu

məsələləri daim qaldırıram ki, Azərbaycan məhsulları müvafiq ölkələrə ixrac edilsin.

O ki qaldı bu gün müzakirə etdiyimiz sahələrdən biri olan çayçılığa, hamımız yaxşı bilirik ki, Azərbaycanda çayçılığın çox böyük ənənələri vardır. Lənkəranda birinci Çay fabriki keçən əsrin 30-cu illərində yaradılmışdır. Çayçılığın sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1970-ci ildə 8000 hektarda çay əkilirdisə, 1982-ci ildə təxminən 12000 hektarda çay əkilmişdi və çayın istehsalı 26000 tona çatmışdı. Burada da qeyd olundu, müəyyən səbəblər üzündən fermerlər, kəndlilər tərəfindən çayçılığa maraq azaldı, dövlət də öz dəstəyini göstərə bilmədi. Ona görə biz, demək olar ki, çayçılığı itirmək ərəfəsində idik. Son illər ərzində bu sahəyə göstərilən xüsusi diqqət hesabına biz çayçılığı bərpa edirik və edəcəyik.

Hələ ki, 1000 hektarda çay plantasiyaları əkilib. Bu, əlbəttə ki, əvvəlki dövrlə müqayisədə çox aşağıdır. Ancaq biz çay plantasiyalarını tədricən bərpa edəcəyik. Əsas vəzifələrdən biri də məhz bundan ibarətdir ki, yeni çay plantasiyaları salınmalıdır. Dövlət öz dəstəyini göstərməlidir, yerli icra orqanları fermerlərə dəstək verməlidir. Bu sahələr müəyyən edilməlidir. Çünki cənub zonasında boş qalan o qədər də böyük torpaq sahələrimiz yoxdur. Ona görə biz istifadəsiz qalan torpaq sahələrində, çayçılıq üçün münbit olan torpaqlarda plantasiyalar salmalıyıq. Çayçılığın inkişaf etdiyi dünyanın aparıcı ölkələrinin təcrübəsi də öyrənilməlidir. O ölkələrdə həm məhsuldarlıq çox yüksəkdir, eyni zamanda, onlar torpağın hər qarışından istifadə edirlər. Dağətəyi ərazilərdə, yamaclarda terras şəklində çay plantasiyaları salınır. Bu, sitrus meyvələrinin istehsalına da aiddir. Biz sitrusçuluğu da dağətəyi ərazilərdə, o cümlədən bu ərazilərdə inkişaf etdirməliyik. Müvafiq dövlət qurumları burada yeni çay plantasiyalarının salınması ilə bağlı təkliflərini tezliklə verməlidir. Əlbəttə, bu plantasiyaların su təminatı da təşkil edilməlidir. Davamlı su təminatı olmalıdır. Dünyanın ən qabaqcıl texnologiyaları tətbiq edilməlidir. Dünən

çayçılıq təsərrüfatında olarkən mənə məruzə edildi ki, biz ən qabaqcıl texnologiyaları tətbiq etsək, məhsuldarlığı bir neçə dəfə artıra bilərik. Bu onu deməyə əsas verir ki, biz hətta məhdud olan torpaq sahələrində keyfiyyətli və böyük həcmdə çay istehsalına nail ola bilərik.

Çayçılıq intensiv şəkildə inkişaf etdirilməlidir. Ötən əsrin 80-ci illərindən fərqli olaraq, bu gün bu sahə üzrə kənd təsərrüfatı elmi inkişaf edib. Qeyd etməliyəm ki, dünyanın ən qabaqcıl texnologiyaları Azərbaycanda tətbiq olunmalıdır. Astara rayonuna keçən səfərimdə «Astara Çay» müəssisəsində olmuşam. Bu dəfə də həmin müəssisənin plantasiyalarında olarkən məruzə edildi ki, onlar məhz bu yanaşmanı, ən müasir texnologiyaları tətbiq edirlər.

İri çayçılıq və tingçilik təsərrüfatı yaradılmalıdır. Əlbəttə ki, xüsusi texnika gətirilməlidir. İndi bu texnika var, gətirilir. Kənd Təsərrüfatı Nazirliyi növbəti illərdə xüsusilə çayçılıq, çəltikçilik, sitrusçuluq üçün xüsusi texnikanın alınmasını təmin etməlidir. Mən giriş sözümdə qeyd etdim ki, 10 min texnika gətirilib. Bu texnika daha çox pambıqçılığın inkişafına xidmət göstərəcəkdir. Biz bunun hesabına pambığın əkin sahələrini təxminən 10 dəfə artırmışıq. Bu sahələr üçün də xüsusi texnika gətirilməlidir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara güzəştli şərtlərlə kreditlər verilməlidir ki, bu işlər daha da sürətlə aparılsın.

2016-cı ildə ölkəmizə 12600 ton çay idxal edilib. Bu məqsədlər üçün ölkəmizdən 45 milyon dollar vəsait gedib. Eyni zamanda, keçən il 1100 ton çay ixrac edilib və ölkəmizə 6 milyon 100 min dollar məbləğində valyuta gəlib. Yəni biz görürük ki, burada tarazlıq bizim xeyrimizə deyil. Biz çayı ixrac edirik. Ancaq daha çox idxal edilən xammal əsasında paketlənmiş, ya da qarışdırılmış çay ixrac edirik. Biz isə Azərbaycanda yetişdirilən çayı emal edib ixrac etməliyik. Belə olan halda, ölkəmizdən bu qədər valyuta getməyəcək.

Başqa sahələrdə olduğu kimi, nəzərə alsaq ki, indi Azərbaycanda çayçılıq geniş vüsət alır, bir neçə çayçılıq təsərrüfatı yaradılır, hesab edirəm, Çay İstehsalçıları və İxracatçıları Assosiasiyasının yaradılması məsələsinə də baxmaq olar. Digər sahələrdə belə assosiasiyalar bizim tövsiyəmizlə yaradılıb. Onlar o sahələrin inkişafına xidmət göstərir.

Çəltikçiliyin inkişafı ilə bağlı qeyd etməliyəm ki, Azərbaycanın 12 rayonunda çəltikçilik inkişaf edir. Dünən mən Lənkəranda çəltikçilik təsərrüfatının işi ilə tanış olmuşam. Emal müəssisəsi də yaradılıb. Çıxışlarda səsləndirilən təkliflərdən biri də ondan ibarətdir ki, dövlət dəstəyi hesabına yeni emal müəssisələri yaradılsın. Mən bunu dəstəkləyirəm. Bu emal müəssisələrində həm çeşidləmə, həm keyfiyyət, həm də paketləmə üzrə ən yüksək texnologiya tətbiq edilməlidir. Paketləmə elə səviyyədə olmalıdır ki, düyünü dünyanın istənilən ölkəsinə ixrac edə bilək. Bu sahəyə də diqqət göstərilməlidir.

Qeyd etməliyəm ki, çayçılıqdan fərqli olaraq, çəltikçilik son illər ərzində sürətlə inkişaf edib. Dövlət dəstəyi kifayət qədər yüksək olub. Bu sahəyə fermerlər tərəfindən də böyük maraq vardır. Çünki bu çox gəlirli bir sahədir. Sadəcə olaraq, dövlət əlavə dəstəyin verilməsi ilə bu sahəni fermerlər üçün daha da cəlbedici edə bilər. Ümumiyyətlə, biz bütün təbii imkanlarımızdan istifadə etməliyik. Mən dünən Cəlilabad rayonunda bir paketləmə müəssisəsinin açılışında da olmuşam. Orada mərci, noxud paketlənir və satışa çıxarılır. Bu da çox gözəl və gəlirli bir sahədir. Əfsuslar olsun ki, biz bu gün də özümüzü bu məhsullarla təmin edə bilmirik və idxaldan asılıyıq. Ona görə bu sahələrə də çox ciddi dəstək verilməlidir. Hər bir rayonun öz spesifik kənd təsərrüfatı inkişafı proqramı olmalıdır.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı keçən dəfə Masallıda olarkən məsələ qaldırdı ki, taxılçılığın o qədər də böyük səmərəsi yoxdur. Amma indi məruzə edir ki, digər sahələrin vətəndaşlar, fermerlər və dövlət üçün, ixrac üçün nə qədər böyük səmərəsi vardır. Biz təbii iqlim şəraitindən düzgün istifadə

etməliyik. Çünki Azərbaycanda, demək olar ki, bütün kənd təsərrüfatı məhsulları yetişir. Bizim 9 iqlim zonamız var. Biz indi tropik meyvələrdən başqa, istənilən kənd təsərrüfatı məhsulunu yetişdirə bilərik – meyvə, tərəvəz, tütün, üzüm, pambıq, gərzəkli meyvələr, çay, sitrus meyvələri. Biz bu imkanlardan maksimum səmərə ilə istifadə etməliyik.

Çəltikçiliyə gəldikdə, 1991-ci ildə – müstəqilliyin ilk ilində 1000 hektarda çəltik əkilmişdisə, 2016-cı ildə bu, 2500 hektara çatıbdır və 5600 ton çəltik yığılıbdır. Bu il isə 5000 hektarda çəltik əkilib. Yəni keçən illə müqayisədə əkin sahələri 2 dəfə genişləndirilib. Bu çox müsbət haldır. Yenə də qeyd etməliyəm ki, fermerlər tərəfindən bu sahəyə çox böyük maraq vardır. Əgər əvvəlki dövrlərdə çəltikçilik çox əziyyətli bir sahə idisə, insanları çox incidirdisə, əziyyət verirdisə, bu gün artıq bu sahə tam avtomatlaşdırılıb. Dünən çəltikçilik təsərrüfatında nümayiş etdirilən yeni texnoloji proses onu göstərir ki, çəltikçiliyin inkişafı əziyyətsiz də mümkündür – həm səpin, həm də yığım vaxtı. İndi texnika gətirilib. Biz çəltikçiliyin artım dinamikasına uyğun xüsusi texnikanın alınması məsələsinə də mütləq baxmalıyıq.

Əkin sahələrinin su təminatı, əlbəttə ki, çox vacibdir. Əfsuslar olsun ki, bu gün bizdə istifadəsiz olan, su altında qalan sahələr, bataqlıq sahələri vardır. Onlardan da çəltikçiliyin inkişafı üçün istifadə edilməlidir.

Toxumçuluğa da fikir verilməlidir. Burada bu məsələyə də toxunuldu. Bu da vacib məsələdir.

Çəltikçiliyin inkişafı üçün də güzəştli şərtlərlə kreditlər verilməlidir və yeni, müasir düyü emalı müəssisələri yaradılmalıdır. Keçən il ölkəmizə 48 min ton düyü idxal edilmişdir və xaricə 37 milyon dollar getmişdir.

Sitrus meyvələrinin istehsalına gəldikdə, bu sahəyə də çox böyük diqqət göstərilir. Deyə bilərəm ki, bu sahədə də artım vardır. Misal üçün, 2000-ci ildə 1700 hektarda sitrus meyvələri əkilmişdisə, hazırda 2500 hektarda əkilir. Artım var, ancaq artım daha da sürətli ola bilər. Qeyd etməliyəm ki, dağətəyi ərazilərdə,

yamaclarda terras üsulu ilə sitrus bağlarının salınması məsələlərinə baxmaq lazımdır. Əlbəttə ki, su təminatı olmalıdır. Məndə bəzi rəqəmlər var, hesab edirəm ki, fermerlər üçün maraqlı olar. Keçən il 470 hektarda limon, 255 hektarda portağal, 1700 hektarda naringi əkilmişdir. Yeni soyuducu kameralar yaradılmalıdır və sitrusçuluq üçün kiçikqabaritli xüsusi texnikanın gətirilməsi də mütləq lazımdır. Bu sahədə olan problemlərdən biri də mütəxəssis çatışmazlığıdır. Bizim Aqrar Elm Mərkəzində bu məsələyə baxılmalıdır, lazım olarsa ilkin mərhələdə xaricdən də mütəxəssislər cəlb edilməlidir ki, bu sahə sürətlə inkişaf etdirilsin.

Məlumat üçün qeyd etməliyəm ki, 2016-cı ildə ölkəmizə 17 milyon dollar dəyərində 27 min ton sitrus meyvəsi idxal edilibdir. Ondan 9000 tonu limon, 4600 tonu naringi, 12 min tonu portağal, 2000 tonu kivi olub. Mən bu rəqəmləri ona görə səsləndirirəm ki, sahibkarlar bunu eşitsinlər. Məhz ilkin mərhələdə Azərbaycanda bu qədər sitrus meyvələri yetişdirilməlidir ki, biz idxaldan asılılığı aradan götürək. İdxaldan asılılığı aradan götürmək üçün Azərbaycanda əlavə 27 min ton sitrus meyvəsi istehsal olunmalıdır. Məndə olan məlumata görə, bizdə 2010-cu ildə 19 min ton, 2016-cı ildə isə 46 min ton sitrus meyvəsi tədarük edilibdir. Artım çox böyükdür – 6 il ərzində 2 dəfədən çox. Bu, yaxşı dinamikadır, ancaq hələ ki, bizi tam qane edə bilməz.

Beləliklə, əgər bu 3 sahənin ümumi idxal həcmini götürsək görərik ki, hər il ölkəmizə 45 milyon dollarlıq çay, 37 milyon dollarlıq düyü, 17 milyon dollarlıq sitrus meyvəsi idxal olunur. Bu da təqribən 100 milyon dollar deməkdir. Biz bu ənənəvi sahələri daxili istehsal hesabına inkişaf etdirsək, özümüzü təmin etsək bu məbləğə qənaət etmiş olarıq. Bu, birinci vəzifədir, birinci mərhələdir. Əsas məsələ ondan ibarətdir ki, biz böyük ixrac potensialı da yaradaq. Verilən tapşırıqlar yerinə yetirilməlidir. Belə olan halda, biz bu məqsədə çatacağıq. Bununla paralel olaraq, biz bu məhsullar üçün ixrac bazarlarını da axtarmalıyıq.

Çayçılığa gəldikdə, artıq bu bazarlar vardır. Sadəcə, Azərbaycanda idxal olunan xammal əsasında daha çox çay istehsal edilir.

O ki qaldı sitrus meyvələrinin, düyünün istehsalına, əlbəttə ki, biz paralel olaraq ixrac bazarlarına çıxmalıyıq.

Bütün bu işləri görmək üçün müvafiq dövlət orqanları birgə işləməlidir – Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyəti, yerli icra orqanları. İşlərin ümumi rəhbərliyini Prezident Administrasiyası icra edəcəkdir.

Bu müşavirə bir daha onu göstərir ki, bizim üçün kənd təsərrüfatının bütün sahələri böyük əhəmiyyət daşıyır. Son vaxtlar görülən işlər və keçirilən müşavirələr, mənim bölgələrə səfərlərim bir daha onu göstərir ki, biz düzgün yoldayıq. Biz qısa müddət ərzində özümüzü təminetmə əmsalını daha da artıracağıq. Azərbaycan öz keyfiyyətli məhsulları ilə dünya bazarlarına daha da böyük həcmdə çıxacaqdır. Beləliklə, ölkə iqtisadiyyatı çoxşaxəli istiqamətdə inkişaf edəcəkdir. İdxaldan asılılıq minimum səviyyəyə düşəcək və yeni iş yerləri, istehsalat sahələri yaradılacaq ki, bunun da Azərbaycan vətəndaşları üçün, dövlətimiz üçün böyük faydası vardır.

Mən əminəm ki, bu gün verilən bütün tapşırıqlar qısa müddət ərzində icra ediləcəkdir. Qeyd etməliyəm ki, müşavirədə səsləndirilən təkliflər bir daha təhlil olunmalıdır. Mənə konkret təkliflər verilməlidir ki, tezliklə bütün tapşırıqlar yerinə yetirilsin və bu sahələr sürətlə inkişaf etsin. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev müşavirə çərçivəsində təşkil edilmiş sərgi ilə tanış oldu.*

*İqtisadiyyat naziri Şahin Mustafayev sərgi barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, sərgidə çayçılıq, çəltikçilik, sitrus meyvəçilik və arıçılıq üzrə 13 yerli müəssisənin 100-dən çox çeşiddə məhsulu nümayiş olunur.*

*Prezident İlham Əliyevə Azərbaycanda çayçılığın mövcud vəziyyəti və inkişaf perspektivləri barədə də məlumat verildi.*

*Qeyd olundu ki, hazırda respublikada çayın ümumi əkin sahəsi 1016 hektardır ki, bundan da 664 hektarı bar verir. Əkin*

*sahələrinin 94 faizi, istehsalın isə 94,7 faizi Lənkəran iqtisadi rayonunun payına düşür. Ötən il 1000 ton çay istehsal edilib, 12 hektar yeni çay plantasiyaları salınıb, hər hektardan orta məhsuldarlıq 14 sentner təşkil edib. 2017–2021-ci illərdə 985 hektar yeni çay plantasiyalarının salınması nəzərdə tutulur. Hazırda respublikada illik emal gücü 24,3 min ton olan 10 Çay Emalı fabriki fəaliyyət göstərir. Çayçılıqla məşğul olan 14 sahibkara 10,7 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına 450 yeni iş yeri yaradılıb. Ötən il respublikada 2,5 min hektarda çəltik əkilib, 5,6 min ton məhsul istehsal olunub. Çəltik əsasən Ağdaş, Ucar, Lənkəran və Astara rayonlarında becərilir. Respublikada becərilən əsas sitrus bitkiləri isə limon, portağal, naringi, feyxoa və kividir. Sitrus meyvələrinin əkin sahəsi 3,7 min hektar təşkil edir. Ötən il 56,6 min ton sitrus meyvələri istehsal edilib. Sitrus bağçılıqla məşğul olan 40 sahibkara 1,7 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 200-dən çox yeni iş yeri yaradılıbdır.*

## SABUNÇU RAYONUNDA 74 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*4 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində 74 saylı tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlət başçısına məlumat verdi. Bildirildi ki, 38 sinif, 2 informatika, 3 laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxanadan ibarət məktəbin mövcud korpusu 1960-cı ildən fəaliyyət göstərir. Məktəbdə əsaslı təmir işləri Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən aparılıbdır.*

*Təhsil müəssisəsinin yerləşdiyi ərazinin sahəsi 11 min kvadratmetrə yaxındır. 912 şagird yerlik məktəbdə tədrisin müasir səviyyədə qurulması üçün hər cür şərait yaradılıb. Bina müasir səviyyədə əsaslı təmir olunub. Burada videomüşahidə, səsgücləndirici, yanğın xəbərdarlığı və internet sistemləri quraşdırılıb. Tədris müəssisəsi zəruri mebel, inventar və digər avadanlıqlarla tam təchiz olunubdur.*

*Yeni tədris ilində şagirdlərin ixtiyarına veriləcək futbol meydançasında da lazımi idman qurğuları qoyulub. Məktəbin həyətyanı ərazisində geniş abadlıq işləri aparılıb, işıqlandırma sistemi quraşdırılıbdır.*

*Məktəbdə yaradılan şəraitlə tanış olan dövlət başçısı kollektivə uğurlar arzuladı.*

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGE İVANOVA**

Hörmətli cənab Prezident!

Makedoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Makedoniya əlaqələrinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Makedoniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2017-ci il*

## MDB ÜZV DÖVLƏTLƏRİ ALİ MALİYYƏ NƏZARƏTİ ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ BAKI SESSİYASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*5 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də MDB üzv dövlətləri Ali Maliyyə Nəzarəti Orqanları Rəhbərləri Şurasının Bakıda keçirilən XVII sessiyasının iştirakçılarını qəbul etmişdir.*

*Dövlət başçımız MDB üzv dövlətləri Ali Maliyyə Nəzarəti Orqanları Rəhbərləri Şurasının XVII sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətini qeyd etdi. Ölkələrimiz arasında maliyyə nəzarəti sahəsində təcrübə mübadiləsinin zəruriliyinə toxunan prezident İlham Əliyev vurğuladı ki, bizim ölkələr keçid və islahatlar dövründə, demək olar, eyni problemlərlə üzləşiblər. Ölkələrimizin qarşısında maliyyə nəzarəti sahəsində duran problemlərin həlli baxımından sessiyada aparılacaq müzakirələr önəmlidir və əlbəttə ki, dövlət nəzarəti mexanizminin daha da təkmilləşdirilməsi sıx koordinasiya tələb edir. Bu tədbir qonaqların Azərbaycanda maliyyə nəzarəti sahəsində son illər həyata keçirilən işlərlə yaxından tanış olması üçün yaxşı imkan yaradır.*

*Dövlət başçımız qeyd etdi ki, Azərbaycanda xərclərə dövlət nəzarəti ilə bərabər, ictimai nəzarətə də böyük diqqət yetirilir. Son illər dünyada baş vermiş iqtisadi və maliyyə böhranına toxunan prezident İlham Əliyev bildirdi ki, bütün bu proseslər dövlət xərclərinin daha da optimallaşdırılmasını zəruri edir. Bu baxımdan ölkələrimizin maliyyə nəzarəti orqanlarının üzərinə daha çox məsuliyyət düşür.*

*Prezident İlham Əliyev tədbirdə müzakirələrin və təcrübə mübadiləsinin konstruktiv və səmərəli şəkildə keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Rusiya Federasiyası Hesablama Palatasının sədri Tatyana Qolikova Bakının gözəl şəhər olduğunu, ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını söylədi. O, Azərbaycanda göstərilən qonaqpərvərliyə və tədbirin təşkilinə görə minnətdarlığını bildirərək qeyd etdi ki, sessiyada müzakirə olunan məsələlər kifayət qədər önəm daşıyır və əsas məsələ səmərəliliyin yüksəldilməsidir. Bu baxımdan ölkələrimiz arasında əməkdaşlıq mühüm rol oynayır. Tatyana Qolikova ölkələrimizin maliyyə nəzarəti orqanları arasında əməkdaşlığın və qarşılıqlı fikir mübadiləsinin əhəmiyyətini vurğuladı.*

## NİZAMİ RAYONUNDA 62 SAYLI MƏKTƏB-LİSEYDƏ ƏSASLI TƏMİR İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*5 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakının Nizami rayonunda şəhid Xalid Quliyev adına 62 saylı məktəb-liseydə həyata keçirilən əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Görülən işlərlə bağlı dövlət başçısına məlumat verildi. Bildirildi ki, 41 sinif, 2 informatika, 3 laboratoriya otaqlarından, hərbi təlim sinfindən, idman və akt zallarından, yeməkxanadan ibarət məktəbin mövcud korpusu 1964-cü ildən fəaliyyət göstərir. Məktəbdə əsaslı təmir işləri Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən aparılıb. Bina müasir səviyyədə əsaslı təmir olunub. Təhsil müəssisəsinin yerləşdiyi ərazinin sahəsi 11000 kvadratmetrdir. 984 şagird yerlik məktəbdə tədrisin müasir səviyyədə qurulması üçün hər cür şərait yaradılıb. Tədris müəssisəsi lazımi avadanlıqlarla tam təchiz olunubdur.*

*Dövlət başçısı məktəb-liseydə yaradılan «Sağlam təhsil» sinifləri ilə də tanış oldu. «Sağlam təhsil–sağlam millət» layihəsinin məqsədi məktəblərdə şagirdlərin sağlamlığının qorunması və təhsil nailiyyətlərinin yüksəldilməsindən ibarətdir. Ümumtəhsil müəssisələrində bu pilot layihənin tətbiqinə 2014–2015-ci tədris ilindən başlanılıb, ötən tədris ilində paytaxtda 27 tam orta məktəbdə 36 sinifdə icra edilibdir. Layihə 2017–2018-ci tədris ilində isə 40 sinfi əhatə edəcəkdir.*

*Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət və qayğı, bu sahəni dövlət siyasətinin mühüm prioritetləri sırasına daxil etməsi təsadüfi deyil. Ulu öndər Heydər Əliyevin də dediyi kimi, təhsil millətin gələcəyidir. Son illər bu istiqamətdə görülən tədbirlər tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşası prosesini daha da sürətləndiribdir.*

*Yeni tədris ilində şagirdlərin ixtiyarına veriləcək futbol, voleybol və basketbol meydançalarında da əsaslı təmir işləri görülüb. Məktəbin həyətyanı ərazisində geniş abadlıq işləri aparılıb, işıqlandırma sistemi quraşdırılıbdır.*

## NİZAMİ RAYONUNDA 10 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİR İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*5 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakının Nizami rayonunda 10 saylı tam orta məktəbin binasında əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısına məlumat verildi ki, məktəbin 1176 şagird yerlik mövcud korpusu 1979-cu ildən fəaliyyət göstərir. Məktəbin binasında bu günədək əsaslı təmir işləri aparılmamışdı. Burada da əsaslı təmir işləri «2014–2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən həyata keçirilib. Məktəbdə 49 sinif, 2 informatika, 3 laboratoriya otağı, idman və akt zalları, hərbi otaq və yeməkxana fəaliyyət göstərir. Əsaslı təmir olunan məktəb binasında şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait yaradılıb, otaqlar dərs vəsaitləri, internet, mebel, inventar və digər zəruri avadanlıqlarla təchiz edilib. Təhsil müəssisəsinin həyatində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıbdır.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə təmir edilməsi və yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxtda və ətraf qəsəbələrdə, eləcə də respublikanın hər yerində orta məktəb binaları yüksək*

*standartlara uyğun şəkildə əsaslı təmir edilir və lazımi avadanlıqlarla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir, yeni yaşıllıq zolaqları salınır. Beləliklə, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülür. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.*

## NİZAMİ RAYONUNDA 201 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİR İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*5 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakının Nizami rayonunda 201 saylı tam orta məktəbdə əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısına məlumat verildi ki, 201 saylı tam orta məktəbin binası 2 korpusdan ibarətdir. Korpuslardan biri 1964-cü ildən, 2-cisi isə 2007-ci ildən fəaliyyət göstərir. Burada da müasir tələblərə uyğun əsaslı təmir işləri həyata keçirilib, məktəbin 68 sinif otağında 1400 şagirdin təhsil alması üçün hər cür şərait yaradılıbdır. Məktəbin 5 informatika, 3 laboratoriya otağı, şahmat sinfi, idman və akt zalları, hərbi otağı, 2 kitabxana və yeməkxanası da müasir səviyyədə yenidən qurulubdur.*

*Zəngin təbii sərvətlərə malik olan Azərbaycanda bu sərvətlərdən səmərəli istifadə olunmaqla, insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən birini təşkil edir. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğının nəticəsi olaraq, son illərdə müasir məktəb binaları tikilir, mövcud təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses təkcə paytaxtı deyil, bölgələri də əhatə edib. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu dövlət səviyyəsində həyata keçirilən bu proqrama güclü dəstək verib. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə*

*diqqət çəkən bu təhsil ocaqlarından biri də 201 saylı tam orta məktəbdir. Bu təhsil ocağının həyətində geniş abadlıq və quruculuq işləri görülüb. Həyətdə futbol, voleybol və basketbol meydançaları yaradılıbdır.*

## GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ MİXEİL CANELİDZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Gürcüstan Respublikası Baş nazirinin müavini, Xarici İşlər naziri Mixeil Canelidzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçımız Azərbaycan–Türkiyə–Gürcüstan Xarici İşlər nazirlərinin Bakıda keçiriləcək üçtərəfli görüşünə toxunaraq, bu tədbiri əməkdaşlığın mühüm formatı kimi dəyərləndirdi və bunun ölkələrimizin regional əməkdaşlığının möhkəmləndirilməsi işinə xidmət etdiyini diqqətə çatdırdı. Azərbaycan Prezidenti bu formatın həm üçtərəfli, həm də ikitərəfli məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan–Gürcüstan ikitərəfli münasibətləri uğurla inkişaf edir, bütün istiqamətlərdə yaxşı nəticələr əldə edilibdir. Dövlət başçısı ümumilikdə əlaqələrimizin inkişaf dinamikasının razılıq doğurduğunu və bir sıra mühüm sahələrdə əməkdaşlığımızın genişləndiyini vurğuladı.*

*Gürcüstanın Baş nazirinin müavini, Xarici İşlər naziri Mixeil Canelidze ilk növbədə, ölkəsindəki meşə yanğınları zamanı Azərbaycanın göstərdiyi köməyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi və bunun ölkəsi üçün çox böyük dəstək olduğunu qeyd etdi. İkitərəfli əlaqələrin fəal surətdə inkişaf etdiyini vurğulayan Mixeil Canelidze ticarət dövriyyəsinin, iqtisadi sahədə əməkdaşlığın genişlənməsini bunun yaxşı göstəricisi olduğunu bildirdi.*

*Gürcüstanda strateji nəqliyyat layihələri üzrə mühüm işlərin görüldüyünü vurğulayan nazir Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinin bu il başa çatdırılacağına ümidvar olduğunu bildirdi.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*5 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir.*

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla bu yaxınlarda Qurban bayramı ilə əlaqədar telefonla danışdıqlarını, hər iki dövlət başçısının təmaslarının daimi xarakter daşıdığını vurğuladı. Azərbaycan–Gürcüstan–Türkiyə Xarici İşlər nazirlərinin Bakıda keçiriləcək üçtərəfli görüşünün əhəmiyyətinə toxunan dövlətimizin başçısı bu görüşün ölkələrimiz arasında ikitərəfli əlaqələrin müzakirəsi üçün də yaxşı fürsət yaratdığını qeyd etdi. Hər 3 ölkə arasında müzakirə olunacaq çoxlu sayda məsələlərin olduğunu qeyd edən prezident İlham Əliyev siyasi, iqtisadi, enerji, nəqliyyat kimi sahələrdə artıq yaxşı nəticələrin əldə edildiyini bildirdi. Dövlət başçımız 3 ölkə arasında aparılan işlərin həm ölkələrimiz, həm də ümumilikdə bölgə üçün böyük əhəmiyyət daşıdığını qeyd etdi. Bu formatda artıq bir neçə ildir ki, görüşlərin keçirildiyini vurğulayan prezident İlham Əliyev bunların həm siyasi, həm də iqtisadi məsələlərin həlli üçün önəmli üçtərəfli format kimi özünü təsdiqlədiyini və nümunəvi bir format olduğunu diqqətə çatdırdı.*

*Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Mövlud Çavuşoğlu Azərbaycan–Gürcüstan–Türkiyə Xarici İşlər nazirlərinin üçtərəfli görüşünün ölkələrimizin yerləşdiyi bölgənin sabitliyi və iqtisadi inkişafı üçün önəmli olduğunu vurğuladı, prezident İlham Əliyevin*

*rəhbərliyi ilə Azərbaycanın bu işlərə verdiyi töhfəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

**KOREYA ƏMƏK PARTİYASININ SƏDRİ,
KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ, KOREYA XALQ ORDUSUNUN ALİ BAŞ KOMANDANI
ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN INA**

Zati-aliləri!

Ölkənizin milli bayramı – Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2017-ci il*

**TACİKİSTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Tacikistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Tacikistan dostluğu zəngin ənənələrə malikdir. İnanıram ki, bu ənənələri özündə yaşadan dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığımızın dərinləşməsi üçün daim möhkəm zəmin olacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tacikistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2017-ci il*

## «XANKƏNDİ» SUALTI TİKİNTİ GƏMİSİNİN TƏQDİMAT MƏRASİMİNDƏ İŞTİRAK

*6 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakı Gəmiqayırma zavodunda bp şirkətinin sifarişi ilə «Şahdəniz-2» layihəsi çərçivəsində inşa edilən «Xankəndi» sualtı tikinti gəmisinin təqdimat mərasimində iştirak etmişdir.*

*Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, «bp–Azərbaycan» şirkətinin prezidenti Qari Couns, «Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlət başçısına görülən işlər barədə məlumat verdilər.*

*Qeyd edək ki, Bakı Gəmiqayırma zavodu fəaliyyətdə olduğu qısa müddətdə kifayət qədər uğurlu layihələr həyata keçirib. Bu layihələrə 25 min ton yükqaldırma gücünə malik «28 May» üzən doku, 50 ton dartıcı qüvvəyə malik olan «SOCAR-1» yedək gəmisini, Heydər Əliyev adına yarımdalma qazma qurğusunun pantonlarını və yuxarı bloklarını, «Zəfər», «Üfüq» və «Turan» sərnişin gəmilərini misal göstərmək olar. Bundan başqa, Bakı Gəmiqayırma zavodu 2015-ci ildə «Şahdəniz mərhələ-2» layihəsi çərçivəsində bir neçə gəminin təmir və yenilənmə layihələrini həyata keçirib. Bunlardan «İsrafil Hüseynov» borudüzən gəmisini, «Tofiq İsmayılov» dalğıc gəmisini, «Azərbaycan» kran gəmisini, «Caspian Endeavour» və «Seabed Supporter» təchizat gəmilərini, «Dədə Qorqud» yarımdalma qazma qurğusunu və «Gilavar» tədqiqat gəmisini qeyd etmək olar. «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC ilə imzalanan müqavilələrə uyğun olaraq, hazırda tikintisi uğurla davam edən 2*

*«Ro-Pax» tipli nadir gəminin və 2 neft tankerinin 2019-cu ildə təhvil verilməsi planlaşdırılır.*

*Dövlət başçısına «Xankəndi» sualtı tikinti gəmisi haqqında videoməlumat təqdim olundu.*

*2014-cü il aprelin 17-də «Bakı Gəmiqayırma Zavodu» MMC sualtı tikinti gəmisinin layihələndirilməsi və tikintisi barədə «Şahdəniz» qaz yatağının işlənilməsi və istismarı üzrə icraçı olan «bp Exploration» MMC ilə dəyəri 400 milyon dollara yaxın olan müqavilə bağlayıb. «Xankəndi» sualtı tikinti gəmisinin 2 iri gövdə bölməsi müvafiq müqavilə əsasında Sinqapurda inşa edilərək, təhlükəsiz şəkildə Bakıya gətirilib və bu 2 hissə Bakı Gəmiqayırma zavodunda tikinti-quraşdırma sahəsinə çıxarılaraq, inşası başa çatmış burun, yaşayış və idarəetmə blokları ilə birləşdirilib və müvafiq inteqrasiya işləri yerinə yetirildikdən sonra ötən ilin mayında suya salınıb. Bu gəmi xüsusi olaraq nəhəng «Şahdəniz mərhələ-2» işlənilmə layihəsinin sualtı qurğularını quraşdırmaq üçün inşa edilibdir.*

*Prezident İlham Əliyevə «Şahdəniz-2» layihəsi çərçivəsində görülən işlərlə də bağlı məlumat verildi. Qeyd edək ki, artıq layihə üzrə işlərin 96 faizdən çox hissəsi tamamlanıb. Fəaliyyət dövründə Azərbaycanda 24 min yeni iş yeri açılıb. «Şahdəniz mərhələ-2» üzrə işlənilmə planına bir-birinə körpü ilə birləşdirilən 2 yeni hasilat platforması, 2 yarımdalma qazma qurğusu ilə qazılan 26 sualtı quyu, suyun 500 metrədək dərinliyində quraşdırılan 500 kilometr uzunluğunda boru kəmərləri və Səngəçal terminalının genişləndirilməsi işləri daxildir. «Şahdəniz mərhələ-2» çərçivəsində əsas diqqət ildə 16 milyard kubmetr qaz və gündə 120 min barrelədək kondensat əlavə etməklə, hazırda istismar olunan lay intervallarında qalan ehtiyatlara yönəlib. Buna görə ildə 6 milyard kubmetr qaz Türkiyəyə nəql ediləcək və qalan həcm, yəni ildə 10 milyard kubmetr qaz Avropa alıcılarına çatdırılacaqdır.*

*Dövlət başçısı «Xankəndi» sualtı tikinti gəmisinin rəmzi istismara verilməsini bildirən lenti kəsdi.*

*Bakı Gəmiqayırma zavodunun yanalma körpüsündə «Xankəndi» gəmisinin bütün göyərtə avadanlığı – əsas qaldırıcı kran, köməkçi kranlar, o cümlədən helikopter meydançası quraşdırılaraq, gəminin bütün sistemləri, avadanlığı və qurğuları tam inteqrasiya edilib, yoxlanılaraq işə salınıb və sazlanıb. 2 ay ərzində açıq dənizdə bütün istismar sınaqları uğurla yerinə yetirilib. «Xankəndi» gəmisinin tikintisində ümumilikdə 2000-dən çox insan çalışıb ki, bu işçilərin 75 faizini yerli, 25 faizini isə əcnəbi mütəxəssislər təşkil edib. Gəmi sifarişçiyə təhvil verilmək üçün tam hazır vəziyyətə gətirilibdir.*

*DNV GL Norveç və Almaniya təsnifat cəmiyyətinin nəzarəti altında tikilən bu nadir gəminin maksimal sürəti 13,5 knot, uzunluğu 155, eni 32, maksimal suya oturumu 7,5 və əsas göyərtəsinin hündürlüyü 13 metrdir. Gəmi 3,5 metr hündürlüyündə böyük dalğalarda fəaliyyət göstərməsi üçün dinamik mövqeləndirmə sistemi, 600 metrədək sualtı əməliyyatlar aparmaq üçün güclü əsas kranı, 18 nəfərlik 2 dalğıc kapsulu sistemi, məsafədən idarə olunan 2 aparatı, möhkəmləndirilmiş avadanlıq endirmə şaxtası və digər zəruri texnikalarla tam təchiz edilib. Sualtı tikinti gəmisinin ümumi çəkisi 17700 tondur və suya oturumu 6,5 metr olmaqla, yüksək yükgötürmə qabiliyyətinə malikdir.*

*Qeyd edək ki, 175 nəfərlik kayutlarla təchiz olunan bu gəmi indiyə qədər Bakı Gəmiqayırma zavodunda icra olunan ən mühüm sifarişdir. Gəminin inşası Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsi istiqamətində növbəti addımdır.*

*Sonra prezident İlham Əliyev gəminin işə salınmasını bildirən düyməni basdı.*

*«Xankəndi» gəmisi təkcə Azərbaycanın deyil, bütövlükdə Xəzərin gəmiçilik tarixində yeni eranın başlanğıcıdır. Xəzər dənizindəki neft və qaz donanmasının yeni texnologiyalı ən müasir gəmisi olan «Xankəndi» suyun dərinliyi 550 metrədək olan hissələrdə dünya standartlarına uyğun sualtı qurğular inşa*

*etmək üçün layihələndirilib. Gəmi təhvil verildikdən sonra sahildən təxminən 70 kilometr məsafədə yerləşən «Şahdəniz» yatağının ikinci inkişaf mərhələsi üçün səfərbər olunacaq və 2017–2027-ci illərdə «Şahdəniz mərhələ-2» layihəsinin sualtı quraşdırma işlərində istifadə ediləcəkdir.*

**İ l h a m Ə l i y e v:** Bu gözəl hadisə münasibətilə sizi təbrik etmək istəyirəm. «Xankəndi» gəmisinin istifadəyə verilməsi doğrudan da tarixi hadisədir. Şadam ki, bu nəhəng gəmi Azərbaycanda, Bakıda inşa edilib. Bu gəmiyə «Xankəndi» adı verilib. Bunun da çox böyük mənası vardır. Xankəndi bizim qədim şəhərimizdir. Xankəndinin adı bizim üçün əzizdir, doğmadır. Təsadüfi deyil ki, dünyada nadir standartlara cavab verən bu gəmiyə məhz bu ad verilibdir.

Bu gəminin tikintisi ölkəmizin gücünü göstərir. Onu göstərir ki, bu gün Azərbaycanda istənilən böyük tikinti işi aparıla bilər. Bu gəminin inşası, istifadəyə verilməsi eyni zamanda, onu göstərir ki, vaxtilə Gəmiqayırma zavodunun tikintisi haqqında verilmiş qərar düzgün qərar idi. O vaxt bu qərarı verərkən və bu zavodun tikintisinə böyük sərmayə ayırarkən biz məhz bu məqsədi güdürdük ki, Azərbaycan istənilən növ gəmini inşa edə bilsin. İndi elə bir gəmi yoxdur ki, biz Gəmiqayırma zavodunda onu inşa edə bilməyək. Hazırda 4 yeni gəmi tikilir – ikisi bərə, ikisi tanker.

«Xankəndi» gəmisinin tikintisi təqribən 400 milyon dollara yaxın vəsaitə başa gəlib. Bu da dövlətimizin gücünü göstərir. «Şahdəniz» qaz yatağının işlənilməsində bu gəminin əvəzsiz xidməti olacaqdır.

Bu gün mənə verilən məlumata görə, dünyada bu tipdə cəmi 10 gəmi vardır. Onlardan biri Azərbaycandadır, Azərbaycanda tikilib. Bu gəmidə çalışacaq heyət üzvlərinin əksəriyyəti Azərbaycan mütəxəssisləridir. Yəni bu gəminin tikintisi ilə eyni zamanda treninq, hazırlıq işləri də aparılmışdır ki, bu gün həm gəminin kapitanı, həm də bütün heyət üzvlərinin əksəriyyəti yerli kadrlardır.

Bir daha demək istəyirəm ki, bu çox əlamətdar, tarixi hadisədir. «Şahdəniz» qaz yatağının işlənilməsi bizim üçün strateji layihədir. Şadam ki, bu istiqamətdə də işlər yaxşı gedir. İndi mənə məlumat verildi ki, «Şahdəniz-2» qaz yatağının hazırlıq işlərinin səviyyəsi 96 faizdir. Demək olar ki, artıq bu layihə reallaşıb. Bu gəmisiz «Şahdəniz»i böyük səmərə ilə işlətmək mümkün deyil.

Biz bütün bu işləri ardıcıl şəkildə aparırıq. Sərmayə qoyulub, xarici tərəfdaşlarla işlər düzgün qurulub. Azərbaycanda platformalar, üzən qurğular, belə nəhəng gəmilər, Səngəçal terminalı, neft-qaz kəmərləri inşa edilir. Azərbaycanın neft-qaz sektoruna kompleks şəkildə, düşünülmüş və planlı surətdə böyük sərmayə qoyulub. Bu gün biz bunun nəticəsini görürük. Burada həm *bp*, həm SOCAR şirkətlərinin birgə fəaliyyətini də qeyd etməliyəm. Bu əməkdaşlığın nəticəsində Azərbaycanın neft-qaz sektorunda tarixi nailiyyətlər artıq reallıqdır.

Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətini yüksək qiymətləndirirəm. Gəmiçiliyin fəaliyyəti beynəlxalq standartlara cavab verir. Gəmiçilik artıq gəlirlə işləyir, büdcəmizə böyük vergi ödəyir. Yəni nəqliyyat, energetika infrastrukturumuzun uğurlu inkişafı ölkəmizin ümumi inkişafına böyük töhfədir.

Siz yəqin bilirsiniz ki, bir neçə gündən sonra «Azəri– Çıraq–Günəşli» neft yataqları bloku üzrə yeni müqavilənin imzalanması nəzərdə tutulur. Biz o yataqdakı fəaliyyətimizi 2050-ci ilə qədər uzadacağıq. Bu da bir daha onu göstərir ki, Azərbaycanın çox böyük neft ehtiyatları vardır.

Mən xatırlayıram, 1994-cü ildə «Əsrin müqaviləsi» imzalananda bizi istəməyən bəzi qüvvələr – həm ölkə daxilində, həm xarici qüvvələr deyirdilər ki, Azərbaycanda kifayət qədər neft yoxdur, «Azəri», «Çıraq», «Günəşli»də neft azdır. Heç bir neft kəmərinin tikintisinə ehtiyac yoxdur, çünki bu kəmər boş qalacaq. İndi 20 ildir ki, biz bu neft yataqlarından neft və qaz hasil edirik. Burada hasilat 1997-ci ildən başlanılıb. 20 ildən sonra yeni müqavilə imzalanır ki, 2050-ci ilə qədər «Azəri–

Çıraq–Günəşli» neft yataqları blokundan lazımi səviyyədə neft hasil ediləcəkdir. Bu həm o bədbin və qərəzli fikirlərə bir cavabdır, həm də göstərir ki, ölkəmizin çox böyük enerji potensialı vardır.

«Şahdəniz»ə gəldikdə isə, bu yatağın minimum qaz ehtiyatı 1,2 trilyon kubmetrdir. Bu, dünyanın ən böyük qaz yataqlarından biridir. Ümumilikdə isə qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Yəni Azərbaycan bundan sonra ən azı 100 il ərzində özünü və bir çox ölkələri təbii qazla təmin edəcəkdir.

Mən bütün Azərbaycan xalqını bu tarixi hadisə münasibətilə təbrik edirəm. Bu gəminin tikintisində iştirak etmiş bütün vətəndaşları, mütəxəssisləri təbrik edirəm. Onlara minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, «Xankəndi» gəmisi «Şahdəniz» yatağının işlənilməsində öz qiymətli rolunu oynayacaq, ölkəmizin güclənməsinə töhfəsini verəcəkdir. Sağ olun.

## KOREYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDR MÜAVİNİ PARK CU-SUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Koreya Respublikası Milli Assambleyasının Sədr müavini Park Cu-sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçımız Koreya Respublikası Milli Assambleyasının Sədr müavini Park Cu-sunun ölkəmizə səfərinin Azərbaycan–Koreya əlaqələrinin inkişafında çox mühüm rol oynayacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğunu vurğuladı. Dövlətimizin başçısı özünün Koreyaya 2 dəfə və Koreyanın yüksək dövlət rəhbərlərinin Azərbaycana səfərlərini məmnunluqla xatırlatdı. Koreya şirkətlərinin ölkəmizdəki uğurlu fəaliyyətinə toxunan prezident İlham Əliyev həmin şirkətlərin Azərbaycanda böyük tikinti və infrastruktur layihələrində fəal iştirakının önəmini qeyd etdi. Dövlət başçısı ölkələrimizin iqtisadi və siyasi sahələrdə uğurlu əməkdaşlıq etdiklərini, mədəniyyət sahəsində yaxşı əlaqələrin qurulduğunu bildirərək, Azərbaycanda Koreya «Mədəniyyət günləri»nin keçirilməsinin əhəmiyyətini vurğuladı. Koreyanın böyük iqtisadi uğurlar əldə etdiyini qeyd edən prezident İlham Əliyev bildirdi ki, Koreya xalqı istedadlı və zəhmətkeş xalqdır. Xalqlarımız arasında oxşarlığın olduğunu diqqətə çatdıran dövlət başçısı xalqlarımızın öz ənənələrini qoruyub saxlamağa çalışmalarının önəmini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, Koreya*

*Respublikası Milli Assambleyasının Sədr müavini Park Cu-sunun ölkəmizə bu səfəri parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi işinə xidmət edəcəkdir.*

*Koreya Respublikası Milli Assambleyasının Sədr müavini Park Cu-sun ulu öndər Heydər Əliyev siyasətinin davamı olaraq, prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın təkcə iqtisadi sahədə deyil, eyni zamanda, siyasi sahədə də əldə etdiyi uğurları məmnunluqla izlədiklərini nəzərə çatdırdı.*

*Koreyalı qonaq bildirdi ki, səfərin əsas məqsədi Koreya və Azərbaycan parlamentləri arasında əlaqələri yaxşılaşdırmaq-dan ibarətdir. O bu səfərin ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə təsadüf etməsinin önəmini qeyd etdi. Park Cu-sun Koreya yarımadasında mövcud gər-ginlik barədə dövlətimizin başçısına məlumat verdi. O bu pro-sesə Azərbaycan Prezidentinin verdiyi dəstəyə görə minnət-darlığını ifadə etdi.*

*Dövlət başçımız Koreya yarımadasında baş verən hadi-sələrin narahatlıq doğurduğunu və bunun ciddi təhlükə mənbəyi olduğunu deyərək, bu gərginliyin tezliklə sovuşacağına ümid etdiyini bildirdi.*

*Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının və bir-birinə dəstək vermələrinin əhəmiyyəti vurğulandı.*

## NƏRİMANOV RAYONUNDA 212 SAYLI TAM ORTA MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*7 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də paytaxtın Nərimanov rayonunda əsaslı təmir edilən 212 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlət başçısına məlumat verdi. Bildirildi ki, bu təhsil ocağının 51 sinif, 2 informatika, 3 laboratoriya otağından, idman və akt zallarından, yeməkxanadan, həmçinin hərbi otaqdan ibarət 1320 şagird-yerlik mövcud korpusu 1963-cü ildən fəaliyyət göstərir. Məktəbin binası prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı sərəncamla təsdiq edilmiş Dövlət Proqramının tədbirlər planının icrası ilə əlaqədar olaraq, yüksək səviyyədə əsaslı təmir edilib. Təhsil müəssisəsi internet sistemi və müasir tədris avadanlıqları ilə təchiz olunub. Burada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün geniş imkanlar vardır.*

*Yeni məktəb binalarının inşası, mövcudlarının isə müasir səviyyədə yenidən qurulması son illərdə prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində aparılan islahatların tərkib hissəsidir. Bu layihələrin icrası nəticəsində təhsil müəssisələrində yüksək şəraitin yaradılması müəllimlərin tədrisin keyfiyyətini artırmalarına da imkan verir. Bunu 212 saylı tam orta məktəbin binasında əsaslı təmirdən sonra yaradılmış şərait də sübut edir.*

*Təhsil müəssisəsində yaradılan şəraitlə tanış olan dövlət başçısı kollektivə uğurlar arzuladı.*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçımız Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti ilə mütəmadi olaraq ölkəmizdə və Davosda keçirdikləri görüşləri məmnunluqla xatırladaraq, Suma Çakrabartinin Azərbaycana müntəzəm səfərlərinin əhəmiyyətini vurğuladı, bu səfərlərin həyata keçirilən işlər və gələcək planlarla bağlı müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığının səviyyəsinin məmnunluq doğurduğunu bildirdi. Dövlət başçımız Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycan üzrə kredit portfelinin həcminin 3 milyard dollara yaxın olduğunu vurğulayaraq, onun böyük hissəsinin özəl sektora yönləndirilməsinin razılıq doğurduğunu dedi və bunun iqtisadiyyatımızın özəl sektorunun genişlənməsinin yaxşı göstəricisi olduğunu bildirdi. Azərbaycan Prezidenti qeyd etdi ki, bu həmçinin iqtisadiyyata olan etimadın artmasını nümayiş etdirir və əlavə maliyyə vəsaiti hesabına sahibkarlığa dəstək verməyə kömək edir.*

*Avropa Yenidənqurma və İnkişaf Bankı ilə gələcək əməkdaşlığımızın uğurlu olacağına ümid etdiyini bildirən dövlətimizin başçısı hazırda qarşıda digər planların və çağırışların*

*olduğunu diqqətə çatdırdı. Azərbaycanda infrastruktur layihələrinin əksəriyyətinin artıq yekunlaşdırıldığını və ya tamamlanma mərhələsində olduğunu vurğulayan prezident İlham Əliyev qarşımızda duran yeni iqtisadi inkişaf proqramının əsas məqsədinin ölkəmizdə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi və özəl sektora dəstək vermək olduğunu bildirdi, bu istiqamətdə böyük imkanların mövcudluğunu qeyd etdi. Prezident İlham Əliyev nəqliyyat, yeni logistika mərkəzlərinin yaradılması ilə bağlı planların həyata keçirilməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı.*

*Dövlət başçımız Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin ölkəmizə səfərinin görüləcək işlərlə bağlı müzakirələrin aparılması üçün imkan yaratdığını bildirdi.*

*Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti prezident İlham Əliyevlə əvvəlki görüşlərini xatırladaraq, həmin görüşlər zamanı əməkdaşlığımızla bağlı səmərəli müzakirələrin aparıldığını vurğuladı və bu səfəri zamanı da əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlərin müəyyən ediləcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının «Cənub Qaz Dəhlizi» layihəsinin maliyyələşdirilməsində iştirakı, Azərbaycanda nəqliyyat dəhlizlərinin inkişafı, özəl sektora dəstək və məişət tullantılarının idarə olunması sahələrində əməkdaşlıq imkanları müzakirə edildi.*

## RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ VALERİ GERASİMOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçımız Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovla qərbli həmkarları arasında Bakıda növbəti görüşün keçirilməsi üçün Azərbaycan tərəfinin məmnunluqla şərait yaratdığını vurğuladı və qeyd etdi ki, bu danışıqlar risklərin qarşısının alınması, qarşılıqlı etimadın möhkəmlənməsi işinə xidmət edir. Qlobal miqyasda ümumi gərginliyin azaldılmasında maraqlı olduqlarını və Bakıda artıq 2-ci dəfə bu mühüm danışıqların keçirilməsindən məmnunluq hissi duyduqlarını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu danışıqlar həm Azərbaycana olan etimadın nümunəsidir, eyni zamanda, Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin yaxşı göstəricisidir. Dövlət başçımız vurğuladı ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında bütün digər sahələrdə olduğu kimi, hərbi və hərbi-texniki sahədə də uğurlu əməkdaşlıq həyata keçirilir. Bu yaxınlarda keçirilən Beynəlxalq Ordu oyunlarına toxunan dövlətimizin başçısı Azərbaycanın da bu yarışların keçirildiyi məkana çevrildiyini vurğulayaraq qeyd etdi ki, ölkəmiz bu tədbirlərə az bir zamanda qoşulmasına baxmayaraq, artıq fəal iştirakçıya çevrilibdir.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında hərbi və hərbi-texniki əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu bildirdi və qeyd etdi ki, Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun səfəri gündəlikdə duran məsələlərin və əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradır.*

*Valeri Gerasimov Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının bütün sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahələrdə də uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi. O qeyd etdi ki, ölkələrimiz arasında ənənəvi olaraq dostluq münasibətləri mövcuddur və Azərbaycan Rusiyanın strateji tərəfdaşıdır.*

*Beynəlxalq Ordu oyunlarına toxunan Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi məmnunluqla vurğuladı ki, Azərbaycan komandası ötən il 2 oyunda iştirak etmişdisə, bu il artıq 5 yarışda iştirak edib və tədbirlərdən birinin təşkilatçısı olubdur.*

*Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «TƏHSİL» RESPUBLİKA İDMAN MƏRKƏZİNİN ZUĞULBA TƏDRİS İDMAN BAZASININ AÇILIŞI MƏRASİMİ

*8 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində «Təhsil» Respublika İdman Mərkəzinin Zuğulba tədris idman bazasının açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı Zuğulba tədris idman bazasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Təhsil naziri Mikayıl Cabbarov prezident İlham Əliyevə yeni tədris müəssisəsi barədə məlumat verdi.*

*Bildirildi ki, burada inşaat işlərinə 2015-ci ildə başlanılıb. Kompleksin tikintisi yüksək keyfiyyətlə və müasir səviyyədə aparılıb. İdman bazasının ümumi sahəsi 1 hektara yaxındır. Baza yataqxana və idman sağlamlıq korpusları, amfiteatr, həmçinin mini-futbol və basketbol meydançalarından ibarətdir.*

*Dövlət başçısı müəssisənin idman sağlamlıq korpusunda yaradılan şəraitlə tanış oldu.*

*Son illərdə Azərbaycanda yeni məktəb binalarının inşası, idman komplekslərinin tikintisi, mövcudlarının isə müasir səviyyəyə çatdırılması istiqamətində böyük işlər görülübdür. Bunun nəticəsidir ki, ölkədə yeni məktəb binalarının, tədris idman komplekslərinin sayı sürətlə artıb. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə son illərdə bu istiqamətdə icra edilən layihələrin əsas məqsədi gənc nəslin daha savadlı və bilikli olması ilə yanaşı, həm də sağlam böyüməsidir. Belə komplekslər yeniyetmə və gənclərə idmanın müxtəlif növləri ilə məşğul olmağa hərtərəfli şərait yaradır.*

*Yeni istifadəyə verilən bu bazada əsasən yığma komandaların təlim-məşq toplantılarının, idmanın müxtəlif növləri üzrə respublika və beynəlxalq səviyyəli yarışların keçirilməsi, aktual mövzularda seminarların təşkil edilməsi, idmanda fərqlənən məktəblilər üçün yay düşərgələrinin yaradılması, məktəblilərin asudə vaxtlarının səmərəli təşkili nəzərdə tutulur.*

*Prezident İlham Əliyev gələcəyimiz olan gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşıb, onların təhsil, sosial məsələlərinin həlli, asudə vaxtlarının səmərəli təşkili, həmçinin idmanla məşğul olmaları üçün çox mühüm işlər görübdür. Belə komplekslərin istifadəyə verilməsi də bu istiqamətdə həyata keçirilən layihələrin tərkib hissəsidir. Bu baza gənclərin hərtərəfli inkişafı, onların fiziki cəhətdən sağlam olması kimi məsələlərdə vacib rol oynayır. Tədris idman bazası idmançılar üçün də geniş imkanlar açır.*

*Belə komplekslər Azərbaycanda idmanın kütləviliyinin təmin olunmasında, gənc nəsildə idmana olan marağın artırılmasında böyük əhəmiyyətə malikdir. Ölkədə digər sahələrdə olduğu kimi, təhsil və idman sferalarında da aparılan əsaslı islahatlar çərçivəsində belə komplekslərin istifadəyə verilməsi sübut edir ki, ölkəmizdə insan kapitalının inkişaf etdirilməsinə dövlət tərəfindən xüsusi diqqət yetirilir.*

*Zuğulba tədris idman bazasında yaradılan şəraitlə tanış olan dövlət başçısı kollektivə uğurlar arzuladı.*

## ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ XANIM KRİSTİN MUTTONEN İLƏ GÖRÜŞ

*8 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də ATƏT Parlament Assambleyasının Sədri xanım Kristin Muttoneni qəbul etmişdir.*

*ATƏT-in Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiyini bildirən Kristin Muttonen qurumun Azərbaycandakı nümayəndəsinin bu əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəmədiyini vurğuladı, Azərbaycanın ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin də çox fəal işlədiyini, mühüm təşəbbüslər və qətnamələr irəli sürdüyünü qeyd etdi. ATƏT Parlament Assambleyasının Sədri vəzifəsində Azərbaycana ilk dəfədir ki, səfər etdiyini diqqətə çatdıran qonaq prezident İlham Əliyevin təhsil müəssisələrinə göstərdiyi diqqətə toxunaraq, məktəb və təhsillə bağlı məsələlərin ölkə üçün ən vacib məsələlər sırasında olduğunu qeyd etdi, ölkəmizdə bu istiqamətdə çox işlərin görülməsinin, o cümlədən yeni məktəblərin tikilməsinin önəmini vurğuladı.*

*Azərbaycanda son vaxtlarda irəli sürülən təşəbbüslər və həyata keçirilən layihələr barədə fikrini bildirən prezident İlham Əliyev bunun eyni zamanda, beynəlxalq əməkdaşlığa da töhfə verdiyini qeyd etdi. Dövlət başçımız ölkəmizin artıq multikulturalizm və mədəniyyətlərarası dialoq sahəsində bir mərkəzə çevrildiyini vurğulayaraq, Azərbaycanda vaxtaşırı olaraq müxtəlif beynəlxalq təşkilatların iştirakı ilə böyük tədbirlərin keçirildiyini bildirdi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələyə toxunan prezident İlham Əliyev Azərbaycanın bu münaqişənin sülh və danışıqlar yolu ilə ədalətli həlli istiqamətində səylərini əsirgəmədiyini, Ermənistan tərəfinin isə danışıqlar prosesinin uzadılmasında maraqlı olduğunu vurğuladı.*

*Dövlət başçımız təhsil məsələlərindən danışaraq, bunun uşaqlar və gənclərin inkişafı üçün mühüm amil olduğunu qeyd etdi. Hər yeni dərs ili ərəfəsində Bakı şəhərində yeni tikilmiş və ya əsaslı təmir edilmiş məktəblərlə yaxından tanış olduğunu diqqətə çatdıran prezident İlham Əliyev Azərbaycanda təhsilin keyfiyyətinin də getdikcə artdığını, bu sahənin ölkəmizin prioritetləri sırasında yer aldığını vurğuladı, müstəqillik illəri ərzində respublikamızda əhalinin savadlılığını 100 faizə yaxın səviyyədə saxlamağa nail olduğumuzu məmnunluqla qeyd etdi.*

*Azərbaycan Prezidenti ATƏT Parlament Assambleyasının Sədri xanım Kristin Muttonenin ölkəmizə səfərinin uğurlu və səmərəli olacağına əminliyini ifadə etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesinin indiki vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NYETOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Meksika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 sentyabr 2017-ci il*

## QAZAXISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*9 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammitində iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Qazaxıstan Respublikasın Baş nazirinin müavini Yerbolat Dosayev və digər rəsmi şəxslər qarşıladılar.*

## «EXPO–2017 ASTANA» BEYNƏLXALQ SƏRGİSİNDƏ AZƏRBAYCANIN VƏ QAZAXISTANIN MİLLİ PAVİLYONLARI İLƏ TANIŞLIQ

*Astana*

*9 sentyabr  2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Qazaxıstanın paytaxtı Astanada keçirilən «EXPO–2017» Beynəlxalq sərgisində Azərbaycanın və Qazaxıstanın milli pavilyonları ilə tanış olmuşdur.*

*«EXPO–2017 Astana» milli şirkətinin rəhbəri Axmetjan Yessimov prezident İlham Əliyevə sərgi barədə məlumat verdi.*

*Bildirildi ki, iyunun 10-da açılan sərgidə Azərbaycan da daxil olmaqla, 115 ölkə, 22 beynəlxalq təşkilat təmsil edilir. «EXPO–2017 Astana» Beynəlxalq sərgisinin ABŞ, Fransa, Almaniya, Yaponiya, Braziliya, Kanada, İngiltərə, İspaniya, Çin kimi ölkələrdən sonra Qazaxıstanda keçirilməsi enerji sahəsi üzrə əməkdaşlığın daha da inkişafına, həmçinin iştirakçı ölkələrdə tətbiq olunan yeni texnologiyaların mübadiləsinə imkan yaradır. Ümumi sahəsi 174 hektar olan sərgidə gələcəyin texnologiyaları, dünyanın enerjiyə qənaəti və bu sahədə ən son ixtiralar, yeniliklər, nüvə enerjisi kimi enerji növləri nümayiş etdirilir.*

*Dövlətimizin başçısı əvvəlcə «Azərbaycan–Enerji Yurdu» (Azerbaijan–Land of Energy) milli pavilyonu ilə tanış oldu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «EXPO–2017 Astana» sərgisində öz iştirakını təsdiq edən ilk ölkələrdən olan Azərbaycanın pavilyonu ən çox ziyarət edilənlər sırasındadır. Sərgi müddətində Azərbaycan milli pavilyonunu ziyarət edənlərin sayı 1 milyonu ötüb.*

*Heydər Əliyev Mərkəzi və Energetika Nazirliyi tərəfindən təşkil edilən Azərbaycan pavilyonu «Enerji Yurdu – keçmişdən gələcəyə daşınan enerji» konsepsiyası əsasında hazırlanıbdır.*

*Sərgi çərçivəsində iyulun 9-da pavilyonda Azərbaycan milli günü təşkil edilib və pavilyonun rəsmi təqdimatı olubdur.*

*Milli pavilyonda Azərbaycanın tarixini, mədəniyyətini, turizm potensialını, ölkəmizin ev sahibliyi etdiyi mötəbər beynəlxalq idman yarışlarını əks etdirən film nümayiş olunur. Pavilyonda ziyarətçilərə Azərbaycanın tarixi və mədəni irsi, zəngin enerji potensialı, gələcək enerji mənzərəsi və dövlətimizin enerji siyasəti yüksək texnologiyalar vasitəsilə təqdim edilir. 3 hissədən ibarət pavilyonun giriş zalının dizaynı bükülmüş xalça formasındadır. Burada təqdim olunan foto və videomateriallar ziyarətçiləri Azərbaycan tarixinə səyahətə aparır. Bu hissədə Azərbaycan xalçaları, mətbəxi və musiqisinin incilərini yaxından görmək və Qobustan qayaüstü təsvirlərindən, «Atəşgah» məbədindən Bakının müasir memarlıq incilərinədək müxtəlif tarixi və modern tikililərlə tanış olmaq mümkündür.*

*Milli pavilyonda, həmçinin Azərbaycanın ənənəvi enerjidən alternativ enerjiyə qədər keçdiyi inkişaf prosesi, neft, neft məhsulları, qaz, elektrik, külək, günəş enerjisi ilə bağlı təqdimatlar nümayiş etdirilir. Külək enerjisinə həsr olunan eksponatlar və gələcəkdə Xəzər dənizinin Çilov və Pirallahı adaları arasında qurulması nəzərdə tutulan külək elektrik stansiyasının xəritəsi isə ölkənin gələcəyində külək enerjisinin əhəmiyyətini diqqətə çatdırır.*

*Pavilyonun ekspozisiyasında palçıq vulkanları, bioloji tullantıların təkrar emalının müasir texnologiyaları, yeni enerji mənbəyi kimi, qaz hidratları sahəsində Azərbaycanda aparılan araşdırma əsasında qurulan eksponat, karbohidrogen hasilatının ən uyğun ekoloji yolu kimi üfüqi qazma işləri və Azərbaycandan gətirilən real neft nümunələri təqdim olunur.*

*Xüsusilə də 3 model – «Çıraq-1» platformasının modeli və onu tamamlayan Xəzər dənizində neft çıxarılmasında istifadə*

*olunan orijinal qazma baltası, Azərbaycan istehsalı olan üçhissəli külək pəri və rotor qanadı ekspozisiyanın incisi hesab edilir.*

*Pavilyonda Azərbaycana virtual tur-səyahət də nəzərdə tutulub. İzləyicilər real xalça üzərində əyləşir, milli çalarlı musiqinin müşayiəti ilə 220 dərəcə bucaq altında əyilmiş videoproyeksiya vasitəsilə odlar və enerji yurduna fantastik uçuş edir, ölkənin rəngarəng mənzərələri ilə tanış olurlar. Bu isə sərgini izləyənlərdə böyük maraq oyadır.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev Qazaxıstan milli pavilyonu – «Nur Alem» ilə tanış oldu.*

*Qeyd edildi ki, sərginin ən böyük pavilyonu olan səkkizmərtəbəli «Nur Alem»in ümumi sahəsi 41,5 min kvadratmetrdir. Nəhəng kürə formasında hazırlanan pavilyonun hündürlüyü 100, diametri isə 80 metrdir.*

*Pavilyonun 1-ci mərtəbəsində Qazaxıstanın tarixi, mədəniyyəti, adət-ənənələri və turizm potensialını əks etdirən stendlər, sərgilər, tematik görüntülər nümayiş olunur. Burada «Gələcəyin muzeyi» sərgisi xüsusilə böyük maraq oyadır. Ziyarətçilər «Nur Alem» kompleksində, ümumiyyətlə, rəqəmsal, interaktiv və multimedia texnologiyaları vasitəsilə ölkənin perspektiv planları ilə tanış olmaq imkanı əldə edə bilirlər.*

*«Nur Alem» pavilyonunun digər mərtəbələrində enerjinin əsas mənbələrindən olan kosmos, günəş, biokütlə, külək, su və kinetika növləri nümayiş etdirilir. Pavilyonun 8-ci mərtəbəsində «Astana – gələcəyin şəhəri–2050» ekspozisiyası təqdim olunur. Pavilyonun fasadı, dizaynı isə «EXPO»nun ümumu görünüşünü tamamlamaqla, Astana sərgisinin simvoluna çevrilibdir.*

*Dövlət başçımız «Nur Alem» pavilyonunun 8-ci mərtəbəsindən Astana şəhərinin ümumi mənzərəsini seyr etdi.*

*Sonra prezident İlham Əliyev «EXPO–2017 Astana» Beynəlxalq sərgisinin Xatirə kitabına ürək sözlərini yazdı.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*Astana*

*10 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Astanada İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Həsən Ruhanini yenidən İran Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. Bildirdi ki, bu, İran xalqının prezident Həsən Ruhaninin həyata keçirdiyi siyasəti dəstəklədiyini göstərir. Prezident İlham Əliyev qeyd etdi ki, biz dost ölkə olaraq, İranın uğurlarına sevinirik.*

*Dövlətimizin başçısı İran Prezidenti ilə xeyli sayda keçirdiyi görüşləri məmnunluqla xatırladaraq, həmin görüşlər zamanı səmərəli danışıqların aparıldığını vurğuladı. Ölkələrimiz arasında imzalanan sənədlərin uğurla icra olunduğunu qeyd edən prezident İlham Əliyev Azərbaycan–İran dostluq əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.*

*Prezident Həsən Ruhani ikitərəfli münasibətlərin sürətlə inkişaf etdiyini vurğulayaraq dedi ki, biz ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədləri müvəffəqiyyətlə yerinə yetirmək üçün səylərimizi birləşdirməliyik. İranın yeni seçilən hökuməti də Azərbaycan ilə dostluq münasibətlərinin inkişaf etdirilməsi işinə sadiqdir.*

*Ölkələrimiz arasında uğurlu layihələrin həyata keçirildiyini xatırladan İran Prezidenti bu baxımdan dəmir yolu layihəsini xüsusi vurğuladı. Bildirdi ki, bu dəmir yolu layihəsi beynəlxalq*

*əməkdaşlıq baxımından mühüm əhəmiyyət daşıyır. Şimal–Cənub nəqliyyat dəhlizinin önəminə toxunan prezident Həsən Ruhani Azərbaycan–İran–Rusiya üçtərəfli əməkdaşlığın regional və beynəlxalq əməkdaşlıq baxımından əhəmiyyətini qeyd etdi. İran Prezidenti Azərbaycan, İran və Rusiya dövlət başçılarının növbəti üçtərəfli zirvə görüşünün Tehranda keçiriləcəyini bildirərək, prezident İlham Əliyevi həmin tədbirə dəvət etdi.*

*Ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu vurğulayan İran Prezidenti ümidvar olduğunu bildirdi ki, Xəzərin statusu ilə bağlı səylərimizi əlaqələndirərək, yaxın zamanlarda bu sahədə razılıq əldə etmək mümkündür.*

*Prezident Həsən Ruhani ölkəsi tərəfindən həyata keçirilən işlərdən danışaraq qeyd etdi ki, İran digər ölkələrlə birlikdə nəhəng layihələr həyata keçirir. İran həmin layihələrdə Azərbaycanın iştirakını və investisiya qoymasını alqışlayır. İran Prezidenti ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, elm sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.*

*Terrorizmin regionda sülhə və sabitliyə ciddi təhdid yaratdığını vurğulayan prezident Həsən Ruhani beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan ilə birgə səylərin artırılmasında maraqlı olduqlarını qeyd etdi.*

*Prezident İlham Əliyev İran Prezidentinin Tehranda keçiriləcək Azərbaycan, İran və Rusiya dövlət başçılarının növbəti üçtərəfli zirvə görüşünə dəvətini qəbul edərək, buna görə minnətdarlığını bildirdi. İran Prezidentinin fikirləri ilə razılığını ifadə edən dövlətimizin başçısı Bakıda keçirilən birinci üçtərəfli görüşün əhəmiyyətinə toxunaraq, Azərbaycanın bu əməkdaşlığa fəal surətdə öz töhfəsini verdiyini dedi.*

*Dövlətimizin başçısı Şimal–Cənub layihəsinə toxunaraq qeyd etdi ki, Azərbaycan bu layihənin fəal iştirakçısıdır. Prezident İlham Əliyev ölkələrimiz arasında dəmir yolu layihəsinin*

*əhəmiyyətini qeyd edərək, dəmir yolunun inşası işlərinin yaxın zamanlarda başa çatdırılacağına ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan–İran iqtisadi əlaqələri sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ölkəmizdə Ordubad Su-Elektrik Stansiyasının, həmçinin «İran Xodro» Avtomobil zavodunun, Əczaçılıq zavodunun inşasını iqtisadi əməkdaşlığımızın genişlənməsi baxımından yüksək qiymətləndirdi. Prezident İlham Əliyev bildirdi ki, İranın Azərbaycana investisiya qoyuluşu sahəsində də əməkdaşlıq üçün yaxşı imkanlar vardır. Azərbaycan Prezidenti qarşılıqlı ticarət dövriyyəsinin artırılmasının vacibliyini bildirdi, investisiya qoyuluşu sahəsində də səylərin gücləndirilməsinin zəruriliyini qeyd etdi.*

*Prezident İlham Əliyev terrorizmin region üçün yaratdığı təhlükəyə toxunaraq bildirdi ki, Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizəni vacib sayır və bu sahədə birgə əməkdaşlıq etməyə böyük önəm verir.*

*Prezident İlham Əliyev İran Prezidentini onun üçün münasib olan vaxtda ölkəmizə səfərə dəvət etdi.*

*İran Prezidenti dəvətə görə minnətdarlığını bildirdi.*

## İƏT-in ELM VƏ TEXNOLOGİYA ÜZRƏ BİRİNCİ SAMMİTİNDƏ İŞTİRAK

*Astana*

*10 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Qazaxıstanın paytaxtı Astanada İslam Əməkdaşlıq Təşkilatının (İƏT) elm və texnologiya üzrə birinci Sammitində iştirak etmişdir.*

*Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

*İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammiti Qazaxıstan prezidenti Nursultan Nazarbayevin ötən ilin aprelində İƏT-in İstanbulda keçirilən XIII Zirvə toplantısında irəli sürdüyü təşəbbüsə əsasən təşkil olunubdur.*

*İƏT-in elm və texnologiya üzrə birinci Sammitində təşkilata üzv olan 57 ölkənin dövlət və hökumət başçıları, elm və texnologiya məsələləri üzrə məsul nazirlər, müşahidəçi ölkələrdən, eləcə də beynəlxalq təşkilatlardan 80-dək nümayəndə heyəti iştirak edir.*

*Sammit müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlandı.*

*Sammitin açılış sessiyasında çıxış edən Qazaxıstan prezidenti Nursultan Nazarbayev son zamanlar islam ümmətinin çətin sınaqlarla üzləşdiyini, müsəlman ölkələrində ekstremist və terrorçu təşkilatların yayıldığını təəssüf hissi ilə qeyd edərək bildirdi ki, bundan daha çox islam ölkələri əziyyət çəkir. Eyni*

*zamanda, bu, Qərb ölkələrində islamofobiya meyillərinin, eləcə də müsəlmanlara qarşı zorakılığın artmasına səbəb olur. Myanmada müsəlmanlara qarşı yaşanan kütləvi zorakılıq hallarının islam ölkələrində dərin narahatlıq doğurduğunu ifadə edən Qazaxıstan Prezidenti bu problemin dialoq yolu ilə BMT-nin əsas prinsipləri əsasında həll edilməsinin vacibliyini bildirdi. Prezident Nursultan Nazarbayev islam ölkələrində elm və texnologiyanın inkişaf etdirilməsi üçün «G-20» formatında beynəlxalq forumun yaradılmasının vacibliyini qeyd etdi. Qazaxıstan dövlətinin başçısı bu sahədə Qərb ölkələri ilə səmərəli əməkdaşlığın qurulmasının vacibliyini bildirdi və bu baxımdan belə sammitlərin əhəmiyyətini vurğuladı. Nursultan Nazarbayev Astana Sammitinin islam dünyasında əməkdaşlığın inkişafına təkan verəcəyinə əminliyini ifadə etdi.*

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan müasir dövrdə cəmiyyətin tərəqqisində mühüm rol oynayan elm və texnologiyanın islam ölkələrində inkişaf etdirilməsinə həsr olunan sammitin önəmini vurğuladı. Türkiyənin son illər elm və texnologiya sahəsində təhsil imkanlarının genişləndirilməsinə, mühüm proqram və tədbirlərin reallaşdırılmasına xüsusi diqqət yetirdiyini söyləyən prezident Rəcəb Tayyib Ərdoğan ölkəsində İƏT-ə üzv dövlətlərdən 9500 tələbənin təhsil aldığını qeyd etdi. İslam aləmində son dövrdə yaşanan proseslərin müsəlman ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsi zərurətini ortaya çıxardığını qeyd edən prezident Rəcəb Tayyib Ərdoğan elm və texnologiyanın inkişaf etdirilməsi məqsədilə irəli sürülən təşəbbüslərə siyasi dəstəyin verilməsinin vacibliyini bildirdi.*

*Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn müsəlman ölkələrində də elm və texnologiyanın inkişafına xidmət edəcək belə bir sammitin təşkilini yüksək qiymətləndirdi. Bildirdi ki, bu sammitdə qəbul olunacaq qərarlar müsəlman ölkələrində elm və texnologiyanın inkişafı sahəsində görülən işlərə böyük təkan verəcək. Bu baxımdan elm və texnologiya*

*sahəsində nailiyyətlərin dəstəklənməsi çox böyük əhəmiyyət kəsb edir.*

*Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləziz elm və texnologiyanın inkişaf etdirilməsinin dayanıqlı tərəqqiyə nail olunması baxımından mühüm əhəmiyyət daşıdığını vurğuladı.*

*Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev islam dünyasının, o cümlədən Mərkəzi Asiya bölgəsinin orta əsrlərdə dünyanın elm mərkəzi olduğunu bildirdi. Özbəkistanda 300-dən çox elm və texnologiya mərkəzinin fəaliyyət göstərdiyini, ölkəsində bu sahənin inkişafına xüsusi diqqət yetirildiyini qeyd etdi.*

*Afrika ölkələri qrupu adından çıxış edən Qvineya Respublikasının Prezidenti Alfa Konde elm və texnologiyanın cəmiyyətin həyatının müasir formada təşkilinə şərait yaratdığını, istehsal imkanlarını artırdığını bildirdi. Qeyd etdi ki, son illər Afrika ölkələrində elm və texnologiya sahəsinin inkişafına böyük məbləğdə sərmayələr yatırılır.*

*İran İslam Respublikasının Prezidenti Həsən Ruhani elm və texnologiya sahəsində əməkdaşlığın islam ölkələrinin inkişafında mühüm rol oynadığını bildirdi. Müasir dövrdə islam dünyasının müxtəlif problem və çağırışlarla üzləşdiyini qeyd edən prezident Həsən Ruhani bütün bunların müsəlman aləmində böyük təəssüf hissi doğurduğunu vurğuladı. Dövlət başçısı bu problemlərin həll edilməsi, eləcə də müsəlman ölkələrində inkişafın təmin olunması üçün bütün istiqamətlərdə, o cümlədən elm və texnologiya sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd etdi.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif əl-Osaymin Astana Sammitinin islam dünyası üçün olduqca mühüm vaxtda keçirildiyini bildirdi. Müsəlman ölkələrinin inkişafı istiqamətində vacib addımların atılmasının zəruriliyini qeyd edən Yusif əl-Osaymin dedi ki, elm və texnologiyanın tərəqqisi*

*sahəsində atılan addımlar ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verəcəkdir.*

*Açılış sessiyasından sonra sammit işini «XXI əsrdə elmin cəmiyyətə artan təsiri» mövzusunda sessiya ilə davam etdirdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bismillahir-rəhmanir-rəhim.

Əziz dostlar!

Qazaxıstan torpağında yenidən olmağımdan çox məmnunam. İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammitinin keçirilməsini yüksək qiymətləndirirəm.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Son bir neçə ildə Azərbaycanda İƏT-ə üzv ölkələrin Xarici İşlər, Mədəniyyət, Turizm, Təhsil, Əmək və digər nazirlərinin 10-a yaxın görüşü keçirilibdir. Biz təşkilata üzv ölkələrlə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edirik. Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. İƏT də öz növbəsində, Azərbaycana böyük dəstək göstərir və ölkəmizin apardığı siyasətə yüksək qiymət verir. İƏT daim Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəkləyən ədalətli mövqe nümayiş etdirib və Azərbaycanın ədalətli mövqeyini əks etdirən bir çox qətnamələr qəbul edibdir.

Keçən il İslam Əməkdaşlıq Təşkilatının Türkiyədə keçirilmiş Zirvə görüşündə Ermənistanın Azərbaycana qarsı təcavüzü ilə əlaqədar Təmas qrupu yaradılıbdır. Biz bu qərarı çox yüksək qiymətləndiririk və bu ədalətli mövqeyə görə İƏT-ə və onun üzvlərinə təşəkkürümüzü bildiririk.

BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Ermənistan bu qətnamələri icra etmir və buna görə onlara qarşı sanksiyalar tətbiq olunmur. Bu, ikili standartlardır. Ermənistan 25 ildən çoxdur ki, Azərbaycanın əzəli, tarixi torpağı olan Dağlıq Qarabağı və digər 7 rayonumuzu işğal edib. Bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb, 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Ermənilər xalqımıza qarşı etnik təmizləmə siyasəti aparmışlar, Ermənistan hərbi cinayətlər törətmişdir.

1992-ci ildə Ermənistan Xocalı soyqırımını törədibdir. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı erməni faşistləri tərəfindən vəhşicəsinə qətlə yetirilib. Onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıb. 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən tanıyıb. Erməni vəhşiliyi bu gün də davam edir. Bu ilin iyul ayında 2 yaşlı azərbaycanlı körpə nənəsi ilə birlikdə ermənilər tərəfindən atılan mərmi nəticəsində həyatını itirmişdir. Bu vəhşilikdir. Bu, erməni faşizminin növbəti qanlı cinayətidir. İşğal edilmiş torpaqlarımızda Ermənistan rəhbərliyinin göstərişi ilə bütün məscidlərimiz dağıdılıb. Şuşa, Ağdam və digər şəhərlərimizin dağıdılmış məscidlərinin fotoşəkilləri erməni vandalizminin sənədli sübutudur.

Ermənistanda islamofobiya pik həddə çatıb. Ermənistan çox çalışır ki, müxtəlif müsəlman ölkələri ilə əlaqələrini genişləndirsin. Onların riyakar və yalan sözlərinə inanmaq lazım deyil. Azərbaycanda müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz.

Keçən ilin aprel ayında qəhrəman Azərbaycan Ordusu torpağımızın bir hissəsini erməni işğalçılarından azad edib. Biz orada yeni qəsəbə salmışıq. 150 evdən ibarət Cocuq Mərcanlı qəsəbəsində məktəb, tibb mərkəzi və məscid tikilib. Ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz işğaldan

azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində tikdik. Bu bir daha Azərbaycan xalqının yenilməz ruhunu, öz dini dəyərlərinə bağlılığını göstərir. Ermənilər məscidlərimizi dağıdıblar. Ancaq bu məscidlər bizim qəlbimizdə ucaldılıb, onları heç bir qüvvə dağıda bilməz.

Azərbaycan islam həmrəyliyi işinə böyük töhfə verir. Biz dünyanın müxtəlif bölgələrində baş qaldıran islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Biz müsəlmanlara qarşı törədilən cinayətləri, xüsusilə də son vaxtlar Myanmada Rohingiya müsəlmanlarına qarşı həyata keçirilən qətliam və kütləvi zorakılıq hallarını qətiyyətlə pisləyirik. Biz beynəlxalq təşkilatları, dünya ictimaiyyətini, siyasi və dini liderləri Myanmada baş verən hadisələrin qarşısının alınması üçün zəruri addımlar atmağa çağırırıq. Yeri gəlmişkən, bildirmək istəyirəm ki, sentyabrın 8-də Azərbaycan Rohingiya qaçqınlarına humanitar yardım – 100 ton ərzaq məhsulu göndəribdir.

2017-ci il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunub. Bu il Azərbaycanda IV İslam Həmrəyliyi oyunları keçirilibdir. Bu möhtəşəm dostluq və qardaşlıq bayramında 50-dən çox müsəlman ölkəsi iştirak edibdir. Əminəm ki, 3000-ə yaxın idmançı və minlərlə qonaq Bakıdan ən xoş təəssüratlarla ayrılıbdır.

Azərbaycan sürətlə inkişaf edən ölkədir. Son 14 il ərzində ölkəmizin ümumi daxili məhsulu 3 dəfədən çox artıb, 1 milyon 600 min iş yeri yaradılıb, yoxsulluq 5 faiz səviyyəsinə düşübdür. Savadlılıq isə 100 faizə yaxındır. Azərbaycanda elm və müasir texnologiyalar uğurla inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir.

Çıxışımın sonunda qeyd etmək istəyirəm ki, Azərbaycan bundan sonra da İƏT-in fəal üzvü kimi, islam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini verəcəkdir. Sağ olun.

* * *

*Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani çıxışında müsəlman ölkələrində davamlı iqtisadi inkişafa nail olunmasında sabitliyin təmin edilməsinin önəmini xüsusi vurğuladı.*

*Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn müsəlman ölkələrinin inkişafında qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin, mövcud potensialdan səmərəli istifadənin vacibliyini bildirdi. Prezident Məmnun Hüseyn islam dünyasında elmin və texnologiyanın inkişafında mövcud elmi potensialdan istifadə olunmasının önəmini qeyd etdi, bu prosesdə alimlərin rolunu yüksək qiymətləndirdi.*

*Banqladeş Xalq Respublikasının Prezidenti Abdul Hamid islam ölkələrində elm və texnologiyanın inkişafının enerji resurslarından və kosmik peyklərdən birgə istifadə, ətraf mühitin mühafizəsi və digər istiqamətlərdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə verəcəyini bildirdi.*

*İndoneziya Respublikasının vitse-prezidenti Yusuf Kalla XXI əsrdə elm, texnologiya və innovasiyaların ölkələrin inkişafında mühüm rol oynadığını qeyd edərək, belə bir sammitin vaxtında təşkil olunduğunu vurğuladı. O, İndoneziyada nanotexnologiya, mikroorqanizmlərin öyrənilməsi, kosmik sənaye və digər sahələrdə mühüm proqramların həyata keçirildiyini bildirdi.*

*Komor Adaları İttifaqının vitse-prezidenti Abdallah Said Sarouma islam dünyasının inkişafında elm və texnologiyanın önəmini qeyd etdi və bu baxımdan sammitin əhəmiyyətini yüksək qiymətləndirdi.*

*Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç İƏT-in elm və texnologiya üzrə birinci Sammitinin keçirilməsinin tarixi hadisə olduğunu bildirdi. Müsəlman ölkələrinin gənclərin sayına və sürətli artımına görə dünyada ilk sıralarda olduğunu vurğulayan Bakir İzetbeqoviç bu baxımdan gənclərin təhsil imkanlarının genişləndirilməsinin, fəallıqlarının artırılmasının önəmini diqqətə çatdırdı.*

*Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro çıxışında bildirdi ki, sammitdə müzakirə olunan mövzular cəmiyyətin inkişafı baxımından mühüm rol oynayır. Bu həm də regional və qlobal əməkdaşlığın inkişafı baxımından geniş perspektivlər açır.*

*Səudiyyə Ərəbistanı Krallığının Enerji, Sənaye və Təbii Sərvətlər naziri Xalid əl-Falih qeyd etdi ki, elmin və texnologiyanın inkişafı ölkələrimizin rifahı ilə yanaşı, qlobal iqtisadiyyatın da tərəqqisinə böyük töhfə verə bilər. O bu baxımdan mühüm kəşflərin və nailiyyətlərin dəstəklənməsində beynəlxalq əməkdaşlığın vacib rol oynadığını qeyd etdi.*

* * *

*Tədbirdə islam dünyasının elmi və texnoloji inkişafı üçün siyasi dəstək prosesinin başlanmasını nəzərdə tutan Astana Bəyannaməsi qəbul edildi.*

*Sammit çərçivəsində «Davamlı inkişafda elm və texnologiyaların rolu», «Müasir iqtisadiyyatda rəqabət və innovasiyalar», «Elm və texnologiyalar sahəsində əməkdaşlığın inkişafı» mövzularında sessiyalar keçiriləcək, zəngin təbii resurslara malik olan müsəlman ölkələrində yoxsulluq, aclıq, işsizlik problemlərinə, eləcə də elm, təhsil, texnologiya sahələrində inkişaf məsələlərinə dair müzakirələr aparılacaqdır. Bununla yanaşı, müsəlman ölkələrində gənclərin üzləşdikləri problemlər, onların elm və təhsil sahələrinə daha geniş cəlb edilməsi, habelə zorakı ekstremizm, terrorizm ilə mübarizə məsələləri ətrafında da fikir mübadiləsi aparılacaqdır.*

## BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN ÜZVÜ BAKİR İZETBEQOVİÇ İLƏ GÖRÜŞ

*Astana*

*10 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Astanada Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların indiki vəziyyəti və perspektivləri müzakirə olundu.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 10-da Qazaxıstan Respublikasına işgüzar səfəri başa çatdı.*

## SƏBAİL RAYONUNDA 239 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*11 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Bakının Səbail rayonunun Badamdar qəsəbəsində 239 saylı tam orta məktəbin binasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısına məktəbin binasında görülən işlər barədə məlumat verildi.*

*Məktəbin əsas korpusu 1960-cı ildə, ikinci korpusu isə 2007-ci ildə inşa olunub. Hər iki korpusda əsaslı təmir işləri yüksək keyfiyyətlə yerinə yetirilib. Məktəbdə 53 sinif, 2 informatika otağı, fizika, kimya, biologiya laboratoriyaları, idman və akt zalları, hərbi otaq və kitabxana vardır. Təhsil ocağında, həmçinin «Sağlam təhsil» və tibb otaqları da yaradılıb. Sinif otaqlarının hamısı zəruri tədris vəsaitləri ilə təchiz edilib. Hazırda məktəbdə 1180 şagird təhsil alır. Təhsil müəssisəsində şagirdlərin idmanla məşğul olmaları üçün hərtərəfli şərait yaradılıb. Təmir işləri çərçivəsində idman zalı və idman meydançası da yüksək səviyyədə yenidən qurulubdur.*

*Azərbaycanda təhsil sahəsində aparılan islahatların əsasını «Təhsil millətin gələcəyidir» – deyən ümummilli lider Heydər Əliyev qoyub. Ulu öndərin bu sahədə başladığı siyasəti prezident İlham Əliyev uğurla davam etdirərək, təhsil sferasını yeni inkişaf mərhələsinə çıxarıb. Son illər ölkəmizdə təhsillə bağlı mühüm tədbirlər həyata keçirilib, Azərbaycan Prezidenti tərəfindən yeni dövlət proqramlarının qəbul edilməsi haqqında sərəncamlar imzalanıb. Yeni məktəb binalarının inşası və*

*mövcudlarının müasir səviyyədə yenidən qurulması Azərbaycanda təhsil sahəsinə göstərilən dövlət qayğısının bir hissəsidir. Belə layihələrin icrası şagirdlərə müasir sinif otaqlarında təhsil almaq, müəllimlərə isə yüksək iş şəraitində tədrislə məşğul olmaq imkanı yaradır.*

*Təmir zamanı 239 saylı tam orta məktəbin həyatində də geniş abadlıq işləri görülüb, yaşıllıqlar salınıbdır.*

*Məktəbin binasında yaradılan şəraitlə tanış olan dövlət başçımız kollektivə uğurlar arzuladı.*

## SƏBAİL RAYONUNUN 162 SAYLI TAM ORTA MƏKTƏB BİNASINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*11 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Səbail rayonunun 20-ci Yaşayış sahəsində 162 saylı tam orta məktəb binasının əsaslı təmirdən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlət başçısına təmir və yenidən qurulma işləri ilə bağlı məlumat verildi.*

*Bu məktəbin böyük tarixi keçmişi vardır. Belə ki, təhsil ocağı 1917-ci ildə təsis olunub və elə həmin ildən bu binada fəaliyyətə başlanılıb. Məktəb binasında indiyədək əsaslı təmir işləri aparılmamışdı. Təhsil ocağının 41 sinif otağından və müxtəlif fənn kabinetlərindən ibarət üçmərtəbəli binasında yenidənqurma işləri qısa zamanda və müasir standartlara uyğun olaraq yüksək keyfiyyətlə həyata keçirilibdir.*

*Dövlət başçısı sinif otaqlarında yaradılan şəraitlə tanış oldu.*

*Prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına diqqət və qayğısının nəticəsidir ki, son illər ərzində Azərbaycanın hər yerində olduğu kimi, paytaxtın Səbail rayonunda da təhsil müəssisələri, onların əsaslı təmiri və təchizatı sahəsində böyük işlər görülüb. Bu ilin yay aylarında rayondakı 2 orta məktəbdə əsaslı təmir və yenidən qurulma işləri aparılıb. Onlardan biri 162 saylı tam orta məktəbin binasıdır. Məktəbdə tədrisin müasir səviyyədə qurulması üçün hər cür şərait yaradılıb. Tədris müəssisəsi lazımi avadanlıqlarla tam təchiz olunubdur.*

*Dövlət başçısı məktəbdə yaradılan «Eko sinif»lə də tanış oldu. Belə siniflərin yaradılmasında məqsəd şagirdləri ekoloji cəhətdən maarifləndirmək, onların ətraf mühitin qorunması işində məsuliyyət hisslərini artırmaqdan ibarətdir. Təhsil ocağının gənclərin çağırışaqədər hazırlığı kabineti isə yüksək səviyyədə qurulub, lazımi ləvazimat və stendlərlə təmin olunub, burada mini kazarma yaradılıbdır.*

*Qeyd edək ki, 162 saylı tam orta məktəbdə tədris ikinövbəli rejimdə aparılır. Burada Azərbaycan və rus bölmələrində 1400-ə yaxın şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 105 müəllim məşğul olur.*

*Fəaliyyət göstərdiyi illərdə bir sıra uğurlara imza atan bu təhsil ocağının həyatində də geniş abadlıq və quruculuq işləri görülübdür.*

## VYETNAM KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN KATİBİ ÇİONQ TXİ MAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Siyasi Büronun üzvü, Vyetnam KP MK-nın xalq kütlələri ilə iş şöbəsinin müdiri xanım Çionq Txi Mayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev ölkələrimiz, eləcə də Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bir neçə il bundan əvvəl Vyetnama dövlət səfərini və səfər zamanı Azərbaycanın ali məktəblərinin vyetnamlı məzunları ilə görüşünü məmnunluqla xatırlatdı. Dövlət başçımız qeyd etdi ki, bu çox səmimi bir görüş idi və sonra onlar Bakıya dəvət olundular, burada yaşadıqları və təhsil aldıqları yerləri ziyarət etdilər. Prezident İlham Əliyev eyni zamanda, Vyetnamın sabiq prezidentinin Azərbaycana səfərinin əhəmiyyətinə də toxundu və bütün digər səviyyələrdə əlaqələrin möhkəmləndirilməsinin önəmini qeyd etdi. Dövlət başçımız beynəlxalq təşkilatlarda əməkdaşlığın, iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin, ticarət dövriyyəsinin artırılmasının, təhsil sahəsində ənənəvi əməkdaşlığın, ölkələrimiz arasında mövcud olan tarixi və mədəni əlaqələrin genişləndirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, xanım Çionq Txi Mayın Azərbaycana səfəri ölkələrimiz və xalqlarımız*

*arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.*

*Xanım Çionq Txi May ilk növbədə, dövlət başçımıza və Azərbaycan xalqına son illər əldə edilmiş böyük nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. O qeyd etdi ki, ölkələrimiz və xalqlarımız arasında ənənəvi dostluq münasibətləri mövcuddur. Çionq Txi May bu münasibətlərin əsasının Vyetnam xalqının lideri Xo Şi Min və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu məmnunluqla vurğuladı. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılmasının 25 illiyinin tamam olacağını qeyd edən vyetnamlı qonaq Azərbaycanın müxtəlif dövrlərdə ölkəsinə verdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi. Xanım Çionq Txi May səfər proqramı çərçivəsində Heydər Əliyev Mərkəzində olduğunu vurğulayaraq bildirdi ki, biz Azərbaycanın müstəqil dövlət kimi, bu səviyyəyə çatmasında ulu öndərin rolunun bir daha şahidi olduq. Qonaq qeyd etdi ki, Azərbaycan Vyetnamı Cənub-Şərqi Asiyada özünün etibarlı tərəfdaşı hesab edə bilər.*

*Görüşdə ölkələrimiz arasında sərmayə qoyuluşu, enerji, nəqliyyat, təhsil və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## NƏSİMİ RAYONUNDA 268 SAYLI XÜSUSİ MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*11 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Bakının Nəsimi rayonunda 268 saylı xüsusi məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Məktəbin binasında görülən işlərlə bağlı dövlət başçısına məlumat verildi.*

*Bildirildi ki, bu məktəbdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar təhsil alırlar. Məktəb 1927-ci ildən fəaliyyət göstərir. Burada da əsaslı təmir işləri prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı sərəncamla təsdiq edilmiş Dövlət Proqramının tədbirlər planının icrası ilə əlaqədar aparılıb. Məktəbin ikimərtəbəli binasında 23 sinif otağı vardır. Burada uşaqlara gündə 2 dəfə yemək verilir. Təhsil müəssisəsinin bütün otaqları zəruri əyani tədris vəsaitləri ilə təchiz olunub. Bundan başqa, təhsil ocağının informatika otağı və gimnastika zalı da şagirdlərin ixtiyarına veriləcəkdir. Məktəbin tədris proqramına ümumilikdə 900 şagird cəlb edilibdir.*

*Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı belə müəssisələrin müasir səviyyədə yenidən qurulması onu göstərir ki, Azərbaycan dövləti təhsilin inkişafına və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqətlə yanaşır. Bu layihənin həyata keçirilməsi eyni zamanda, ölkədə bütün sosial təbəqələrə aid vətəndaşların təhsil almaları üçün yaradılan şəraiti aydın nümayiş etdirir.*

## TACİKİSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ RUSTAM SOLİYEV İLƏ GÖRÜŞ

*12 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Tacikistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Rustam Soliyevin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Rustam Soliyev Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Rustam Soliyev etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirdi və qeyd etdi ki, Tacikistan Prezidenti ilə keçirdiyi görüşlər zamanı əməkdaşlığımızın daha da genişlənməsi ilə bağlı səmərəli müzakirələr aparılıb. İqtisadi əlaqələrimizə toxunan dövlət başçımız ölkələrimizin nəqliyyat sistemləri və müxtəlif istiqamətlərdə yükdaşımaları ilə bağlı yeni imkanların olduğunu qeyd etdi. Dövlət başçımız diqqətə çatdırdı ki, humanitar, mədəni sahələrdə də əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı potensial mövcuddur və bu sahələrdə əlaqələr uğurla inkişaf edir. Prezident İlham Əliyev Rustam Soliyevin səfirlik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycan Respublikasında səfir təyin olunmasından şərəf hissi duyduğunu vurğulayan Rustam Soliyev Tacikistan prezidenti Emoməli Rəhmonun salamlarını və yaxın zamanlarda dövlətimizin başçısı ilə görüşmək arzusunu prezident İlham Əliyevə çatdırdı.*

*Azərbaycan ilə Tacikistan arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin bu il qeyd olunacağını söyləyən səfir ikitərəfli dostluq münasibətlərimizin əsasının ümummilli lider Heydər Əliyev və prezident Emoməli Rəhmon tərəfindən qoyulduğunu vurğulayaraq, bu siyasətin bu gün də uğurla davam etdirilməsi ilə bağlı prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Səfir qeyd etdi ki, siyasi əlaqələrimiz yüksək səviyyədədir və ölkələrimiz BMT, ATƏT, MDB çərçivəsində sıx əməkdaşlıq həyata keçirir.*

*Görüşdə ölkələrimiz arasında enerji, kənd təsərrüfatı, təhsil, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparıldı.*

*Dövlət başçımız Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Tacikistan Prezidentinə çatdırmağı xahiş etdi.*

## MACARISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ VİKTOR SZEDERKENYİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Macarıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Viktor Szederkenyinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Viktor Szederkenyi Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Viktor Szederkenyi etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Macarıstan arasında ikitərəfli dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu bildirdi. Macarıstanın Azərbaycan üçün çox cəlbedici ölkə olduğunu qeyd edən dövlətimizin başçısı qarşılıqlı səfərlərin getdikcə artdığını məmnunluqla vurğuladı. Siyasi əlaqələrimizin çox yaxşı səviyyədə olduğunu bildirən prezident İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orban ilə müntəzəm görüşlərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Dövlət başçımız bildirdi ki, Macarıstan Azərbaycan üçün təkcə Avropada deyil, dünyada ən yaxın dost və tərəfdaş ölkələrdən biridir.*

*İqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsinin önəmini qeyd edən prezident İlham Əliyev ticarət dövriyyəsinin artırılması istiqamətində birgə səylərin zəruriliyini vurğuladı və bildirdi ki, investisiya, nəqliyyat, enerji, əczaçılıq, kənd təsərrüfatı sektorlarında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar vardır. Humanitar və mədəniyyət sahələrində də əməkdaşlığın uğurla*

*davam etdiyini vurğulayan prezident İlham Əliyev qeyd etdi ki, ölkələrimizdə artıq bir sıra qarşılıqlı mühüm mədəni tədbirlər keçirilib ki, bu da xalqlarımızın bir-birini daha da yaxşı tanıması və dostluq əlaqələrinin inkişaf etdirilməsi işinə xidmət edir.*

*Səfir Macarıstanın Baş naziri Viktor Orbanın salamlarını dövlətimizin başçısına çatdıraraq qeyd etdi ki, Baş nazir Azərbaycan Prezidenti ilə şəxsi dostluq əlaqələrini yüksək qiymətləndirir. O bildirdi ki, bu əlaqələr bir səfir kimi, əməkdaşlığımızın daha da inkişaf etdirilməsi ilə bağlı onun gələcək fəaliyyətinə istiqamət verir. Macarıstanlı diplomat iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün çox böyük imkanların olduğunu bildirdi. Sonra səfir dedi:*

– Mən sizin gözəl ölkənizdə səfir kimi fəaliyyət göstərməyimdən həddən artıq məmnunluq hissi keçirirəm. Sizin ölkəniz, xalqınız, mədəniyyətiniz haqqında daha çox bilgi əldə etmək əzmindəyəm.

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin müxtəlif istiqamətlərdə daha da genişləndirilməsinin və Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlıq əlaqələrini özündə əks etdirən sənədin hazırlanmasının önəmi qeyd olundu və əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlət başçımız Macarıstanın Baş naziri Viktor Orbanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Macarıstanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

## AVROPA İTTİFAQININ AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİNİN YENİ RƏHBƏRİ KESTUTİS YANKAUSKAS İLƏ GÖRÜŞ

*12 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Kestutis Yankauskasın etimadnaməsini qəbul etmişdir.*

*Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri Kestutis Yankauskas Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Kestutis Yankauskas etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas dedi:*

– Mən qarşılıqlı faydaya, ümumi dəyərlərə və bütün sahələrdə qarşılıqlı maraqlara əsaslanan Avropa İttifaqı–Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf etdirilməsi istiqamətində səylərimi əsirgəməyəcəyəm. Bu, təkcə enerji sahəsi deyil, eyni zamanda, nəqliyyat, iqtisadiyyatın şaxələndirilməsi, müasir dövlət və cəmiyyət qurulması kimi sahələri əhatə edir. Biz Azərbaycanın regionda sabit və etibarlı tərəfdaş kimi rolunu, tolerant, multikultural və dünyəvi cəmiyyət quran ölkə kimi əhəmiyyətini yüksək qiymətləndiririk. Cənab Prezident, mən əlaqələrimizin bundan sonra da möhkəmləndirilməsi işində Sizinlə qarşılıqlı etimada əsaslanan əməkdaşlığı səbirsizliklə gözləyirəm.

*Ölkəmiz və əməkdaşlığımızın perspektivləri ilə bağlı xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçımız qeyd etdi ki, biz Av-*

*ropa İttifaqı ilə tərəfdaşlığımızın səviyyəsindən çox məmnunuq və Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Əlbəttə ki, əməkdaşlığımız yalnız ticarət və energetika sahələri ilə məhdudlaşmır, geniş sahələri əhatə edir. Brüsselə son səfərini uğurlu səfər kimi dəyərləndirən dövlət başçımız qeyd etdi ki, səfərindən dərhal sonra Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni sənədin üzərində fəal danışıqlar prosesi başlanıldı və bu danışıqlar hazırda uğurla davam etdirilir. Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın çox geniş gündəliyə malik olduğunu qeyd edərək, siyasi əlaqələr, ölkəmizin demokratik inkişafı, energetika, nəqliyyat, təhlükəsizlik, humanitar, təhsil, mədəniyyət, multikulturalizm ilə bağlı məsələlər ətrafında səmərəli müzakirələrin aparıldığını vurğuladı. Dövlət başçımız qeyd etdi ki, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yüksək səviyyədə qarşılıqlı anlaşma mövcuddur. Prezident İlham Əliyev bildirdi ki, biz bu əməkdaşlığa önəm veririk və Avropa İttifaqına üzv dövlətlərin üçdəbirindən çoxu ilə artıq strateji tərəfdaşlıq haqqında sənədlər, bəyannamələr imzalanıb və ya qəbul olunubdur. Bunun əməkdaşlıq üçün çox gözəl əsas olduğunu vurğulayan prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında yeni müqavilənin yaxın zamanlarda imzalanacağına əminliyini bildirdi.*

*Dövlət başçımız Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyinin dəyişməz qalacağına ümidvar olduğunu ifadə etdi.*

*Prezident İlham Əliyevə minnətdarlığını bildirən Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas uzun illər təhlükəsizlik siyasəti ilə məşğul olduğunu vurğulayaraq, bu sahədə əldə etdiyi bilik və təcrübəsindən Azərbaycanın ərazi bütövlüyü kimi çox mühüm məsələnin həllində də istifadə edəcəyini bildirdi. Prezident İlham Əliyevin Brüsselə səfərinə və tərəfdaşlıq əlaqələrini özündə əks etdirən sənədə toxunan səfir bunun əhəmiyyətini vurğuladı və müqavilə ilə bağlı Brüsseldə fəal iş aparıldığını qeyd etdi.*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NYETOYA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 sentyabr 2017-ci il*

## BEYNƏLXALQ VALYUTA FONDUNUN ORTA ŞƏRQ VƏ MƏRKƏZİ ASİYA DEPARTAMENTİNİN DİREKTORU CİHAD AZURUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Beynəlxalq Valyuta Fondunun (BVF) Orta Şərq və Mərkəzi Asiya Departamentinin direktoru Cihad Azurun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Beynəlxalq Valyuta Fondunun Orta Şərq və Mərkəzi Asiya Departamentinin direktoru Cihad Azur Azərbaycana səfəri çərçivəsində İçərişəhərdə olduqlarını, bu tarixi irsin yüksək səviyyədə qorunub saxlanılmasının və İçərişəhərin gözəlliyinin onlarda dərin təəssürat yaratdığını bildirdi.*

*İçərişəhərin YUNESKO-nun ümumdünya irs siyahısına daxil edildiyini qeyd edən prezident İlham Əliyev bu irsin qorunmasına dövlətin xüsusi diqqət göstərdiyini vurğuladı.*

*Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında uzun illər davam edən əməkdaşlığı yüksək qiymətləndirən dövlət başçımız ölkəmizin bu əməkdaşlığın davam etdirilməsində maraqlı olduğunu diqqətə çatdırdı. Azərbaycanda dövlət idarəçiliyi sistemində həyata keçirilən islahatların önəmini nəzərə çatdıran prezident İlham Əliyev biznes mühitinin və sərmayə qoyuluşunun asanlaşdırılması və daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin əhəmiyyətini qeyd etdi. Dövlət başçımız Azərbaycanda təhsil sisteminin modernləşdirilməsi, savadlı və bacarıqlı kadr potensialının artırılması istiqamətində görülən işlərdən və*

*ölkənin bank sektorunda aparılan islahatlardan danışdı. 2017-ci ili maliyyə sabitliyi ili kimi qiymətləndirən prezident İlham Əliyev qarşıdakı 2018-ci ildə iqtisadi artımın təmin edilməsi ilə bağlı təsirli tədbirlərin görüldüyünü diqqətə çatdırdı.*

*Cihad Azur prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatların Beynəlxalq Valyuta Fondu tərəfindən yüksək qiymətləndirildiyini bildirdi. O, neftin qiymətinin kəskin aşağı düşməsi ilə bağlı dünya iqtisadiyyatında yaranan fəsadların Azərbaycan iqtisadiyyatına təsirinin aradan qaldırılması, makroiqtisadi vəziyyətin sabitləşdirilməsi istiqamətində hökumətin atdığı addımların əhəmiyyətini xüsusi vurğuladı. Manatın möhkəmləndirilməsi və büdcənin yığcamlaşdırılması prosesinin davam etdirilməsi və ölkə iqtisadiyyatında struktur islahatlarının həyata keçirilməsi istiqamətində görülən işlərin önəmini qeyd edən Cihad Azur iqtisadiyyatın şaxələndirilməsinin, qeyri-neft sektorunun daha da inkişaf etdirilməsinin və ölkə iqtisadiyyatının postneft dövrünə hazırlanmasının vacibliyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «AZƏRİ», «ÇIRAQ» VƏ «GÜNƏŞLİ» NEFT YATAQLARI ÜZRƏ YENİ SAZİŞİN İMZALANMASI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*14 sentyabr 2017-ci il*

*Bakıda Heydər Əliyev Mərkəzində sentyabrın 14-də Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» neft yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və «Hasilatın Pay Bölgüsü» haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etdilər.*

*Dövlət başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. «Azəri–Çıraq–Günəşli» nəhəng neft yataqları blokunun işlənilməsində yeni dövr başlanır. Bu tarixi mərasimdə bizimlə bərabər iştirak etmək üçün xaricdən gələn bütün qonaqları səmimiyyətlə salamlayıram. Onların bu tədbirdə iştirakı bir daha bugünkü tədbirin önəmini əks etdirir.

Bu gün imzalanacaq müqavilənin ölkəmiz üçün çox böyük əhəmiyyəti vardır. «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsi 2050-ci ilə qədər uzadılır. Yeni imzalanacaq müqavilə

Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış müqavilə də bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə müqavilə imzalanır. Bunun bir neçə əsas parametrlərini diqqətinizə çatdırmaq istəyirəm: müqavilə imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək; SOCAR-ın «AzAÇG» şirkəti podratçı kimi, müqavilənin icrasında iştirak edəcək; SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcəkdir. Bunlar əsas şərtlərdir. Əlbəttə ki, müqavilənin bir çox müddəaları vardır. Əsas şərtlər artıq göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu müqavilənin çox böyük əhəmiyyəti vardır.

Qeyd etməliyəm ki, 23 il ərzində müqavilənin icrası da çox uğurlu idi. Bu illər ərzində «Azəri–Çıraq–Günəşli»dən 436 milyon ton neft hasil edilmişdir. Yaxşı xatırlayıram ki, 1994-cü ildə müqavilə imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Bugünkü məlumat – əminəm ki, bu, son məlumat deyil, ehtiyatlar daha da artacaq – onu göstərir ki, hələ də «Azəri–Çıraq–Günəşli»də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır. Yenə də qeyd etmək istəyirəm ki, bu, ilkin hesablamalardır. Əminəm ki, müqavilənin icrası müddətində bu rəqəm daha da artacaqdır.

23 il bundan əvvəl ölkəmizin tarixində çox əlamətdar hadisə baş vermişdir. Bakının Gülüstan sarayında ulu öndər Heydər Əliyevin sədrliyi ilə «Əsrin müqaviləsi»nin imzalanması mərasimi keçirildi və bununla da ölkəmizin uğurlu inkişafına təkan verildi. O günü mən çox yaxşı xatırlayıram, o gün mənim gözümün qabağındadır. Doğrudan da Azərbaycan öz tarixində ən önəmli addımlarından birini atdı. «Əsrin müqaviləsi»nin imzalanması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Azərbaycan 1991-ci ildə müstəqilliyə qovuşanda çox ağır problemlərlə üzləşmişdi. Xüsusilə 1992-ci ildə dövlət çevrilişindən sonra hakimiyyəti qanunsuz zəbt etmiş AXC–Müsavat cütlüyünün yarıtmaz

fəaliyyəti nəticəsində ölkəmiz uçurum kənarında idi. İqtisadi tənəzzül, sənaye potensialının azalması, inflyasiya 1000 faizlərlə ölçülürdü, ölkəmizdə iqtisadi perspektivlər, demək olar ki, yox idi, siyasi, hərbi, iqtisadi böhran, anarxiya, xaos yaşanırdı. Laxlayan hakimiyyəti saxlamaq üçün ovaxtkı hakimiyyəti qanunsuz zəbt etmiş hakimiyyət silaha əl atdı, Azərbaycanda vətəndaş müharibəsinə start verdi, qardaş qanı axıdıldı. Ölkəmizin ikinci böyük şəhəri – Gəncə AXC–Müsavat hakimiyyəti tərəfindən bombalanmaq təhlükəsi, Azərbaycan isə böyük faciə ilə üz-üzə idi.

Bununla paralel olaraq, Ermənistan ölkəmizə qarşı işğalçılıq siyasəti aparırdı və bu siyasət nəticəsində torpaqlarımızın böyük hissəsi işğal altına düşmüşdür, 1 milyondan çox qaçqın və məcburi köçkünümüz var idi. Bax, belə bir ağır vəziyyətdə xalq yeganə düzgün seçim etdi, Heydər Əliyevə müraciət edərək, onu hakimiyyətə dəvət etdi və onun 1993-cü ildə prezident vəzifəsinə seçilməsindən sonra vəziyyət yavaş-yavaş düzəlməyə başladı. İqtisadi, siyasi islahatlar aparılmağa başlanıldı, bütün qanunsuz silahlı birləşmələr tərk-silah edildi, ölkəmiz demokratiya yoluna qədəm qoydu, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi.

Əlbəttə, ölkəmizin inkişafı üçün xarici sərmayə lazım idi. Çünki o vaxt xəzinə boş idi, inkişaf üçün də heç bir imkan yox idi. Belə bir vəziyyətdə böyük xarici neft şirkətlərini inandırmaq, onları Azərbaycana cəlb etmək, əlbəttə, böyük müdriklik, bacarıq, səriştə və siyasi təcrübə tələb edirdi. Heydər Əliyev bu tarixi missiyanı uğurla icra etdi. Azərbaycan o vaxt çox riskli bir yer sayılırdı və belə bir vəziyyətdə 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması, ölkəmizə böyük sərmayə qoyuluşunun cəlb edilməsi doğrudan da tarixi nailiyyətdir.

O gündən 23 il keçir. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf etmişdir. Bu gün ölkəmiz dünyada ayaqda möhkəm dayanan ölkə kimi tanınır. Bu gün bizim beynəlxalq əlaqələrimiz çox genişdir. Azərbaycan beynəlxalq aləmdə çox yüksək və müsbət reputasiyaya layiq olan ölkədir. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycanı BMT Təhlükəsizlik

Şurasının qeyri-daimi üzvü seçmişdir və bu da beynəlxalq aləmin bizə olan rəğbətinin, hörmətinin, dəstəyinin əlaməti idi.

Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində çox önəmli addımlar atılıbdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə də hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı vardır. Son illər ərzində biz bu potensialı gücləndirmişik və bu potensialın inkişafında «Əsrin müqaviləsi»nin xüsusi rolu var dır. İndi təsəvvür etmək çətindir ki, əgər 1994-cü ildə «Əsrin müqaviləsi» imzalanmasaydı, biz hansı vəziyyətlə üzləşə bilərdik. Biz bu gün müstəqil siyasət aparan ölkələrdənik. Bunun təməlində bizim həm güclü siyasi iradəmiz, həm də iqtisadi müstəqilliyimiz dayanır. Biz heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparmaq imkanlarımız ilk növbədə, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanları da bizə «Əsrin müqaviləsi» yaratdı.

O vaxtdan bu günə qədər Heydər Əliyev neft strategiyası uğurla icra edilir, zənginləşir. Yeni önəmli sərmayələr cəlb edilir, addımlar atılır. Əgər biz 1994-cü ildən neft-qaz sahəsində xronologiyaya baxsaq görərik ki, bu ancaq uğurlar xronologiyasıdır.

1994-cü ildə «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə müqavilə imzalandı. 1996-cı ildə dünyanın ən böyük qaz yataqlarından biri olan «Şahdəniz» yatağı üzrə müqavilə imzalandı. 1997-ci ildə «Çıraq» platformasından ilk neft çıxarıldı. Bu da dünyanın neft tarixində nadir hadisələrdəndir. 1994-cü ildə müqavilə imzalanır, 3 ildən sonra artıq ilk neft çıxarılır. 1998-ci ildə həmin bu neft fəaliyyəti bərpa edilmiş Bakı–Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlandı. 1999-cu ildə Qara dənizin digər limanına – Supsaya Bakıdan neft kəməri çəkilib istifadəyə verildi və artıq Azərbaycan nefti 2 istiqamət üzrə dünya bazarlarına

çıxarılmağa başlandı. 2002-ci ildə Heydər Əliyevin şəxsən iştirakı ilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməli qoyuldu. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri Türkiyənin Ceyhan limanında istifadəyə verildi. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verildi və «Şahdəniz» qazının ilk hissəsi Türkiyəyə ixrac edilməyə başlandı.

2012-ci ildə İstanbulda Azərbaycan ilə Türkiyə arasında TANAP layihəsinə imza atıldı və bu gün bu layihə uğurla icra edilir. Bunun tamamlanmasına az bir vaxt qalıb. 2013-cü ildə TAP layihəsi qaz kəməri kimi seçildi və o istiqamətdə də işlər gedir. Yəni əsas xronoloji mənzərə bundan ibarətdir.

Bunlardan əlavə, dünyanın ən böyük Səngəçal neft-qaz terminalı tikilibdir. Gəmiqayırma zavodu tikilibdir, hansı ki, indi Azərbaycanda istənilən növ gəminin istehsalı mümkündür. Dünyanın ən böyük qazma qurğularından biri – Heydər Əliyevin adını daşıyan qazma qurğusu istifadəyə verilibdir. Azərbaycanda platformalar tikilir. Azərbaycan mütəxəssisləri xarici neft-qaz layihələrinin icrasında əksəriyyət təşkil edirlər. Yəni budur «Əsrin müqaviləsi»nin Azərbaycana verdiyi faydalar.

Bizim çox böyük maliyyə resurslarımız vardır. Artıq 1999-cu ildən fəaliyyətə başlamış Azərbaycan Dövlət Neft Fondu bizim üçün çox önəmli bir amildir. Biz valyuta ehtiyatlarımızı artırırıq, hətta neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar yaranmış bəzi çətinliklər də bizi bu yoldan döndərə bilmədi. Hətta bu illərdə də öz valyuta ehtiyatlarımızı artırmışıq və artıracağıq. Əlbəttə ki, «Əsrin müqaviləsi»nin uzadılması və «Şahdəniz» layihəsinin, «Cənub Qaz Dəhlizi»nin icrası nəticəsində bizim maddi imkanlarımız daha da genişlənəcəkdir.

Mən bu gün bu mərasimdə Azərbaycan neftçilərinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Azərbaycan o ölkədir ki, burada 1846-cı ildə dünya miqyasında sənaye üsulu ilə ilk neft hasil edilmişdir. Birinci neft buruğu artıq bir tarixi abidə kimi qorunur və şəhərimizin mərkəzində yerləşir.

Dünya miqyasında ilk dəfə olaraq dənizdən də neft Azərbaycanda çıxarılmışdır – XX əsrin ortalarında «Neft Daşları»ndan. Yəni bizim çox böyük və zəngin ənənələrimiz vardır. Azərbaycan neftçiləri bütün dövrlərdə öz fədakarlığı, peşəkarlığı ilə cəmiyyətdə çox böyük hörmət qazanmışlar. Azərbaycanda neftçi peşəsi çox hörmətli peşədir. Bütün bu uğurlarımızın əldə edilməsində Azərbaycan neftçilərinin çox böyük xidməti, zəhməti, böyük payı vardır. Ona görə mən, Dövlət Neft Şirkətində 9 il çalışmış bir insan kimi, özümü də müəyyən dərəcədə neftçi hesab edirəm. Bugünkü mərasimdə, xüsusilə nəzərə alsaq ki, neftçilərin peşə bayramı yaxınlaşır, Azərbaycan neftçilərinə öz səmimi təbriklərimi, minnətdarlığımı bildirirəm.

Bu gün mən xüsusilə bizim əsas tərəfdaşımızın – *bp* şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. Bizim *bp* ilə əməkdaşlığımızın da 23 illik tarixi vardır. Yəni *bp* bizim bütün əsas layihələrimizdə əsas tərəfdaş və investor kimi fəaliyyət göstərir. Həm «Azəri–Çıraq–Günəşli»də, həm Bakı–Tbilisi–Ceyhan layihəsində, həm «Şahdəniz» layihəsində, həm də «Cənub Qaz Dəhlizi» layihəsində. Yəni bu strateji tərəfdaşlıq artıq böyük sınaqlardan çıxıb. Bizim aramızda – SOCAR ilə *bp* arasında yaranmış çox gözəl işgüzar münasibətlər, qarşılıqlı etimad, o cümlədən bugünkü mərasimi mümkün etmişdir. Çünki sirr deyil ki – mən də bunu qeyd etdim, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun çox böyük potensialı vardır. Bir daha qeyd etmək istəyirəm, bugünkü hesablamalara görə 1 milyard ton neft ehtiyatı var. Bu gün imzalanan saziş 1994-cü ildə imzalanan sazişdən daha da böyük miqyaslıdır.

«Əsrin müqaviləsi»nin ömrü artıq sona çatır. Əlbəttə, müqavilənin müddəti bitəndən sonra Azərbaycan istənilən başqa tərəfdaşla yeni müqavilə imzalaya bilərdi və bu imkanlar bizdə var idi. Ancaq *bp* ilə SOCAR arasında yaranmış qarşılıqlı etimad, işgüzar münasibətlər bugünkü seçimi şərtləndirdi. Mən buna çox şadam. Əminəm ki, bundan sonra da *bp* ilə SOCAR uzun illər ərzində Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinin uğurunu

təmin edəcək. «Azəri–Çıraq–Günəşli»nin bütün tərəfdaşlarını da xüsusi qeyd etmək istərdim. Onlara da öz minnətdarlığımı bildirmək istəyirəm. Onlar Azərbaycana böyük sərmayə qoyublar. Bugünkü qərarın qəbul edilməsində hər bir tərəfdaş şirkətin öz payı vardır. Onların qərarı olmasaydı, bugünkü mərasim də olmayacaqdı.

Bir sözlə, Azərbaycan aparıcı xarici neft, enerji şirkətləri ilə çox uğurlu, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq formatı yaratmışdır. Bu bizə böyük faydalar gətirib. Əlbəttə, xarici tərəfdaşlar da bu layihənin icrası nəticəsində böyük mənfəət əldə ediblər. Bu o hadisələrdəndir ki, burada hər iki tərəf qalib gəlir.

«Əsrin müqaviləsi» bizə imkan verdi ki, neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəldək. Hesab edirəm ki, bu sahədə də bir çox neft hasil edən ölkələrdən fərqli olaraq, Azərbaycan nefti insan kapitalına çevirə bildi. Çünki neft həm xeyir, həm də başağrısı, problem gətirə bilər. Biz bilirik ki, dünyada neft üstündə əvvəlki dövrlərdə də, hazırda da mübarizələr, münaqişələr gedir, qan axıdılır. Neft hasilatı hələ o demək deyil ki, ölkələr çiçəklənəcək, orada inkişaf olacaqdır. Neftlə zəngin olan bir çox ölkələrdə bu gün müşahidə edilən mənzərə bunun əksini deyir. Ona görə bizim əsas vəzifəmiz ondan ibarət idi ki, neft gəlirlərini insan kapitalına çevirək və hər bir Azərbaycan vətəndaşı bu müsbət dəyişikliyi görsün.

Bu gün bizim abadlaşan bölgələrimiz, inkişaf edən ölkə, Bakı şəhəri – dünyanın ən gözəl şəhərlərindən biridir – tikdiyimiz 3000-dən artıq məktəb, 600-dən çox xəstəxana, bölgələrdə tikdiyimiz 50-dən çox Olimpiya Mərkəzi, inşa etdiyimiz 11000 kilometrdən çox yollar, enerji infrastrukturumuz, iqtisadi inkişafımız, iqtisadiyyatın şaxələndirilməsi – bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə etmə imkanlarımız dayanır.

Biz bu illərdə Dövlət Neft Fondundan məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün böyük vəsait ayırdıq

və 250 min köçkünü 100-ə yaxın yeni salınan qəsəbədə gözəl evlərlə, mənzillərlə təmin etdik. Bu proses davam edir. Biz neftdən əldə edilən gəlirləri Dövlət Neft Fondunda çox şəffaf şəkildə qoruyuruq. Dövlət Neft Fondunun fəaliyyəti çox şəffafdır. Onun fəaliyyəti, gəlirləri, xərcləri haqqında məlumat müntəzəm olaraq ictimaiyyətə çatdırılır. Dövlət Neft Fondunun xərcləri ancaq parlamentin təsdiqi ilə mümkündür. Büdcəmiz təsdiq ediləndə hökumətin təklifi ilə Milli Məclis transfertin həcmini müəyyən edir. Yəni maksimum şəffaflıq bizə imkan verdi ki, bu imkanlardan səmərəli istifadə edək. Bu gün Azərbaycan o ölkələrdəndir ki, şəffaflığa görə çox yüksək beynəlxalq qiymətə layiqdir.

Mən çıxışımın əvvəlində qeyd etdim ki, «Əsrin müqaviləsi» ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biridir. Bu gün bütün Azərbaycan xalqı bu müqavilənin gözəl nəticələrini öz həyatında görür. Hesab edirəm ki, bugünkü mərasimin ulu öndərin adını daşıyan Heydər Əliyev Mərkəzində keçirilməsi də rəmzi xarakter daşıyır. 1994-cü il sentyabrın 20-də Gülüstan sarayında ulu öndər Heydər Əliyev öz çıxışında müqavilənin əhəmiyyətini qeyd etmişdi. Qeyd etmişdi ki, bu müqavilənin Azərbaycana çox böyük xeyri, faydası olacaqdır. 23 ildən sonra biz bunun əyani sübutunu görürük. 23 ildən sonra ulu öndərin adını daşıyan bu möhtəşəm, dünya miqyasında ən gözəl memarlıq abidələrindən biri olan Heydər Əliyev Mərkəzində imzalanma mərasimi keçirilir. Yenə də «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə. Bu eyni zamanda, onu göstərir ki, bu gün Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır və yaşayacaqdır. Sağ olun.

* * *

*Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu və çıxış etdi.*

«Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Dəyərli qardaşım!

Hörmətli tədbir iştirakçıları!

Sizi ən səmimi duyğularla və hörmətlə salamlayıram!

«Əsrin müqaviləsi» olaraq adlandırılan «Azəri», «Çıraq», «Günəşli» neft yataqlarının birgə işlənməsi və «Hasilatın Pay Bölgüsü» haqqında Sazişin 2050-ci ilə qədər uzadılmasının ölkələrimiz üçün xeyirli olmasını arzu edirəm.

1994-cü il sentyabrın 20-də Azərbaycan ilə «Türkiyə Petrolları» şirkətinin də daxil olduğu beynəlxalq konsorsium arasında imzalanan müqavilənin uzadılmasını təmin edən zati-aliləri cənab Prezidenti və bütün aidiyyəti şəxsləri ürəkdən təbrik edirəm. Bu tarixi müqavilə və 2006-cı ildə istifadəyə verilən Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycan neftinin hasilatına və dünya bazarına təhlükəsiz şəkildə nəqlinə imkan yaradıb. Beləliklə, başda Azərbaycan olmaqla, bütün bölgənin sabitliyinə, inkişafına, strateji mövqeyinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verilib. Şübhəsiz ki, bu layihə beynəlxalq və regional səviyyədə həyata keçiriləcək səmərəli əməkdaşlığın ən gözəl nümunələrindən biridir.

Azərbaycan neftinin Türkiyədən keçərək dünyaya çatdırılması ilə başlayan əməkdaşlıq prosesi «Şahdəniz-1» və Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəməri layihələri ilə daha da dərinləşib. Sonda, «Şahdəniz-2» və gələn il açılışını edəcəyimiz Trans–Anadolu təbii qaz boru kəməri, inşallah, bu əməkdaşlığımızın zirvəsi olacaq.

«Bir millət – iki dövlət» olan Türkiyə və Azərbaycan bu günə qədər olduğu kimi, gələcəkdə də xüsusilə enerji sahəsində həmrəy şəkildə addımlayacaqdır.

Bu münasibətlə dəyərli dostum prezident İlham Əliyev başda olmaqla, bütün azərbaycanlı qardaşlarıma ən dərin sevgilərimi çatdırıram.

*Hörmətlə,*

**Rəcəb Tayyib Ərdoğan**
**Türkiyə Respublikasının Prezidenti»**

**B e r a t  A l b a y r a k:** Cənab Prezident və hörmətli qonaqlar!

Bu gün burada həqiqətən, təkcə Azərbaycan üçün deyil, bölgə və dünya enerji bazarı baxımından çox tarixi bir müqavilə olan, ötən əsrin müqaviləsi olaraq adlandırılsa da, XXI əsrin də müqaviləsi olacaq yenilənmə sazişi ilə əlaqədar bu tədbirdə iştirak etməkdən məmnunluğumu bildirirəm.

1994-cü ildə imzalanan «Hasilatın Pay Bölgüsü» müqaviləsinə əsasən, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunda hasilata başlanan bu proses həmin tarixdən etibarən Azərbaycanın zəngin təbii sərvətlərinin rəmzinə çevrilməklə yanaşı, 2006-cı ildən bəri buradan hasil olunan neftin Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə dünyanın enerji bazarlarına çıxarılması enerji təhlükəsizliyinə töhfə verən bir layihədir.

Bu gün bu sahədəki işlərin davam etdirilməsi üçün bu müqavilənin 2050-ci ilə qədər uzadılması və bundan sonrakı mərhələdə Azərbaycanın neftlə bərabər, təbii qaynaqlarının işlənilməsinin davam etməsi üçün çox mühüm əhəmiyyət daşıyır. Bu münasibətlə başda Azərbaycan dövləti və SOCAR şirkəti olmaqla, bu layihənin bütün beynəlxalq səhmdarlarına öz təbriklərimi çatdırıram.

1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması, 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan boru kəmərinin işə düşməsi ilə bu proses çox mühüm mərhələyə qədəm qoydu. Təqribən 11 ildə 2,6 milyard barrel xam neft BTC vasitəsilə təhlükəsiz və davamlı şəkildə dünya bazarına çatdırılıb. Neftlə yanaşı, Azərbaycan qaz tədarükündə də həm Türkiyə, həm də digər istehlakçı ölkələr üçün mühüm və etibarlı tərəfdaş olaraq qəti addımlar atır.

Mənbələrin şaxələndirilməsi baxımından Avropa İttifaqı tərəfindən irəli sürülən «Cənub Qaz Dəhlizi» layihəsinin ən önəmli mənbə ölkələrindən biri Azərbaycandır. Avropa İttifaqı tərəfindən irəli sürülsə də, «Cənub Qaz Dəhlizi» layihəsini, sözün əsl mənasında, həyata keçirən Türkiyə–Azərbaycan əməkdaşlığı və iradəsi olub. Bu layihənin irəli sürülməsindən xeyli əvvəl «Şahdəniz-1» yatağından çıxarılan qaz artıq Bakı–Tbilisi–Ərzurum boru kəməri ilə nəql olunurdu. «Şahdəniz-2» yatağı üzrə Türkiyə və Azərbaycan bir tərəfdən, Azərbaycanın qaz ticarətinə töhfə verir, digər tərəfdən də həm Türkiyə, həm də Avropa təbii qaz bazarları üçün önəmli bir mənbə şaxələndirməsini təmin edəcək TANAP layihəsini həyata keçirir. Hamımıza məlumdur ki, uzun illər Avropa İttifaqının alternativ enerji mənbələri ilə bağlı həyata keçirdiyi layihələrdən fərqli olaraq, TANAP layihəsi iki ölkənin güclü əməkdaşlığının rəmzi kimi, gələn ilin ikinci yarısında, inşallah, açılışının həyata keçirilməsilə Avropanın enerji təhlükəsizliyi baxımından tarixi imkan olacaqdır.

Bu layihənin həyata keçirilməsi, xüsusilə «Cənub Qaz Dəhlizi»nin işə salınması ilə Türkiyə–Azərbaycan əməkdaşlığının daha da güclənməsi sayəsində Avropa ölkələri və dünya bazarları çox önəmli bir qaynaq əldə edəcəkdir.

2019-cu ildə TAP-ın TANAP ilə birləşdirilərək işə düşməsi Avropa istehlakçıları üçün dördüncü əsas qaz arteriyasını təmin edəcək və beləliklə, mühüm qaz tədarükü kanalı reallaşacaqdır. İki tərəf olaraq, strateji rollarımız çərçivəsində «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsində qətiyyətli qərarlar qəbul edərək, atdığımız doğru addımlarla həm Türkiyənin, həm də Azərbaycanın birlikdə olması Avropa və dünya üçün çox önəmli bir nümunə təşkil edir. Tikintinin gələn il başa çatmasından sonra ilk boru kəməri ilə təqribən 16 milyard kubmetr qazın həm Türkiyəyə, həm də bu kəmərin keçdiyi Gürcüstan, Yunanıstan və İtaliya əraziləri vasitəsilə Avropaya nəqli təmin olunacaqdır.

Hörmətli mərasim iştirakçıları, «Azəri–Çıraq–Günəşli»nin ortağı olan milli neft şirkətimiz – «Türkiyə Petrolları» Azərbay-

canda uzun illərdir fəaliyyət göstərir. 1991-ci ildən Azərbaycanda investisiya fəaliyyətlərini həyata keçirən «Türkiyə Petrolları» nazirliyimizin təşviqi ilə beynəlxalq arenada ilk sərmayəsini Azərbaycana yatırıb. «Türkiyə Petrolları» Azərbaycandakı beynəlxalq layihələrdə iştirak edərək, fəaliyyətini gündən-günə inkişaf etdiribdir.

SOCAR ilə «Türkiyə Petrolları» arasındakı əməkdaşlıq şirkətimizin «Şahdəniz» layihəsinə qatılması ilə 1996-cı ildə daha geniş vüsət aldı. 2014-cü ildə isə «Türkiyə Petrolları» «Şahdəniz» yatağındakı 10 faizlik hissə artımı ilə 19 faizlik paya sahib olaraq, layihənin ikinci ən böyük sərmayədarı oldu.

«Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə 1994-cü ildən etibarən 23 ildir bu layihənin ortağı olan «Türkiyə Petrolları» bu gün atılacaq imzalarla bu əməkdaşlığı və qarşılıqlı etimada söykənən tərəfdaşlığı 2050-ci ilə qədər uzadaraq, layihəyə, Azərbaycana olan güvəni bir daha vurğulamaqdan qürur duymaqdadır.

Xanımlar və cənablar! Türkiyə olaraq, biz enerjini münaqişənin və yoxsulluğun səbəbi olmaqdan daha çox – cənab Prezident bir az əvvəl bəhs etdi, bir çox mənada bəzi ölkələrdə enerji münaqişələri yoxsulluğun və problemlərin mənbəyi olaraq görülsə də – sülhün və sabitliyin lokomotivi kimi qəbul edilməsinə inanırıq. Bu gün bu layihə ilə bağlı iş gördüyümüz bütün coğrafiyada ortaya qoyduğumuz əməkdaşlıq önəmli bir uğur rəmzidir. Bu baxımdan Türkiyə–Azərbaycan əməkdaşlığının dünyanın çətin sınaqlardan keçdiyi bu dövrdə bölgəmiz üçün gələcəyə istiqamətlənən örnək təşkil edəcək ortaqlıq olduğunu xüsusi bildirmək istəyirəm. Türkiyə Azərbaycandakı bütün layihələrə önəm verməyə və ölkədəki yeni təşəbbüslərdə əsas ortaqlardan biri olmağa davam edəcəkdir. Azərbaycanın enerji mənbələri uğrunda artan beynəlxalq rəqabət mühitində «Türkiyə Petrolları» ölkələrimizin maraqlarını əsas tutaraq, Azərbaycandakı sərmayələrini artırmağa davam edəcəkdir.

Çıxışımın sonunda bu gün burada imzalanacaq tarixi sazişin cənab Prezidentin timsalında Azərbaycan xalqına xeyirli olmasını, layihənin bütün iştirakçılarının və tərəfdaşlarının bu günə qədər olduğu kimi, 2050-ci ilə qədər davam edəcək bu tərəfdaşlıq prosesində də çox uğurlu və sərfəli əməkdaşlıq baxımından nümunə təşkil etməsini arzulayır, dəvətinizə və iştirakınıza görə hamınıza minnətdarlıq edirəm.

**A l a n  D u n k a n** (*Böyük Britaniyanın Dövlət naziri*): Cənab Prezident! Xanım Birinci vitse-prezident!

Bu gün mənə çıxış etmək şərəfini verdiyiniz üçün Sizə təşəkkürümü bildirirəm. Mən burada təkcə xarici dövlətin naziri kimi yox, həm də neft sənayesində 20 il təcrübəsi olan bir şəxs qismində çıxış edirəm. Ona görə ki, bu təcrübə bu gün «Azəri–Çıraq–Günəşli» müqaviləsinin uzadılması ilə bağlı olan əlamətdar imzalama mərasimində peşəkar həyatımın bu iki tərəfinin bir araya gəlməsini gördüyüm üçün mənə böyük zövq verir.

Bu mənim Azərbaycana ilk səfərimdir. Lakin, əlbəttə, sonuncu səfərim olmayacaq. Qeyd etməliyəm ki, Heydər Əliyev Mərkəzinin möhtəşəm arxitekturası mənə çox böyük təsir bağışladı. Bu, şəhər landşaftında gözəl bir təəssüratdır. Bu, Azərbaycanın müstəqilliyinin bərpasından bəri öz yolu ilə uğurla irəliləməsinin mükəmməl bir təcəssümüdür. Bu əsərin müəllifinin məşhur Britaniya memarı mərhum Zaha Hadidin olması faktı son onilliklər ərzində ölkələrimiz arasındakı əlaqələrin necə güclənməsinin və inkişaf etməsinin əyani sübutudur.

Ən mühüm hadisələrdən biri 1994-cü ildə baş verdi, *bp* və SOCAR arasında «Əsrin müqaviləsi» imzalandı. O vaxtdan bəri bu iki qurum arasında çox mükəmməl uğurlu tərəfdaşlıq formalaşdı və tərəfdaşlığın növbəti fəslinin başlanmasının səfərimlə üst-üstə düşməsi məni məmnun edir. Prezident Heydər Əliyev Birləşmiş Krallığın dünya səviyyəli şirkətlərini zəngin təcrübələrini paylaşmaq, neft və qaz infrastrukturunu inkişaf etdirməyə kömək göstərmək məqsədilə Azərbaycana dəvət etdiyi üçün

öz uzaqgörənliyinə görə təqdir olunmalıdır. Ötən 23 il ərzində buraya milyardlarla dollar sərmayə yatırılmış və 3 milyard barreldən çox neft dünya bazarlarına çıxarılmışdır. Beləliklə, «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku Azərbaycanın iqtisadi inkişafına böyük töhfə veribdir. Bu töhfənin sübutunu bu gün paytaxt Bakıda gəzdikdə şəxsən görməyim məndə möhtəşəm hisslər oyadır.

Müqavilənin uzadılmasının ölkələrimizə iqtisadi faydalar verəcəyinə görə məmnunluq hissi keçirirəm. Belə əlaqələrin qurulması ilə biz gələcək üçün uzunmüddətli çiçəklənməni və sabitliyi təmin edəcəyik. Birləşmiş Krallığın bizim ikitərəfli əməkdaşlığımıza, ticarət tərəfdaşlığımıza verdiyi önəmin əyani sübutu kimi, indi mən Baş nazir Tereza Meyin, cənab Prezident, Sizə ünvanladığı xüsusi məktubunu oxumaq istəyirəm.

*Alan Dunkan Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.*

«Hörmətli Prezident Əliyev!

«Azəri–Çıraq–Günəşli» neft yatağı ilə bağlı *bp*-nin rəhbərlik etdiyi konsorsium ilə SOCAR arasında imzalanmış müqavilənin yenilənməsi ilə əlaqədar Sizə səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Bu müqavilənin yenilənməsi növbəti onilliklər üçün Böyük Britaniya və Azərbaycan arasında mövcud olan dərin və xüsusi əməkdaşlığı daha da gücləndirəcəkdir. «Azəri–Çıraq–Günəşli» neft yatağının işlənilməsi ilə bağlı 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanmasından bəri Böyük Britaniya və xüsusilə də *bp* Azərbaycan iqtisadiyyatının uzunmüddətli inkişafında mühüm rol oynamışdır. Bu böyük sərmayə tarixdə ilk dəfə Azərbaycana tam suveren və müstəqil dövlət kimi, Xəzər dənizində özünün təbii sərvətlərindən tam şəkildə yararlanmağa imkan yaratmışdır.

2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tamamlanması Azərbaycan neftinin beynəlxalq bazarlara fasiləsiz surətdə təhlükəsiz nəqlinə imkan yaratmış növbəti mühüm hadisə olmuşdur. 2020-ci ildə başa çatdırılması nəzərdə tutulan «Cənub Qaz Dəhlizi» Azərbaycanın Avropaya təbii qaz nəql edən mühüm ixracatçıya çevrilməsinin yekun mərhələsi olacaqdır. Həmin boru kəmərləri şəbəkəsinin enerji təhlükəsizliyinin təmin edilməsinə verəcəyi töhfə Böyük Britaniya tərəfindən alqışlanır.

Təəssüflər olsun ki, sentyabrın 14-də mən Bakıda «Azəri–Çıraq–Günəşli» neft yatağı ilə bağlı müqavilənin yenilənməsini Sizinlə bir yerdə qeyd edə bilməyəcəyəm. Bu mühüm uzunmüddətli sərmayə bizim enerji sahəsində strateji tərəfdaşlığımızı daha da möhkəmləndirməyə yardım edəcək və gələcək illərdə birgə firavanlığımıza töhfə verəcəkdir.

İmzalanma mərasimi ilə bağlı Sizə uğurlar diləyir və yaxın zamanda görüşmək imkanı əldə etməyə ümidvaram.

*Hörmətlə,*

**Tereza Mey**
**Böyük Britaniyanın Baş naziri»**

– Möhtərəm cənab Prezident, xanımlar və cənablar!

Bu gün bu imzalanma mərasimində iştirak etmək mənim üçün böyük şərəfdir. Mən Bakıya növbəti səfərimi səbirsizliklə gözləyirəm. İnanıram ki, bu müqavilənin uzadılması nəticəsində gələcək illərdə hər iki ölkənin firavanlığı artacaq və onlar güclü ticarət əlaqələrindən faydalanmağa davam edəcəklər. İcazə verin, bu tarixi gündə hər birinizi səmimi-qəlbdən təbrik edim.

**E l i a E l o ş v i l i** (*Gürcüstanın Energetika naziri*): Cənab Prezident! Xanım Birinci vitse-prezident!

Bu gün həqiqətən, böyük və tarixi bir gündür. Bu gün ölkələrimizin enerji müstəqilliyi və təhlükəsizliyi istiqamətində böyük bir nailiyyət əldə edilir və mühüm addım atılır. Bu qərar

sadəcə, müqavilənin əhatə etdiyi tərəfdaş ölkələrə deyil, milyonlarla insana fayda gətirəcəkdir.

Gürcüstan etibarlı tranzit ölkə və Azərbaycanın strateji tərəfdaşı olaraq əməkdaşlığımızın bundan sonra da genişləndirilməsinə səy göstərəcəkdir. Gürcüstan bu Sazişin imzalanmasını alqışlayır və əməkdaşlığımızın bundan sonra da inkişaf etməsi üçün Azərbaycan ilə strateji tərəfdaşlığını daha da möhkəmləndirəcəkdir.

Cənab Prezident, bu gün Sizə Baş nazir Giorgi Kvirikaşvilinin müraciətini oxumaq şəxsən mənim üçün böyük şərəfdir.

*Nazir Elia Eloşvili Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.*

«Zati-aliləri cənab İlham Əliyev!

İcazə verin, Sizi «Azəri» və «Çıraq» yataqlarının, eləcə də Xəzər dənizinin Azərbaycan sektorunda «Günəşli» yatağının dərinsulu hissəsinin səmərəli işlənilməsində əldə edilmiş böyük irəliləyiş münasibətilə Gürcüstan hökuməti adından təbrik edim. İnanıram ki, birgə işlənilmə və «Hasilatın Pay Bölgüsü» Sazişinin uzadılması tarixi əhəmiyyət daşıyır və Azərbaycanın qlobal enerji təchizatçısı kimi, özünü doğrultmaqda davam etdiyini göstərir.

Keçmişə nəzər salaraq görürük ki, Azərbaycan və Gürcüstan enerji sahəsində sıx əməkdaşlığa başlamışlar. Hər iki ölkə Türkiyə ilə birgə strateji tərəfdaşlığı uğurlu şəkildə qurdu və Cənubi Qafqaz qaz boru kəməri, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Supsa neft boru kəmərləri kimi qarşılıqlı fayda gətirən enerji layihələrini həyata keçirdilər. İllər boyu «Azəri–Çıraq–Günəşli» yataqlarında hasil olunan xam neft Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə Aralıq dənizinə və Bakı–Supsa neft kəməri ilə Supsaya ixrac olundu. Gürcüstan etibarlı tranzit ölkəyə çevrildi. Həmin layihələrin reallaşması göstərir ki, enerji bizim üçün yoxsulluğun azaldılmasında və regional iqtisadi

artımın təşviq edilməsində mühüm ilkin şərtə çevrildi. Bu əsasla «Azəri–Çıraq–Günəşli» yataqlarına aid hər hansı irəliləyiş iqtisadi tərəqqini əks etdirir və siyasi əhəmiyyətə malikdir. Etibarlı tranzit ölkə olaraq və Azərbaycanı strateji tərəfdaş kimi tanıyaraq, Gürcüstan bu cür çox mühüm hadisəni xüsusi alqışlayır və ümid edir ki, əməkdaşlığımız bundan sonra da genişlənəcək və güclənəcək. Biz həmçinin ümid edirik ki, birgə enerji layihələrinin həyata keçirilməsi Azərbaycanda neft və qaz yataqlarının işlənilməsi əsasında genişlənəcək.

Sizə olan ən yüksək hörmət və ehtiramımı bir daha ifadə edir və ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə,*

**Giorgi Kvirikaşvili**
**Gürcüstanın Baş naziri»**

**Manabu Hori** (*Yaponiya Xarici İşlər nazirinin parlamentari müavini*): Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Hörmətli həmkarlar, xanımlar və cənablar!

Yaponiya hökuməti adından belə mötəbər tədbirdə çıxış etməkdən böyük şərəf hissi duyuram. İlk növbədə, «Əsrin müqaviləsi» adlanan «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə «Hasilatın Pay Bölgüsü» müqaviləsinin 2050-ci ilə qədər uğurla uzadılması münasibətilə bütün tərəfləri təbrik etmək istəyirəm.

«Azəri–Çıraq–Günəşli» neft yataqları bloku sabit enerji təminatını həyata keçirmək, enerji mənbələrini şaxələndirmək baxımından Yaponiya üçün çox mühüm əhəmiyyət kəsb edir. Yaponiya adından IMPEX və ITOÇU korporasiyaları «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsində iştirak edibdir. Mən səmimi-qəlbdən ümid edirəm ki, bu Yaponiya şirkətləri layihənin uğur qazanması üçün Azərbaycan hökuməti və konsorsiumla əməkdaşlığı davam etdirəcəkdir.

Xanımlar və cənablar, ötən həftə Azərbaycan ilə Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü qeyd olundu. Son 25 il ərzində iki ölkə arasında əməkdaşlıq əhəmiyyətli şəkildə inkişaf edib. Son illərdə qarşılıqlı fəaliyyətimiz siyasi və iqtisadi sahələrlə yanaşı, hər iki ölkə parlamentləri və bələdiyyələri arasında mübadilənin aparılması ilə genişlənib. «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə uzunmüddətli əməkdaşlığın ikitərəfli əlaqələrimizin formalaşmasına təkan verməsi ilə bağlı heç bir şübhə yoxdur. Bununla da mən diplomatik əlaqələrimizin qurulmasının 25-ci ildönümünə təsadüf edən bu müqavilənin uzadılmasını alqışlamaqdan məmnunluq hissi keçirirəm.

Baş nazir Şinzo Abe diplomatik əlaqələrin 25-ci ildönümü münasibətilə prezident Əliyevə məktub ünvanlayıb. Həmin məktubda Baş nazir enerji sektorunda Yaponiya şirkətlərinin fəaliyyətini alqışlayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Yaponiya bu ölkəyə təxminən 1240,7 milyard yen məbləğində maliyyə dəstəyi ayırmışdır. Azərbaycanda iqtisadi infrastrukturun inkişafına və sosial xidmətlərin yaxşılaşdırılmasına ümumilikdə 1,1 milyard dollar vəsait yönəldilmişdir. Məsələn, Yaponiya «Şimal» Elektrik Stansiyasının podrat layihəsi, eləcə də kənd yerlərində su təchizatının yaxşılaşdırılması kimi iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsini nəzərdə tutan irimiqyaslı milli layihələrə dəstək verib. Bundan əlavə, Yaponiya insanların həyatına birbaşa töhfə verən uşaq bağçalarının, ictimai səhiyyə mərkəzlərinin təkmilləşdirilməsi ilə bağlı kənd yerlərində ümumilikdə 222 layihəni yerli qrant dəstəyi yolu ilə həyata keçiribdir.

Xanımlar və cənablar, Yaponiya insan resurslarının inkişafına da xüsusi önəm verir. Biz təlimçilər layihəsini həyata keçirmişik ki, bu layihə vasitəsilə təxminən 640 nəfər Azərbaycandan Yaponiyaya səfər edib. Yaponiya insan resurslarının inkişafını və mübadilə proqramlarının icrasını fəal şəkildə davam etdirmək

niyyətindədir. Əlavə olaraq, IMPEX və özəl sektor tərəfindən təmin olunan digər təlim proqramları Azərbaycanda xeyli sayda istedadların inkişafına töhfə verib. Məsələn, 2016-cı ildə SOCAR ilə IMPEX arasında gənc mühəndislər üçün təlim proqramının icrasına başlanılıb. Hazırda SOCAR təlimçilərinin builki proqram çərçivəsində Yaponiyaya səfər etməsi məni məmnun edir. Ümid edirəm ki, belə mübadilə proqramları Azərbaycan və Yaponiya şirkətləri arasında çoxtərəfli əməkdaşlığa əlavə təkan verəcəkdir.

Sonda ümidvaram ki, iki ölkə arasında əməkdaşlıq əlaqələri bütün sahələrdə inkişaf edəcək, bu müqavilənin uzadılması və diplomatik əlaqələrin 25-ci ildönümü bizim əməkdaşlığa yeni töhfələr verəcəkdir. Diqqətinizə görə çox sağ olun.

**R o b e r t D a d l i** *(bp şirkətinin baş icraçı direktoru*): Cənab Prezident, xanım Birinci vitse-prezident, nazirlər, SOCAR-dan olan dostlarımız, möhtərəm qonaqlar!

Hər birinizin sabahınız xeyir. Ümid edirəm ki, hər kəsin foyedə təşkil edilmiş sərgiyə baxmaq imkanı oldu. Sərgidə ötən 25 il ərzində baş vermiş bütün əlamətdar hadisələr öz əksini tapıb. Bu, kifayət qədər uzun bir tarixçədir.

Möhtəşəm nailiyyətlərə görə cənab Prezidentə və onun hökumətinə minnətdarlığımı bildirmək istəyirəm.

Eləcə də Rövnəq Abdullayevə və onun SOCAR-dakı heyətinə və bu gün burada iştirak edən bütün tərəfdaşlarımıza da təşəkkür edirəm.

Bütün bu nailiyyətlər yalnız mərhum prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur. Onun da xatirəsini dərin ehtiramla yad etmək istəyirəm. 1994-cü ildə imzalanmış və haqlı olaraq «Əsrin müqaviləsi» adlandırdığımız Saziş məhz onun uzaqgörənliyinin bəhrəsidir. 6 fərqli ölkədən olan 11 şirkət SOCAR ilə birlikdə ölkənin enerji yolunda yeni bir səhifə açdı.

1994-cü il sentyabr ayının məhz həmin əlamətdar günündə mərhum prezident Heydər Əliyev Azərbaycanın həyatında yeni dövrün başlandığını demişdir. O, haqlı idi.

Azərbaycanın dənizdəki neft ehtiyatlarının işlənilməsində və eləcə də həmin ehtiyatların dünya bazarlarına nəql edilməsində möhtəşəm nailiyyətlər əldə olunmuşdur. Bu vaxtadək təxminən 33 milyard dollar investisiya qoyulmuş və 3,2 milyard barrel neft hasil edilmişdir. Həmçinin «Azəri–Çıraq–Günəşli» neft yataqları blokundan ümumilikdə 30 milyard kubmetr səmt qazı hasil edilərək, Azərbaycan hökumətinə verilmişdir.

Buna görə də haqlı olaraq qeyd etmək olar ki, cənab Prezident, məhz Sizin və atanız mərhum prezident Heydər Əliyevin enerji sahəsində verdiyi qərarlar bu möhtəşəm ölkənin iqtisadi inkişafına yol açıb və dünyanın enerji xəritəsini həmişəlik dəyişdiribdir.

Bu gün biz Sazişin müddətini əsrin ortasınadək uzadırıq və bu çox əlamətdar bir andır. Biz burada bu tarixi hadisəni qeyd etmək üçün toplaşmışıq və hesab edirəm, bunu «Yeni əsrin müqaviləsi» adlandırmaq düzgün olar.

İcazə verin, cənab Prezident, Sizə, hökumətinizə, SOCAR-a və Türkiyə, Norveç, Yaponiya, ABŞ və Hindistandan olan tərəfdaşlarımıza bu vaxtadək əldə etdiyimiz nailiyyətlər və bugünkü tarixi imzalanma münasibətilə təbriklərimi bildirim. Bu Sazişin imzalanması AÇG-nin tarixində növbəti mərhələyə qədəm qoymaqla, tərəfdaşlığımızın yeni səhifəsini açmağa imkan verir.

Növbəti 32 il ərzində birgə işləyərək və AÇG üzrə potensial olaraq 40 milyard dollardan artıq həcmdə yeni sərmayə qoyaraq, biz Azərbaycanın neft və qaz hasilatının uzunmüddətli gələcəyini təmin etməyə davam edəcəyik.

Bu da öz növbəsində, Türkiyə və Gürcüstan əraziləri ilə əlverişli təchizat marşrutlarına malik olan bu regionun rolunu daha da gücləndirməklə, onu bütövlükdə mühüm beynəlxalq enerji mərkəzinə çevirir.

Bütün bunlara dəstək vermək üçün, *bp* şirkəti olaraq, biz dünyada aparıcı mövqe tutan texnoloji imkanlarımızla, dünyanın bir çox yerindəki nəhəng yataqlar boyunca həyata keçirdiyimiz işlərdən qazandığımız təcrübələr və xüsusi bi-

liklərimizlə töhfə verərək, Azərbaycandakı 25 illik uğurlu fəaliyyətimizi davam etdirəcəyik. Xəzər dənizində də bu dünya səviyyəli infrastrukturun inkişafını davam etdirəcəyik. Elə ötən həftə «Şahdəniz» konsorsiumu ilə birgə sualtı tikinti işləri üçün dünyada ən qabaqcıl gəmilərdən biri olan «Xankəndi» gəmisini istismara verdiyimiz kimi.

Cənab Prezident, həmin mərasimdə iştirak etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

Həmçinin qeyd etmək istəyirəm ki, *bp*-nin Azərbaycandakı öhdəliyi genişlənərək, biznes və sosial inkişafın digər sahələrini də əhatə etməyə davam edəcəkdir.

Cənab Prezident, Siz dəfələrlə qeyd etmisiniz ki, dünyada müasir inkişaf biliyə, texnologiyalara və təhsilə əsaslanacaq. *bp* şirkəti və bütün tərəfdaş şirkətlər Azərbaycanda bu sahələrin hər birinə töhfə verməyimizdən qürur duyuruq.

Bizim Azərbaycan qarşısındakı öhdəliyimiz nəhəng platformalar və uzun boru kəmərləri ilə bitmir. İqtisadiyyatı quran enerjini istehsal etdiyimiz kimi, biz hər mərhələdə təhsilə dəstək olmaqla, yerli potensialın yaradılmasının da önəmli olduğuna inanırıq. Bu, uşaq bağçalarındakı uşaqlardan tutmuş, universitetlərdə, o cümlədən Bakı Ali Neft Məktəbindəki Layihələrin İdarə Edilməsi Məktəbində və ADA Universitetindəki «Big Data» Mərkəzində yetişən gənclərlə yanaşı, sənayedəki yeni nəsil rəhbər şəxslərədək hər kəsi əhatə edir.

Biz bacarıqları inkişaf etdirməklə, yeni biznes imkanları yaratmaqla və gəlir mənbələrinin formalaşdırılmasına dəstək olmaqla, yaşadığımız və fəaliyyət göstərdiyimiz regionlardakı icmalara yardım etməyin əhəmiyyətli olduğuna inanırıq.

Biz mədəniyyətə və müxtəlifliyə hörmətlə yanaşmağın və idman sahəsindəki təşəbbüsləri dəstəkləməyin önəmli olduğunu hesab edirik.

*bp* şirkəti olaraq, biz «Bakı–2015» Avropa oyunlarının və «Bakı–2017» İslam Həmrəyliyi oyunlarının rəsmi tərəfdaşı olmaqdan qürur duymuşuq.

Biz Azərbaycan Milli Olimpiya və Paralimpiya komitələri ilə tərəfdaşlıq sazişlərimizi uzatmaqla, Azərbaycanın istedadlı idmançılarına dəstəyi davam etdirəcəyimizə ümid edirik.

Beləliklə, Azərbaycanın gələcəyi bir çox istiqamətlərdə parlaqdır və *bp* ölkənin davamlı inkişafının bir hissəsi olmaqdan qürur duyur.

İcazə verin, qarşıdan gələn uzun illər ərzində «AÇG»-də yeni mühüm mərhələlərin təməlinin qoyulmasına başladığımız bir vaxtda bütün tərəfdaşlarımıza bir daha öz təşəkkürümü bildirim. Çox sağ olun.

* * *

*Sonra Azərbaycanın neft-qaz strategiyasına həsr olunmuş videoçarx nümayiş etdirildi. Videoçarxda ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması istiqamətində həyata keçirilən layihələrdən bəhs olunur.*

*Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və nümayəndə heyətləri başçılarının iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» neft yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və «Hasilatın Pay Bölgüsü» haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş imzalandı.*

*Sazişi Azərbaycan hökumətinin, SOCAR-ın, bp, Chevron, IMPEX, Statoyl, ExxonMobil, TP, ITOÇU və ONGC Videsh şirkətlərinin rəsmiləri imzaladılar.*

*«Hasilatın Pay Bölgüsü» haqqında düzəliş edilmiş və yenidən işlənmiş Sazişə əsasən bp layihənin operatoru olaraq qalacaq. Növbəti 32 il müddətində «Azəri–Çıraq–Günəşli» neft yataqları blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması potensialı vardır. Bu Sazişin ardınca SOCAR və tərəfdaşları arasında «Azəri–Çıraq–Günəşli» müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühən-*

*dis-layihə işlərinin aparılması haqqında razılaşma əldə olunub-dur.*

## TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ BERAT ALBAYRAK İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Türkiyə Respublikasının Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın bugünkü mərasimə ünvanladığı təbrik məktubundakı xoş sözlərinə görə minnətdarlığını bildirdi. Bugünkü tədbirin Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində mövcud olan əməkdaşlığı daha da möhkəmləndirdiyini qeyd edən dövlət başçısı bu münasibətlə təbriklərini çatdırdı.*

*Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçımıza çatdırdı. O, Türkiyə ilə Azərbaycan arasında enerji sahəsində mövcud əməkdaşlığın bütün dünyaya nümunə olduğunu bildirdi. Berat Albayrak bu əməkdaşlığın yeni layihələr və qarşılıqlı sərmayələrlə daha da zənginləşdirildiyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında həyata keçirilən birgə strateji layihələrin əhəmiyyətinə toxunuldu, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» neft yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və «Hasilatın Pay Bölgüsü» haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin önəmli olduğu vurğulandı. Bu Sazişin ölkələrimizin iqtisadi inkişafı və xalqlarımızın rifahının daha da yüksəldilməsi baxımından əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında həyata keçirilən birgə strateji layihələrin əhəmiyyətindən danışıldı.*

*Dövlət başçımız prezident Rəcəb Tayyib Ərdoğanın səmimi salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## BÖYÜK BRİTANİYANIN DÖVLƏT NAZİRİ ALAN DUNKAN İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Böyük Britaniyanın Dövlət naziri Alan Dunkan ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Böyük Britaniyanın Baş naziri Tereza Meyin bugünkü mərasimlə əlaqədar göndərdiyi təbrik məktubuna görə təşəkkürünü bildirdi. Dövlət başçısı Tereza Meyin ölkələrimiz arasındakı münasibətlər haqqında dediyi xoş sözlərdən məmnunluğunu ifadə etdi.*

*Prezident İlham Əliyev Böyük Britaniyanın mərasimdə yüksək səviyyədə təmsil edilməsinin Birləşmiş Krallıq hökumətinin bu tədbirə verdiyi böyük önəmin göstəricisi olduğunu bildirdi. Sazişin imzalanmasının tarixi hadisə olduğunu deyən dövlət başçısı onu «Yeni əsrin müqaviləsi» adlandırdı.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini, əlaqələrimizin neft-qaz sektorunu və digər sahələri əhatə etdiyini vurğuladı.*

*Böyük Britaniyanın Dövlət naziri Alan Dunkan ölkələrimiz arasında siyasi, iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu, münasibətlərimizin digər sahələrdə də inkişaf etdiyini diqqətə çatdırdı. «Azərbaycan və Böyük Britaniya etibarlı tərəfdaş olduqlarını nümayiş etdirir» – deyən Alan Dunkan ölkələrimiz arasında əməkdaşlığın qeyri-neft sektorunda da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.*

*Böyük Britaniyanın Dövlət naziri «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsini nəzərdə tutan yeni Sazişin imzalanmasını tarixi hadisə adlandıraraq qeyd etdi ki, bu, iki tərəfli əməkdaşlığımızın təməlini təşkil edəcəkdir.*

*Alan Dunkan ilə söhbət zamanı ölkələrimiz arasında viza rejiminin qarşılıqlı surətdə sadələşdirilməsinin əhəmiyyəti qeyd olundu.*

## YAPONİYA XARİCİ İŞLƏR NAZİRİNİN PARLAMENTARİ MÜAVİNİ MANABU HORİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Yaponiya Xarici İşlər nazirinin parlamentari müavini Manabu Hori ilə görüşmüşdür.*

*Manabu Hori Bakıda «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsi üzrə yeni Sazişin imzalanmasının mühüm əhəmiyyət daşıdığını vurğuladı və bu münasibətlə Azərbaycan Prezidentini təbrik etdi. O, Azərbaycan ilə Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi ilə əlaqədar təbriklərini çatdırdı.*

*Regionun lider dövləti olan Azərbaycanın dünyada yaxşı nüfuz qazandığını vurğulayan Manabu Hori Yaponiyanın bütün sahələrdə Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu qeyd etdi. Qonaq son vaxtlar ölkələrimiz arasında faydalı qarşılıqlı səfərlərin həyata keçirildiyini və həmin səfərlər zamanı müxtəlif sahələrdə sərmayə qoyuluşu ilə bağlı səmərəli danışıqların aparıldığını bildirdi. O, münasibətlərimizin daha sürətli inkişafı məqsədilə Yaponiyanın da Azərbaycan ilə viza rejimini sadələşdirməyi planlaşdırdığını qeyd etdi.*

*Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi münasibətilə təbriklərini çatdıran prezident İlham Əliyev Yaponiyanın bu mərasimdə yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə etdi. Dövlət başçısı Yaponiyanın hər zaman Azərbaycandakı layihələrə maliyyə dəstəyi göstərdiyini vurğuladı, Yaponiya hökumətinin ölkəmizdə müasir infrastrukturun yaradılmasına kreditlər ayırmasını yüksək qiy-*

*mətləndirdi. Enerji sektorunda da ölkələrimizin uğurla əməkdaşlıq etdiklərini bildirən prezident İlham Əliyev vurğuladı ki, Yaponiya şirkətləri uzun illərdir Azərbaycanda neft-qaz yataqlarının işlənilməsində fəal iştirak edir və ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verirlər.*

*Dövlət başçısı qarşılıqlı ticarət əlaqələrinin daha da genişləndirilməsinin vacibliyini vurğuladı, enerji sahəsi ilə yanaşı, sənaye, azad ticarət zonasında əməkdaşlıq, əczaçılıq, kənd təsərrüfatı, o cümlədən çayçılıq və neft-kimya sahələrində qarşılıqlı sərmayələrin qoyulmasının əhəmiyyətindən danışdı.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə bu gün Bakıda imzalanan sazişin önəmi vurğulandı, «Yeni əsrin müqaviləsi»nin ikitərəfli əməkdaşlıqda mühüm əhəmiyyət daşıdığı bildirildi. Qeyd olundu ki, Azərbaycan ilə bp şirkəti arasında uzun illərdir davam edən səmərəli əməkdaşlıq qarşılıqlı etimada söykənir.*

*Söhbət zamanı ölkəmizin müəllifi olduğu irimiqyaslı enerji layihələrinin reallaşdırılmasında bp-nin fəal tərəfdaş kimi çıxış etdiyi vurğulandı.*

*Prezident İlham Əliyev Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinə görə Robert Dadlinin Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edildiyini bildirdi və ordeni ona təqdim etdi.*

## STATOYL ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ LARS KRİSTİAN BAXERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Statoyl şirkətinin beynəlxalq inkişaf və istehsal üzrə icraçı vitse-prezidenti Lars Kristian Baxerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» neft yataqlarının işlənilməsi üzrə yeni Sazişin imzalanmasının əhəmiyyəti qeyd edildi. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Statoyl şirkəti arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı və bu əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## AŞPA MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Predanı və Stefan Şennakı qəbul etmişdir.*

*AŞPA Monitorinq Komitəsinin həmməruzəçiləri «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsini nəzərdə tutan yeni Sazişin imzalanması münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdılar və bunu böyük tarixi hadisə kimi qiymətləndirdilər.*

*Prezident İlham Əliyev imzalanan saziş, tərəfdaşlar və «Azəri», «Çıraq», «Günəşli» neft yataqlarında aparılan işlərdən danışdı.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi.*

**ÇİLİ RESPUBLİKASININ PREZİDENTİ XANIM MİŞEL BAÇELET XERİYAYA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Çili arasındakı ikitərəfli münasibətlərin davamlı inkişafı yolunda birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 sentyabr 2017-ci il*

## ARİF HÜSEYNZADƏ ADINA 20 SAYLI MƏKTƏB-LİSEYİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 15-də – Bilik Günündə Bakının Yasamal rayonunda Arif Hüseynzadə adına 20 saylı məktəb-liseyin yeni inşa edilmiş binasının açılışı mərasimində iştirak etmişlər.*

*Təhsil naziri Mikayıl Cabbarov prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi. Qeyd edildi ki, 20 saylı məktəb-liseyin əsası 1958-ci ildə qoyulub. 1988-ci ildə məktəbin daha 4 korpusu tikilib istifadəyə verilib. 2007-ci ildə isə prezident İlham Əliyevin sərəncamı ilə məktəbin binası əsaslı şəkildə təmir edilib. Elə həmin il sentyabrın 15-də – Bilik Günündə prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məktəbdə aparılan təmir işləri ilə tanış olublar. Sonradan ərazidə əhalinin çoxalması ilə əlaqədar məktəbə gələn şagirdlərin sayında böyük artım olub. Bu da təbii ki, təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib və məktəb üçün yeni binanın tikintisi zərurətə çevrilib. Bunu nəzərə alan prezident İlham Əliyev müvafiq göstəriş verib və bu təhsil ocağı üçün əvvəlkindən daha böyük, ən müasir və dünya standartlarına uyğun yeni bina inşa edilibdir. Ölkəmizin ən böyük təhsil müəssisəsi olan 20 saylı məktəb-liseyin binası indi paytaxtın müasir və memarlıq baxımından zövq oxşayan ən yaraşıqlı binalarından biridir.*

*Dövlət başçısı məktəb-liseyin binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məktəbdə yaradılan şəraitlə tanış olan prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, ən müasir avadanlıqlarla təchiz olunmuş funksional bina tədrisin yüksək keyfiyyətdə təşkili üçün hər cür şəraitə malikdir. Təhsil ocağında məktəbəqədər hazırlıq sinifləri də nəzərdə tutulubdur. Bununla yanaşı, burada 8 sinifdən ibarət olan məktəbəqədər təhsil mərkəzi də fəaliyyət göstərəcəkdir. Hazırda məktəb 4000 şagird-yerlikdir. Yenidən qurulduqdan əvvəl isə bu təhsil ocağı cəmi 2500 yerlik olub. Burada 145 sinif otağı və fənn kabinetləri, həmçinin 7 laboratoriya vardır. Azərbaycan və rus bölmələri ilə birlikdə ümumilikdə 119 sinifdə 3300 şagird təhsil alır. Təhsil ocağında 260 müəllimdən ibarət pedaqoji heyət çalışır.*

*Məktəbdəki Heydər Əliyev Muzeyi də eksponatlarının zənginliyi ilə seçilir. Burada ulu öndərin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən maraqlı fotolar, sənədlər və kitablar toplanılıb. Muzeydə yaradılan müxtəlif fotostendlər, nümayiş etdirilən əyani vəsaitlər Heydər Əliyev irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılmasında müstəsna rol oynayacaqdır.*

*Qeyd edək ki, paytaxtın bəzi təhsil müəssisələrində olduğu kimi, bu məktəbdə də «Məktəblinin dostu» layihəsi icra olunacaq. Təhsil Nazirliyi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkil etdiyi layihənin əsas məqsədi müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, ilkin tibbi və psixoloji yardım göstərmək, şagird, valideyn, müəllim, təlim-tərbiyə müəssisələrinin kollektivi və rəhbərliyi ilə mütəmadi olaraq maarifləndirmə və diaqnostik işlər aparmaqdır.*

*Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz*

*gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də neft gəlirləri Azərbaycanda həm də təhsilin, elmin inkişafına yönəlibdir.*

*20 saylı məktəb-lisey üçün yeni binanın inşası bir daha təsdiqləyir ki, Azərbaycan prezidenti İlham Əliyevin diqqəti sayəsində təhsil islahatları uğurla davam edir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər plana uyğun həyata keçirilir. Bütün bunlar ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ilk dəfə məktəbə qədəm qoyan 1-ci sinif şagirdləri ilə görüşdülər, onları Bilik Günü münasibətilə təbrik etdilər. Bildirildi ki, builki tədris ilində ilk dərs məşğələsi «Cocuq Mərcanlı – tarixi qayıdışın başlanğıcı» mövzusuna həsr olunub. Məqsəd uşaq və gənclərə Azərbaycan Ordusunun 2016-cı il aprel döyüşlərində göstərdiyi qəhrəmanlıqlar və işğaldan azad olunan torpaqlarımıza qayıdışın rəmzinə çevrilən Cocuq Mərcanlı kəndi haqqında daha dolğun məlumatların verilməsidir.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva şagirdlərlə xatirə şəkli çəkdirdilər.*

*Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri vardır. Fondun «Yeniləşən Azərbaycana yeni məktəb», «Təhsilə dəstək», «Uşaq evləri və internat məktəblərinin inkişafı» proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Azərbaycan Respub-*

*likasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır.*

*20 saylı məktəb-liseydə yaradılan şərait həm də onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı vardır. Çünki dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsidir. Bu baxımdan təhsil sahəsinə qoyulan investisiyalar mühüm əhəmiyyət kəsb edir.*

*Sonra prezident İlham Əliyev məktəbin müəllim və şagird kollektivi ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sabahınız xeyir olsun! Mən ilk növbədə, sizi yeni dərs ili münasibətilə təbrik edirəm. Bu dərs ilində siz yeni məktəbdə oxuyacaqsınız, işləyəcəksiniz. Bütün şagirdləri, müəllimləri bu gözəl hadisə münasibətilə təbrik edirəm.

20 saylı məktəb indi dünyanın ən yüksək standartlarına cavab verir. Bəlkə də biz özümüz yeni standartları müəyyən edirik. Bu məktəbin çox böyük tarixi var, həmişə ölkəmizin ən böyük məktəbi olubdur və bu gün də ölkəmizin ən böyük məktəbi kimi, öz fəaliyyətini yeni binada davam etdirir.

Təxminən 10 il bundan əvvəl məktəbin təmiri ilə bağlı müəyyən tədbirlər görülmüşdü, mən bu məktəbdə olmuşdum. Təmir işləri aparılmışdı, o vaxt üçün bəlkə də pis aparılmamışdı, ancaq bizim bugünkü inkişafımızın səviyyəsinə uyğun gəlmirdi. Ona görə də qərar qəbul olundu ki, məktəbin binası sökülsün və yeni məktəb tikilsin. Xatırlayıram, o vaxt da valideynlər, müəllimlər tərəfindən müxtəlif fikirlər, narahatlıqlar var idi ki, bu məktəb söküləcək və yerində başqa bir bina tikiləcəkdir. Bəzən olur, şəhərimizdə belə şayiələr gəzir, ancaq onların heç bir əsası yoxdur. Bizim planlarımız elə bəri başdan ondan ibarət idi ki, bu yerdə, 20 saylı məktəbin tarixi yerində yeni gözəl məktəb tikilsin və biz bunu

da etdik. 2 il yarım ərzində möhtəşəm bir bina tikildi. Tam əminliklə demək mümkündür ki, bu gün ölkəmizin ən böyük və ən gözəl məktəbi 20 saylı məktəbdir. Bu adı qazanmaq hazırda o qədər də asan deyil. Çünki son illərdə həm Bakıda, həm bölgələrdə bir çox gözəl məktəblər tikilib. Məktəblərin bəziləri memarlıq abidələridir. Bu gün 20 saylı məktəb doğrudan da bütün məktəblər arasında gözəlliyi, rahatlığı və təchizatı ilə fərqlənir. Əminəm ki, burada təhsilin keyfiyyəti də ən yüksək səviyyədə olacaqdır.

Son illər ərzində Bakı şəhərində, demək olar ki, məktəblərin tam əksəriyyəti əsaslı təmir olunub, yeni korpuslar, yeni məktəblər tikilib. Bakıda 300-dən çox məktəb vardır. Son məlumata görə, təmirə ehtiyacı olan məktəblərin sayı təqribən 20-yə yaxındır. Əminəm ki, gələn il və əgər çatdıra bilməsək, 2019-cu ildə Bakının bütün məktəbləri ən yüksək standartlara cavab verəcəkdir.

Bu il Bakı şəhərində 10 məktəb əsaslı təmir olunub, biri tikilibdir. Ölkə üzrə isə 70-dən çox məktəb əsaslı təmir olunub və ya tikilibdir. Tikinti işləri davam etdirilir. Bilirsiniz ki, bölgələrdə, ucqar kəndlərdə indi modul tipli məktəblər tikilir. Onlardan 100-ü bu il və gələn il istifadəyə verilməlidir. Beləliklə, qəzalı məktəblərlə bağlı olan problemlər də əminəm ki, yaxın 2-3 il ərzində öz həllini tam tapacaqdır.

Azərbaycanda məktəb tikintisi sürətlə gedir. Bu prosesə ilk təkanı Heydər Əliyev Fondu veribdir. «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsinin başlanması geniş bir hərəkata yol açdı. Ondan sonra dövlət xətti ilə bir çox məktəblər tikildi. 2004-cü ildən bu günə qədər 3000-dən çox məktəbdə əsaslı təmir işləri aparılıbdır, bir çox məktəblər yenidən tikilibdir. Bu proses davam edir və davam edəcəkdir. Çünki hələ qəzalı vəziyyətdə məktəblər var və digər tərəfdən, Azərbaycanın uğurlu iqtisadi inkişafı ona gətirib çıxarıb ki, Azərbaycanda əhalinin sürətli artımı müşahidə olunur. Bu çox müsbət haldır, ölkəmizin inkişafını göstərir. Əhalimiz nə qədər artsa, ölkəmiz o qədər də güclənəcəkdir. Məktəblərə gedən uşaqların sayı hər

il artır. Belə olan halda, məktəb tikintisi prosesi daim təmin edilməlidir.

Məktəblərin, təhsilin, ümumiyyətlə, maddi-texniki bazasının möhkəmləndirilməsi ilə yanaşı, təhsilin keyfiyyəti də artır. Biz bunu görürük və son illərdə bu özünü artıq büruzə verir. Bu, ali məktəblərə qəbul imtahanlarında özünü göstərir. Bizim məktəblərimiz beynəlxalq fənn olimpiadalarında yaxşı nəticələr göstərir. Mənə verilən məlumata görə, 40 medal qazanmışlar, onların arasında qızıl medal da vardır. Yəni təhsilin keyfiyyəti, əlbəttə ki, bizim ən prioritet məsələmizdir. Ancaq şagirdlərdən və o cümlədən müəllimlərdən bu keyfiyyəti tələb etmək üçün gərək onların yaxşı şəraiti olsun. Müəllimlərin də iş şəraiti məktəblər istifadəyə verildikcə yaxşılaşır. Məktəb ancaq şagirdlər üçün deyil, müəllimlər üçün də iş yeridir. Müəllimlərin əmək haqları da artır, xüsusilə diaqnostik qiymətləndirmədən keçmiş müəllimlərin əmək haqları əhəmiyyətli dərəcədə artıbdır. Mənə verilən son məlumata görə, Bakı şəhərində orta əməkhaqqı təxminən 500 manatdan çoxdur. Bu çox yaxşı göstəricidir, daha da artmalıdır. Nə qədər çox artarsa, o qədər yaxşıdır. Əlbəttə, imkan daxilində Azərbaycan dövləti bu işlərə də daim diqqət yetirəcəkdir.

Biz bütün bu işləri ona görə görürük ki, uşaqlarımız, gənclərimiz savadlı, bilikli olsunlar. Çox yaxşı haldır ki, biz müstəqillik dövründə savadlılıq səviyyəsini yüksək həddə saxlaya bilmişik və bu gün bu, təxminən 100 faiz səviyyəsindədir. Bizim üçün bu, adi haldır. Amma bir çox ölkələr üçün bu, əlçatmaz bir hədəfdir. Bu bizim böyük üstünlüyümüzdür. Çünki savadlılıq əsasdır və uşaqlarımız bilikli, ağıllı olmalıdırlar, yaxşı oxumalıdırlar ki, gələcəkdə onlar özləri üçün cəmiyyətdə layiqli yer tuta bilsinlər. Çünki bugünkü dünyada savad, bilik hər şeyi müəyyən edir. Əgər hər hansı bir insan öz həyatını yaxşı qurmaq istəyirsə, gələcəkdə cəmiyyətdə yaxşı yer tutmaq istəyirsə, mütləq yaxşı oxumalıdır. Yaxşı oxumaq üçün bütün şərait vardır. Mən əminəm ki, Azərbaycan uşaqları, gənclər, yeniyetmələr bu işlərə çox böyük məsuliyyətlə yanaşacaqlar.

Hər bir ölkənin inkişafını ölkənin intellektual potensialı müəyyən edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə, onların uğurlarına baxmaq kifayətdir ki, biz bunu deyə bilək. O ölkələrdə ki, innovasiyalar, texnologiyalar inkişaf edir, o ölkələr dünya miqyasında da aparıcı mövqelərə malikdir.

Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edəcəkdir. Biz görürük ki, iqtisadi sahədə, sənaye sahəsində, hərbi sahədə texnologiyalar nə qədər inkişaf edir. O texnologiyaların sahibləri bu gün dünyada da söz sahibləridir. Biz Azərbaycanda elmə, təhsilə, texnoloji inkişafa çox böyük əhəmiyyət veririk ki, gənclərimiz, cəmiyyətimiz bilikli olsun və Azərbaycan da texnoloji inkişaf baxımından geridə qalmasın. Maddi-texniki baza möhkəmlənir, təhsilin keyfiyyəti yaxşılaşır. Bu sahəyə investisiyalar qoyulur, insan kapitalına investisiyalar qoyulur. Əminəm ki, Azərbaycanda cəmiyyətin intellektual potensialı həmişə yüksək həddə olacaqdır. Bu həm inkişaf üçün, həm də bu gün ölkəmizdə yaşanan sabitlik, əmin-amanlıq üçün lazımdır. Çünki savad olmayan yerlərdə kənardan mənfi təsirlər də özünü büruzə verir. Biz ölkəmizin təhlükəsizliyini qoruyuruq – həm sərhədlərimizi, təhlükəsizliyimizi qoruyuruq, eyni zamanda, özümüzü yad təsirdən də qorumalıyıq. Çünki bu gün dünyada ideoloji sahədə mübarizə gedir, müharibə gedir. Bu, sonrakı qanlı müharibələrin elə bil ki, əsasını təşkil edir. İnsanların beyni, xüsusilə gənc nəslin beyni zəhərlənir. Onlar müxtəlif xoşagəlməz addımlara təhrik olunur, sonra da onlardan istifadə edilir ki, bəzi xarici dairələrin çirkin niyyətləri bu və ya digər ölkədə özünü göstərsin. Ona görə biz özümüzü, o cümlədən bu mənfi və təhlükəli təsirdən də qorumalıyıq. Necə qorumalıyıq? Bax, bunu siz müəllimlər, təhsil işçiləri etməlisiniz ki, uşaqlar bilikli, savadlı olsunlar. Belə olan halda, heç bir kənar mənfi niyyət, ya təsir bizim uşaqlarımızın şüuruna təsir edə bilməz. Bununla bərabər olaraq, həm müəllimlər, həm valideynlər uşaqları vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər ki, onlar Vətənə bağlı olsunlar, milli ruhda böyüsünlər, milli

dəyərlərimizi hər şeydən üstün tutsunlar. Çünki əgər milli dəyərlərimizdə hər hansı bir sarsıntı yaşanarsa, bu, cəmiyyətimizin əsaslarını, sütunlarını sarsıdar. Ona görə mən həmişə deyirəm ki, milli dəyərlərimiz, mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Biz onları qorumalıyıq, milli ruhumuzu saxlamalıyıq. Çünki bu bizim gələcəyimiz üçün əsasdır.

Biz 25 ildən çoxdur ki, müstəqil ölkə kimi yaşayırıq, öz hesabımıza yaşayırıq, heç kimdən asılı deyilik. Baxmayaraq ki, bizə qarşı müntəzəm olaraq müxtəlif kampaniyalar – qarayaxma, böhtan, şər kampaniyaları aparılır. Onların da məqsədi aydındır – Azərbaycanı ləkələmək, Azərbaycanı öz iradəsinə ram etmək və ondan sonra güclənən Azərbaycan potensialından öz maraqları üçün istifadə etmək. Biz isə buna imkan vermirik və möhkəm dayanmışıq, milli maraqlarımızı qoruyuruq. Ona görə də müntəzəm olaraq müxtəlif xarici dairələrin atəşinə məruz qalırıq. Amma bu bizi yolumuzdan heç vaxt döndərə bilməz. Biz haqq yolundayıq. Bugünkü Azərbaycan, bugünkü Azərbaycan reallıqları, ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq, inkişaf, tərəqqi, vətəndaş həmrəyliyi bizim böyük dəyərimizdir və bunu Azərbaycan xalqı öz zəhməti, istedadı hesabına əldə edib. Əlbəttə, ölkəmizdə kifayət qədər güclü siyasi iradə var ki, xalqımızı kənardan bizə tuşlanan bütün atəşlərdən qoruyaq. Gənclər də, uşaqlar da, bax, bu ruhda – müstəqillik ruhunda böyüməlidirlər. Azərbaycan müstəqil ölkə kimi əbədi yaşamalıdır və müstəqil siyasəti bundan sonra da aparmalıdır. Biz bunu aparırıq və aparacağıq. Ancaq gələcək sizin əlinizdə olacaqdır. Ona görə müəllimlər də, valideynlər də, uşaqların özləri də həmişə bu amili yadda saxlasınlar. Təhsil, vətənpərvərlik, milli dəyərlər, güclü Azərbaycan – budur bizim əsas prinsiplərimiz. Əminəm ki, belə gözəl məktəbdə mənim bütün tövsiyələrim öz yerini tapacaqdır.

Sizi bir daha təbrik edirəm, uğurlar arzulayıram.

* * *

**J a l ə  S e y i d l i** (*valideyn*): Mənim övladım 20 saylı məktəbdə təhsil alır. Bir qədər həyəcanlıyam. Çünki Prezident, Ali Baş Komandan qarşısında və Birinci vitse-prezident qarşısında həyəcansız danışmaq olmur. Belə gözəl məktəbə, ümumiyyətlə, Azərbaycan təhsilinin inkişafında gördüyünüz işlərə görə Sizə və Mehriban xanıma təşəkkür etmək istəyirəm. Nazirlik məlumat verib ki, bu il ölkəmizdə təhsilin inkişafı üçün yeni layihələr həyata keçiriləcəkdir. Bir valideyn olaraq, çox sevinirəm ki, bu qədər problemlərə, qayğılara, dünyada gedən gərgin siyasi proseslərə baxmayaraq, Prezidentimiz və onun xanımı təhsilə, məktəblərə hərtərəfli dəstək olurlar. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm, çox sağ olun. Valideynləri də, müəllimləri də təbrik edirəm, yeni-yeni uğurlar arzulayıram.

## FRANSA RESPUBLİKASI AVROPA VƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ JAN-BATİST LÖMUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də ölkəmizdə rəsmi səfərdə olan Fransa Respublikası Avropa və Xarici İşlər Nazirliyinin Dövlət katibi Jan-Batist Lömuanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu və bir çox sahələri əhatə etdiyini vurğulayaraq, Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Dövlət katibi Jan-Batist Lömuanın Azərbaycana səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi ilə bağlı geniş müzakirələrin aparılması baxımından önəmini qeyd etdi. Özünün bu il Fransaya rəsmi səfərini, Fransa prezidentlərinin əvvəlki dövrlərdə Azərbaycana səfərlərini məmnunluqla xatırladan dövlət başçımız bildirdi ki, ölkələrimiz arasında siyasi dialoq kifayət qədər yüksək səviyyədədir. İqtisadi əməkdaşlığa gəldikdə bir çox Fransa şirkətləri uzun illərdir ki, Azərbaycanda uğurlu fəaliyyət göstərir və onlar həm investor kimi, həm də podradçı qismində bu gün çox önəmli layihələrdə iştirak edirlər. Prezident İlham Əliyev Fransanın iş adamları və onların təşkilatları ilə dəfələrlə keçirdiyi görüşlərin iqtisadi əməkdaşlığımızın genişlənməsi işinə öz töhfəsini verdiyini dedi.*

*Təhsil sahəsində də çox önəmli addımlar atıldığını vurğulayan dövlət başçımız qeyd etdi ki, əgər ilkin olaraq Azər-*

*baycanda Fransız liseyi açılmışdırsa, indi isə artıq universitet də fəaliyyət göstərir. Bütün bunlar Fransa–Azərbaycan əlaqələrinin yüksək səviyyədə olmasının təzahürüdür. Prezident İlham Əliyev əminliyini ifadə etdi ki, Fransa Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində vasitəçi kimi öz fəal işini bundan sonra da davam etdirəcəkdir. Dövlət başçımız ümidvar olduğunu bildirdi ki, Jan-Batist Lömuanın ölkəmizə səfəri onun Azərbaycanla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacaqdır.*

*Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Dövlət katibi Jan-Batist Lömuan dedi:*

– Mən ölkənizə səfər edən yeni formalaşmış və prezident Emmanuel Makron tərəfindən təyin olunmuş ilk hökumət üzvüyəm. Bu mənim üçün böyük şərəfdir. Mən keçmişdə senator vəzifəsində çalışmışam və bu vəzifəmdə çalışarkən Azərbaycanın ayrı-ayrı regionları ilə əməkdaşlıq və sərmayə qoyuluşu sahəsində xüsusi səylər göstərmişəm.

*Jan-Batist Lömuan ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd olunmasını mühüm hadisə kimi dəyərləndirərək, əminliklə bildirdi ki, ötən dövr ərzində bu əlaqələr yüksək səviyyədə olub və növbəti 25 il ərzində də yüksələn xətlə daha da inkişaf edəcəkdir. O bildirdi ki, Fransa Azərbaycanın çox uğurlu və çoxvektorlu siyasət həyata keçirdiyini, qonşularla əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirdiyini önəmli sayır. Bu isə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirir, bölgədə və beynəlxalq aləmdə barışdırıcı və vasitəçi rolunu daha da artırır. Qonaq bu istiqamətdə təhsilin əhəmiyyətini xüsusilə vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında enerji, nəqliyyat, metro, kosmik, sənaye, kənd təsərrüfatı, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə edildi, ölkələrimizin ayrı-ayrı regionları arasında əlaqələrin əhəmiyyətindən danışıldı, beynəlxalq terrorizmə və ekstremizmə qarşı mübarizədə və təhlükəsizlik sahəsində birgə*

*əməkdaşlığın önəmi vurğulandı və Azərbaycanın bu sahədə ciddi addımlar atdığı bildirildi.*

*Avropa İttifaqı çərçivəsində uğurlu əməkdaşlığa toxunularaq, Azərbaycan prezidenti İlham Əliyevin bu ilin əvvəlində Avropa İttifaqına uğurlu səfərindən sonra ölkəmizlə Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sənədi üzərində işlərin aparıldığı və bu ilin sonuna qədər yekunlaşacağı ümidvarlıqla qeyd olundu.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA SƏFƏR

*17 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 17-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 72-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərinə səfərə gəlmişlər.*

## ABŞ ETNİK ANLAŞMA FONDUNUN SƏDRİ RAVVİN MARK ŞNAYER VƏ BİR SIRA DİNİ LİDERLƏRLƏ GÖRÜŞ

*Nyu York*

*18 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində ABŞ Etnik Anlaşma Fondunun sədri ravvin Mark Şnayer və bir sıra xristian yevangelik dini liderləri ilə görüşmüşdür.*

*Bakıda dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırladan ABŞ Etnik Anlaşma Fondunun sədri ravvin Mark Şnayer ölkəmiz haqqında həmişə zəngin təəssüratlarının olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, prezident İlham Əliyev dinlərarası dialoq və əməkdaşlığa həmişə sadiq olub. Ravvin Mark Şnayer Amerikanın yəhudi icmasının rəhbəri kimi, Azərbaycan Prezidentinin ölkəmizdə yəhudi icmasına verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. O eyni zamanda, ABŞ yəhudi icması adından Azərbaycan–İsrail əməkdaşlığının inkişafından məmnunluğunu ifadə etdi.*

*«İqls Vinqs» təşkilatı ilə əlaqələrə toxunan ravvin Mark Şnayer qeyd etdi ki, bu görüşdə təmsil olunan nümayəndə heyətinin üzvləri Amerika yevangelist icmasının nüfuzlu şəxsləridir. O dedi ki, ABŞ-da yevangelist icmasının 100 milyondan artıq nümayəndəsi yaşayır və onların Amerika yəhudiləri və digər icmalarla yaxşı əlaqələri vardır. ABŞ Etnik Anlaşma Fondunun sədri bildirdi ki, bu gün Azərbaycanda prezident İlham Əliyevin rəhbərliyi ilə dinlərarası dialoq və tolerantlıq*

*sahələrində həyata keçirilən işlər başqa ölkələrə nümunə ola bilər.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanda ravvin Mark Şnayerlə keçirdiyi görüşlərə toxunaraq, həmin görüşlər zamanı faydalı fikir mübadiləsinin aparıldığını qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artır, bununla yanaşı, ölkəmiz haqqında daha geniş məlumatın yayılması vacibdir. Prezident İlham Əliyev bu baxımdan belə görüşlərin və keçirilən tədbirlərin önəmini vurğuladı. Azərbaycanda sabitliyin tam bərqərar olduğunu qeyd edən prezident İlham Əliyev bildirdi ki, bunun əsas səbəblərindən biri də müxtəlif dini və etnik qrupların nümayəndələrinin ölkəmizdə sülh və qarşılıqlı anlaşma şəraitində yaşamasıdır.*

*Görüşdə çıxış edən Amerikanın «İqls Vinqs» yevangelist təşkilatının pastoru Ceyms Ruddi dedi:*

– Sıx iş qrafikinə baxmayaraq, bizimlə görüşə vaxt ayırdığınıza görə minnətdarlığımızı bildiririk. Bu görüş bizim üçün böyük əhəmiyyət daşıyır. Təşkilatımız təkcə ABŞ-da deyil, bütün dünyada böyük bir şəbəkəyə və nüfuza malikdir. Bizim 175 ölkədə nümayəndəmiz vardır. Biz bu gün Sizinlə görüşməkdən dərin məmnunluq hissi keçiririk və ölkənizlə əməkdaşlığın genişlənməsində çox maraqlıyıq.

*Pastor Ceyms Ruddinin söylədiyi sözlərdən məmnunluğunu ifadə edən prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, bu görüş əməkdaşlığımızın genişlənməsi işinə öz töhfəsini verəcəkdir. Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinə toxunan prezident İlham Əliyev əlaqələrimizin siyasi, iqtisadi, təhlükəsizlik, enerji və digər sahələrdə uğurla inkişaf etdiyini qeyd etdi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində də ABŞ ilə əməkdaşlığı çox yaxşı səviyyədədir və ölkəmiz Əfqanıstandakı sülhməramlı əməliyyatların nəqliyyat və logistika sahəsinə böyük töhfə verir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə İsrail arasındakı əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı qeyd etdi ki, bu gün Azərbaycan dünyada multikulturalizm, dini azadlıq və dinlərarası əməkdaşlığın mühüm mərkəzlərindən birinə çevrilib. Prezident İlham Əliyev bu baxımdan Azərbaycan haqqında həqiqətlərin dolğun şəkildə yayılmasının önəminə toxundu. Bu gün Azərbaycanın siyasi, iqtisadi, sosial və digər sahələrdə böyük uğurlar əldə etdiyini vurğulayan dövlət başçımız bildirdi ki, ötən il ölkəmizdə «Multikulturalizm ili»nin elan olunması dövlətimizin və xalqımızın mədəni, mənəvi və dini dəyərlərə sadiqliyinin təzahürüdür. Eyni zamanda, bu il ölkəmizdə «İslam həmrəyliyi ili»nin elan olunması islam ölkələri arasında əməkdaşlığa və ümumilikdə islam dünyasında həmrəyliyin möhkəmləndirilməsi işinə Azərbaycanın dəyərli töhfəsidir. Bundan başqa, Bakının 2 il ərzində həm Avropa oyunlarına, həm də İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etməsi Azərbaycanın xristian dünyası ilə islam dünyası arasında əməkdaşlıq işinə verdiyi böyük dəstəkdir.*

*Söhbət zamanı prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü barədə məlumat verdi, ölkəmizin qlobal enerji təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirdiyi işlərdən danışdı.*

## «BMT İSLAHATLARINA DAİR SİYASİ BƏYANNAMƏYƏ DƏSTƏK» ADLI YÜKSƏK SƏVİYYƏLİ TƏDBİRDƏ İŞTİRAK

*Nyu York*

*18 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Nyu Yorkda Birləşmiş Millətlər Təşkilatının baş qərargahında «BMT islahatlarına dair siyasi Bəyannaməyə dəstək» adlı yüksək səviyyəli tədbirdə iştirak etmişdir.*

*Yüksək səviyyəli tədbirdə ABŞ Prezidenti Donald Tramp çıxış etdi.*

*BMT-də islahatlara ehtiyacın olduğunu qeyd edən ABŞ Prezidenti Donald Tramp qurumun Baş katibi Antonio Quterreşin bu istiqamətdə səylərini yüksək qiymətləndirdi. Donald Tramp vurğuladı ki, bürokratiya və qeyri-səmərəli idarəçilik BMT-yə tam gücü ilə çalışmağa imkan vermir.*

*BMT-nin Baş katibi Antonio Quterreş dünyada çoxlu sayda insanların münaqişələrdən, aclıqdan əziyyət çəkdiklərini bildirdi. «Bu insanların yardımımıza ehtiyacı var. Biz qurumda ciddi islahatlar həyata keçirməli, işimizi daha səmərəli icra etməliyik. Biz qlobal təşkilatıq və insanların bizə olan etimadını doğrultmalıyıq» – deyə Antonio Quterreş vurğuladı.*

*Tədbir çərçivəsində birgə foto çəkdirildi.*

## AMERİKA YƏHUDİ TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Nyu York*

*18 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Nyu Yorkda Amerika Yəhudi Təşkilatının, Dünya Yəhudi Konqresinin, «B`nai B`rith International»ın, Avrasiya Yəhudilərini dəstəkləyən Milli Koalisiyanın, Şimali Amerika Yəhudi Federasiyalarının, Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının, «Vaad L`Hatzolas Nidchei Yisroel» yəhudi təşkilatının rəhbərlərinin daxil olduğu Amerika yəhudi təşkilatlarının nümayəndələri ilə görüşmüşdür.*

*Görüşdə Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının icraçı vitse-sədri, baş icraçı direktoru Malkolm Honlayn nümayəndə heyətinin təmsil etdiyi təşkilatların Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiklərini bildirdi. O, Bakıda prezident İlham Əliyev ilə keçirdiyi görüşü məmnunluqla xatırladaraq, Azərbaycanın müasir və sürətlə inkişaf edən ölkə kimi onlarda böyük təəssürat doğurduğunu bildirdi. Malkolm Honlayn Azərbaycan ilə ABŞ, eləcə də Azərbaycan ilə İsrail arasında yaxşı əməkdaşlıq əlaqələrinin olduğunu məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev görüşdə iştirak edən yəhudi təşkilatları rəhbərlərinin bir çoxunun Azərbaycanda olduğunu vurğulayaraq, ölkəmizin əldə etdiyi nailiyyətlərdən onların məlumatlı olduğunu bildirdi. Dövlət başçımız Azərbaycanda gedən inkişaf prosesləri barədə məlumatların yayılmasının önəmini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında münasibətlərin uğurla inkişaf etdiyini diqqətə çatdırdı, Azərbaycan–İsrail əlaqələrinin inkişafından məmnunluğunu ifadə etdi.*

*Söhbət zamanı Amerika yəhudi təşkilatlarının rəhbərləri Azərbaycanda digər icmalar kimi, yəhudi icmasının da qarşılıqlı anlaşma və əmin-amanlıq şəraitində yaşaması üçün yaradılan şəraitə görə prezident İlham Əliyevə minnətdarlıqlarını, Azərbaycanda sabitliyin və təhlükəsizliyin yüksək səviyyədə olduğunu bildirdilər, ölkəmizin multikulturalizm və tolerantlıq siyasətinə sadiqliyini yüksək qiymətləndirdilər.*

*Görüşdə Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər, Azərbaycanın iqtisadi inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**AZƏRBAYCANIN YƏHUDİ İCMASINA**

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının yeni il bayramı – Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan bu gün multikultural ənənələrin qorunub saxlanıldığı, ayrı-ayrı dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin mövcud olduğu nadir məkanlardandır.

Tarixən Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icmasının cəmiyyətimizdə özünəməxsus yeri vardır. Əlamətdar haldır ki, yəhudi vətəndaşlarımız ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fəal vətəndaş mövqeyi nümayiş etdirirlər.

Əziz dostlar!

Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirən bir bayramdır. Yəhudi xalqının bu əziz günü qoy hamınızın həyatına xoş ovqat, ailələrinizə xoşbəxtlik və sevinc gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 sentyabr 2017-ci il*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ XANIM MARİ-LUİZ KOLEYRO PREKAYA**

Hörmətli xanım Prezident!

Malta Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Malta münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 sentyabr 2017-ci il*

## BMT-nin BAŞ QƏRARGAHINDA KEÇİRİLƏN ÜMUMİ MÜZAKİRƏLƏRDƏ İŞTİRAK

*Nyu York*

*19 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva sentyabrın 19-da Nyu Yorkda Birləşmiş Millətlər Təşkilatının baş qərargahında ümumi müzakirələrin açılışında iştirak etmişlər.*

*Ümumi müzakirələrin açılışında çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş hazırda dünyada bir çox problemlərin olduğunu vurğuladı, ölkələr arasında etibar və etimadın aşağı düşdüyünü bildirdi. Qaçqınların sayının artması, miqrasiyanın çağırışları, insan alveri, iqlim dəyişikliyi və digər mövcud qlobal problemlərə toxunan BMT-nin Baş katibi əminliyini ifadə etdi ki, yalnız birlikdə sülhə nail olmaq və qarşılıqlı etimadı bərpa etmək mümkündür.*

*BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının prezidenti Miroslav Layçak dünyada davam edən münaqişələrin ən çox sadə insanlara ziyan vurduğunu bildirdi. O, yoxsulluq, iqlim dəyişikliyi, beynəlxalq terrorizmin çağırışları ilə bağlı fikirlərini bölüşdü, bu problemlərin insanların həyatına birbaşa təsir etdiyini vurğuladı. Miroslav Layçak qeyd etdi ki, sülhün təmin edilməsi və müharibələrin qarşısının alınması BMT-nin fəaliyyətinin əsas istiqamətlərindən biri olmalıdır.*

*Sonra Braziliya Federativ Respublikasının Prezidenti Mişel Temer müzakirə olunan mövzularla bağlı fikirlərini bölüşdü.*

*Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp BMT-nin fəaliyyətinin daha da səmərəli olmasının vacibliyinə*

*toxundu. O vurğuladı ki, dövlətlər xalqların maraqlarını və gələcəyini müdafiə etməlidir. ABŞ Prezidenti qeyd etdi ki, biz birlikdə çalışmalıyıq və təhdidlərə qarşı bir olmalıyıq. Donald Tramp Türkiyə, İordaniya və Livana Suriyadan olan qaçqınları qəbul etdiklərinə görə minnətdarlığını bildirdi.*

## ABŞ PREZİDENTİ DONALD TRAMPIN VƏ XANIMININ ADINDAN TƏŞKİL OLUNMUŞ QƏBULDA İŞTİRAK

*Nyu York*

*19 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 19-da Nyu Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və xanımının adından BMT-nin Baş Assambleyasının 72-ci sessiyası ilə əlaqədar təşkil olunmuş qəbulda iştirak etmişlər.*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,
SƏUDİYYƏ ƏRƏBİSTANININ
KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ
AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı münasibətlər qardaş xalqlarımızın iradəsinə uyğun olaraq daim qarşılıqlı inam, etimad və dəstək ruhunda inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Səudiyyə Ərəbistanının qardaş xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2017-ci il*

**SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT MƏHƏMMƏD BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş xalqınıza daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2017-ci il*

**MALİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İBRAHİM BUBAKAR KEYTAYA**

Hörmətli cənab Prezident!

Mali Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Mali əlaqələri ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq genişlənəcək və inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2017-ci il*

## BMT BAŞ ASSAMBLEYASININ 72-ci SESSİYASININ AÇILIŞINDA İŞTİRAK

*Nyu York*

*20 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva sentyabrın 20-də Nyu Yorkda BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışında iştirak etmişlər.*

*Tədbirin aparıcısı, İndoneziyanın BMT yanında daimi nümayəndəsi Dian Triansyah Djani çıxış edərək dedi:*

– İndi isə Assambleya Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Heydər oğlu Əliyevin çıxışını dinləyəcək.

Protokoldan xahiş edirəm ki, zati-alilərini müşayiət etsin.

Baş Assambleya adından Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Heydər oğlu Əliyevi salamlamaqdan şərəf hissi duyuram və onu Assambleya qarşısında çıxış etməyə dəvət edirəm.

*Azərbaycan prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışında çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab sədr!

Xanımlar və cənablar!

25 ildən çoxdur ki, Ermənistan Azərbaycanın 20 faiz ərazisini – Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında sazlayır.

Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçiribdir.

Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən rəsmən tanınıb. 1992-ci il fevralın 26-da Ermənistan Xocalının 613 dinc sakinini, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirərək, hərbi cinayət törədib. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi cinayətkarlardan biri də Ermənistanın hazırkı prezidentidir.

Aparıcı beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edibdir.

İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı», ATƏT, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul ediblər. Lakin Ermənistan bu qərar və qətnamələri icra etmir. Ermənistan 24 ildir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o buna görə cəzalandırılmır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin yaradılması olmalıdır.

Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edir, substantiv danışıqların qarşısını alır. ATƏT-in Minsk

qrupunun həmsədrləri – Fransa, Rusiya və ABŞ dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir.

Sual yaranır: necə olur ki, despotik və orta əsrlər rejiminin idarə etdiyi bu cür korrupsiyaya uğramış, uğursuz dövlət uzun illər ərzində beynəlxalq hüququ pozmağa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və dünyanın aparıcı ölkələrinin bəyanatlarına məhəl qoymamağa müvəffəq olur? Buna cavab isə ikili standartlardır. Təcavüzkara qarşı heç bir beynəlxalq təzyiq göstərilmir, Ermənistan diktaturasına heç bir beynəlxalq sanksiya tətbiq edilmir. Bu siyasətə son qoyulmalıdır.

Təcavüzkara münasibətdə belə siyasət təkcə ədalətsizliyi nümayiş etdirmir, eyni zamanda, Ermənistan diktaturasında elə bir illüziya yaradır ki, sanki onlar öz terror siyasətini bundan sonra da davam etdirə bilərlər.

Ötən ilin aprelində Ermənistan şəhər və kəndlərimizə hücum edərək, təmas xəttində növbəti hərbi cinayət törətdi. Bu hücum nəticəsində 6 dinc azərbaycanlı qətlə yetirildi, onların sırasında bir uşaq da var idi. Bundan əlavə, 26 mülki şəxs yaralandı. Yüzlərlə evimiz dağıdıldı.

Azərbaycan öz vətəndaşlarını müdafiə etməli oldu. Uğurlu əks-hücum nəticəsində Azərbaycan 3 işğal olunmuş rayonda – Ağdərə, Füzuli və Cəbrayılda bir neçə ərazini azad etdi və öz bayrağını azad edilmiş ərazilərdə qaldırdı. Ermənistan rəhbərliyi bu dərsi yaddan çıxarmamalıdır. Əks təqdirdə, Ermənistanın növbəti təxribatının nəticələri onlar üçün daha ağrılı olacaqdır.

Döyüş meydanında məğlub olan Ermənistan şəhərlərimizə və kəndlərimizə hücum çəkmək kimi məkrli siyasətindən istifadə edir. 2017-ci il iyulun 4-də Ermənistan silahlı qüvvələri 82 və 120 millimetrlik mina və qumbaraatanlardan istifadə edərək, Füzuli rayonunun Alxanlı kəndinə məqsədli hücum etmiş, 2 dinc sakini – 2 yaşlı Zəhra Quliyevanı və onun nənəsini qətlə yetirmişdir.

2017-ci il avqustun 7-də Ermənistanla sərhəddə yerləşən Tovuz rayonunda 13 yaşlı oğlan erməni əsgərləri tərəfindən yaralan-

mışdır. Beynəlxalq ictimaiyyət erməni faşizminə və terroruna son qoymalıdır. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin eyni zamanda, Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi, yenidən cəzalandıracaqdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır. Ermənistan işğalının yaratdığı böyük çətinliklərə baxmayaraq, Azərbaycan sürətlə və uğurla inkişaf edir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının fəal üzvüdür.

2011-ci ildə Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. 155 ölkə Azərbaycana səs verdi. Üzv dövlətlərin tam əksəriyyəti Azərbaycana və onun siyasətinə öz dəstəyini nümayiş etdirdilər. Həmin vaxt cəmi 20 yaşı olan ölkə üçün bu, böyük nailiyyət oldu. Azərbaycan müasir, sabit və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının müdafiəsi hökumətimizin əsas prioritetlərindəndir. Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən ifadə, mətbuat, yığıncaq və dini azadlıqlar tam şəkildə təmin edilir.

Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindən biridir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Bütün etnik qrupların və dinlərin nümayəndələri Azərbaycanda sülh və harmoniya şəraitində yaşayırlar. Azərbaycanda 2016-cı il «Multikulturalizm ili», 2017-ci il isə «İslam həmrəyliyi ili» elan olunmuşdur.

Ərazisində, demək olar ki, milli azlıqlar olmadığı, monoetnik ölkə kimi tanınan və dövlət siyasəti ksenofobiya olan Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli ölkədir, cəmiyyətimizin mədəni, etnik və dini müxtəlifliyi böyük sərvətimizdir. İslamofobiyanı pik həddinə çatdırmış Ermənistan

işğal olunmuş ərazilərdə bütün məscidlərimizin dağıdılması kimi bir çox vandalizm aktlarını törədibdir.

Azərbaycan dinlərarası dialoqun gücləndirilməsinə yönəlmiş çox sayda beynəlxalq tədbirlərə ev sahibliyi edibdir. Onların sırasında BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu, Dünya Dini Liderlər Forumunu, 4 dəfə keçirilmiş Mədəniyyətlərarası Dialoq və 5 dəfə keçirilmiş Bakı Beynəlxalq Humanitar forumlarını və digər mühüm tədbirləri qeyd etmək olar.

İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan 2008-ci ildə BMT-nin dəstəklədiyi «Bakı prosesi»nə start verdi. «Bakı prosesi»nin əsas məqsədi müsəlman aləmi ilə Avropa arasında dialoqu, tərəfdaşlığı və əməkdaşlığı gücləndirməkdir.

2015-ci ildə Azərbaycan I Avropa oyunlarına ev sahibliyi etdi. 50 ölkədən gəlmiş 6000 atlet həmin oyunlarda iştirak etdi. 2017-ci ildə Azərbaycan 54 ölkəni təmsil edən təxminən 3000 idmançının iştirakı ilə IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etdi.

İki il ərzində paytaxtımız Bakıda Avropa və islam oyunları keçirildi. Bu həmçinin multikulturalizmin təşviq edilməsinə böyük töhfə oldu. Azərbaycan yığması I Avropa oyunlarında 2-ci yeri, İslam Həmrəyliyi oyunlarında isə 1-ci yeri tutdu. Bu göstərir ki, Azərbaycan dünyanın aparıcı idman ölkələrindən biridir. İdman nailiyyətlərimizin digər sübutu Azərbaycanın «Rio–2016» Olimpiya oyunlarında medalların sayına görə 14-cü yeri tutması oldu. Bütövlükdə, Azərbaycan 18 medal qazandı.

Azərbaycan sosial və iqtisadi sahələrdə böyük inkişafa nail olub. 2004-cü ildən başlayaraq, Azərbaycanın iqtisadiyyatı 3 dəfədən çox artıb, ölkəmizdə 1 milyon 600 mindən artıq iş yeri açılıbdır. İşsizlik səviyyəsi dünyada ən aşağı göstəricilərdən biridir – 5 faiz. Prioritetlərimizdən biri yoxsulluğun azaldılması idi. 2004-cü ildə yoxsulluğun səviyyəsi 40 faizdən artıq idi. İndi

bu, cəmi 5-6 faizdir. Nağd valyuta ehtiyatlarımız ölkənin Ümumdaxili məhsuluna bərabərdir. Xarici dövlət borcu Ümumdaxili məhsulun 20 faizindən azdır.

2009-cu ildə Azərbaycan Dünya Bankının «Doing Business» hesabatında «Dünyanın aparıcı islahatçı ölkəsi» kimi qiymətləndirilibdir. Davos Dünya İqtisadi Forumunun «2016–2017-ci illər üzrə qlobal rəqabətədavamlılıq hesabatı»nda Azərbaycan 138 ölkə sırasında 37-ci yer tutubdur. 2015-ci ildə Azərbaycan Minilliyin İnkişaf Məqsədlərinin icrasında əldə etdiyi böyük nailiyyətinə görə həmin ilin «Cənub–Cənub» mükafatını alıb və 2010-cu ildən etibarən yüksək insan inkişafı kateqoriyalı ölkələr sırasına daxil edilibdir.

Azərbaycanın kosmik sənayesinin sürətli inkişafı, 2 telekommunikasiya və yer səthinin müşahidəsi peykləri – «Azərspace» və «Azərsky» və bu yaxınlarda buraxılacaq «Azərspace-2» adlanan 3-cü peyk ölkəmizin dünya kosmik klubunun üzvləri sırasına daxil olmasını mümkün etdi.

Bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən əqli məhsullarını ixrac edir. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – «ASAN xidmət» ictimai münasibətlərin və xidmətlərin müasir modelidir.

Eyni yerdə 251 xidmətin göstərilməsi, tam şəffaflıq, korrupsiya və rüşvətxorluğun sıfıra endirilməsi «ASAN xidmət»i bir çox ölkələr üçün cəlbedici edib.

Sırf Azərbaycan brendi olan «ASAN xidmət» yaradıldığı gündən ötən 5 il ərzində 5 milyon insana 1 milyon 600 min xidmət göstərib. Müraciətlərin ümumi sayı 17 milyona çatıb. «ASAN xidmət»in ictimaiyyət tərəfindən bəyənilməsi 98 faiz təşkil edir.

2015-ci ildə dövlət xidmətlərinin əhəmiyyətli dərəcədə sadələşdirilməsinə, təkmilləşməyə verdiyi töhfəsinə və yaradıcı olmağına görə «ASAN» Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülübdür.

Siyasətimizin əsas məqsədi vətəndaşlarımızın rifah halının daha da yaxşılaşdırılmasıdır. 2004-cü ildən etibarən ölkəmizdə əmək haqları 5,6 dəfə, pensiyalar isə 8,2 dəfə artıbdır.

Xarici maliyyə dəstəyi olmadan biz erməni işğalından əziyyət çəkən qaçqın və məcburi köçkünlər üçün təxminən 100 yeni qəsəbə və şəhərcik salmışıq. Bu günə qədər 250 mindən artıq insanın həyat şəraiti yaxşılaşdırılıb, onlara yeni evlər və mənzillər verilib. Həmin şəhərcik və qəsəbələrdə 152 məktəb, 59 tibb mərkəzi və 60 bağça tikilibdir.

Ümumilikdə 2004-cü ildən başlayaraq, 3000-dən artıq məktəb, 600-dən çox xəstəxana və tibb mərkəzləri tikilib, yaxud təmir edilibdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Hər il 5 milyondan artıq insan, yəni ölkə əhalisinin yarısı tamamilə dövlət büdcəsindən maliyyələşən tibbi yoxlamadan keçir.

Azərbaycan qlobal enerji bazarında mühüm rol oynayır. Beynəlxalq bazarlarda etibarlı neft və qaz təchizatçısı olan Azərbaycan dünyanın bir çox ölkələri üçün enerji təhlükəsizliyini təmin edir. Bu gün Azərbaycan öz beynəlxalq tərəfdaşları ilə birlikdə «Cənub Qaz Dəhlizi» layihəsinin başa çatdırılmasına çox yaxındır. Sərmayələrinin həcmi 40 milyard dollara çatan bu layihə dünyanın ən iri infrastruktur layihələrindən biridir.

Digər mühüm prioritet məsələ nəqliyyatdır. Avropa ilə Asiya arasında yerləşən Azərbaycan Avrasiyada aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmək istiqamətində öz coğrafi mövqeyindən müdrikcəsinə istifadə edir.

Son illərdə Azərbaycanda 6 beynəlxalq hava limanı tikilmiş, 11 min kilometr müasir şose və yollar çəkilibdir. Xəzər dənizində Azərbaycanın 270 gəmidən ibarət ən iri ticarət donanması vardır.

Azərbaycanda müasir Gəmiqayırma zavodu bütün növ və ölçüdə gəmiləri tikməyə qadirdir. Azərbaycan özünün dəmir yol infrastrukturunu müasirləşdirir. Ərazimizin tam əksəriyyəti dəmir yolları ilə əhatə olunur.

Gələn il biz Xəzər regionunda ən iri Beynəlxalq Dəniz Ticarət Limanını istismara verəcəyik.

Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinə böyük sərmayələr yatırır. Ölkəmizdən keçən hər 2 marşrut Şərqdən Qərbə, Şimaldan Cənuba gedən ən qısa yollar olacaqdır.

Sonda bildirmək istərdim ki, ötən il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etdik. Azərbaycanın uğurlu inkişafı bir daha göstərir ki, yalnız azad və müstəqil olduqda, ölkənin taleyi öz xalqının əlində olduğu halda uğur əldə etmək olar. Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq.

Sağ olun.

* * *

**Miroslav Layçak** (*Baş Assambleyanın sədri*): Azərbaycan Respublikasının Prezidentinə çıxışına görə Baş Assambleya adından təşəkkürümü bildirirəm.

* * *

*Sessiyada çıxış edən Finlandiya prezidenti Sauli Niinistö terrorizmlə mübarizənin ümumi prioritet olduğunu bildirdi, dünyada gedən demoqrafik proseslərdən danışdı. O, ətraf mühitin qorunmasının, bərpa olunan enerji mənbələrinin və gender bərabərliyinin əhəmiyyətinə toxundu.*

*Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev çıxışında qeyd etdi ki, beynəlxalq birlik terrorizm və ekstremizm ilə mübarizədə daha fəal olmalıdır, yalnız bu halda bu təhdidlərin qarşısını almaq mümkündür. O, regional inteqrasiya, iqlim dəyişikliyi, dayanıqlı inkişaf üçün biosferin qorunmasının vacibliyindən danışdı.*

## BMT-nin BAŞ KATİBİ ANTONİO QUTERREŞ İLƏ GÖRÜŞ

*Nyu York*

*20 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Nyu Yorkda Birləşmiş Millətlər Təşkilatının baş qərargahında BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev BMT-nin Fəxri qonaqlar kitabını imzaladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş birgə foto çəkdirdilər.*

*BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan prezidenti İlham Əliyev ilə görüşməkdən məmnunluğunu bildirdi və qeyd etdi ki, Azərbaycan bizim köhnə dostumuzdur. Azərbaycan çox böyük və faydalı işlər görür, təşəbbüslər və tədbirlər həyata keçirir.*

*Antonio Quterreş Azərbaycan ilə BMT arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu, qarşılıqlı anlaşmanın mövcudluğunu vurğuladı. Diqqətə çatdırdı ki, Azərbaycan BMT-nin layihələrində fəal iştirak edir. Qurumun Baş katibi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən narahatlığını ifadə etdi, münaqişənin həlli ilə bağlı həmsədrlərin əllərindən gələni edəcəklərinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın BMT çərçivəsində böyük işlər gördüyünü dedi. Dövlətimizin başçısı BMT Sivilizasiyalar Alyansının Qlobal forumları, Mədəniyyətlərarası Dialoq forumları, Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində Bakıda*

*keçirilən tədbirlərdən danışdı və belə layihələrin ölkəmizdə davam etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini, yoxsulluğun aşağı səviyyədə olduğunu, savadlılığın 100 faizə yaxınlaşdığını vurğuladı. Prezident İlham Əliyev Ermənistan tərəfinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara mane olduğunu və münaqişənin həllinin uzadılmasına çalışdığını bildirdi.*

*Azərbaycan Prezidenti qeyd etdi ki, ölkəmiz bu münaqişənin sülh yolu ilə həll edilməsini istəyir. Ancaq bu istiqamətdə təşəbbüslər göstərilsə də nəticə yoxdur. Dövlətimizin başçısı bildirdi ki, biz istəyirik insanlarımız öz dədə-baba yurdlarına qayıdıb, orada rahat yaşasınlar.*

*Prezident İlham Əliyev Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpası barədə də danışdı. Bildirdi ki, bu kənddə bütün lazımi infrastruktur yaradılıb. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistan qondarma xəritələr icad edir, Dağlıq Qarabağı oraya daxil edir və bir çox ölkələrdən erməniləri Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirir. Azərbaycan Prezidenti vurğuladı ki, BMT bütün bunları nəzərə almalı və həmsədrlərə mesaj göndərməlidir.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Amerika Birləşmiş Ştatlarına səfəri sentyabrın 20-də başa çatdı.*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NYETOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş dəhşətli zəlzələnin doğurduğu çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbəri kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Meksika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 sentyabr 2017-ci il*

## BALAXANI SƏNAYE PARKININ AÇILIŞI MƏRASİMİ

*22 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Balaxanı Sənaye Parkının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonunda görülən işlərlə də tanış olmuşdur.*

*İqtisadiyyat naziri Şahin Mustafayev görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdi.*

*İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu sahədə mühüm işlər görülür.*

*Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir. Həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, yüzlərlə müasir sənaye müəssisəsi fəaliyyətə başlayıb, ölkəmizdə yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlibdir. Müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan sənaye müəssisələrində tullantıların təkrar emalı kimi yeni sahələr inkişaf etdirilməklə, xammal idxalından asılılıq azaldılır, resurslara və enerjiyə qənaət olunur ki, bu da ölkədə «yaşıl iqtisadiyyat»ın yüksəlişinə geniş imkan yaradır.*

*Təkrar istehsal sahəsində sahibkarlar və potensial investorlar üçün əlverişli şərait yaratmaq məqsədilə prezident İlham Əliyevin 2011-ci il dekabrın 28-də imzaladığı Sərəncam ilə Balaxanı Sənaye Parkı yaradılıb. Sərəncamla İqtisadiyyat Na-*

*zirliyinin «Təmiz Şəhər» Açıq Səhmdar Cəmiyyəti Balaxanı Sənaye Parkının idarəedici təşkilatı təyin edilib və parkın yaradılması üçün Balaxanı qəsəbəsində 7 hektar torpaq sahəsi ayrılıbdır. Balaxanı Sənaye Parkının yaradılması ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, o cümlədən «yaşıl iqtisadiyyat»ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir.*

*Balaxanı Sənaye Parkının rezidentlərinə digər sənaye parklarının rezidentləri kimi, dövlət tərəfindən bir sıra güzəştlər edilib. Belə ki, rezidentlər 7 il müddətinə mənfəət, torpaq, əmlak vergisindən azad olunur, sənaye parkında istehsal sahəsinin qurulması və məhsul istehsalı məqsədilə idxal edilən texnika, texnoloji avadanlıq və qurğular ƏDV-dən və idxal rüsumundan azad edilir. Balaxanı Sənaye Parkının ərazisində infrastruktur obyektlərinin qurulması və rezidentlərin tələblərinə uyğunlaşdırılmış istehsalat binalarının tikintisi dövlət vəsaiti hesabına həyata keçirilib. Bundan başqa, Balaxanı Sənaye Parkında rezidentlər üçün xarici və daxili infrastruktur qurulub, yol salınıb, əraziyə elektrik, qaz, su, kanalizasiya və rabitə xətləri çəkilib, lazımi kommunikasiya sistemi yaradılıb, istehsal sahələri, ofis və əməliyyat binası tikilibdir. Artıq ümumi sahəsi 12 min kvadratmetr olan anqar tipli 15 istehsalat binası rezidentlərin istifadəsi üçün tam hazırdır. Sənaye parkının Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonuna, Tullantıların Çeşidlənməsi və Yandırılması zavodlarına, o cümlədən əsas nəqliyyat qovşağına yaxın olması logistika, xammal və enerji təchizatına, eləcə də istehsal olunmuş məhsulun asanlıqla satış bazarına çıxarılmasına əlverişli imkan yaradır. Hazırda Balaxanı Sənaye Parkında işlənmiş mühərrik yağlarının, tullantı plastik butulkaların, kağız-karton məmulatların, tullantı plastik materialların, süngər tullantıların təkrar emalı*

*sahələri üzrə qeydiyyata alınan 5 rezident tərəfindən 23 milyon manat investisiya yatırılıb. Balaxanı Sənaye Parkında ilkin mərhələdə ümumilikdə 400-ə yaxın daimi iş yeri yaradılacaqdır.*

*Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlət başçısı Balaxanı Sənaye Parkında yaradılan müəssisələrlə yaxından tanış oldu. Sənaye parkının rezidentlərindən biri «Az.Ekol.» MMC-dir. Müəssisə plastik-pet butulkaların təkrar emalından plastik qırıntıların istehsalı üzrə fəaliyyət göstərəcəkdir. Layihənin ümumi investisiya məbləği 1,5 milyon manatdır. Müəssisənin illik istehsal gücü 1500 tondur. İstehsal sahəsində 30-dan çox daimi iş yeri açılacaq. İstehsal prosesi zamanı plastik butulkalardan alınacaq yüksəkkeyfiyyətli plastik qırıntıların xarici ölkələrə ixracı nəzərdə tutulur. Gələcəkdə qırıntılardan son məhsul olan plastik ipliyin istehsalı da planlaşdırılır.*

*Azərbaycan Prezidentinin tapşırıqlarına uyğun olaraq, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm addımlar atılıb. Bu sahəyə yönəldilən investisiyalar keyfiyyətli yerli məhsulların istehsalının genişləndirilməsinə hərtərəfli təkan verir. «Az.Ekol.» müəssisəsinin yaradılması da məhz rəqabətədavamlı və müasir standartlara cavab verən bu sahənin inkişafına mühüm töhfə hesab oluna bilər. Belə layihələrin reallaşması dövlət başçımızın verdiyi tapşırıqların icrasının uğurlu və davamlı xarakter daşıdığını nümayiş etdirir.*

*Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının digər rezidenti – «Ekokat» MMC-nin fəaliyyəti ilə də tanış oldu. Müəssisə işlənmiş mühərrik yağlarının emalı üzrə fəaliyyət göstərəcəkdir. İnvestisiya qoyuluşu 1 milyon manat təşkil edən müəssisənin illik istehsal gücü 3000 tondur. Rezidentə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 200 min manat məbləğində güzəştli kredit vəsaiti verilib. Bu güzəştli kredit hesabına Türkiyə və Çindən emal avadanlıqları alınıb. Artıq rezident tərəfindən işlənmiş mühərrik yağlarının top-*

*lanması və tədarükü üçün müqavilələrin bağlanmasına başlanılıb. Yeni yaradılan müəssisədə işlənmiş mühərrik yağlarının texnoloji və kimyəvi proseslərdən keçirməklə, təkrar emalından 88 faiz həcmdə yenidən istifadəyə yararlı mühərrik yağları istehsal etmək mümkündür. Bu yağlar iritutumlu nəqliyyat vasitələrinin və kənd təsərrüfatı texnikasının mühərriklərində istifadə üçün bütün standartlara cavab verəcəkdir. İstehsal prosesi zamanı baza yağları ilə yanaşı, dizel yanacağı da əldə olunacaq ki, bu da istehsalın yanacağa olan tələbatının ödənilməsinə yönəldiləcəkdir. Qalan neft qalıqları isə asfalt, ruberoid və s. istehsalında bitum əvəzedicisi kimi istifadə oluna bilər. Bundan başqa, ölkəmizdə ildən-ilə sürətlə artan avtomobil və digər texnikalarda istifadə olunmuş mühərrik və ya sürtkü yağlarının təkrar emalı bu yağların kənara atılaraq, ətraf mühiti çirkləndirməsinin qarşısını alacaqdır.*

*Balaxanı Sənaye Parkının daha bir rezidenti isə fərdi sahibkar Etibar Eminovun «Çapar» poliqrafiya müəssisəsidir. Prezident müəssisə ilə yaxından tanış oldu. Bildirildi ki, burada tullantı kağızlardan istifadə olunmaqla, çap-poliqrafiya məhsulları istehsal ediləcəkdir. Müəssisənin ümumi investisiya məbləği 1 milyon manatdır, illik istehsal gücü 348 tondur. Artıq müəssisə sifarişlər də qəbul etməyə başlayıbdır.*

*Dövlət başçısı Balaxanı Sənaye Parkının daha bir rezidenti – «METAK» MMC-nin müəssisəsinin fəaliyyəti ilə də tanış oldu. Müəssisə tullantı-plastik məmulatların təkrar emalı nəticəsində müxtəlif plastik qablaşdırma məhsullarının istehsalı ilə məşğul olacaqdır. Ümumi investisiya dəyəri 17 milyon manat olan «METAK» MMC-nin bu layihəsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan 1,2 milyon manat güzəştli kredit vəsaiti ayrılıb. Güzəştli kredit vəsaiti hesabına Avropa, Türkiyə və Çindən alınmış istehsal xətləri sənaye parkında quraşdırılıbdır. Müəssisənin illik istehsal gücü 12 min tondur. Burada 140-dan çox daimi iş yeri açılacaqdır.*

*Balaxanı Sənaye Parkının rezidentlərindən biri olan «Foriella» MMC isə süngər tullantılarının təkrar emalı və mebel istehsalı üzrə fəaliyyət göstərəcəkdir. Ümumi investisiya məbləği 3,5 milyon manat olan müəssisənin yaradılmasına dövlət tərəfindən dəstək verilib. Belə ki, bu müəssisəyə Sahibkarlığa Kömək Milli Fondundan 2 milyon manat güzəştli kredit ayrılıb. Müəssisənin illik istehsal gücü 3000 dəst qonaq, yataq, mətbəx mebelləri, 100 min ədəd stul, 10 min masa təşkil edir. Müəssisədə 150 nəfər daimi işlə təmin olunacaqdır. Sahibkarların marağını nəzərə alaraq, Balaxanı Sənaye Parkının fəaliyyətinin genişləndirilməsi işləri davam etdirilir. Artıq polietilen və polipropilen tullantılarının, kartriclərin təkrar emalı, polietilen tullantılarının təkrar emalından yapışqan lent istehsalı, qida yağlarının təkrar emalı nəticəsində biodizel, taxta tullantıların emalından kömür, qida tullantılarından gübrə və yem, kağız tullantılarından meyvə-tərəvəz üçün qablaşdırma məmulatları istehsalı sahələri üzrə sahibkarlar Balaxanı Sənaye Parkında fəaliyyət göstərmək üçün müraciət ediblər.*

* * *

*Daha sonra prezident İlham Əliyev Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonu ilə tanış oldu.*

*Ötən əsrin 60-cı illərindən fəaliyyət göstərən Balaxanı poliqonu 2009-cu ildə İqtisadiyyat Nazirliyinin «Təmiz Şəhər» Açıq Səhmdar Cəmiyyətinin balansına verilib. 120 hektar sahəsi olan poliqonda tullantıların düzgün yerləşdirilməsi nəticəsində ərazidə mütəmadi baş verən yanğınların mənbəyi aşkarlanıb və qısa müddətdə qarşısı alınıbdır. Poliqonun ərazisində təhlükəsizliyi təmin etmək məqsədilə mühafizə sistemi qurulub, poliqonda torpaqlama, hamarlama işləri aparılıb, ətraf ərazilərdə yaşıllıqlar salınaraq, poliqonun görünüşü tamamilə dəyişdirilibdir. Dünya Bankı ilə birgə həyata keçirilən «Bərk məişət tullantılarının vahid idarəçiliyi» layihəsi çərçivəsində Balaxanı poliqonunda tullantıların beynəlxalq standartlara uyğun düz-*

*gün yerləşdirilməsi və basdırılması təmin edilibdir. Poliqona gətirilən bərk məişət tullantıları beynəlxalq sanitar normalara uyğun olaraq, xüsusi hücrələrə yerləşdirilir və hücrə dolduqdan sonra tullantıları ətraf mühitdən təcrid etmək məqsədilə tullantılar geomembran və geotekstil qatlarla örtülür, üzərinə vegetativ torpaq səpilərək, yaşıllıqlar yaradılır. Tullantılardan ayrılan çirkab sular xüsusi süzgəclər vasitəsilə texniki suya çevrilərək, suvarma işləri üçün istifadə edilir. Üzvi tullantıların çürüməsi nəticəsində əmələ gələn bioqazlardan isə xüsusi generator vasitəsilə ildə 2 MVt/saat elektrik enerjisi əldə olunur.*

*Heydər Əliyev Fondunun təşəbbüsü, «Təmiz Şəhər» ASC-nin təşkilatçılığı, IDEA İctimai Birliyi, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və «Q-Gallery» İncəsənət qalereyasının dəstəyi ilə 2012-ci ildən bəri hər il Qala qəsəbəsində «Tullantıdan sənətə» adlı beynəlxalq sərgilər təşkil edilir. Bu günə qədər keçirilən 5 sərgidə 30 ölkədən 100-dən artıq sənətkar iştirak edibdir.*

*Balaxanı şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonuna tullantı gətirən nəqliyyat vasitələri tullantıları boşaltdıqdan sonra yuyulur və dezinfeksiya edilir. 4 kabinədən ibarət olan yuma və dezinfeksiya məntəqəsi beynəlxalq standartlara uyğun qurulub və gün ərzində 400-dən çox maşına xidmət göstərmək gücünə malikdir. «Bərk məişət tullantılarının vahid idarəçiliyi» layihəsi uğurlu icraya görə Dünya Bankının xüsusi mükafatına layiq görülübdür.*

## AVROPA ÇEMPİONATININ «A» QRUPUNDA YER ALAN QADINLAR ARASINDA VOLEYBOL ÜZRƏ AZƏRBAYCAN MİLLİ KOMANDASININ MACARISTAN YIĞMASI İLƏ OYUNUNA BAXIŞ

*Milli Gimnastika Arenası*

*22 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin rəsmi açılışı mərasimindən sonra «A» qrupunda yer alan Azərbaycan milli komandasının Macarıstan yığması ilə oyununa baxmışdır.*

*Azərbaycanın və Macarıstanın Dövlət himnlərinin səsləndirilməsindən sonra oyuna start verildi. Milli komandamız ilk setin əvvəlində hesabda geri olsa da, setin sonuna doğru üstünlüyü ələ alaraq, 25:23 hesabı ilə qələbə qazandı. Azərbaycan voleybolçuları ikinci setdə inamla mübarizə apararaq, rəqibə çətinlik çəkmədən qalib gəldilər – 25:14. Oyunun üçüncü seti də Azərbaycan voleybolçularının inamlı qələbəsi ilə yekunlaşdı – 25:16. Beləliklə, 3:0 hesabı ilə qalib gələn voleybolçu qızlarımız Avropa çempionatına qələbə ilə başladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev komandamızın qələbəsini alqışladı.*

*Qeyd edək ki, sentyabrın 22-dən oktyabrın 1-dək davam edəcək, Azərbaycanın və Gürcüstanın birgə ev sahibliyi etdiyi qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsində 16 komanda 4 qrupda mübarizəyə qoşulub. «A» qrupunda Azərbaycan, Almaniya, Polşa və Macarıstan yığma komandaları yer alıbdır. Çempionata ev sahibliyi edən digər ölkənin –*

*Gürcüstanın yığma komandası İtaliya, Xorvatiya və Belarus millilәri ilә birlikdә «B» qrupunda mübarizә aparacaqdır. «C» qrupunda hazırkı Avropa çempionları – Rusiya voleybolçuları ilә yanaşı, Türkiyә, Bolqarıstan və Ukrayna yığmaları da qrupdan çıxmaq uğrunda yarışacaqdır. «D» qrupunda isә Serbiya, Niderland, Belçika və Çexiya yığma komandaları qәrarlaşıbdır. «A» və «C» qruplarının qarşılaşmaları Bakıdakı Milli Gimnastika Arenasında keçirilәcәk. «B» qrupunun görüşlәri Tbilisidә, «D» qrupunun matçları isә Göygöl Olimpiya İdman Kompleksindә oynanılacaqdır.*

*Qaydalara әsasәn, qruplarda birinci yeri tutan komandalar dörddәbir finala birbaşa vәsiqә qazanacaqdır. İkinci və üçüncü yerdә qәrarlaşan komandalar isә pley-off mәrhәlәsindә mübarizә aparacaqdır. Çempionatın «play-off», dörddәbir, yarımfinal və final görüşlәri Bakıda – Milli Gimnastika Arenasında keçirilәcәkdir.*

## «AZƏRBAYCAN İQTİSADİYYATININ STRATEJİ YOL XƏRİTƏSİ: HESABATLILIQ VƏ ŞƏFFAFLIQ PROBLEMLƏRİ» MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və «Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi: hesabatlılıq və şəffaflıq problemləri» mövzusunda Beynəlxalq elmi-praktiki konfransın işə başlaması münasibətilə təbrik edirəm.

Bu gün Azərbaycan ictimai-siyasi cəhətdən sabit, iqtisadi gücü sürətlə artan və irimiqyaslı layihələr icra edən ölkədir. Qlobal və regional səviyyədə mövcud olan çətinliklərə, dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, həyata keçirilmiş əsaslı islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının dinamik inkişafı qorunub saxlanılmışdır.

Bu inkişaf tempinin davam etdirilməsində dövlət idarəetmə sisteminin ən mühüm alətlərindən olan hesabatlılıq və şəffaflığın gücləndirilməsinin böyük əhəmiyyəti vardır. Təsadüfi deyil ki, Azərbaycan iqtisadiyyatının qısa, orta və uzunmüddətli inkişaf hədəflərinin müəyyənləşdirildiyi «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri» sənədində bu sahəyə xüsusi diqqət yetirilib və çoxsaylı tədbirlər müəyyən edilibdir.

Ölkəmizdə maliyyə nəzarətinin, o cümlədən müstəqil auditin normativ hüquqi bazasının beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, bütövlükdə maliyyə və vergi intizamının möhkəmləndirilməsi maliyyə vəsaitlərindən istifadə olunmasında hesabatlılıq və şəffaflığın daha da artırılması üçün böyük əhəmiyyət kəsb

edir. Bu baxımdan iştirakçısı olduğunuz konfransda iqtisadi inkişafın mühüm amili kimi, şəffaflığın artırılması və hesabatlılığın beynəlxalq standartlar əsasında yüksək səviyyədə qurulması ilə bağlı məsələlərin müzakirəsi təqdirəlayiqdir.

İnanıram ki, konfrans çərçivəsində aparılacaq müzakirə və təhlillər ölkəmizdə hesabatlılığın və auditin gələcək inkişafı kontekstində faydalı olacaq, iqtisadi inkişafın müasir mərhələsində şəffaflığın təmin edilməsində, korrupsiyaya qarşı mübarizədə dövlət və qeyri-dövlət nəzarətinin, müstəqil auditin rolunun daha da artırılmasına töhfə verəcək, mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi üçün yeni imkanlar yaradacaqdır.

Konfransın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2017-ci il*

## NEFTÇALA RAYONUNA SƏFƏR

*24 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Neftçala rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi.*

*Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə prezident İlham Əliyevə məlumat verdi.*

## NEFTÇALA SƏNAYE MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*24 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Neftçala Sənaye Məhəlləsinin açılışında iştirak etmişdir.*

*İqtisadiyyat naziri Şahin Mustafayev görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdi.*

*Bildirildi ki, dövlət başçımızın 2014-cü ildə Neftçalaya səfəri zamanı verdiyi tapşırığa və 2015-ci ilin fevralında imzaladığı müvafiq sərəncama əsasən sənaye məhəlləsində yüksək standartlara cavab verən 7 istehsal sahəsi, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib. Hazırda Neftçala Sənaye Məhəlləsində 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Sənaye məhəlləsinin iştirakçıları tərəfindən istehsal sahələrinin yaradılmasına 45,3 milyon manat investisiya yatırılıb. Bununla belə, iş adamlarının sənaye məhəlləsinə cəlb edilməsi istiqamətində tədbirlər davam etdirilir və tələbata uyğun olaraq məhəllənin ərazisi genişləndiriləcəkdir. Sənaye məhəlləsində ümumilikdə 474 daimi iş yeri yaradılıbdır.*

*Prezident İlham Əliyev sənaye məhəlləsinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlət başçısı Neftçala Sənaye Məhəlləsində istehsal korpusları və burada fəaliyyət göstərən müəssisələrlə yaxından tanış oldu. Bildirildi ki, məhəllədəki ən böyük müəssisələrdən biri «Azərmaş» ASC – «İran Xodro» birgə Avtomobil zavodudur. Azərbaycan–İran birgə müəssisəsinin illik istehsal gücü 10000*

*avtomobildir. Müəssisədə «İran Xodro» şirkəti 25 faizlik paya malikdir. Müasir texnologiyalar, avadanlıq və mexanizmlər əsasında qurulacaq zavodda «Runna», «Samand», «Soren», «Dena», «Peugeot-206», «Peugeot-207», «Renault-Tondar», «Renault-Pickup» kimi avtomobil modelləri istehsal ediləcək. Qeyd edək ki, artıq bu model avtomobillərdən yerli bazarda 4000 ədəd satılıb. İldə 2000 avtomobilin ixracı planlaşdırılır. Ümumi investisiya dəyəri 24 milyon manat olan müəssisəyə verilən İnvestisiya Təşviqi Sənədi hesabına təqribən 2 milyon manata qənaət edilib. Müəssisədə 300 nəfər işlə təmin ediləcəkdir. Neftçala Sənaye Məhəlləsində Avtomobil zavodunun qurulması köməkçi istehsal və xidmət sahələrinin inkişafı üçün də əlverişli imkan yaradır. Zavodun 2017-ci ilin dekabrında istifadəyə verilməsi planlaşdırılır.*

*Prezident İlham Əliyev Neftçala balıq yemi istehsalı müəssisəsinin fəaliyyəti ilə də tanış oldu.*

*İllik istehsal gücü 25 min ton olan müəssisədə balıq yemi ilə yanaşı, gələcəkdə mal-qara üçün və digər növ yemlərin istehsalı da nəzərdə tutulur. Müəssisənin yaradılmasına 12 milyon manat investisiya yönəldilibdir.*

*İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müəssisəyə 5,9 milyon manat məbləğində güzəştli kredit ayrılıb. Bundan başqa, müəssisəyə İnvestisiya Təşviqi Sənədi verilib ki, bu da sahibkara 1,2 milyon manat vəsaitə qənaət etmək imkanı yaradır. Müəssisədə 26 nəfər işlə təmin ediləcəkdir.*

*Dövlət başçısı müəssisəni işə saldı.*

*20 ildir fəaliyyət göstərən «METAK» MMC də Neftçala Sənaye Məhəlləsində öz müəssisəsini yaradıb. Müəssisədə plastik məmulatlar, o cümlədən kənd təsərrüfatı təyinatlı taralar istehsal ediləcəkdir. İllik istehsal gücü 2 milyon tara olan müəssisəyə 1,35 milyon manat investisiya qoyulub. Müəssisəyə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 600 min manat güzəştli kredit verilib. «METAK» MMC-yə, həmçinin İnvestisiya Təşviqi Sənədi də*

*təqdim edilib ki, bu, müəssisənin təqribən 35 min manata qənaət etməsinə imkan verir. Müəssisənin məhsulları daxili bazarda, xüsusilə kənd təsərrüfatında qablaşdırmaya olan tələbatın ödənilməsində əhəmiyyətli rol oynayacaqdır. Qeyd edək ki, ümumiyyətlə, «METAK» şirkətinin bütün məhsulları Azərbaycanda istehsal olunur.*

*Prezident İlham Əliyev sənaye məhəlləsinin digər bir müəssisəsi – «Gilan PİVOT» MMC-nin fəaliyyəti ilə də tanış oldu. Müəssisədə müasir texnologiyalar əsasında dairəvi suvarma sistemləri istehsal ediləcəkdir. Ümumi investisiya dəyəri 1 milyon manat olan müəssisənin illik istehsal gücü 60–80 suvarma sistemidir. Müəssisədə 15 nəfərin işlə təmin olunması planlaşdırılır. Müəssisə 2017-ci ilin noyabrında fəaliyyətə başlayacaqdır.*

*Dövlət başçısı Neftçala Sənaye Məhəlləsində kiçik sahibkarlar üçün yaradılan emalatxana ilə də tanış oldu. Bu emalatxanada müxtəlif məmulatlar hazırlanacaqdır. Burada kiçik sahibkarlar üçün hər cür şərait yaradılıb və 10 nəfər daimi işlə təmin olunacaqdır.*

*Qeyd edək ki, sənaye məhəllələrinin yaradılması həm də kiçik və orta sahibkarlığa dəstəkdir. Belə sənaye məhəllələri həm də regionlarda sənaye sahələrinin mərkəzləşməsini, daha səmərəli fəaliyyət göstərmələrini, yeni müəssisələrin yaradılmasını və müəssisələrarası istehsal kooperasiyasını təşviq edir.*

*Prezident İlham Əliyev «Toğrul–2008» MMC-nin müəssisəsində də oldu. Bildirildi ki, müəssisədə polietilen suvarma boruları istehsal edilir. 100 min manat investisiya hesabına yaradılan müəssisənin illik istehsal gücü 360 tondur. Hazır məhsul ətraf rayonlarda fermerlərin bu sahədə ehtiyaclarının ödənilməsinə yönəldilir.*

*«Providence Limited» MMC də Neftçala Sənaye Məhəlləsində fəaliyyət göstərəcəkdir. Modul tipli məktəb binalarının quraşdırılması ilə məşğul olan müəssisəyə 80 min manat investisiya yönəldilib. Hazırda müəssisədə 15 nəfər çalışır. Qeyd*

*edək ki, modul tipli məktəblərin yaradılmasının üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, burada sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır. Modul tipli məktəblərin digər üstünlüyü budur ki, qəzalı vəziyyətdə olan təhsil müəssisələrində təmir-tikinti işləri aparılarkən tədris prosesi dayandırılmır və bu məqsədlə müvəqqəti olaraq səyyar məktəb quraşdırılır. Qeyd edək ki, ilin sonunadək 44 rayon əhatə olunmaqla, 100 azkomplektli və qəzalı vəziyyətdəki kənd məktəbinin modul tipli məktəblərlə əvəz edilməsi nəzərdə tutulur. Modul tipli məktəblər Balakən, Sabirabad, Şəki, Quba, Qusar, Neftçala, Kürdəmir, Ağdaş, İsmayıllı, Tovuz, Göygöl, Tərtər ,Göyçay, Qəbələ, Oğuz və digər rayonlarda inşa olunubdur.*

*Neftçala Sənaye Məhəlləsinin daha bir iştirakçısı «Azproduct» MMC-dir. Müasir texnologiyaların tətbiq edildiyi müəssisə balıq emalı və konservləşdirilməsi sahəsində fəaliyyət göstərəcəkdir. İstehsal sahəsində ildə 7 milyon şərti banka konserv və 500 ton soyudulmuş balıq istehsalı nəzərdə tutulur. 2017-ci ilin oktyabrında istifadəyə veriləcək müəssisəyə 1,7 milyon manat investisiya qoyulub. Əlavə dövlət dəstəyi olaraq müəssisəyə İnvestisiya Təşviqi Sənədi təqdim edilib. Bu, müəssisənin təqribən 290 min manata qənaət etməsinə imkan veribdir. İstehsal sahəsində 40 nəfər işlə təmin ediləcəkdir.*

*Artıq «Azproduct» MMC ilə «Ərzaq Məhsullarının Tədarükü və Təchizatı» ASC arasında balıq konservlərinin satışına dair 2,2 milyon manat dəyərində müqavilə də imzalanıbdır.*

*Dövlət başçısı «Sun Rise Production» MMC-nin sənaye məhəlləsində yaratdığı müəssisə ilə də tanış oldu. Müəssisədə kağız stəkanlar və hazır içkilər istehsal olunacaqdır. İstehsal sahəsinin yaradılmasına 619 min manat investisiya yönəldilib. Bundan başqa, müəssisəyə İnvestisiya Təşviqi Sənədi verilib ki, bu, təqribən 84000 manata qənaət etməyə imkan yaradır.*

*Prezident İlham Əliyev Neftçala Sənaye Məhəlləsinin inzibati binasında da oldu. Bina toplantı və təlimlərin keçirilməsi üçün iclas otağından, müasir ofis sahələrindən, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və sənaye məhəlləsinin idarəedici təşkilatının istifadəsi üçün nəzərdə tutulan sahələrdən ibarətdir. Burada sahibkarlara ümumi mühasibatlıq, hüquqi məsləhətlər, sığorta, poçt, texniki kitabxana, «startup»lar üçün ofis, yeməkxana və tibbi xidmətlər göstərilir. Sahibkarların fəaliyyətinə dəstək üçün Neftçala Sənaye Məhəlləsinin bütün ərazisi pulsuz internetlə təmin olunubdur.*

*Bir sözlə, regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə, sənaye sahələrinin inkişaf etdirilməsi, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluğun və məşğulluqda sənayenin xüsusi çəkisinin artırılması baxımından sənaye məhəllələrinin yaradılması böyük əhəmiyyət kəsb edir.*

*Prezident İlham Əliyev Neftçala Sənaye Məhəlləsi ilə tanışlıqdan sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün Neftçala şəhərinin tarixində çox əlamətdar bir gündür. Neftçalada Sənaye Məhəlləsi açılır, öz işinə başlayır. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm.

Mən çox şadam ki, qısa müddət ərzində gözəl şəhərcik yaradılıb. Neftçala rayonunun inkişafında bu sənaye məhəlləsinin çox böyük rolu olacaqdır. Burada artıq bir neçə müəssisə fəaliyyətə başlayıb, bir neçə müəssisənin fəaliyyəti yaxın aylarda təmin ediləcəkdir. Bir sözlə, bizim vaxtilə verdiyimiz qərar artıq həyatda öz əksini tapır. 2 il əvvəl Neftçala Sənaye Məhəlləsinin yaradılması ilə bağlı mənim tərəfimdən müvafiq

sərəncam imzalanmışdır. 2 il ərzində yaradılan bu gözəl sənaye şəhərciyi artıq istifadəyə verilir. Bu onu göstərir ki, bizim qəbul etdiyimiz bütün qərarlar həyatda tezliklə, qısa müddət ərzində və yüksək səviyyədə öz əksini tapır. Bu sənaye məhəlləsinin fəaliyyəti həm rayonun iqtisadiyyatına, həm ölkə iqtisadiyyatına çox böyük təkan verəcək. Bu sənaye məhəlləsinin yaradılması əslində bu istiqamətdə görülmüş işlərin yeni mərhələsinin başlanmasıdır. Çünki bu gün ölkəmizdə sənayeləşmə siyasəti uğurla aparılır, bizim iri sənaye mərkəzlərimizdə – xüsusilə Bakı, Sumqayıt və Gəncə şəhərlərində böyük sənaye müəssisələri yaradılır. İndi Mingəçevir şəhərində böyük sənaye zonası yaradılır və kiçik şəhərlərdə də belə layihələrin icrası çox əlamətdar hadisədir. Böyük şəhərlərdən sonra ilk sənaye zonası Neftçala rayonunda yaradılıb, yaxın vaxtlarda əlavə 2 sənaye zonası Masallı və Hacıqabul rayonlarında fəaliyyətə başlayacaqdır.

Sənayeləşmə siyasəti uğurla aparılır. Biz bu zonaların yaradılması ilə iş adamlarına dövlət tərəfindən növbəti dəstək göstəririk. Bu zonanın yaradılması bizim təşəbbüsümüzdür. Azərbaycan dövləti bu təşəbbüslə çıxış edib və dövlət tərəfindən bu zonanın yaradılmasına 20 milyon manatdan çox vəsait ayrılıbdır. Bütün infrastruktur məsələləri həll olunub, modullar inşa edilib və özəl sektora burada fəaliyyətə başlamaq üçün kreditlər verilibdir. Özəl sektor da kreditlər hesabına və öz vəsaiti hesabına 45 milyon manat sərmayə qoyubdur. Yəni bu onu göstərir ki, burada dövlət–özəl sektor tərəfdaşlığı özünü göstərir. Əgər biz bu təşəbbüslə çıxış etməsəydik, onu irəli sürməsəydik, bu zona heç vaxt yaranmazdı. İndi bu zona var və o böyüyəcək. Bildiyimə görə, rayon sahibkarları tərəfindən maraq çox böyükdür. Burada istehsal olunan və olunacaq mallar idxalı əvəzləmək üçün bizə kömək göstərəcək. Çünki indi bizim əsas məqsədimiz yerli istehsalı daha da gücləndirmək, idxaldan asılılığı azaltmaqdır.

Bu zonanın ən böyük müəssisəsi Avtomobil zavodudur. Bu zavodun fəaliyyəti nəticəsində biz avtomobil idxalından asılılığı müəyyən dərəcədə aradan götürəcəyik və eyni zamanda, ixrac üçün də imkanlar yaranacaqdır. Bu zavodun yaradılması İran–Azərbaycan tərəfdaşlığının təzahürüdür və çox şadam ki, Azərbaycanda, Neftçalada belə gözəl müəssisə yaradılıbdır. Mənə verilən məlumata görə, bütövlükdə Neftçala Sənaye Məhəlləsində 500-ə yaxın insan işlə təmin olunacaqdır. Bu, işsizliyin aradan qaldırılması istiqamətində növbəti addım sayıla bilər. Bilirsiniz ki, bu göstəriciyə görə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır, Azərbaycanda işsizlik çox aşağı səviyyədədir. Ancaq biz daim yeni iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq. Çünki Azərbaycanda əhali artır. Hər il əhalinin sayı ən azı 100 min nəfər artır. Əlbəttə, iş yerlərinin yaradılması daimi proses olmalıdır. Elə iş yerləri yaradılmalıdır ki, onlar həm sənayenin, həm kənd təsərrüfatının inkişafına xidmət göstərsin və bu iş yerlərinin yaradılması nəticəsində istehsal olunan məhsullar idxalı da əvəzləsin. Biz Neftçala Sənaye Məhəlləsində bunu görürük. Burada, demək olar ki, təqdim edilən bütün müəssisələr idxalı azaldacaq, əvəzləyəcək, yerli məhsul daxili və xarici bazarlara çıxarılacaqdır.

Bu sənaye məhəlləsinin çox böyük mənası vardır. Bu onu göstərir ki, biz düzgün yoldayıq və qəbul edilmiş qərarlar vaxtında, yüksək səviyyədə icra olunur. Biz bu məhəlləni cəmi 2 il ərzində yarada bilmişik. Bu deməyə əsas verir ki, hər bir rayonda belə sənaye məhəllələri yaradıla bilər. Əslində bu məsələ ilə bağlı müvafiq göstəriş artıq verilibdir və əminəm ki, tezliklə bütün rayonlarda sənaye zonaları yaradılacaqdır. Gələn ilin investisiya proqramında dövlət investisiya xərcləri sırasında mütləq yeni bölgələrdə sənaye zonalarının yaradılması nəzərdə tutulmalıdır. Müvafiq göstəriş verilib və bölgələrdə yaşayan, fəaliyyət göstərən sahibkarlar, iş adamları da bu zonaların yaradılmasında fəal iştirak etməlidirlər. Çünki burada, yəni

istehsal sahəsinə yatırılan sərmayə özəl sektor tərəfindən qoyulur. Əlbəttə, qeyd etdiyim kimi, dövlət də daim öz dəstəyini göstərəcəkdir. Dövlət bu ərazini seçib, burada infrastruktur layihələrini icra edib, modul konstruksiyaları inşa edib, sahibkarları səfərbər edib, güzəştli şərtlərlə kreditlər verib ki, onlar yaxşı iş görsünlər.

Beləliklə, mən sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Yenə də qeyd etmək istəyirəm ki, bu zonanın Neftçala rayonunun inkişafına böyük dəstəyi olacaqdır. Rayonun inkişafı bundan sonra da uğurla getməlidir. Neftçala rayonunda bir çox önəmli layihələr icra edilib – sosial layihələr, iqtisadi layihələr, infrastruktur layihələri. Bu gün əsaslı təmirdən sonra Mərkəzi Rayon Xəstəxanasının açılışı mərasimində iştirak edəcəyəm. Bu böyük xəstəxana indi ən yüksək standartlara cavab verir. Neftçala rayonunda yol layihələri də uğurla icra edilir, 11 kəndi birləşdirən yol layihəsi istismara verilibdir və digər layihə tezliklə icra ediləcəkdir. O layihənin icrası nəticəsində 20-dən çox kənd artıq bir-biri ilə gözəl yolla bağlanacaq və beləliklə, Neftçala rayonunun əksər kəndlərinin yol problemi öz həllini tapacaqdır.

Suvarma ilə bağlı böyük işlər görülür. Biz yeni əkin sahələrini dövriyyəyə buraxırıq. Meliorasiya işləri sürətlə gedir. Bu gün biz Neftçala magistral su kanalının və nasos stansiyasının birinci mərhələsinin istismara verilməsini qeyd edəcəyik. Beləliklə, kənd təsərrüfatının inkişafına da böyük təkan veriləcəkdir. Bir sözlə, biz rayonun inkişafına kompleks şəkildə yanaşırıq, kənd təsərrüfatı, əlbəttə ki, əsas sahədir və indi Neftçala ölkəmizin sənaye mərkəzlərinin birinə çevrilir. Mən sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

* * *

**T o f i q  M a h m u d o v** (*Neftçala balıq yemi istehsalı müəssisəsinin baş mühəndisi*):Hörmətli cənab Prezident, Neftçalaya xoş gəlmisiniz! Mən Sizi bütün Neftçala sakinləri, zəhmətkeşləri və sənayeçiləri adından salamlayıram.

Ölkəmizdə ilk sənaye məhəlləsinin Neftçalada yaradılması, cənab Prezident, Sizin neftçalalılara olan qayğınızın bariz nümunəsidir. Ulu öndər Heydər Əliyev o zamanlar Neftçalaya böyük diqqət yetirirdi, dəfələrlə Neftçalaya gəlmişdi. Ulu öndər səfərlərinin birində Neftçala Yod-Brom zavodunun açılışını etdi. Müəssisədə çalışan gənc mütəxəssis kimi, bu mərasimdə iştirak etmək mənə də qismət olub. Ulu öndər həmişə Neftçalaya diqqət göstərib, Siz də bu siyasəti davam etdirirsiniz.

Neftçalalılar daim Sizin diqqətinizi hiss edirlər. Budur, indi Neftçalada yeni sənaye məhəlləsi açılır. Bu sənaye məhəlləsinin açılması nəinki Neftçalanın iqtisadiyyatını genişləndirəcək – qeyd etdiyiniz kimi, burada sənaye ilə yanaşı, kənd təsərrüfatı da inkişaf edir – eyni zamanda, bölgədə sənayenin inkişafına təkan verəcəkdir. Sahibkarlar üçün geniş imkan yaratmısınız, onlarda böyük ümid, inam yaranıb. Gəlib bu sənaye məhəlləsində investisiya qoyublar, yeni istehsal sahələri açıblar. Hazırda bu gün açılışını etdiyiniz balıq yemi istehsalı müəssisəsinin baş mühəndisi vəzifəsinə dəvət olunmuşam, orada çalışacağam. Rayonumuzda dövlətə, dövlətçiliyə, milli adət-ənənələrimizə sadiq gənclər yetişir. Belə sənaye müəssisəsinin açılması, cənab Prezident, bu gənclər üçün iş yerləri deməkdir.

Cənab Prezident, Neftçalaya göstərdiyiniz qayğıya və ilk sənaye məhəlləsinin ölkəmizdə məhz Neftçalada açılmasına görə Sizə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan dövlətinin inkişafı, xalqımızın gələcək rifahı naminə Sizə fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı arzulayıram.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm.

## «Neftçala» yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də 110/35/6 kV-luq «Neftçala» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*«Azərişıq» ASC-nin sədri Baba Rzayev görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdi. «Neftçala» yarımstansiyasında 40 MVA gücündə 2 transformator quraşdırılıb, açıq və qapalı paylayıcı qurğular inşa edilib, bu qurğularda müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli avtomat rele mühafizə sistemi yaradılıbdır. Yarımstansiyada növbətçi işçi heyət üçün müvafiq olaraq mühafizə, texniki xidmət və idarəetmə otaqları inşa edilib, lazımi şərait yaradılıb. Yarımstansiyanın ərazisində geniş abadlıq və yaşıllaşdırma işləri aparılıbdır.*

*Bildirildi ki, şəhərin və rayonun su təsərrüfatını elektrik enerjisi ilə təmin edən 35 kV-luq yarımstansiyanın məhz «Neftçala» yarımstansiyasından qidalandırılması nəzərdə tutulub. Bundan əlavə, Neftçalada yeni yaradılan sənaye məhəlləsi bu yarımstansiyadan qidalanacaq ki, onun da tələbatı 5 MVA təşkil edir. Həmçinin «Neftçala» yarımstansiyasından rayonun böyük bir hissəsi, xüsusən də dövlət əhəmiyyətli obyektlər, çoxlu sayda sənaye, təhsil, tibb və məişət təyinatlı obyektlər və əhali abonentləri elektrik enerjisi ilə təmin olunur.*

*Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

*Bildirildi ki, 2015–2017-ci illər ərzində Neftçala rayonu ərazisində 35/6 kV-luq yeni «Şəhər» yarımstansiyası tikilib. Eyni zamanda, 35 kV-luq «Xoşçobanlı» yarımstansiyasına əlavə transformatorlar quraşdırılıb. Bundan başqa, 35 kV-luq «Bankə», «Xıllı» və «Xoşçobanlı» yarımstansiyalarında da ciddi təmir işləri aparılıb. 300-ə yaxın 10/6 kV-luq transformator məntəqəsi də təmir edilib. «Azərişıq» ASC yaradıldıqdan sonra ümumilikdə Neftçala rayonunda 43 kilometr 110 kV-luq, 7 kilometr 35 kV-luq, 45,5 kilometr 10/6 kV-luq izolyasiyalı naqillər*

*xətti çəkilib. Ümumilikdə 5 kənddə və şəhər mərkəzində 0,4 kV-luq şəbəkələrdə tam kabelləşmə işləri aparılıb və bir neçə kənddə bu işlər hazırda da davam edir. Həmçinin Neftçala Elektrik Şəbəkəsinin yeni inzibati binası inşa edilib. Yeni binada əməkdaşların operativ fəaliyyəti üçün hər cür şərait yaradılıb. Burada abonentlərə xidmət keyfiyyətinin artırılması, enerji satışı, qəza xidməti, müştəri xidmətləri üçün xüsusi otaqlar yaradılıb. Neftçala yarımstansiyasının ərazisində əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılıb, yüksəkkeyfiyyətli asfalt salınıbdır.*

*Ən son texnologiyalara əsaslanan belə layihələrin reallaşdırılması bölgələrin sosial-iqtisadi inkişafında mühüm rol oynayır.*

## Mərkəzi Rayon Xəstəxanasında əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Neftçala Mərkəzi Rayon Xəstəxanasında əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Son illərdə ölkəmizdə səhiyyə sahəsinin daha da təkmilləşdirilməsi, müasir tibb ocaqlarının inşası və mövcudlarının əsaslı bərpası geniş vüsət alıb. Neftçala Mərkəzi Rayon Xəstəxanası binasının yenidən qurulması da bu prosesin ardıcıl xarakter aldığını təcəssüm etdirir. Bu səhiyyə ocağının əsaslı təmirdən sonra istifadəyə verilməsi rayon sakinlərinin keyfiyyətli səhiyyə xidmətindən istifadəsinə kömək edəcəkdir.*

*Dövlət başçısına Mərkəzi Rayon Xəstəxanasında aparılan təmir işləri barədə məlumat verildi.*

*Bildirildi ki, xəstəxananın binası 1989-cu ildə inşa olunub. Ümumi ərazisi 5 hektar olan Mərkəzi Rayon Xəstəxanasının əsaslı təmir işlərinə 2013-cü ildə başlanılıb və 2017-ci ildə başa çatdırılıbdır.*

*Xəstəxanadakı 11 şöbədə müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi mümkün olacaqdır. Cərrahiyyə, travmatologiya, terapiya, doğum, qadın məsləhətxanası, pediatriya, intensiv terapiya, infeksion xəstəliklər, anesteziologiya, reanimatologiya, hemodializ, şüa-diaqnostika, fizioterapiya, qəbul şöbələri, poliklinika, təcili tibbi yardım stansiyası tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilibdir.*

*Xəstəxananın bütün infrastrukturu tamamilə yenilənib. Burada 620 tibb işçisi çalışacaqdır. Onların 82-si həkim, 249-u orta tibb işçisidir.*

*Azərbaycan Prezidenti tərəfindən müəyyən edilən uzunmüddətli inkişaf strategiyasının mühüm istiqamətlərindən biri kimi, səhiyyənin inkişafını, əhalinin dünya standartlarına uyğun tibbi yardımdan bəhrələnməsini təmin etmək üçün genişmiqyaslı islahatlar həyata keçirilir. Bu sahəyə hər il böyük həcmdə investisiyalar yatırılmaqdadır. Bütün bunlar həm də onu göstərir ki, son illərdə səhiyyə sahəsində yaşanan genişmiqyaslı dəyişiklik bu sektorun dünyanın müasir tibbi texnika və avadanlıqları ilə təmin olunmasıdır. Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionda ilk dəfə açıq ürək əməliyyatı, qaraciyərin köçürülməsi və digər bu kimi mühüm nailiyyətlərə imza atıb. Ötən illər ərzində regionlarda yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafından xəbər verir. Yeni tikilən tibb ocaqları, ölkəyə gətirilən müasir tibbi avadanlıqlar ilk növbədə, bir məqsədə – Azərbaycan əhalisinin sağlam olması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.*

*Xəstəxanada yaradılan şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev əhaliyə tibbi xidmətin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

*Prezident İlham Əliyev Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin Neftçala Mərkəzi Rayon Xəstəxanasındakı Mobil Diaqnostika Kompleksi ilə də tanış oldu.*

*Milli Onkologiya Mərkəzinin direktoru Cəmil Əliyev dövlət başçısına məlumat verdi ki, 2007-ci ildən başlayaraq, mərkəzin həkimləri bölgələrə səfərlər edirlər. Tərkibi 14 nəfərdən ibarət həkim briqadasının səfərlərində məqsəd onkoloji xəstəliklərin erkən aşkarlanmasıdır. İndiyədək mərkəzin əməkdaşları ölkənin 51 bölgəsində 50 minə yaxın insanı müayinədən keçiriblər. Mobil Diaqnostika Kompleksi müxtəlif kabinetlərdən və laboratoriyadan ibarətdir.*

## Əkin sahələrinə suvarma suyunun verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Kür çayından Neftçala magistral kanalı vasitəsilə Neftçala rayonunun əkin sahələrinə suvarma suyunun verilməsi mərasimində iştirak etmişdir.*

*Salyan və Neftçala rayonlarının əkin sahələrini suvarma suyu ilə təmin etmək üçün 1949-cu ildə başlanğıcını Kür çayından götürən Akuşa kanalı torpaq məcrada inşa olunub. Hazırda Akuşa kanalının xidmət zonasında Salyan rayonunun 18600 hektar, Neftçala rayonunun 14100 hektar suvarılan torpaq sahəsi mövcuddur. Kür çayından saniyədə 21 kubmetr su Akuşa kanalına 2 üzən və 1 stasionar nasos stansiyaları ilə verilir. Lakin Neftçala rayonunun qərb hissəsində yerləşən Xolqarabucaq, Dördlər, Mürsəlli, Xolqaraqaşlı, Xəzər və Qırmızıkənd, eləcə də Aşağı Surra kəndlərinin 13400 hektar əkin sahələrinə qədər 47,5 kilometr uzanan Akuşa kanalı uzun müddət istismar olunduğundan məcrası genişlənib, nəticədə su itkisi kəskin artıb və faydalı iş əmsalı xeyli aşağı düşübdür. Yay aylarında Akuşa kanalı əsasən Salyan rayonunun ərazisində yerləşən əkin sahələrini suvarma suyu ilə təmin etmək gücündə olduğu üçün kanalın sonunda olan Neftçala rayonunun əkin sahələrinə suvarma suyunun verilməsində*

*ciddi çətinliklər yaranır. Ona görə də bu ərazilərdə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı çox aşağı olur. Neftçalanın əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə 1988-ci ildə Kür çayı üzərində nasos stansiyasının və Neftçala magistral kanalının tikintisinin layihə sənədləri hazırlanıb. Layihənin həyata keçirilməsi ilə mövcud Akuşa kanalının son hissəsində yerləşən bu torpaqların Kür çayından nasos stansiyaları vasitəsilə su veriləcək Neftçala magistral kanalından suvarma suyu ilə təmin edilməsi, eyni zamanda, Salyan rayonunda Akuşa kanalı ilə suvarma suyu verilən mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına imkan yaranacaqdı. Lakin keçmiş SSRİ-nin süqutu ilə əlaqədar, tikinti işlərinə başlanılması mümkün olmayıb. Hazırda isə dünyada ərzaq təhlükəsizliyinin təmin edilməsində su ehtiyatlarından səmərəli istifadə olunması önəmli rol oynayır. Ölkəmizdə də bu sahədə mövcud problemləri həll etmək və qarşıda duran strateji məqsədə çatmaq üçün elmi əsaslara söykənən təhlil aparılaraq, mühüm tədbirlər həyata keçirilir. Neftçala magistral kanalının nasos stansiyası ilə birlikdə tikintisi də belə layihələrdəndir. Bu da göstərir ki, ölkədə kənd təsərrüfatı istehsalının artırılmasında, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında böyük rolu olan mövcud meliorasiya və su təsərrüfatı fondlarının qorunub saxlanılması və onların istismarının yaxşılaşdırılması, bu sahənin müasir tələblər səviyyəsində daha da inkişaf etdirilməsi prezident İlham Əliyevin daim diqqət mərkəzindədir.«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 2004–2008-ci illər üzrə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına daxil edilən «Neftçala rayonu üzrə pambıqçılığın və taxılçılığın inkişaf etdirilməsi» tədbirinin icrasını təmin etmək məqsədilə «Meliorasiya və Su Təsərrüfatı» ASC tərəfindən «Neftçala magistral kanalının nasos stansiyası ilə birlikdə tikintisi» layihəsinin icrasına 2006-cı ildə*

*başlanılıb. İşçi layihədə rayonun 13400 hektar əkin sahəsinin su təminatını yaxşılaşdırmaq üçün Kür çayı üzərində saniyədə 14,4 kubmetr suyun verilməsi üçün 6 və 2 aqreqatlı 2 üzən nasos stansiyası, uzunluğu 7020 metr və diametri 1220 millimetr olan 4 xətli təzyiqli metal boru kəməri, təzyiqli hovuz və uzunluğu 25 kilometrə yaxın olan dəmir-beton üzlüklü kanalın qurğularla birlikdə tikintisi nəzərdə tutulub. Neftçala rayonunda iri kənd təsərrüfatı müəssisələrinin və aqroparkların yaradılması ilə əlaqədar 5805 hektar azməhsuldar qış otlaq, eləcə də 1000 hektar dəmyə torpaq sahələrinə suvarma suyunun çatdırılması layihəyə daxil edilib. Bu halda, layihə zonasına daxil olan torpaq sahəsi 20205 hektar təşkil edir. Ayrılan vəsait hesabına Kür çayında 6 aqreqatlı üzən nasos stansiyası, onun elektrik təchizatı məqsədilə 29,1 kilometr uzunluğunda 35 kV-luq elektrik hava xətti, hərəsi 6300 KVA gücündə olmaqla, 2 transformator yarımstansiyası quraşdırılıb. Nasos stansiyaları quraşdırılan ərazidə Kür çayının sahilinin mühafizəsi məqsədilə uzunluğu 204 metr olan ikicərgəli yığma dəmir-beton və monolit dəmir-beton konstruksiyalı svaylarla bərkidilmə işləri yerinə yetirilib. Kür çayından suyun Neftçala kanalına verilməsi üçün nəzərdə tutulmuş 4 xətli metal boru kəmərinin ümumi uzunluğu 3550 metr olan 2 xəttinin, onların Salyan–Neftçala dəmir yolu və Baş Mil-Muğan kollektoru ilə kəsişmələrindəki qurğularının və sonundakı təzyiqli hovuzun, Neftçala magistral kanalının 13490 metrlik hissəsinin dəmir-beton üzlükdə tikintisi tamamlanıbdır. Görülən işlər nəticəsində cari ildə rayonun ümumilikdə 7772 hektar, o cümlədən yığcam yerləşən 5805 hektar qış otlaq sahəsi və 1000 hektar dövlət, bələdiyyə və xüsusi mülkiyyətə məxsus yeni suvarılacaq torpaq sahəsi su mənbəyi ilə təmin edilib, eləcə də 967 hektar mövcud əkin sahələrinin su təminatı yaxşılaşdırılıb ki, bu da həmin ərazilərdə pambıqçılığın, taxılçılığın və digər kənd təsərrüfatı məhsullarının inkişafına geniş imkanlar yaradıb. Növbəti mərhələdə layihəyə uyğun Kür çayında 2 aqreqatlı üzən ikinci nasos stansiyasının və təzyiqli*

*boru kəmərinin qalan 2 xəttinin, 11400 poqonmetr uzunluğunda Neftçala magistral kanalının dəmir-beton üzlükdə tikintisinin və digər işlərin başa çatdırılması ilə Neftçala rayonunun daha 12433 hektar əkin sahələrinin su təchizatının yaxşılaşdırılması təmin ediləcəkdir.*

*Prezident İlham Əliyev əkin sahələrinə suvarma suyunun verilməsini bildirən düyməni basdı.*

## Fermer Əlihüseyn Hacıyevin pambıq sahəsi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Neftçala rayonu ərazisində fermer Əlihüseyn Hacıyevin pambıq sahəsi ilə tanış olmuşdur.*

*Dövlət başçısı fermer Əlihüseyn Hacıyevlə söhbət etdi.*

**İlham Əliyev:** Xoş gördük, işləriniz necə gedir? Texnikanız da var.

**Əlihüseyn Hacıyev** (*fermer*): Çox sağ olun, cənab Prezident, Siz inqilabi dönüş etmisiniz. Sovet dövründə köhnə texnikalardan əzab-əziyyət çəkirdik. Bunlar hamısı təzə texnikadır. Gözəl şərait yaradılıb. 300 hektar sahənin 150 hektarının məhsulunu maşınla yığacağıq, qalan 150 hektarın məhsulunu isə əllə toplayacağıq. 100 nəfər işçimiz vardır. Bizim işimiz pambıqçılıq olub. Siz bizi yenidən həyata qaytardınız. Kolxoz, sovxoz ləğv olunandan sonra işsiz qalmışdıq.

**İlham Əliyev:** 2 il əvvəl nə ilə məşğul idiniz?

**Əlihüseyn Hacıyev:** Demək olar ki, heç nə ilə. Bir az taxıl, bir az yonca əkirdik. O da olmurdu. Çünki növbəli əkin sisteminə keçmişik. Mən ixtisasca aqronomam. Nəvəm də Lənkəran Dövlət Universitetində aqronomluq oxuyur, gələcəyin aqronomudur. Allah Sizə cansağlığı versin.

**İlham Əliyev:** Çox sağ olun. Çox şadam ki, işlər yaxşı gedir.

**Əlihüseyn Hacıyev:** Cənab Prezident, kolxoz dövründə ilin yekununda 13-cü maaş alırdıq. İndi Sizin verdiyiniz subsidiya

ondan qat-qat yüksəkdir. 300 hektarın hər birindən orta hesabla 20 sentner məhsul götürsək, bu, 600 ton edir. Təkcə buna görə 60 min manat subsidiya ala bilərik. Bizim üçün bundan böyük nə ola bilər?! Özüm də təqribən 200–300 min manat gəlir götürürəm. Bundan böyük heç nə ola bilməz. Allah Sizə cansağlığı versin. Bütün bu imkanları bizə Siz yaratmısınız. Bütün vergilərdən azadıq, su pulsuzdur, 40 faiz güzəştlə texnika almışam. Borcumuzu ödəyəndən sonra 2 becərmə traktoru alacağam, qoy özümün olsun.

**İ l h a m Ə l i y e v:** Bu texnika bizdə istehsal olunur?

**Ə l i h ü s e y n H a c ı y e v:** Bəli, hamısı Gəncədə istehsal olunur. Cənab Prezident, gübrələrin hamısını güzəştlə alırıq, MMC ilə bağladığımız müqaviləyə əsasən, bizə 70 faiz güzəştlə verilibdir.

**İ l h a m Ə l i y e v:** Bu, dünya standartlarına uyğun ən müasir, ən güclü texnikadır.

**Ə l i h ü s e y n H a c ı y e v:** Bəli. Cənab Prezident, 8 gündür sahəni dərmanlamışıq. Qonşum sahədə məhsul yığırdı. Mən gedib onun yığımına baxdım, heyran qaldım. Maşınla birinci yığımda hektardan itkisiz 20–22 sentner məhsul əldə edilir. Bu, yüksək nailiyyətdir. Allah qoysa, hektardan ən azı 40 sentner pambıq verəcəyəm.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Bu, rekord olacaqdır.

**Ə l i h ü s e y n H a c ı y e v:** İnşallah, növbəti ildə 1000 hektarda pambıq əkəcəyəm. Ulu öndər 1981-ci ildə Neftçala rayonunda kənd zəhmətkeşləri ilə görüşdə – onda mən gənc idim, gənclər briqadasına başçılıq edirdim – mənim adımı çəkmişdi. Allahdan bir arzum var ki, yüksək məhsul götürüm, Siz başqa rayonlarda məni nümunə göstərəsiniz.

**İ l h a m Ə l i y e v:** Yüksək məhsul götürsən mən səni təltif edəcəyəm.

**Ə l i h ü s e y n H a c ı y e v:** Çox sağ olun, minnətdaram, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** İndi su məsələləri də həll olunur.

**Əlihüseyn Hacıyev:** Suyu 90 faiz güzəştlə alırıq. Hər hektara 50 qəpik pul veririk. Bu da o deməkdir ki, su pulsuzdur. Allah Sizi qorusun. Allah Sizi bizim başımızın üstündən əskik etməsin, ailənizlə bir yerdə. Biz çox sabit, təhlükəsiz bir dövlətdə yaşayırıq.

**İlham Əliyev:** Pambıq yetişib. Keyfiyyəti də yaxşıdır.

**Əlihüseyn Hacıyev:** Cənab Prezident, biz o vaxt çiyidi 2-3 gün isladırdıq. Bu, Türkiyədən gətirilən çiyiddir. Əkilməyi ilə cücərməyi bir olur. Bu texnikaların bir əhəmiyyəti də odur ki, biz 1 hektar da seyrəltmə etməmişik. Bu bizim işimizi həddindən artıq yüngülləşdirir.

*Sonra dövlət başçısı pambıqçılarla görüşdü.*

**İlham Əliyev:** Sizi təbrik edirəm. Sizin üçün də yaxşı iş yeri yaradılıb. Biz pambıqçılığı bərpa etmişik. İndi pambıqçılıq geniş vüsət alıb. Hər şey dövlət tərəfindən təmin olunur – texnikalar, gübrələr, suvarma işləri, hamısı da güzəştlədir.

**Əlihüseyn Hacıyev:** Hamısı güzəştlədir, cənab Prezident, hər gün axşamçağı yığdıqları məhsulun pulunu ödəyirəm.

**İlham Əliyev:** Hər gün tarla başında pulunuzu alıb gedirsiniz?

**Əlihüseyn Hacıyev:** Bəli, hər gün alırlar.

**İlham Əliyev:** Razısınız?

**Pambıqçılar:** Bəli, çox razıyıq.

**İlham Əliyev:** Çox yaxşı.

**Pambıqçılar:** Çox sağ olun, cənab Prezident, biz Sizə minnətdarıq.

## SALYAN RAYONUNA SƏFƏR

*24 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Neftçalaya səfərini başa vuraraq, Salyan rayonuna gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Salyan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, Salyanın sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, kənd təsərrüfatı sahəsində istehsal müəssisələri yaradılıbdır.*

### Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyanda Bayraq Muzeyinin açılışında iştirak etmişdir.*

*Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün olubdur. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə ulu öndər tərəfindən Naxçıvanda qaldırılıbdır. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə qürurla dalğalanır və hər bir azərbaycanlı Dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili*

*şərtləndirən əsas səbəblərdən biri də prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, paytaxtdan sonra əksər bölgələrimizdə də üçrəngli bayrağımızın şərəfinə muzeylər yaradılır, xüsusi layihələr həyata keçirilir.*

*Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlət başçısına burada görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, Bayraq Muzeyinin yerləşdiyi ərazidə Bayraq Meydanı yaradılıb, burada Dövlət bayrağı ucaldılıb, ərazidə geniş abadlaşdırma işləri görülüb. Bayraq Muzeyinin inşası bu il ərzində həyata keçirilib. Rayonun daxili imkanları hesabına reallaşdırılan layihə çərçivəsində ümumi sahəsi 410 kvadratmetr olan bina tikilib. Zəruri infrastrukturla təchiz olunan muzeydə çoxlu sayda eksponatın sərgilənməsi üçün hər cür şərait yaradılıb. Bayraq Muzeyində tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, qədim Azərbaycan dövlətlərinin bayraqları, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə, müxtəlif dövlət rəmzləri qorunur. Burada müstəqillik dövrümüzün tarixi hadisələrinə geniş yer verilib. Bütün bunlar həm Salyan gənclərində, həm də rayona gələn qonaqlarda şanlı tariximiz haqqında təsəvvür yaratmağa geniş imkanlar açır.*

## «Qaraqaşlı» yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonunda 110/ 35/10 kV-luq «Qaraqaşlı» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə elektroenergetika sahəsində mühüm işlər görülüb. «Qaraqaşlı» yarımstansiyasının tikilməsi Salyan rayonunda 31 min abonentin elektrik təchizatının yaxşılaşdırılmasına, eləcə də bölgədə mövcud olan güc qıtlığının aradan qaldırılmasına səbəb olub. İstehlakçıların fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz*

*edilməsi üçün yeni yarımstansiyanın tikilməsi ilə yanaşı, istismar müddətini başa vurmuş elektrik şəbəkələrinin yenidən qurulması, həmçinin yüksək və aşağıgərginlikli yeni hava xətlərinin çəkilməsi həyata keçirilib. Yarımstansiyanın qidalandırılması məqsədilə 110 kV-luq «Birinci Neftçala» hava xəttinin giriş-çıxış və 110 kV-luq dairəvi elektrik təchizat sxeminin yaradılması üçün 110 və 220 kV-luq qovşaq yarımstansiyaları əlaqələndirilib. Salyan rayonunun su təsərrüfatı üçün tələb olunan 11,5 MVA gücündə 35 kV-luq 2 yarımstansiya da məhz bu yarımstansiyadan qidalandırılacaqdır. Odur ki, «İşıqlı Azərbaycan» layihəsinə uyğun olaraq tikilən «Qaraqaşlı» yarımstansiyası rayonun elektrik enerjisi təchizatında xüsusi önəm daşıyır.*

*Dövlət başçısına yeni yarımstansiya barədə məlumat verildi. Bildirildi ki, yeni yarımstansiya Salyan rayonunun böyük hissəsini, xüsusən də dövlət əhəmiyyətli obyektləri – Heydər Əliyev Mərkəzi, Heydər Əliyev parkını, Salyan Rayon İcra Hakimiyyətini, Mərkəzi Xəstəxananı, çoxlu sayda sənaye, təhsil, tibb və məişət təyinatlı obyektləri elektrik enerjisi ilə təmin edir. Bundan əlavə, qeyri-neft sektorunun – kənd təsərrüfatı, sahibkarlıq, sənaye sahələri və digər infrastruktur layihələri üzrə inşa ediləcək obyektlərin elektrik enerjisi ilə təminatı bu yarımstansiyadan həyata keçiriləcəkdir. İşin operativ və səmərəli aparılması üçün yeni yarımstansiya müasir standartlara cavab verən elektron tipli rele mühafizə və avtomat sistemlər, eleqaz və vakuum tipli avadanlıqlarla təchiz edilib və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulubdur.*

*Dövlət başçısı yarımstansiyanı işə saldı.*

*Qeyd edək ki, Salyan rayonunda «Kərimbəyli» və «Xurşud» yarımstansiyaları da tikilərək, yenidən qurulub. Bu yarımstansiyalar ümumilikdə 30 mindən artıq istehlakçının elektrik enerjisi ilə təchizatını tam təmin edir. Bundan başqa, 35 kV-luq 5 yarımstansiyada müxtəlif gücdə olan transformatorlar yeniləri*

*ilə əvəz edilib. Həmçinin 110, 35 və 10/6 kV-luq transformator məntəqələrində təmir işləri aparılıb, köhnə tipli transformator məntəqələri yeni tipli komplekt transformator məntəqələri ilə əvəzlənibdir. Yeni 35 kV-luq hava elektrik verilişi xəttinin tikilib istifadəyə verilməsi nəticəsində Salyan və Sabirabad rayonları arasında dairəvi elektrik təchizatı sxemi yaradılıbdır. Hazırda 3500-ə yaxın abonenti olan Xıdırlı, Kürsəngi və Qaraçala kəndlərində kabelləşmə işləri aparılır, «Smart» tipli elektron sayğaclar quraşdırılır.*

## 2 saylı tam orta məktəbin yeni binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də 1200 şagird-yerlik Salyan şəhər 2 saylı tam orta məktəbin yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı məktəb binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Təhsildəki nailiyyətlər hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca məqsəd seçib. Bununla da neft gəlirləri Azərbaycanda həm də təhsilin və elmin inkişafına yönəldilib. Birləşmiş Millətlər Təşkilatı da XXI əsri «Təhsil əsri» elan edib. Odur ki, yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu indiki qədər heç vaxt aktual olmayıbdır.*

*Təhsilin inkişafına xüsusi önəm verən Azərbaycan da əhalisinin savadlılığı baxımından dünyanın bir çox inkişaf etmiş*

*ölkələri ilə müqayisə olunur. Dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində ölkənin ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun fəaliyyəti xüsusilə diqqət çəkir. Təhsil sahəsində Fondun ən böyük və irimiqyaslı işi olan «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi uğurla davam etdirilir. Onu da deyək ki, 2003-cü ildən indiyə qədər ölkədə 3000-dən çox məktəb tikilib, Azərbaycanda heç vaxt olmayan qədər geniş bazaya malik təhsil infrastrukturu yaradılıbdır. Bununla da ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıbdır.*

*Dövlət başçısına Salyan şəhər 2 saylı tam orta məktəbdə yaradılan şəraitlə bağlı məlumat verildi.*

*Bildirildi ki, 1954-cü ildən ümumtəhsil məktəbi kimi fəaliyyət göstərən Salyan şəhər 2 saylı tam orta məktəb 1937-ci ildə tikilmiş ikimərtəbəli uyğunlaşdırılmış binada yerləşirdi. 2003-cü ilədək məktəb binası 26 sinif otağından ibarət idi və tədris 2 növbədə aparılırdı. 2003-cü ildə əlavə 14 sinif otağı tikilib və həmin ildən etibarən tədris birnövbəli sistemə keçibdir.*

*2016–2017-ci tədris ilində məktəbin 556 şagirdi müvəqqəti olaraq 3 saylı tam orta məktəbin binasında yerləşdirilmişdi. Dövlət başçısının ötən il imzaladığı sərəncamla məktəb üçün yeni bina tikildi və bu, bir çox problemləri aradan qaldırdı. İlk növbədə, digər təhsil ocaqlarında yerləşdirilən şagirdlər öz doğma məktəblərinə qayıtdılar. İndi onlar müasir, zəruri avadanlıqlarla təchiz olunmuş məktəbdə təhsillərini davam etdirirlər.*

*3 mərtəbədən ibarət yeni məktəb binasında 48 sinif otağı, 6 laboratoriya, əmək təlimi otaqları, tibb məntəqəsi, kitabxana, 380 yerlik akt zalı, idman və atıcılıq zalları da fəaliyyət göstərir.*

*Burada yaradılan şərait bir daha təsdiqləyir ki, son illərdə təhsil sahəsində qazanılan uğurların təməlində Azərbaycanın yeni təhsil modeli dayanır. Artıq ölkədə yeni təhsil konsepsiyası formalaşıb və həyata keçirilməyə başlanıb. Azərbaycanda yüz-*

*lərlə məktəbin tikilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi nəhəng təhsil infrastrukturunun formalaşmasına geniş imkanlar açıbdır.*

*Prezident İlham Əliyev məktəbin sinif otaqlarında, laboratoriyalarında, idman və atıcılıq zallarında yaradılan şəraitlə tanış oldu. Atıcılıq otağında şagirdlər pnevmatik silahdan hədəfə atəş açmaq məharətlərini nümayiş etdirdilər.*

*Dövlət başçısı məktəbin müəllim və şagird kollektivinə uğurlar arzuladı.*

## ÇUXANLI–GƏNCƏLİ–PİRATMAN–PARÇA XƏLƏC–SEYİDAN AVTOMOBİL YOLUNUN AÇILIŞINDA SALYAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*24 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonunun Çuxanlı–Gəncəli–Piratman–Parça Xələc–Seyidan avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə ölkəmizdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsinin vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər ilk növbədə, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir. Belə layihələr sırasında Salyan rayonunun Çuxanlı–Gəncəli–Piratman–Parça Xələc–Seyidan avtomobil yolunun tikintisi xüsusi əhəmiyyəti ilə seçilir.*

*Bildirildi ki, ümumi uzunluğu 30 kilometrdən çox olan yolun 17,4 kilometri prezident İlham Əliyevin 2014-cü və 2015-ci il-*

*lərdə imzaladığı sərəncamlara əsasən ayrılan vəsait hesabına yerli icra hakimiyyəti tərəfindən yenidən qurulub. Yolun qalan 12,8 kilometrinin yenidən qurulması isə dövlət başçısının ötən il imzaladığı sərəncamla «Azəravtoyol» ASC-yə həvalə edilibdir.*

*Torpaq və çınqıl örtüklü olduğundan vətəndaşların gediş-gəlişinə maneələr yaradan avtomobil yolu iki hərəkət zolaqlı olmaqla, dördüncü texniki dərəcəyə uyğun yenidən qurulub. Zəruri olan yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılıb, kipləşdirilmə işləri görülüb, yola asfalt-beton örtüyü döşənib. Yenidən qurulma işləri çərçivəsində zəruri olan yerlərdə suötürücü boruların tikintisi işləri aparılıb. Avtonəqliyyat vasitələrinin hərəkətinin normal təşkili üçün zəruri olan yerlərdə yol nişanları və məlumatverici lövhə quraşdırılıb, yola nişanlama xətləri çəkilib. Qeyd edək ki, Çuxanlı–Gəncəli–Piratman–Parça Xələc–Seyidan avtomobil yolunun tikintisi 5000-dən çox əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirərək, yük və sərnişindaşımasını xeyli yaxşılaşdıracaq, kənd təsərrüfatı məhsullarının rahat şəkildə daşınmasına imkan yaradacaqdır.*

*Dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Azərbaycan Prezidenti görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sizi ürəkdən salamlayıram. Salyan rayonunda yenidən olmağımdan çox şadam. Bu mənim Salyan rayonuna səkkizinci səfərimdir. Bugünkü səfər zamanı biz yeni kənd yolunun açılışını birlikdə edirik. Bu çox əhəmiyyətli yoldur. Uzunluğu 30 kilometr olan bu yol bir neçə kəndi birləşdirir. Beləliklə, bu, Salyan rayonunun yol infrastrukturuna növbəti töhfədir, ikinci kənd yolu layihəsidir. Əvvəlki dövrdə bir layihə icra edilmişdir, indi üçüncü layihənin icrası ilə bağlı işlər gedir. Sabah həmin yolun tamamlanması ilə əlaqədar yeni sərəncam da imzalanacaq və

beləliklə, əminəm ki, yaxın gələcəkdə Salyan rayonunda bütün kənd yolları abadlaşacaqdır. Mənə bu gün məlumat verildi ki, bir yol layihəsi də var və bu məsələ vətəndaşlar tərəfindən qaldırılıb – Salyan–Şirvan yolunun tikintisi məsələsidir. Bu məsələyə də baxılacaq və əminəm ki, Dövlət İnvestisiya Proqramına bu yol da salınacaq və beləliklə, həm Şirvan şəhəri ilə əlaqə yaxşılaşacaq, həm də yolun üstündə bir çox kəndlər, qəsəbələr vardır, bu onlara da böyük bir hədiyyə olacaqdır.

Yol infrastrukturu ölkəmizdə prioritet məsələlərdən biridir. Salyan sakinləri yaxşı bilirlər ki, Bakı–Salyan yolu əsaslı şəkildə tikilib, indi Bakı–Salyan–Astara yolunun da tikintisi uğurla gedir. Bir sözlə, Salyan rayonunun digər bölgələrlə, xüsusilə Bakı şəhəri ilə yol əlaqəsi böyük dərəcədə yaxşılaşıb. Ölkəmizdə, ümumiyyətlə, bu sahəyə çox böyük diqqət göstərilir. Bu il – bu layihəyə şərti ad vermişik – «40 yol» layihəsi icra edilir. Əslində bu, yüzlərlə kəndi birləşdirir. Gələn il üçün artıq yeni yolların salınması ilə bağlı təkliflər hazırlanır. Hesab edirəm ki, gələn il bu işlər daha da böyük həcmdə görüləcəkdir. Çünki yol rahatlıqdır, inkişafdır. Yol olan yerdə inkişaf da vardır. Yol həm sosialyönümlü layihədir, həm də iqtisadi layihədir. Çünki yol olmayan yerdə kənd təsərrüfatı ilə məşğul olmaq da çətin olur. Fermerlər öz məhsullarını bazarlara çıxarmaqda çətinlik çəkirlər. Ona görə də yol layihələri bundan sonra da uğurla icra ediləcəkdir. Biz, demək olar ki, bütün magistral yol layihələrimizi artıq icra etmişik. Şəhərlərarası yol layihələrinin böyük hissəsi icra edilib. İndi kəndlərarası yolların tikintisi gündəlikdə duran vacib məsələlərdəndir.

Salyan rayonunun inkişafı ilə bağlı kompleks tədbirlər görülür, sosial infrastruktur yaxşılaşır. Bu gün mən 2 saylı tam orta məktəbin yeni binasının açılışında iştirak etmişəm. Bu da çox böyük təhsil ocağıdır. Şəhərin ən böyük məktəbidir və bu məktəbin böyük ənənəsi vardır. Onu biz yenidən tikdik.

Kənd təsərrüfatı ilə bağlı önəmli addımlar atılır. Salyanda pambıqçılığın bərpası istiqamətində işlər yaxşı gedir. Mənə verilən məlumata görə, 7000 hektarda pambıq əkilib, bu da məş-

ğulluğu təmin edir. Minlərlə insan indi bu sahədə işləyir, pul qazanır. Qazlaşdırılma Salyan rayonunda 80 faizdən çoxdur. Bu da yaxşı göstəricidir. Növbəti illərdə, əlbəttə ki, daha da artacaqdır. Bu gün biz elektrik yarımstansiyasının açılışını qeyd etdik və elektrik enerjisi ilə təminat daha da yaxşılaşacaqdır. Keçən il biz içməli su layihəsinin birinci mərhələsini mənim iştirakımla istismara verdik və növbəti dövrdə bu layihənin tam tamamlanması nəzərdə tutulur. Bir sözlə, Salyan rayonunun həm sosial, həm də iqtisadi inkişafı diqqət mərkəzindədir. Nəzərə alsaq ki, infrastruktur layihələrinin bir çoxu icra edilib, növbəti illərdə qalan layihələr də icra ediləcəkdir.

Biz diqqəti daha çox kənd təsərrüfatı və sənaye istehsalının inkişafına yönəltməliyik. Bu istiqamətdə də addımlar atılır. Qeyd etdiyim kimi, böyük fasilədən sonra Salyanda pambıqçılıq bərpa olundu və 7000 hektarda pambıq əkilibdir. Bu, böyük nailiyyətdir və sənaye istehsalının artırılması istiqamətində də addımlar atılmalıdır. Bu gün mən Neftçala şəhərində sənaye məhəlləsinin açılışında da iştirak etmişəm. Bizim bir çox şəhərlərimizdə buna oxşar sənaye zonaları yaradılmalıdır, o cümlədən Salyan şəhərində. Müvafiq göstəriş verilibdir, gərək yerli icra orqanları yer ayırsınlar və dövlət tərəfindən bütün infrastruktur layihələri orada icra ediləcək və sahibkarlar üçün yaxşı şərait yaradılacaqdır. Çünki bundan sonrakı dövrdə sənayenin və kənd təsərrüfatının inkişafı ölkəmizin uzunmüddətli ümumi inkişafını təmin edəcəkdir.

Son vaxtlar Azərbaycanda aqroparkların yaradılması geniş vüsət alıbdır. Onlardan biri də Salyan rayonunda 3000 hektar sahədə yaradılır. Biz həm məşğulluğu artıracağıq, işsizliyi daha da aşağı salacağıq, həm də yerli istehsalı artıracağıq, ixracyönümlü məhsulları istehsal edəcəyik və beləliklə, ölkə iqtisadiyyatı neftdən, qazdan daha da az asılı olacaqdır. İndi də bu asılılıq azalır və regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bu gün Azərbaycanın qeyri-neft sektoru uğurla inkişaf edir. Son vaxtlar mənim təşəbbüsümlə kənd təsərrüfatının müxtəlif sahələrinə dəstək, yeni təkan vermək

üçün müşavirələr keçirilibdir, pambıqçılıq, tütünçülük, baramaçılıq, fındıqçılıq, çayçılıq, çəltikçilik, sitrusçuluq – biz bütün bu sahələrə xüsusi diqqət göstəririk. Hər bir rayonun özünə xas olan kənd təsərrüfatı sahələri vardır və ixtisaslaşma istiqamətində də çox ciddi addımlar atılır. Bu gün Salyan rayonunun gələcək inkişafı ilə bağlı məndə çox nikbin fikir vardır. Əminəm ki, bu günə qədər həll olunmayan məsələlər öz həllini tapacaq və rayonun sürətli inkişafı təmin ediləcəkdir. Bu yolun açılışı da əslində Azərbaycanın ümumi inkişafını göstərir. Bizim ölkəmiz inkişaf edir, sosial-iqtisadi layihələr icra olunur. Baxmayaraq ki, neftin qiymətinin kəskin aşağı düşməsinə görə bizim gəlirlərimiz azalıbdır, ancaq sosial və infrastruktur layihələrində heç bir geriləmə yoxdur. Gələn ilin iqtisadi göstəriciləri daha da yaxşı olacaqdır. Gələn il bu ilə nisbətən daha da böyük həcmdə Dövlət İnvestisiya Proqramı icra ediləcəkdir. Gələn ilin büdcəsi də daha böyük olmalıdır və dövlət investisiya xərcləri daha da böyük olacaqdır. Yəni iqtisadi, maliyyə sahələrində qarşımızda heç bir problem yoxdur. Azərbaycan möhkəm iqtisadi potensiala malik olan ölkədir. Gələcək illərdə bizim iqtisadi gücümüz ancaq artacaq və beləliklə, bütün rayonlarda işlər daha da yaxşı gedəcəkdir.

Sizi bir daha bu hadisə münasibətilə təbrik edirəm.

* * *

**A y g ü n  Ə z i z o v a** *(rayon sakini)*: Cənab Prezident, Sizi bütün salyanlılar adından salamlayıram. Rayonumuza xoş gəlmisiniz!

Sizin rayonumuza hər gəlişiniz salyanlılara, sözün əsl mənasında, bayram ovqatı yaşadır. Çünki hər gəlişinizdə rayonumuzda yeni-yeni obyektlər açılır, yeni layihələrin əsası qoyulur. Cənab Prezidentimizlə birgə yeni infrastruktur layihələrinin açılışında iştirak etmək və belə fərəhli anları bölüşmək bizim üçün həqiqətən, böyük fəxrdir.

Bu gün açılışını etdiyiniz bu yol isə rayonumuz üçün xüsusi bir əhəmiyyət kəsb edir. Çünki indiyə qədər sakinlər yolsuzluqdan çox əziyyət çəkirdilər. Məktəblilər, yaşlılar istə-

dikləri yerə getmək üçün çox uzun vaxt sərf etməli olurdular. Sakinlər xəstələrini rayon mərkəzindəki xəstəxanaya çatdırmaq üçün böyük vaxt sərf edirdilər. Hətta fermerlərin min bir əziyyətlə becərdikləri məhsulu satışa çıxarmalarına belə, bu yol əngəl olurdu. Mən özüm də bu yoldan mütəmadi olaraq istifadə edən bir müəllimə kimi deyə bilərəm ki, bu yoldakı çətinlikləri mən özüm də yaşamışam. Şükürlər olsun ki, bu problem Sizin diqqət və qayğınız sayəsində həll olundu. Bundan sonra sakinlər mənzil başına daha tez çatacaqlar, bu rahat yoldan istifadə etməklə, öz problemlərini daha asan həll edəcəklər.

Hər bir xalqın mədəniyyəti onun yolundan başlayır. Yəqin elə buna görədir ki, yol çəkmək həmişə savab iş sayılıb. Cənab Prezident, həmişə savab içində olasınız. Bu yoldan istifadə edəcək bütün sakinlər adından mən Sizə öz minnətdarlığımı bildirirəm. Yolunuz çəkdiyiniz bu yollar kimi həmişə açıq və uğurlu olsun. Tanrı Sizə yar olsun! Allah Sizi qorusun!

Azərbaycan xalqı həqiqətən də xoşbəxt xalqdır ki, onun Sizin kimi təcrübəli, tədbirli, uzaqgörən bir prezidenti vardır. Allah Sizi başımızın üstündən əskik etməsin. Çox sağ olun.

**İlham Əliyev:** Sağ olun.

**Avdı Həsənov** *(fermer)*: Möhtərəm cənab Prezident, mən Çuxanlı kəndinin sakini olaraq bildirirəm ki, uzun illərdir kənd təsərrüfatında çalışıram. İxtisasca kənd təsərrüfatı mütəxəssisiyəm. «Dağüstü» kəndli-fermer özəl toxumçuluq təsərrüfatının təsisçisiyəm. Təsərrüfatım 1996-cı ildə təsis olunub. Təsərrüfatımızda 2003-cü ildən etibarən yüksək reproduksiyalı buğda, arpa toxumları istehsal olunur. Fəaliyyətimiz rayonumuzun toxum tələbatının təmin olunmasına istiqamətlənibdir.

Möhtərəm cənab Prezident, son illərdə ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da, o cümlədən bizim təsərrüfatımızda çox böyük uğurlar əldə edilib. Bu uğurları biz dövlətimizin dəstəyi, prezidentimizin qayğısı sayəsində və bizim üçün yaradılan infrastrukturun hesabına əldə etmişik.

Möhtərəm cənab Prezident, ölkəmiz digər ölkələrdən fərqli olaraq, sahibkarlar üçün infrastrukturun yaradılması məsələlərini öz üzərinə götürüb. Ona görə də bizim ölkəmizdə sahibkarlığın inkişafı üçün çox münbit şərait yaradılıb. Bizim yeganə çətinliyimiz və bizi narahat edən məsələ kəndlərimizi rayon mərkəzi ilə birləşdirən bu yolun bərbad vəziyyətdə olması idi. Çünki bu yolun bərbad vəziyyətdə olması üzündən sahibkarlarımız öz məhsullarını bazarlara çatdırmaqda çətinlik çəkirdilər. Fermerlərimiz təsərrüfatdaxili yüklərin daşınmasında əziyyət çəkirdilər və sonda maddi ziyanla qarşılaşırdılar. Nəhayət, cənab Prezident, Sizin sərəncamınız əsasında bu yol əsaslı təmir olunaraq, bu gün Sizin xeyir-duanızla, Sizin iştirakınızla bizim istifadəmizə verilir. Ona görə də mən bir sakin kimi, Prezidentimizə minnətdarlığımı bildirirəm. Çox sağ olun, cənab Prezident. Allah Sizi qorusun! Tanrı Sizə yar olsun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Xıdırlı kəndində dəniz suyunun duzsuzlaşdırılması kompleksinin fəaliyyəti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunun duzsuzlaşdırılması kompleksinin fəaliyyəti ilə tanış olmuşdur.*

*Son illər ölkəmizdə su ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunu içməli su səviyyəsinə qədər təmizləməyə imkan verən kompleksin yaradılması mühüm əhəmiyyət daşıyır.*

*Kompleks barədə dövlət başçısına məlumat verildi. Bildirildi ki, Xəzər dənizinin suyunun duzsuzlaşdırılması kompleksi 2013-cü ildə istifadəyə verilib. 2016-cı ildə kompleksdə əlavə tikinti işləri aparılmadan ikinci xətt quraşdırılıb. Hər xəttin istehsal gücü 1000 kubmetrə bərabərdir. Yəni gün ərzində dənizdən qəbul edilən 2500 kubmetrə yaxın duzlu su müəssisəyə daxil olur və həmin sudan 2000 kubmetr içməyə yararlı su istehsal edilir. Aparılan tikinti və yenidənqurma işləri nəticəsində dənizdən suyun götürülməsi üçün uzunluğu 200 metr olan damba inşa edilib. Müəssisədə əks-osmos membranları ilə təchiz olunmuş yüksək texnoloji avadanlıq və elektron idarəetmə sistemi qurulub. Həcmi 500 və 200 kubmetr olan xüsusi örtüklə izolyasiya edilmiş 3 metal su çəni quraşdırılıb, tutumu 500 və 2500 kubmetr olan yeraltı su anbarları inşa edilibdir.*

*Bildirildi ki, müəssisədə istehsal olunan su içməli su göstəricilərinə tam uyğundur. Hazırda istehsal olunan suyun böyük əksəriyyəti, təqribən 90 faizi ətraf ərazilərdə salınan 700 hektara yaxın yaşıllıqların suvarılmasında, qalan hissəsi isə məişətdə istifadə edilir. Bu pilot layihə yalnız dəniz suyunun duzsuzlaşdırılması ilə kifayətlənməyib, eyni zamanda, Şirvan kollektorunun suyunun duzdan təmizlənməsini həyata keçirir. Bu çərçivədə kollektorda 2013-cü ildə birinci, ötən il isə gün*

*ərzində 2500 kubmetr suyu duzsuzlaşdıran ikinci xətt istismara verilib. Ümumiyyətlə isə Şirvan kollektoru üzərində quraşdırılan qurğular gündə 5000 kubmetr suyu içməli su həddinə kimi duzsuzlaşdırır. Sutka ərzində duzsuzlaşdırılan 7000 kubmetr su 1750 hektar ərazidə yaşıllıqların suvarılmasına kifayət edir.*

*Onu da deyək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin «Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu» Açıq Səhmdar Cəmiyyəti kompleksin ərazisində qapalı şəraitdə tinglər yetişdirir. Buradakı 1 milyon 600 minə yaxın tingin suvarılmasında duzsuzlaşdırılmış sudan istifadə olunur. Dövlət başçısının meşə massivlərinin yaradılması ilə bağlı tapşırıq və tövsiyələrinin icrasına mühüm töhfə olan bu layihə çərçivəsində əsasən zeytun, tut, badam, innab, nar, həmçinin müxtəlif həmişəyaşıl ağac növlərinin yetişdirilməsi həyata keçirilir. Hazırda tinglik sahələrində 350 min ədəd zeytun, 110 min nar, 1 milyondan çox tut, 100 minə yaxın badam və başqa ting növləri yetişdirilir. Bu tinglər təhkim olunmuş ərazilərdə yeni aqrobağların və yaşıllıqların salınmasında istifadə edilir. Ehtiyac olduğu təqdirdə onlardan müəyyən edilmiş qaydalar çərçivəsində aidiyyəti üzrə istifadəçilərə əvəzsiz verilə bilər.*

*Prezident İlham Əliyev ting sahələrinə baxdı.*

*Kompleksin fəaliyyəti ilə tanış olan dövlət başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## AVROPA ÇEMPİONATININ «A» QRUPUNDA YER ALAN QADINLAR ARASINDA VOLEYBOL ÜZRƏ AZƏRBAYCAN MİLLİ KOMANDASININ POLŞA YIĞMASI İLƏ OYUNUNA BAXIŞ

*Milli Gimnastika Arenası*

*24 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Milli Gimnastika Arenasında qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin növbəti qarşılaşmasında «A» qrupunda yer alan Azərbaycan milli komandasının Polşa yığması ilə oyununa baxmışdır.*

*Voleybolçu qızlarımız ilk setdə polşalı rəqiblərinə böyük üstünlüklə – 25:14 hesabı ilə qalib gəldilər. Azərbaycan milli komandası ikinci setin ortalarında əldə etdiyi üstünlüyü sona qədər qoruyaraq, 25:21 hesabı ilə qələbə qazandı. Gərgin idman mübarizəsi şəraitində keçən üçüncü set də milli komandamızın qələbəsi ilə başa çatdı – 25:23. Beləliklə, Azərbaycan milli komandası Polşa voleybolçularını 3:0 hesabı ilə məğlub etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev komandamızın qələbəsini alqışladı. Bu qələbədən sonra Azərbaycan komandası xallarının sayını 6-ya çatdıraraq, qrupda birinci yerə yüksəldi. Polşa yığması isə 5 xalla ikinci sırada qərarlaşdı.*

*Xatırladaq ki, ilk oyunda komandamız Macarıstan komandasına 3:0 hesabı ilə qalib gəlib. Milli komandamız qrup mərhələsinin sonuncu oyununda Almaniya yığması ilə qarşılaşacaqdır.*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
XANIM HƏLİMƏ YAQUBA**

Hörmətli xanım Prezident!

Sinqapur Respublikasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Sinqapur arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sinqapur xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 sentyabr 2017-ci il*

## ALMANİYA MİLLİSİNƏ QALİB GƏLƏRƏK, AVROPA ÇEMPİONATININ DÖRDDƏBİR FİNALINA YÜKSƏLƏN AZƏRBAYCANIN QADIN VOLEYBOLÇULARININ NÖVBƏTİ OYUNUNA BAXIŞ

*Milli Gimnastika Arenası*

*25 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Milli Gimnastika Arenasında qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin «A» qrupunda yer alan Azərbaycan milli komandasının Almaniya yığması ilə oyununa baxmışdır.*

*Bu qarşılaşmada Azərbaycan voleybolçuları 3:1 hesabı ilə inamlı qələbə qazanaraq, dörddəbir finala yüksəldilər.*

*Gərgin idman mübarizəsi şəraitində keçən birinci setdə Almaniya millisi 25:19 hesabı ilə üstün oldu. Lakin ikinci setdə təşəbbüsə yiyələnən Azərbaycan voleybolçuları qələbə qazanaraq (25:19), ümumi hesabı bərabərləşdirdilər – 1:1. Qarşılaşmanın üçüncü setində üstün oyun nümayiş etdirən voleybolçularımız 25:18 hesabı ilə qalib gəldilər. Bu qələbə sayəsində milli komandamız ümumi hesabda irəli çıxdı –2:1. Matçın dördüncü seti də yüksək əzmkarlıq nümayiş etdirən Azərbaycan voleybolçularının qələbəsi ilə başa çatdı – 25:18.*

*Beləliklə, «A» qrupunda keçirdiyi 3 görüşün hamısında parlaq qələbə qazanaraq, ən yüksək nəticə göstərən Azərbaycan voleybolçuları dörddəbir finala birbaşa vəsiqəni təmin etdilər.*

*Milli komandamız əvvəlki görüşlərdə Macarıstan və Polşa yığmalarına 3:0 hesabı ilə qalib gəlib. «A» qrupundan Polşa və Almaniya yığma komandaları mübarizəni «play-off»da davam etdirəcəkdir.*

*Dörddəbir finala birbaşa vəsiqənin digər sahibləri isə İtaliya, Rusiya və Serbiya milli komandalarıdır.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Başçılıq etdiyiniz Xristian Demokratlar İttifaqı/Xristian Sosialistlər İttifaqı alyansının parlament seçkilərində qələbəsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Bu qələbə həyata keçirdiyiniz siyasətin Almaniya cəmiyyəti tərəfindən dəstəklənməsinin, şəxsən Sizə bəslənən inam və etimadın ifadəsidir.

Ümidvaram ki, Azərbaycan ilə Almaniya arasındakı dostluq münasibətlərinin, siyasi, iqtisadi və humanitar əlaqələrimizin daha da möhkəmlənməsi və genişlənməsi, ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2017-ci il*

# MONTENEQRO ALİ MƏHKƏMƏSİNİN SƏDRİ VESNA MEDENİTSANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Monteneqro Ali Məhkəməsinin Sədri xanım Vesna Medenitsanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçımız Monteneqro prezidenti Filip Vuyanoviçlə bu yaxınlarda Nyu Yorkda görüşdüklərini məmnunluqla xatırlatdı, eyni zamanda, özünün Monteneqroya səfərinin uğurlu keçdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Monteneqro arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi, iqtisadi əlaqələrimizin, o cümlədən investisiya qoyuluşu sahəsində əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirdi. Dövlət başçımız digər sahələrdə də əlaqələrimizin genişləndirilməsinin vacibliyini bildirdi, Monteneqro Ali Məhkəməsinin Sədri Vesna Medenitsanın səfərinin Azərbaycan və Monteneqronun hüquq-mühafizə orqanları arasında əməkdaşlığın genişlənməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu qeyd etdi.*

*Monteneqro Ali Məhkəməsinin Sədri Vesna Medenitsa bildirdi ki, ölkəmizdə gördükləri böyük inkişaf prosesləri nümayəndə heyəti üzvlərində dərin təəssürat yaradıb. Azərbaycanın iqtisadi sahədə qazandığı uğurların ölkəsində böyük maraqla izlənildiyini deyən qonaq vurğuladı ki, bütün bu uğurlara zən-*

*gin təcrübəyə malik olan prezident İlham Əliyevin rəhbərliyi sayəsində nail olunubdur.*

*İki ölkənin Ali Məhkəmə orqanları arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən Vesna Medenitsa ölkəmizə bu səfəri zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı faydalı müzakirələrin aparıldığını bildirdi.*

## NATO BAŞ KATİBİNİN QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY İLƏ GÖRÜŞ

*26 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul etmişdir.*

*Ceyms Appaturay NATO adından ölkəmizin bu təşkilatla etibarlı tərəfdaşlıq həyata keçirməsinə görə minnətdarlığını ifadə etdi. Ceyms Appaturay Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyaya verdiyi böyük töhfəyə görə də təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizin Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatların dəstəklənməsi işinə sadiq olduğunu vurğulayaraq bildirdi ki, Azərbaycan təkcə NATO ilə əməkdaşlıq çərçivəsində deyil, eyni zamanda, Əfqanıstanla müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq, o cümlədən iqtisadi və investisiya sahələrində əlaqələr həyata keçirir.*

*Görüşdə Azərbaycan–NATO əməkdaşlığından məmnunluq ifadə olundu, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Söhbət zamanı prezident İlham Əliyev Ermənistan tərəfinin danışıqların imitasiyası ilə məşğul olduğunu diqqətə çatdırdı və bu prosesin dayandırılması üçün əlindən gələni etdiyini bildirdi.*

## BELARUS RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİ STANİSLAV ZAS İLƏ GÖRÜŞ

*27 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Belarus Respublikasının Təhlükəsizlik Şurasının Dövlət katibi Stanislav Zası qəbul etmişdir.*

*Dövlət başçımız Azərbaycan ilə Belarus arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə – təhlükəsizlik, iqtisadiyyat, energetika, ticarət, hərbi-texniki əməkdaşlıq və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin, ölkələrimizin həyata keçirdiyi xeyli sayda birgə layihələrin ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd edən prezident İlham Əliyev Azərbaycanın əlaqələrimizin daha da genişləndirilməsində maraqlı olduğunu bildirdi. Dövlət başçısı eyni zamanda, Azərbaycan ilə Belarusun beynəlxalq təşkilatlarda da bir-birini dəstəklədiyini vurğuladı.*

*Təhlükəsizlik sahəsinə toxunan prezident İlham Əliyev qeyd etdi ki, bununla bağlı müzakirə olunası və birgə fəaliyyət göstəriləsi bir çox məsələlər vardır. Dövlət başçısı bildirdi ki, dünyada təhdidlər artır və təhlükəsizlik məsələləri dövlətlər üçün prioritet sahəyə çevrilir. Prezident İlham Əliyev bu istiqamətdə də ölkələrimiz arasında yaxşı təmasların mövcud olduğunu və təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd etdi.*

*Dövlət katibi Stanislav Zas Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun salamlarını və ən xoş arzularını dövlət başçımıza çatdırdı. O bildirdi ki, Belarus tərəfi Azər-*

*baycan Prezidentinin ölkələrimiz və xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi işinə göstərdiyi diqqəti yüksək qiymətləndirir və Belarus Prezidenti bununla bağlı öz minnətdarlığını çatdırır. Stanislav Zas ikitərəfli münasibətlərimizin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. O, görülən işlərin nəticəsi olaraq, Azərbaycan ilə Belarus arasında ticarət dövriyyəsinin 10 faiz artdığını vurğuladı. Belaruslu qonaq qeyd etdi ki, ölkəsində Azərbaycan Prezidentinin səfərini səbirsizliklə gözləyirlər.*

*Dövlət başçımız Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus Prezidentinə çatdırmağı xahiş etdi.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Çin münasibətlərinə böyük əhəmiyyət veririk. Ölkələrimiz arasındakı siyasi təmasların yüksək səviyyəsi, iqtisadi sahədə qarşılıqlı surətdə faydalı əməkdaşlığımız, daim genişlənən humanitar, mədəni əlaqələrimiz ikitərəfli münasibətlərimizin səciyyəvi cəhətlərindəndir.

İnanıram ki, ölkələrimizi birləşdirən dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli müstəvidə qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 sentyabr 2017-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ NAZİRİ NURƏDDİN CANİKLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Nurəddin Caniklinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçımız Nurəddin Caniklini Türkiyə Respublikasının Milli Müdafiə naziri kimi yüksək vəzifəyə təyin olunması münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Nurəddin Caniklinin yeni vəzifəyə təyin olunduqdan sonra qısa müddət ərzində Azərbaycana səfərə gəlməsindən məmnunluğunu ifadə edərək, bildirdi ki, ölkələrimiz qardaş ölkələrdir və ona görə də Azərbaycan və Türkiyə nazirləri ilk səfərlərini qardaş ölkələrə edirlər. Ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən hərbi-texniki sahədə çox yaxşı əməkdaşlığın və işbirliyinin mövcud olduğunu vurğulayan prezident İlham Əliyev hərbi-texniki sahədə birgə fəaliyyətin geniş olduğunu diqqətə çatdırdı. Dövlət başçımız qeyd etdi ki, hərbi texnikanın Türkiyədən alınması bizim gücümüzü daha da artırır. Həm Azərbaycanda, həm də Türkiyədə tez-tez birgə hərbi təlimlərin keçirilməsini yüksək qiymətləndirən prezident İlham Əliyev bildirdi ki, bu, Türkiyə–Azərbaycan birliyini daha da gücləndirir və bölgədə sülhün və sabitliyin möhkəmləndirilməsi işinə xidmət edir.*

*Milli Müdafiə naziri Nurəddin Canikli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlət başçımıza çatdırdı. Nurəddin Canikli öz növbəsində, Azərbaycan ilə Türkiyənin qardaş ölkələr olduğunu və*

*əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq bildirdi ki, məqsədimiz bu əməkdaşlıq əlaqələrini daha da genişləndirmək və möhkəmləndirməkdir. Nurəddin Canikli Türkiyənin FETÖ ilə mübarizəsinə ölkəmizin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev bu yaxınlarda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Nyu Yorkdakı görüşünü məmnunluqla xatırlatdı.*

*Dövlət başçımız Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## MƏRKƏZÇİ DEMOKRAT İNTERNASİONALININ VİTSE-PREZİDENTİ MARİO DAVİD VƏ BAŞ KOORDİNATORU SEZAR ROSSELLON İLƏ GÖRÜŞ

*28 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Mərkəzçi Demokrat İnternasionalının vitse-prezidenti Mario Davidi və qurumun Avrasiya, Asiya–Sakit okean ölkələri üzrə baş koordinatoru Sezar Rossellonu qəbul etmişdir.*

*Görüşdə Mərkəzçi Demokrat İnternasionalı ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq əlaqələrinin vəziyyəti və inkişaf perspektivləri müzakirə edildi, Azərbaycanda son vaxtlar həyata keçirilən islahatlar, atılan addımlar, ölkəmizdə tolerantlıq və multikulturalizm sahəsində aparılan işlər ətrafında fikir mübadiləsi aparıldı.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Almaniya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Qarşılıqlı anlaşmaya və konstruktiv dialoqa əsaslanan siyasi əlaqələrimiz iqtisadi və humanitar sahələrdə geniş və səmərəli əməkdaşlığımız ilə müşayiət olunur.

Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin möhkəmlənməsi, eləcə də çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşməsi istiqamətində bundan sonra da qarşılıqlı səylərimizi davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 sentyabr 2017-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MUN CE-İNƏ**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı – Dövlətin Yaranması Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan Respublikası ilə Koreya Respublikası arasındakı münasibətlər dinamik və hərtərəfli inkişaf yolundadır. İnanıram ki, dostluq əlaqələrimiz, qarşılıqlı surətdə faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 sentyabr 2017-ci il*

# AVROPA OLİMPİYA KOMİTƏLƏRİNİN, BEYNƏLXALQ İDMAN TƏŞKİLATLARININ VƏ XARİCİ MİLLİ OLİMPİYA KOMİTƏLƏRİNİN RƏHBƏRLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Azərbaycan Milli Olimpiya Komitəsinin 25 illik yubiley tədbirində, Bakıda keçirilən Avropa Olimpiya Komitələri İcraiyyə Komitəsinin iclasında, MDB, Baltikyanı ölkələr və Gürcüstan Milli Olimpiya komitələrinin regional forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Avropa Olimpiya komitələrinin, beynəlxalq idman təşkilatlarının və xarici Milli Olimpiya komitələrinin rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Mən Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının 25-ci ildönümünü bizimlə birlikdə qeyd etmək üçün Azərbaycana təşrif buyurmuş Avropa olimpiya ailəsindən belə böyük nümayəndə heyətini görməyə çox şadam. Bildiyimə görə, bu gün sizin də öz görüşləriniz var. İcraiyyə komitəsinin yenidən Bakıda bir araya gəlməsi məni məmnun edir. Mən uzun illər bundan əvvəl Avropa Olimpiya komitələrinin İcraiyyə Komitəsinin iclasının burada keçirildiyini xatırlayıram. Bu təxminən 20 il bundan əvvəl olub. Bu, Azərbaycanın Avropa idman tədbirlərində fəal iştiraka sadiq olduğunu nümayiş etdirir. Yəqin siz də bilirsiniz ki,

hazırda Azərbaycan mühüm idman tədbirinə – qadınlar arasında voleybol üzrə Avropa çempionatına ev sahibliyi edir.

Azərbaycanda bundan da çox Avropa miqyaslı idman tədbirləri keçiriləcəkdir. Bakının 2 ildən sonra futbol üzrə Avropa Liqasının final oyununa ev sahibliyi etməsi bizdə qürur hissi oyadır. Əlbəttə ki, birlikdə qeyd etdiyimiz Avropa oyunları da bizim üçün böyük bir məsuliyyət idi. Bu həm də Avropa olimpiya hərəkatının inkişafı üçün vacib idi. Çünki oyunlar ilk dəfə idi təşkil olunurdu və hesab edirəm ki, yüksək səviyyədə təşkil olundu.

İdman nailiyyətlərimizə gəldikdə, Azərbaycanda idmanın inkişaf etməsi bizi çox sevindirir, yaxşı nəticələr var. Bu il 2 atletimiz üçüncü dəfə dünya çempionu adına layiq görülüb. Gənc nəsil də daha fəaldır və idmanla məşğul olmağa çox həvəslidir. Çünki Azərbaycanda idmançı olmaq indi çox nüfuzlu peşədir. Əlbəttə ki, bu günlərdə keçirilən idman tədbirləri və sizin ölkəmizə səfəriniz idmanın inkişafını daha da stimullaşdırır.

**Janez Koçijançiç** (*Avropa Olimpiya komitələrinin icraçı prezidenti*): Cənab Prezident, xoş sözlərinizə görə çox sağ olun. Siz Avropa olimpiya hərəkatı üçün ən çox işlər görən dövlət başçısısınız və eyni zamanda, idmana ən çox diqqət göstərən Milli Olimpiya Komitəsinin prezidentisiniz. Biz bunu bilirik və yüksək qiymətləndiririk. Biz özümüzü Azərbaycanda evimizdəki kimi hiss edirik. Böyük uğur qazanmış Avropa oyunlarında insanlarınız çox yaxşı çalışdılar. Birinci vitse-prezident xanım Mehriban Əliyeva Təşkilat Komitəsinin sədri kimi, böyük işlər gördü. Ümumiyyətlə, xalqınızın bununla bağlı səylərini yüksək qiymətləndiririk. İdman sahəsində sizin nailiyyətlər qazanmağınız bizi olduqca sevindirir. Həmçinin qadınlar arasında voleybol üzrə Avropa çempionatının necə nəticələnəcəyi də məni çox maraqlandırır. Çox sağ olun. Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

**İlham Əliyev:** Mən bir daha Avropa oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsinə görə sizə təşəkkürümü bildirirəm. Bu, ölkəmiz üçün, Avropa olimpiya hərəkatı üçün çox vacib bir qərar idi. Bu bizə nəyə qadir olduğumuzu nümayiş etdirmək imkanı yaratdı. Belə irimiqyaslı tədbirin keçirilməsi nisbətən gənc müstəqil ölkə üçün çox böyük əhəmiyyət kəsb edirdi. Bilirəm ki, oyunların çox uğurla keçirilməsi ilə bağlı ümumi bir fikir formalaşıbdır. Bu həm də bizim üçün bir növ sınaq idi. Bu il nisbətən az idmançıların qatıldığı, lakin çoxsaylı ölkələrin iştirakı ilə İslam Həmrəyliyi oyunlarını təşkil etdik. Bu oyunlar da çox yaxşı səviyyədə təşkil olunmuşdu, çünki bizim artıq belə bir təcrübəmiz var idi. Beləliklə, biz maksimum potensialımızdan, könüllülərdən istifadə etdik və əlbəttə, heç bir yeni idman qurğusu tikmədik, çünki hər şey hazır idi. Əlbəttə, Avropa miqyasında idman tədbirlərinin Azərbaycanda təşkil olunması bizim üçün çox vacibdir. Məsələn, qadınlar arasında voleybol üzrə Avropa çempionatı Bakı və başqa bir şəhərdə – Göygöldə keçirilir. Göygöl kiçik, lakin yaxşı idman infrastrukturu olan şəhərdir. Bu həmçinin regionlarda idmanın inkişafına təkan verir. Çünki biz regionlarda idmançı uşaq və gənclərə öz potensiallarını nümayiş etdirməyə imkan verən çox sayda idman arenaları və olimpiya mərkəzləri tikmişik.

**Aleksandar Boriçiç** *(Avropa Voleybol Konfederasiyasının prezidenti):* Cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, mən Avropa Voleybol Konfederasiyası adından şəxsən Sizə göstərdiyiniz dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Ötən il bizim görüşümüz olmuşdu və Siz voleybol üzrə Avropa çempionatına dəstək göstərəcəyinizi vəd etmişdiniz. Qadınlar arasında voleybol üzrə Avropa çempionatı yüksək səviyyədə keçirilir.

*Aleksandar Boriçiç qadın voleybolçular arasında Avropa çempionatının Azərbaycanın regionlarında da keçirilməsinin gələcək idmançıların formalaşmasında mühüm amil olduğunu və bu tədbirin ölkəmizdə yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq dedi:*

– Biz hesab edirik ki, bununla Siz gələcəyə yaxşı sərmayə yatırdınız, çünki çox sayda gənc qızlar voleybol oynamağa başlaya bilərlər. Biz Sizinlə birlikdə məktəblərdə həyata keçirilən layihələrə sərmayə yatırmaq istəyirik. Siz Avropa oyunlarını əsl Olimpiya oyunları səviyyəsində təşkil etdiniz. Ölkənizdə keçirilən voleybol çempionatı da böyük əhəmiyyət daşıyır. Mən şəxsən Sizə, Azərbaycan hökumətinə, Gənclər və İdman Nazirliyinə, Milli Olimpiya Komitəsinə və Azərbaycan Voleybol Federasiyasına təşəkkür edirəm. Ölkənizdə idmanın voleybol növünün yaxşı gələcəyi var. Çox sağ olun.

*Dövlət başçımız Azərbaycanın beynəlxalq mötəbər idman yarışlarına ev sahibliyini bir daha məmnunluqla qeyd etdi və nüfuzlu beynəlxalq futbol yarışlarının ölkəmizdə keçirilməsinin önəmini vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Sözsüz ki, biz Azərbaycanda daha çox tədbirlər keçirəcəyik. Çünki qeyd etdiyim kimi, Avropa Çempionlar Liqası həqiqətən də böyük məsuliyyət və bizim futbolumuza çox böyük bir dəstəkdir. Həmçinin 2020-ci ildə Bakıda futbol üzrə Avropa çempionatının dörddəbir final oyunları keçiriləcəkdir. Bakı seçilmiş 13 Avropa şəhərindən biridir. İlk dəfə olaraq bizim «Qarabağ» futbol klubu Çempionlar Liqasının qrup mərhələsinə yüksəlibdir.

*Daha sonra Belarusun Milli Olimpiya Komitəsinin baş katibi Georgi Katulin çıxış etdi.*

**G e o r g i K a t u l i n:** Hörmətli İlham Heydər oğlu, icazə verin, dövlət başçısı Aleksandr Lukaşenkonun adından fəxri missiyanı yerinə yetirərək, bu əlamətdar hadisə münasibətilə

Sizi təbrik edim, ikinci Avropa oyunlarının keçirilməsində bizə göstərdiyiniz köməyə görə minnətdarlığımı bildirim. Düşünürəm ki, bizə göstərdiyiniz nümunəni biz də həyata keçirə biləcəyik. Zənnimcə, Sizin qədər yüksək səviyyədə edə bilməsək də, çalışacağıq ruh yüksəkliyi ilə edək ki, Sizin göstərdiyiniz kömək hədər getməsin. Çox sağ olun. İcazə verin, Prezidentin minnətdarlığını Sizə çatdırım.

## DÜNYA ŞÖHRƏTLİ AZƏRBAYCANLI ALİM LÜTFİ ZADƏ İLƏ VİDA MƏRASİMİNDƏ İŞTİRAK

*29 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Azərbaycan Milli Elmlər Akademiyasının binasında dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadə ilə vida mərasimində iştirak etmişdir.*

*Vida mərasimində görkəmli alimin həyatı və elmi fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olundu.*

*ABŞ-ın Kaliforniya Universitetinin professoru, Yumşaq Hesablamalar üzrə Berkli Təşəbbüsünün rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, Amerikadakı Azərbaycan diaspor təşkilatlarının fəxri sədri Lütfi Zadənin vəfatı ümumilikdə dünyanın elmi ictimaiyyəti üçün ağır itkidir.*

*Dövlət başçımız mərhumun ailə üzvləri ilə söhbət etdi, dərin hüznlə başsağlığı verdi.*

*Azərbaycan Respublikasının Xalq artisti, professor Cənnət Səlimova Lütfi Zadənin xatirəsinə göstərilən ehtirama görə görkəmli alimin ailəsi adından prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Lütfi Zadə həmişə azərbaycanlı olması ilə qürur duyub, onun ürəyi daim doğma yurdu ilə döyünübdür. Dünya şöhrətli azərbaycanlı alim və böyük şəxsiyyət Lütfi Zadənin əziz xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaqdır.*

*Sonra vida mərasimi çıxışlarla davam etdi.*

## MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 25 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*29 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri sentyabrın 29-da Heydər Əliyev Mərkəzində Azərbaycan Milli Olimpiya Komitəsinin yaranmasının 25 illik yubileyi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişlər.*

*Yubiley mərasiminin iştirakçıları prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Dövlət başçımız, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün biz Milli Olimpiya Komitəsinin 25 illiyini qeyd edirik. Bugünkü mərasimdə Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri, xarici qonaqlar iştirak edirlər. Fürsətdən istifadə edərək, bugünkü mərasimdə iştirak etmək üçün ölkəmizə gəlmiş Avropa Olimpiya komitələrinin nümayəndələrini xüsusi salamlayıram. Azərbaycan Avropa Olimpiya komitələrinin fəal üzvüdür. Bugünkü mərasimdə Avropa Olimpiya

komitələri rəhbərliyinin iştirakı bizi çox sevindirir. Onu da qeyd etməliyəm ki, bu gün Bakıda Avropa Olimpiya komitələrinin İcraiyyə Komitəsinin toplantısı, eyni zamanda, Milli Olimpiya komitələrinin forumu keçirilir.

Azərbaycanda olimpiya hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilibdir. Qeyd etməliyəm ki, bütün müvafiq qurumlar, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman cəmiyyətləri, federasiyalar, klublar bir məqsədi güdür ki, Azərbaycanda idman daha da inkişaf etsin, idmanın kütləviliyi daha da geniş vüsət alsın və idmançılarımız bizi beynəlxalq yarışlarda tez-tez sevindirsinlər. Bax, bu birgə fəaliyyət nəticəsində və idmana cavabdehlik daşıyan bütün qurumlar arasındakı koordinasiya sayəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atıbdır.

Biz ilk növbədə, idmanla məşğul olmaq üçün şərait yaratmalı idik və bu istiqamətdə dövlət investisiyaları hesabına Azərbaycanda bir çox müasir olimpiya idman qurğuları tikilib istifadəyə verildi. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilibdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında, əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Bakı Olimpiya stadionunu qeyd etməliyəm. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bir sözlə, son illər ərzində həm bölgələrdə, həm Bakıda idmanın inkişafına, infrastruktur layihələrinə qoyulan vəsait öz nəticəsini verməkdədir.

Biz, əlbəttə, idmanda əldə edilmiş nailiyyətlərlə fərəhlənirik. Çünki bizim idmançılarımız ölkəmizi beynəlxalq arenalarda ləyaqətlə təmsil edirlər. Azərbaycan ilk dəfə olaraq müstəqil dövlət kimi, 1996-cı ildə Yay Olimpiya oyunlarında iştirak etmişdir və o vaxt cəmi 1 medal qazanmışdır. Ondan 20 il sonra Rio Yay Olimpiya oyunlarında isə Azərbaycan idmançıları 18 medal qazanıblar və medalların sayına görə komanda hesabında Azərbaycan 14-cü yerə layiq görülübdür. Bax, bu tərəqqi idmanın inkişafını göstərən ən gözəl amildir. Çünki olimpiadadan olimpiadaya medallarımızın sayı artırdı və 18 medal qazanmaq doğrudan da çox böyük tarixi nailiyyətdir.

Azərbaycan idmançıları eyni zamanda, Avropa və dünya çempionatlarında böyük uğurlar qazanırlar. Bu il bizim 2 idmançımız sərbəst güləş və boks üzrə üçüncü dəfə dünya çempionu olub. Bu da tarixi nailiyyətdir. Bir sözlə, bu gün Azərbaycan o ölkələrdəndir ki, onun çox güclü idman potensialı vardır. Həm infrastruktur, həm idmançıların hazırlığı, həm də gənc idmançıların hazırlanması – biz bu məsələlərə kompleks şəkildə yanaşırıq. Bir daha qeyd etmək istəyirəm ki, bütün müvafiq qurumlar bir nöqtəyə vurur, bir məqsədə qulluq edir və məhz buna görə də biz idmanda bu nailiyyətləri əldə edə bilmişik.

Biz beynəlxalq arenada – Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya komitələri çərçivəsində də fəal iştirak edirik. Bizim beynəlxalq federasiyalarla çox yaxşı əlaqələrimiz vardır. Təsadüfi deyil ki, Azərbaycanda, demək olar, ildə bir neçə dəfə mötəbər beynəlxalq yarışlar keçirilir. Bu günlərdə Bakı şəhərində qadınlar arasında voleybol üzrə Avropa çempionatı keçirilir. Azərbaycanda beynəlxalq yarışların keçirilməsi də artıq bir ənənəyə çevrilibdir. Biz buna öyrəşmişik və bu da, əlbəttə ki, həm ölkəmizin potensialını göstərir, həm də beynəlxalq federasiyaların bizə olan inamını əks etdirir. Bu idman tədbirləri arasında mötəbər yarışları bu gün xüsusilə qeyd etmək istərdim. Bakıda 2 dəfə «Formula-1» yarışı keçirilibdir. Bu, tamaşaçı auditoriyasına görə Yay Olimpiya oyunlarından sonra

yəqin ki, ikinci idman yarışıdır. Bu yarışların auditoriyası 500 milyon insandır. Bakıda 2 dəfə keçirilmiş bu yarış artıq «Formula-1» yarışları arasında özünəlayiq yer tuta bilibdir. Çünki bu, şəhər yarışıdır və tamaşaçılar üçün, televiziya ilə bu yarışı izləyənlər üçün həm yarış daha maraqlı keçir, həm də şəhərimizin gözəlliyi yarım milyard insana təqdim olunur.

Azərbaycanda dünya, Avropa çempionatları keçirilir. Əlbəttə ki, mən 2015-ci ildə keçirilmiş birinci Avropa oyunlarını xüsusi qeyd etməliyəm. Bu qərarı qəbul edən Avropa Olimpiya komitələrinin rəhbərlərinə və üzvlərinə bir daha minnətdarlığımı bildirmək istəyirəm. O vaxt bu qərarın qəbul edilməsi bizə imkan verdi ki, bu oyunları keçirək, öz imkanlarımızı göstərək və beləliklə, Avropa oyunlarına start verək. Bilirsiniz ki, hazırlıq üçün bizim cəmi 2 il yarım vaxtımız var idi və deyə bilərəm ki, bu oyunlar qısa müddət ərzində Yay Olimpiya oyunlarının səviyyəsində keçirildi. Bakıda bu oyunlarda 50 ölkə, 5000-dən çox idmançı, nümayəndə heyətlərinin minlərlə üzvü, qonaqlar iştirak etdilər. Onu da qeyd etməliyəm ki, Azərbaycan bu oyunlarda çox yaxşı nəticələr göstərdi, komanda hesabında idmançılarımız 2-ci yerə layiq görüldülər. Bu oyunlar bizim hamımızın xatirindədir, bu, gözəl idman və dostluq bayramı idi. O günlərdə yaşanan ab-hava əminəm ki, bundan sonra da bizim yaddaşımızdan silinməyəcəkdir. Bu gözəl təcrübəni əldə edərək, Azərbaycan bu il IV İslam Həmrəyliyi oyunlarını uğurla keçirdi. Bu oyunlarda 54 ölkə, 3000-dən bir qədər çox idmançı iştirak edirdi. Bu oyunlarda da Azərbaycan idmançıları öz güclərini göstərərək, bu dəfə komanda hesabında 54 ölkə arasında 1-ci yeri tuta bildilər. Bu oyunlar da çox böyük müvəffəqiyyətlə keçdi. Həm Avropa oyunlarında, həm də İslam Həmrəyliyi oyunlarında iştirak etmiş idmançılar və qonaqlar əminəm ki, öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar.

Bu oyunların keçirilməsi həm ölkəmizin potensialını, həm bizim siyasətimizi, həm də imkanlarımızı göstərir. Çünki bu oyunlar sadəcə olaraq, idman yarışları deyil. İdman dostluğu möh-

kəmləndirən, xalqlararası münasibətləri gücləndirən önəmli bir amildir. Bir şəhərdə cəmi 2 il ərzində həm Avropa, həm islam oyunlarının keçirilməsi bizim sivilizasiyalararası dialoqa da verdiyimiz növbəti töhfə kimi qəbul edilməlidir. Siz bilirsiniz ki, Azərbaycan bu istiqamətdə dünya miqyasında çox böyük işlər görür. Azərbaycan bu gün dünyada multikulturalizmin mərkəzlərindən biri kimi özünü təsdiqləyib. Biz keçən ili Azərbaycanda «Multikulturalizm ili» elan etmişdik. Bu il isə «İslam həmrəyliyi ili»dir. Bu iki təşəbbüs arasında sıx bağlılıq vardır. Yəni bu təşəbbüslə göstəririk və bildiririk ki, dünyada bütün məsələlər qarşılıqlı anlaşma, əməkdaşlıq şəraitində öz həllini tapmalıdır. Məhz Azərbaycan 2008-ci ildə «Bakı prosesi»nə start veribdir. Bu gün «Bakı prosesi» BMT tərəfindən dəstəklənən çox geniş bir hərəkatdır. Məhz 2008-ci ildə Azərbaycan Avropa Şurasının Mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Mədəniyyət nazirlərini dəvət etmişdi. Beləliklə, birinci dəfə hər iki təşkilat bir yerdə toplantı keçirmişdir. «Bakı prosesi» o gündən bu günə qədər çox böyük məsafə qət edibdir və bu gün beynəlxalq aləmdə çox yüksək qiymətləndirilir.

Yəni idman ictimai həyatın önəmli amili kimi, bundan sonra da öz rolunu oynayacaqdır. Azərbaycan idman yarışlarını keçirərkən bu məqsədi də güdür ki, idmançılar arasında, xalqlar arasında, ölkələr arasında münasibətlər qarşılıqlı etimad və hörmət əsasında qurulsun.

Bugünkü mərasim mənim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki mən 20 ildir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyət göstərirəm. 1997-ci ildə Azərbaycan idman ictimaiyyəti bu etimadı mənə göstərdi. Hesab edirəm ki, mən bu şərəfli missiyanı bu günə qədər icra edirəm, baxmayaraq ki, o vaxtdan 6 il sonra mən ölkə prezidenti seçilmişəm. Əlbəttə, mənim məsuliyyətim xeyli artıbdır. Ancaq Milli Olimpiya Komitəsinin prezidenti kimi, mən çalışıram ki, idmanın inkişafı ilə bağlı bütün məsələlərə diqqət yetirim. İdmançıların bütün yarışları, demək olar ki, diqqət mərkəzindədir. Mən o yarışları imkan

daxilində izləyirəm. İdmançıların qayğıları, problemləri ilə daim maraqlanıram. Mənim həyatımın 20 ili artıq olimpiya hərəkatına, idmana həsr edilibdir.

Onu da qeyd etməliyəm ki, Azərbaycanda dövlət və ictimai təşkilatlar idmançıların məişət problemlərinin həllində də fəal iştirak edirlər. Hər il ilin yekunlarına görə, 20-dən çox görkəmli idmançıya dövlət tərəfindən mənzillər, digər mükafatlar, təqaüdlər verilir. Biz daim çalışırıq ki, idmançılarımızı dəstəkləyək. Çünki bu gün idman Azərbaycanda, bizim cəmiyyətimizdə çox önəmli ictimai amilə çevrilibdir.

İdmançı olmaq çox şərəfli peşədir. İdmançılara cəmiyyətdə hörmət böyükdür. Onu da qeyd etməliyəm ki, bizim idmançılarımız həm idman yarışlarında, həm də məişətdə özlərini ləyaqətlə aparırlar. İdmançılar, onların uğurları, onlara dövlət tərəfindən verilən qiymət və dəstək, əlbəttə ki, uşaqları da idman bölmələrinə cəlb edir. Çünki uşaqlar da görürlər ki, əgər idmanda böyük uğur qazanarsansa, onda həm xalq, həm də dövlət səni yüksək qiymətləndirəcəkdir.

Beləliklə, bu gün Azərbaycanda yeniyetmə, uşaq idmanı da uğurla inkişaf edir. Qeyd etdiyim kimi, bütün bölgələrdə idmanla məşğul olmaq üçün gözəl şərait vardır. Bizim çempionlarımızın uğurlu çıxışları, onların qələbələri gəncləri də, uşaqları da, əlbəttə ki, idmana cəlb edir. Hər dəfə bizim idmançılarımız beynəlxalq yarışlarda bayrağımızı qaldıranda hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq qürur hissi keçirir. Bu qələbələrə, bu qələbə sevincini xalqımıza bəxş etdiklərinə görə Azərbaycan idmançılarına bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Çıxışımın sonunda bir məsələyə də toxunmaq istərdim. Bu gün biz Azərbaycanda idman uğurlarımıza bir növ öyrəşmişik. Bəziləri elə hesab edirlər ki, elə də olmalıdır. Biz gərək keçmişə də baxaq, müqayisə edək və görək ki, əgər medalların sayına görə o qədər də böyük ölkə olmayan, əhalisi o qədər də çox olmayan Azərbaycan

Rio Olimpiya oyunlarında 14-cü yerə layiq görülürsə, bu, doğrudan da tarixi nailiyyətdir.

Bizim həmişə güclü idmançılarımız olub. Sovet vaxtında da Azərbaycan nümayəndələri xalqımızı SSRİ yığma komandalarında ləyaqətlə təmsil ediblər. Ancaq indiki nailiyyətlərlə ovaxtkı nailiyyətlər müqayisəedilməz dərəcədə fərqlənir.

Bu gün biz müstəqil dövlət kimi, medalların sayına görə dünya miqyasında 14-cü yerdəyik. Bu nəyin hesabına mümkün olub? Əlbəttə, görülən işlər, apardığımız siyasət hesabına – bu barədə mən artıq öz fikirlərimi bildirdim. Mən görülən işlərin bir hissəsini qeyd etdim. Amma əsas səbəb və bunun əsas qaynağı bizim müstəqilliyimizdir. Biz 26 ildir ki, müstəqil ölkə kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Azərbaycan xalqı, onun iradəsi bu gün bizim siyasətimizi şərtləndirir. Müstəqil siyasət aparan müstəqil Azərbaycan bütün başqa sahələrdə olduğu kimi, o cümlədən idman sahəsində də bu uğurlara imza atıbdır.

Bir neçə gün bundan əvvəl dünyanın aparıcı iqtisadi qurumu olan Davos Dünya İqtisadi Forumu ölkələrin iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinin indeksini açıqlayıb. Azərbaycan il ərzində 2 pillə irəli gedərək, 37-ci yerdən 35-ci yerdə qərarlaşıb. Bu da MDB məkanında 1-ci yerdir. Yəni 140-a yaxın ölkənin iqtisadiyyatları təhlil edilib. Onların arasında Azərbaycan – gənc müstəqil dövlət 35-ci yerdədir. Bu nəyin hesabına mümkün olubdur? Düşünülmüş siyasətin hesabına, xalq–iqtidar birliyinin hesabına. Bunun təməlində bizim müstəqilliyimiz dayanır. Müstəqilliyimiz ən böyük xoşbəxtliyimizdir, ən böyük sərvətimizdir. Bu gün medallar qazanan, idman şöhrətimizi dünyada artıran idmançılarımızın böyük əksəriyyəti müstəqillik dövründə doğulub, onların hamısı müstəqillik dövründə formalaşıbdır.

Azərbaycan bundan sonra da müstəqillik yolu ilə uğurla gedəcək. Bizim gələcəkdə idman uğurlarımız daha da çox

olacaq. Bütün idmançıları əldə edilmiş qələbələr münasibətilə təbrik edirəm və yeni qələbələr, uğurlar arzulayıram.

Sağ olun.

* * *

**J a n e z  K o ç i j a n ç i ç** (*Avropa Olimpiya komitələrinin icraçı prezidenti):* Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev! Hörmətli dostum, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva!

Avropa Olimpiya komitələrinin rəsmiləri, hörmətli dostumuz Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Milli Olimpiya Komitəsinin üzvləri, hörmətli Milli Federasiya üzvləri!

Mən böyük şərəf hissi ilə Azərbaycan Milli Olimpiya Komitəsinin 25-ci ildönümü ilə əlaqədar təşkil olunmuş bu mərasimdə qarşınızda çıxış edirəm. 25 illik tarixə nəzər salsaq görərik ki, Azərbaycan xalqının idman sahəsində əldə etdiyi nailiyyətlər fantastikdir. Siz Avropa oyunlarında böyük sayda medallar qazandınız. İslam Həmrəyliyi oyunlarında isə qazandığınız medalların sayı ondan da çox oldu. Cənab Prezident burada qeyd etdi ki, Olimpiya oyunlarında 18 medal qazanılıb. Bu bir daha onu göstərir ki, Siz qarşınıza qoyduğunuz ümumi məqsədə nail olmusunuz. Məhz idmanı milli səviyyədə inkişaf etdirməklə, cəmiyyət daxilində idmanın daha da kütləviləşdirilməsi üçün çalışaraq, Siz bir növ yeni bir səhifəni açmısınız. Sizi bu münasibətlə səmimi-qəlbdən təbrik edirəm, 25 iliniz mübarək olsun! Siz çox gözəl iş aparmısınız.

İkinci məqam isə siz Bakıda birinci Avropa oyunlarını keçirdiniz. Əslində Sizin Avropa idman hərəkatına, Avropada olimpiya hərəkatına nə qədər böyük töhfə verdiyinizi yaxşı anlayırıq, biz bunu görürük. Biz növbəti oyunları Minsk şəhərində keçirəcəyik. Lakin Azərbaycan bu ilkə imza atdı və birinci oyunları keçirdi, ev sahibi

oldu. Bu, ümumiyyətlə, Olimpiya oyunlarının gələcəyinə verdiyiniz töhfə oldu. Çox sağ olun. Bu, yüksək dəyərləndirilən bir nailiyyət idi.

Üçüncü məqamı mən iftixar hissi ilə bildirirəm. Mən burada bu Mərkəzdə çıxış edirəm. Bu Mərkəz Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin, Sizin atanızın adını daşıyır. O, Azərbaycanın keçmişinin və indiki dövrünün təcəssümüdür. Təbii ki, xalqınız üçün bir çox nailiyyətlər həmin dövrdə əldə edilmişdir. Məsələn, bizim ölkədə belə tədbirlər əslində qısa olur, bir neçə gün çəkir. Lakin belə tədbirlərin keçirilməsi, müxtəlif beynəlxalq yarışların təşkil olunması sizdə silsilə halı alıbdır. Biz bilirik ki, yaxın vaxtlarda Siz, həmçinin gənclər arasında idman festivalı keçirəcəksiniz, digər tədbirlərə də ev sahibliyi edəcəksiniz. Biz böyük məmnuniyyətlə yenidən Azərbaycana gələcəyik. Sizi bir daha təbrik edirik. Azərbaycan xalqı öz idman nailiyyətlərindən fərəhlənə bilər.

*İcraçı prezident Janez Koçijançiç Azərbaycan prezidenti İlham Əliyevə, Mehriban xanım Əliyevaya və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə MOK-un yaranmasının 25 illik yubileyi münasibətilə Avropa Olimpiya komitələrinin xüsusi mükafatlarını təqdim etdi.*

**M a r i u s  V i z e r** (*Beynəlxalq Cüdo Federasiyasının prezidenti*): Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva!

Avropa Olimpiya komitələrinin icraçı prezidenti cənab Janez Koçijançiç, cənab Patrik Hikki, hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən Prezidenti və birinci xanımı, bütün Azərbaycan xalqını Azərbaycan Milli Olimpiya Komitəsinin 25-ci ildönümü, o cümlədən idman sahəsində və bütün digər sahələrdə qazandığınız uğurlara, həmçinin iqtisadi nailiyyətlərinizə görə təbrik etmək istəyirəm. Siz təhsildə, elmdə, ölkənizin gələcəyi

ilə bağlı olan bir çox sahələrdə böyük nailiyyətlər əldə etmisiniz. Azərbaycan ilk Avropa oyunlarını 2015-ci ildə keçirdi. 2017-ci ildə IV İslam Həmrəyliyi oyunları burada təşkil olundu. Bir çox Avropa və dünya çempionatları da ölkənizdə keçirilib. Belə tədbirləri keçirərək, Siz bu sahəyə böyük sərmayələr qoyursunuz, o cümlədən idmanı inkişaf etdirirsiniz, ölkənizin mədəni irsini daha da geniş coğrafiyada təbliğ edirsiniz. Mən sizin hamınıza beynəlxalq idman hərəkatına, beynəlxalq olimpiya hərəkatına verdiyiniz töhfəyə görə təşəkkürümü bildirirəm. Sizin səyləriniz sayəsində bir çox yeni idmançılar formalaşır. Gələn il növbəti dünya çempionatımız keçiriləcək və sizin hamınızı böyük məmnuniyyətlə həmin çempionata dəvət edirəm.

Belə bir nüfuzlu tədbirdə iştirak etmək mənim üçün şərəf oldu. Cənab Prezident, mən beynəlxalq cüdo ailəsi adından şərəf hissi ilə Beynəlxalq Cüdo Federasiyasının ən yüksək mükafatını – qızıl medalını Sizə təqdim etmək istəyirəm. Çox sağ olun.

*Marius Vizer Beynəlxalq Cüdo Federasiyasının ən yüksək mükafatını – qızıl medalını Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

**İlham Əliyev**: Əziz dostlar, mən bu mükafatlara görə prezident Koçijançiçə, prezident Vizerə təşəkkürümü bildirmək istəyirəm. Mən bunu idmanın və olimpiya hərəkatının inkişafındakı nailiyyətlərimizə verilən qiymət kimi dəyərləndirirəm. Avropa oyunlarına hazırlıq zamanı bizə göstərdikləri böyük dəstəyə görə bir daha bu səhər görüşdüyüm bütün qonaqlarımıza, olimpiya ailəsinin üzvlərinə minnətdarlığımı bildirmək istərdim. Birincisi, bu oyunların bizdə keçirilməsinə imkan verən qərara görə, ikincisi də hazırlıqlar zamanı komandaların, Azərbaycan və Avropa komandalarının birlikdə necə sıx şəkildə işlədiyini bilirəm. Mən Avropada idmanın inkişafına verdiyi böyük töhfələrə görə cənab Patrik Hikkiyə şəxsən minnətdarlığımı bildirmək istərdim. Avropa oyunlarının

keçirilməsinə başlamaq onun təşəbbüsü idi. Patrik, təşəkkür edirəm. Bu səhər mən, həmçinin dostumuz Spiros Kapralosla görüşdüm. O buraya «Dostluq» ordeni ilə gəlib. Bu orden ona mənim tərəfimdən Avropa oyunlarının təşkilinə böyük töhfələrinə görə verilibdir. Mən Azərbaycanda cüdonun inkişafına verdiyi davamlı dəstəyə görə dostumuz, Cüdo Federasiyasının prezidenti Marius Vizerə təşəkkürümü bildirmək istərdim. Biz əldə etdiyimiz nəticələrlə fəxr edə bilərik. Biz dünya çempionatında çox yaxşı nəticələr göstərdik. Əlbəttə ki, növbəti dünya çempionatı tezliklə Bakıda keçiriləcəkdir. Biz idmanın bu növünü daha da kütləviləşdirəcəyik. Həmçinin Avropa olimpiya ailəsindəki dostlarımıza minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, bizim qəlbimizdə sizin öz yeriniz vardır. Təşəkkür edirəm.

## AVROPA ÇEMPİONATININ YARIMFİNALINA YÜKSƏLƏN QADIN VOLEYBOLÇULARIMIZIN QƏLƏBƏ OYUNUNA BAXIŞ

*Milli Gimnastika Arenası*

*29 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 29-da Milli Gimnastika Arenasında Azərbaycan və Almaniya voleybolçularının oyununa baxmışlar.*

*Bu qarşılaşmada qadın voleybolçularımız 3:0 hesabı ilə qələbə qazandılar. Qadın voleybolçular arasında Avropa çempionatının dörddəbir final mərhələsində Almaniya yığması üzərində inamlı qələbə qazanan Azərbaycan milli komandası yarımfinala yüksəldi.*

*Milli komandamız birinci setin əvvəlində hesabda geri olmasına baxmayaraq, yüksək əzmkarlıq nümayiş etdirərək 25:20 hesabı ilə qalib gəldi. Görüşün ikinci setində Azərbaycan yığması əldə etdiyi üstünlüyü sona qədər qoruyub saxlayaraq, böyük fərqlə qələbə qazandı –25:18. Qarşılaşmanın üçüncü seti də inamlı oyun nümayiş etdirən voleybolçularımızın qələbəsi ilə başa çatdı – 25:21.*

*Beləliklə, dörddəbir finalda Almaniya millisini 3:0 hesabı ilə məğlubiyyətə uğradan Azərbaycan komandası Avropa çempionatının yarımfinalına vəsiqə qazandı.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva milli komandamızın qələbəsini alqışladılar.*

*Azərbaycan voleybolçuları yarımfinalda Niderland millisi ilə mübarizə aparacaqlar.*

*Qeyd edək ki, Azərbaycan milli komandası Avropa çempionatının «A» qrupunda keçirdiyi sonuncu görüşdə də Almaniya yığması ilə qarşılaşmışdı. İndiyədək keçirdiyi bir neçə görüşü qələbə ilə başa vuran komandamız həmin oyunda da 3:1 hesabı ilə qalib gəlmişdir.*

## RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ NİKOLAY PATRUŞEV İLƏ GÖRÜŞ

*30 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi, iqtisadi-ticari əməkdaşlığın genişləndiyini, idxal-ixrac əməliyyatlarının yaxşı inkişaf dinamikasına malik olduğunu vurğuladı. Təhlükəsizlik sahəsində Azərbaycan ilə Rusiya arasında ənənəvi sıx əməkdaşlığın mövcud olduğunu bildirən prezident İlham Əliyev qeyd etdi ki, dünyada və regionumuzda təhdidlərin artdığı bir dövrdə ölkələrimizin yaxın təmasda olmasının önəmi artır və Nikolay Patruşevin ölkəmizə səfəri zamanı müzakirə edilən məsələlər bu baxımdan böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin ölkəmizə səfəri səmərəli nəticələr verəcək və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəkdir.*

*Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını prezident İlham Əliyevə çatdırdı. Nikolay Patruşev təhlükəsizlik sahəsində Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayaraq dedi:*

– Biz Sizinlə görüşdən çox məmnunuq, eləcə də Təhlükəsizlik Şurası xətti ilə əməkdaşlığımıza böyük önəm veririk və bu sahədə əlaqələr çox konstruktiv şəkildə inkişaf edir. Biz Azərbaycan tərəfi ilə dünyada meydana çıxan yeni təhdidləri və bunlarla ikitərəfli qaydada mübarizənin yollarını müəyyənləşdiririk. Biz azərbaycanlı dostlarımıza çoxtərəfli səviyyədə keçirilən tədbirlərdə iştirakına görə minnətdarıq. Biz bunda maraqlıyıq.

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## QADIN VOLEYBOLÇULARIMIZIN FİNALA VƏSİQƏ UĞRUNDA NİDERLAND YIĞMASI İLƏ OYUNUNA BAXIŞ

*Milli Gimnastika Arenası*

*30 sentyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri sentyabrın 30-da Milli Gimnastika Arenasında keçirilən qadın voleybolçular arasında Avropa çempionatının yarımfinal görüşünə baxmışlar.*

*İlk oyunda Azərbaycan milli komandası finala vəsiqə uğrunda Niderland yığması ilə qarşılaşdı.*

*Gərgin idman mübarizəsi şəraitində keçən birinci setdə inamlı oyun nümayiş etdirən Azərbaycan voleybolçuları 25:20 hesabı ilə qalib gəldilər. Niderland yığması ikinci seti öz xeyrinə başa vuraraq (19:25), hesabı bərabərləşdirdi – 1:1. Qarşılaşmanın üçüncü seti də Niderland voleybolçularının üstünlüyü ilə başa çatdı – 19:25. Milli komandamız dördüncü setdə hesabda böyük fərqlə geri olsa da, yüksək əzmkarlıq göstərərək, 27:25 hesabı ilə qələbə qazandı. Oyunda hesab bərabərləşdiyindən (2:2) matçın qalibi tay-brekdə məlum oldu. Tay-brekdə 12:15 hesabı ilə qalib gələn Niderland millisi finala vəsiqəni təmin etdi.*

*Beləliklə, Azərbaycan yığma komandası Avropa çempionatında mübarizəni üçüncü yer uğrunda davam etdirəcəkdir. Üçüncü yer uğrunda görüş oktyabrın 1-də keçiriləcəkdir.*

## VOLEYBOL ÜZRƏ AVROPA ÇEMPİONATINDA MİLLİ KOMANDAMIZIN SONUNCU YARIŞINA BAXIŞ

*Milli Gimnastika Arenası*

*1 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Milli Gimnastika Arenasında qadın voleybolçular arasında Avropa çempionatının bürünc medalı uğrunda Azərbaycan və Türkiyə yığma komandalarının oyununa baxmışdır.*

*Gərgin idman mübarizəsi şəraitində keçən matçın birinci setində üstün oyun nümayiş etdirən Azərbaycan millisi 25:22 hesabı ilə qalib gəldi. Komandaların böyük əzmkarlıq göstərdikləri ikinci setdə Türkiyə voleybolçuları 21:25 hesabı ilə üstün oldular. Beləliklə, ümumi hesab bərabərləşdi – 1:1. Qarşılaşmanın üçüncü seti təşəbbüsə yiyələnən Türkiyə yığmasının üstünlüyü ilə başa çatdı – 14:25. Dördüncü setdə də qalib gələn (8:25) Türkiyə millisi ümumi hesabda qələbə qazandı – 3:1. Beləliklə, Türkiyə voleybolçuları Avropa çempionatının bürünc medalına sahib oldular.*

*Azərbaycan milli komandası çempionatı dördüncü sırada başa vurdu.*

*Xatırladaq ki, Azərbaycanın qadın voleybolçuları bu qələbəyədək Avropa çempionatlarında ən yaxşı nəticəni 2005-ci ildə Xorvatiyada keçirilən qitə birinciliyində göstəriblər. Həmin vaxt millimiz Avropa çempionatında ilk dəfə iştirak etməsinə baxmayaraq, 4-cü yeri tutub.*

## QOBUSTAN RAYONUNA SƏFƏR

*2 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Qobustan rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin Qobustan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov abidənin ucaldığı Heydər Əliyev parkında əhalinin istirahəti üçün görülən işlər barədə məlumat verdi. Burada rayon sakinlərinin və qonaqların istirahəti üçün hərtərəfli şərait vardır.*

### Bakı–Şamaxı–Muğanlı avtomobil yolunun 55–101-ci kilometrlik hissəsini əhatə edən Cəngi–Bədəlli yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Bakı–Şamaxı–Muğanlı avtomobil yolunun 55–101-ci kilometrlik hissəsini əhatə edən Cəngi–Bədəlli yolunun açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi. Bakı–Şamaxı–Muğanlı avtomobil yolunun Cəngi–Bədəlli hissəsi layihəyə uyğun olaraq 4 zolağa genişləndirilib. Yolun ümumi uzunluğu 46 kilometr, eni isə 27,5 metrdir. Yol 1-ci texniki dərəcəyə aiddir. Layihə çərçivəsində yolboyu 16 yeraltı və 6 yerüstü piyada keçidi tikilib. Bu isə həm avtomobillərin hərəkətinin normal tənzimlənməsində, həm də piyadaların təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır. Layihəyə əsasən yolboyu Ceyrankeçməz çayı üzərində birinin uzunluğu*

*47,5, digərinin uzunluğu 54 metr olan 2 körpü inşa edilib. Hər iki körpünün eni 30 metrdir. Bakı–Şamaxı–Muğanlı avtomobil yolunun Cəngi–Bədəlli hissəsi prezident İlham Əliyevin təsdiq etdiyi «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq, əsaslı şəkildə yenidən qurulub. Bakı–Şamaxı–Muğanlı avtomobil yolunun 4 zolağa yenidən qurulması nəticəsində müasir, təhlükəsiz yol infrastrukturu yaranıb. Bundan başqa, bu layihənin həyata keçirilməsi həm də turizmin və regionların sosial-iqtisadi inkişafına töhfə verəcək, yol istismar və nəqliyyat xərclərinin azaldılması, vaxta qənaətin əldə edilməsi hesabına Abşeron, Dağlıq Şirvan iqtisadi rayonlarının və ümumilikdə respublika iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Yeni tikilmiş 100 yerlik uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Qobustanda yeni tikilmiş 100 yerlik uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı uşaq bağçası binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycanda uşaqlara diqqət və onların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı həyata keçirilən siyasətin əsasını ulu öndər Heydər Əliyev qoyub. Həmin siyasəti dövlət başçımız İlham Əliyev uğurla davam etdirərək, bu istiqamətdə çox mühüm sənədlər imzalayıb, layihələrin həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlarını veribdir. Gələcəyimiz olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların sağlam və xoşbəxt böyüməsi üçün bu gün dövlət tərəfindən bütün zəruri tədbirlər görülür. Bu tədbirlər müasir körpələr evi-uşaq bağçalarının tikintisini, həmçinin mövcudlarının əsaslı şəkildə yenidən qurulmasını əhatə edir. Belə layihələrin icra edilməsi, ümu-*

*milikdə uşaqların sosial müdafiəsinin gücləndirilməsində, onların bilikli, savadlı və intellektual şəxsiyyət kimi formalaşmasında vacib rol oynayır. Qobustan şəhər 100 yerlik uşaq bağçasının inşası da bu baxımdan böyük əhəmiyyət daşıyır. Bu müəssisədəki otaqlarda balacaların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün bütün imkanlar yaradılıbdır. Bundan başqa, burada uşaqların asudə vaxtlarının səmərəli təşkili və mənalı istirahətləri üçün də hərtərəfli şərait mövcuddur.*

*Məlumat verildi ki, Qobustan şəhər uşaq bağçasının binasında inşaat işləri 2017-ci ilin avqustunda başa çatdırılıb. Ümumi sahəsi 826 kvadratmetr olan uşaq bağçasının binası 2 mərtəbəlidir. Burada 4 tədris və 4 yataq otağı vardır. Otaqların hamısı zəruri avadanlıq, o cümlədən yumşaq və bərk inventar, əyani vəsaitlərlə təchiz olunubdur. Bundan başqa, binada, həmçinin oyun zalı, 2 kompüter otağı, həkim otağı, mətbəx də vardır. Bir sözlə, belə müəssisələrin yaradılması dövlətimizin gələcəyimiz olan uşaqlara göstərdiyi diqqət və qayğının daha bir təzahürüdür. Uşaq bağçasının həyətində abadlıq işləri aparılıb, balacaların əylənməsi üçün attraksionlar quraşdırılıbdır.*

## QOBUSTAN ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də «Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin yekunlaşması ilə bağlı təşkil olunmuş mərasimdə iştirak etmişdir.*

*Son dövrlərdə ölkəmizdə sosial sahədə həyata keçirilən siyasətin tərkib hissəsi kimi, əhalinin dayanıqlı və təmiz içməli su ilə təminatı, həmçinin kanalizasiya şəbəkələrinin yenilənməsi istiqamətində icra edilən layihələrin də həcmi artır. Bu baxımdan «Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi mühüm əhəmiyyət daşıyır. Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi» çərçivəsində həyata keçirilib. Layihə 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Qobustan şəhərində 11700 nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıbdır. Layihə çərçivəsində rayonun Təsi, Bədəlli, Sədəfli, Dərəkənd, Cəmcəmli, Ərəbqədim və Göydərə kəndlərinə suyun verilməsi təmin edilibdir. İcrasına 2015-ci ildə başlanan layihə çərçivəsində rayonun Təsi kəndinin yaxınlığında ümumi məhsuldarlığı saniyədə 87 litr olan 6 subartezian quyusu qazılıb, Daşarası və Nərimankənd kəndlərinin ərazisində 2 su anbarı inşa edilibdir. 14,4 kilometr uzunluğunda magistral kəmər çəki-*

*lib, mürəkkəb relyef şəraiti nəzərə alınmaqla, suyun şəhərə çatdırılması üçün üçpilləli nasos sistemi quraşdırılıbdır. Əhaliyə verilən içməli suyun keyfiyyət göstəricilərinin uzunmüddətli dövr üçün standartlara uyğunluğunu təmin etmək məqsədilə su mənbəyində məhsuldarlığı sutkada 3800 kubmetr olan əks-osmos tipli təmizləyici qurğunun inşası yekunlaşmaq üzrədir. «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi» çərçivəsində Qobustan şəhəri ilə yanaşı, Qusar, Naftalan, Xaçmaz və Xızı şəhərlərinin də içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri həyata keçirilir. Qusar və Naftalan şəhərlərində su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi yekunlaşıb. Hazırda Xaçmaz və Xızıda içməli su və kanalizasiya şəbəkələrinin tikintisi davam etdirilir.*

*Dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü və mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Yenidən Qobustan rayonunda olmağımdan çox məmnunam. Bu mənim rayona dördüncü səfərimdir. Əlbəttə, rayonda olanda önəmli tədbirlər, açılışlar nəzərdə tutulur. Bu gün biz şəhərə içməli suyun verilməsini rəsmən qeyd edirik. Bir neçə aydır ki, bu layihə başa çatıb və Qobustan şəhərinin içməli su problemi artıq öz həllini tapıbdır. Bu çox əlamətdar tarixi hadisədir. Çünki içməli su problemi burada həmişə insanları çox ciddi narahat edib. İndi isə bu problem birdəfəlik həll olundu. Artıq şəhər sakinləri və bir neçə kəndin əhalisi təmiz, keyfiyyətli, dayanıqlı içməli su ilə təmin olunurlar. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu, böyük layihədir, həmçinin böyük sosial təşəbbüsdür, böyük vəsait tələb edən məsələdir. Biz bu vəsaiti təşkil etdik, dövlət büdcəsində vəsait nəzərdə tutuldu ki, bu məsələ də öz həllini tapsın. Çünki içməli su insanın sağlamlığına çox ciddi təsir edən amildir. Təmiz içməli su insanın sağlamlığını daha da yaxşılaşdırır.

İçməli su layihələri ölkəmizdə geniş vüsət alıb. İndi bir çox şəhərlərimizdə artıq bu layihələr başa çatıb, bəzi şəhərlərdə davam edir. Qarşıya məqsəd qoyulmuşdur ki, bütün şəhərlərimizdə və əksər kəndlərdə bu məsələ öz həllini tapsın və biz bu istiqamətdə çox ciddi addımlar atırıq.

İnsan sağlamlığı üçün digər vacib məsələlər də öz həllini tapır. Bildiyiniz kimi, ölkəmizdə ənənəvi olaraq müayinədən keçmə proqramı icra edilir, hər il 5 milyondan çox vətəndaş pulsuz tibbi müayinədən keçir. Qobustanda Mərkəzi Rayon Xəstəxanasının tikintisinə əlavə vəsait ayrılacaq, indi işlər daha da sürətlə getməlidir və müvafiq göstəriş veriləcəkdir, çünki tikinti başlanmışdır, amma bir az yavaş gedir. Biz onu gərək sürətləndirək ki, bu məsələ də Qobustan rayonunda öz həllini tapsın. İnfrastrukturla bağlı digər layihələr uğurla icra edilir, elektrik enerjisi ilə bağlı problemlər, demək olar ki, öz həllini tapıbdır. Mənə verilən məlumata görə, qazlaşdırılma 80 faizdən çoxdur və növbəti aylarda daha da geniş vüsət alacaqdır. Hesab edirəm ki, qazlaşdırılma maksimum təmin edilməlidir. İçməli su ilə bağlı problem öz həllini tapır, kənd yollarının tikintisi davam edir. Biz bir layihəni icra etmişik. Bu layihə təqribən 13 minə yaxın əhalini əhatə edir. Bu gün isə növbəti kənd yolunun açılışını qeyd edəcəyik. Açılacaq bu yol da 15 min insanın işini yüngülləşdirəcəkdir. Yəni bunlar əsas infrastruktur layihələridir ki, Qobustan rayonunda öz həllini tapır.

Onu da qeyd etməliyəm ki, səfərlərimin birində biz burada həm külək, həm də günəş alternativ enerji mərkəzinin açılışını etmişik. Bu, ölkəmiz üçün pilot layihə idi. İndi isə ölkəmizin bir çox yerlərində bu layihələr icra edilir.

Əlbəttə, bütün infrastruktur layihələri həyata keçiriləndən sonra – onu da qeyd etməliyəm ki, Bakı–Şamaxı avtomobil yolunun 4 zolağa genişləndirilməsi layihəsi də uğurla icra edilibdir – gələcəkdə ancaq rayonun inkişafı ilə bağlı kənd təsərrüfatı və emal sənayesi layihələri icra edilməlidir. Əvvəlki dövrlərdə idman mərkəzi də tikilibdir, əminəm ki, xəstəxana da yaxın vaxtlarda tikiləcəkdir. Bir çox məktəblər tikilib, təmir

edilibdir. Bu gün bir bağçanın açılışını da qeyd etdik. Növbəti illərdə qəzalı vəziyyətdə olan məktəblər təmir ediləcək, yeni məktəblər tikiləcəkdir. Beləliklə, bundan sonra rayonun inkişafına çox böyük təkan veriləcək və insanlar rahat yaşayacaqlar. İş yerləri də yaradılır və ümumi iqtisadi inkişafımız çox müsbətdir. Əminəm ki, bu ili də uğurla başa vuracağıq.

Gələn il isə sürətli iqtisadi inkişaf ili olacaqdır. İqtisadi sahədə əldə etdiyimiz nailiyyətlər həm bizim statistik göstəricilərdə, həm də mötəbər beynəlxalq iqtisadi qurumların hesabatlarında öz əksini tapır. Yəqin ki, siz eşitmisiniz, bu yaxınlarda Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə 35-ci yerə layiq görübdür. Biz 2 pillə qabağa getdik, artıq 37-ci yerdən 35-ci yerə layiq görüldük. Bu da çox böyük nəticədir. Onu da qeyd etməliyəm ki, MDB məkanında biz 1-ci yerdəyik. Artıq neçə ildir ki, liderliyi saxlayırıq və bir çox inkişaf etmiş ölkələri də qabaqlamışıq. Keçən il və bu il neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar ölkəmizdə müəyyən çətinliklərin, iqtisadi sahədə bəzi problemlərin yaranmasına baxmayaraq, görün biz nə qədər uğurla iş aparmışıq, nə qədər ciddi islahatlar həyata keçirmişik ki, bunu dünyanın birinci iqtisadi forumu olan Davos Forumu yüksək qiymətləndirmişdir. Bu bir daha onu təsdiqləyir ki, biz düzgün yoldayıq, bizim iqtisadi siyasətimiz Azərbaycan xalqının maraqlarına tam cavab verir, ölkəmiz güclənir. Onu da qeyd etməliyəm ki, bu il neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, biz valyuta ehtiyatlarımızı artıra bilmişik. Bu onu göstərir ki, biz hətta çətin illərdə də düzgün siyasət apararaq, nəinki ehtiyatlarımızı xərcləməmişik, əksinə, biz əlavə pul qazanmışıq. Bu pul ölkəmizin, xalqımızın maraqlarına xidmət edir. Bu pulla biz məktəblər, xəstəxanalar tikirik, yollar, su xətləri çəkirik, ölkəmizin müdafiə qüdrətini gücləndiririk.

Bu gün Azərbaycan dünya miqyasında sabitlik, inkişaf, tərəqqi baxımından seçilən ölkələrdəndir. İndi siz dünyada gedən prosesləri izləyirsiniz. Həm iqtisadi, həm siyasi, həm də

hərbi sahədə bir çox yerlərdə çox böyük problemlər vardır. Risklər, təhdidlər artır, qan tökülür, münaqişələr, müharibələr alovlanır, sabitlik pozulur. Azərbaycan isə sabitlik, inkişaf adasıdır. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik və bizim xalqımıza xas olan vətənpərvərlik – bu amillər uğurlarımızın əsasını təşkil edir.

Sizə bu gözəl hadisə münasibətilə uğurlar arzulayır, sizi təbrik edirəm. Əminəm ki, gələcəkdə Qobustan rayonunda hələ çox açılışlar olacaq, biz sizinlə tez-tez görüşəcəyik.

* * *

**Ə n v ə r  Q a y ı b o v** *(rayon sakini):* Möhtərəm cənab Prezident! İcazə verin, bütün qobustanlılar adından Sizi salamlayım, Sizə «Xoş gəlmisiniz!» – deyim. Bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Bu sevincimizi sözlə ifadə etməyə çətinlik çəkirəm. Qobustana, eləcə də onun ətraf kəndlərinə suyun verilməsi, sözün həqiqi mənasında, bizim üçün bayramdır, təntənədir. Çünki biz uzun illər su sarıdan müəyyən çətinliklər çəkirdik. Belə ki, əvvəllər içməli suyu müxtəlif mənbələrdən maşınlarla gətirir, çənlərə doldurur, sonra ondan istifadə edirdik. Sözsüz, bu da bizim səhhətimizə, sağlamlığımıza, eləcə də büdcəmizə mənfi təsir göstərirdi. Siz bizim əsas problemimiz olan su problemini həll etdiniz. Bununla bizə böyük töhfələr bəxş etdiniz. Artıq biz qapımızda, həyətimizdə kranı açmaqla, daimi olaraq içməli sudan istifadə edirik. Bu Sizin bütün Azərbaycan vətəndaşlarına göstərdiyiniz qayğı və diqqətin nəticəsidir.

Möhtərəm Prezident, məlumdur ki, su aydınlıqdır, inkişafdır, tərəqqidir, mədəniyyətdir, nemətlər bolluğudur. Bir sözlə, su həyatdır. Həqiqətən, bu həyatı bizə Siz bəxş etdiniz. Mən buna görə Sizə minnətdarlığımı bildirirəm.

Siz bizim təkcə su problemimizi həll etməmisiniz. Siz bizim Qobustanımızı da yenidən qurmusunuz. Qobustan kiçik bir qəsəbə idi. 2008-ci ildə Siz ona şəhər statusu verdiniz. Qobustan yenidən

quruldu, inkişaf etdi, tərəqqi tapdı. Hazırda inkişaf etmiş, müasir bir şəhərə çevrilibdir.

Əlbəttə, mən bir faktı da qeyd etmək istəyirəm ki, – Siz də qeyd etdiniz – suyumuz, qazımız, işığımız, bərəkətli torpaqlarımız, zəhmətkeş insanlarımız vardır. Mən inanıram ki, Qobustanın gələcəyi daha uğurlu olacaq, daha çox nailiyyətlər əldə edəcəyik. Bütün bu əmin-amanlığı, bu rahatlığı, bu gözəlliyi yaratdığınıza görə mən bütün qobustanlılar adından, xüsusən ağsaqqallar, ziyalılar adından Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun! Sağ olun.

* * *

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına layihə barədə məlumat verdi. Layihə çərçivəsində Qobustan şəhərində 68 kilometrlik içməli su şəbəkəsi yaradılıb, 1900 ünvana birləşmə verilib, bütün abunəçilər sayğacla təmin ediliblər. Artıq bütün şəhər əhalisi yeni şəbəkə vasitəsilə keyfiyyətli və dayanıqlı su ilə təmin olunur. Layihəyə uyğun olaraq Qobustan şəhərində ilk dəfə kanalizasiya şəbəkəsi yaradılıb, 42 kilometr uzunluğunda kanalizasiya xəttinin və 1160 baxış quyusunun inşası yekunlaşıb və hər bir evə birləşmə verilibdir. Şəhərdə yaranan tullantı sularının toplanıb təmizləyici qurğuya ötürülməsi üçün 7 kilometrlik kanalizasiya kollektoru da tikilibdir. Tullantı sularının zərərsizləşdirilməsi üçün məhsuldarlığı sutkada 2500 kubmetr olan təmizləyici qurğunun inşası üzrə keçirilən tender prosedurları son mərhələdədir və qarşıdakı aylarda tikinti-quraşdırma işlərinə başlanılacaqdır.*

*Bildirildi ki, layihə çərçivəsində Qobustan Sukanal İdarəsi üçün yeni inzibati bina da inşa edilib. Burada işçi otaqları, informasiya texnologiyaları otağı, iclas zalı yaradılıb. Bir sözlə, burada müştərilərə yüksək səviyyədə xidmət göstərmək üçün hərtərəfli şərait vardır. İnzibati binanın həyətində abadlıq və yaşıllaşdırma işləri aparılıbdır.*

*Qeyd olundu ki, yeni layihənin icrasına qədər Qobustan şəhərində keçən əsrin 50-ci illərində yaradılmış su təchizatı sistemlərindən istifadə olunurdu. Şəhərə içməli su Xaltava və Təsi kəndləri ərazisində yerləşən subartezian quyularından verilirdi. Əvvəllər mövcud olmuş 42 kilometrlik su şəbəkəsi şəhəri tam əhatə etmir və istismar tələblərinə cavab vermirdi. «Azərsu» ASC 8500 nəfər əhalisi olan Qobustan şəhərinin təqribən 20 faizinə xidmət göstərə bilirdi. İçməli su həftənin 3 günü olmaqla, cəmi 1-2 saatlıq qrafiklə verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Qobustan şəhərində kanalizasiya sistemi isə yeni layihə icra edilənədək, ümumiyyətlə, mövcud olmayıbdır.*

*Sonra prezident İlham Əliyev Qobustan şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

## Təklə–Sündü–Xilmilli avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Qobustan rayonunun əsaslı təmir edilən Təklə–Sündü–Xilmilli avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, ölkə əhəmiyyətli yollarla yanaşı, yeni kənd yollarının inşası, mövcudlarının isə müasir səviyyədə qurulması istiqamətində olduqca mühüm layihələr icra edilib. Onlardan biri də Qobustan rayonunun Təklə–Sündü–Xilmilli avtomobil yoludur. Bu yolda əsaslı təmir işləri prezident İlham Əliyevin 2013-cü və 2016-cı il tarixli sərəncamlarına əsasən aparılıbdır.*

*Dövlət başçısına məlumat verildi ki, Təklə–Sündü–Xilmilli avtomobil yolu 15 min nəfərin yaşadığı 6 kəndi birləşdirir. Ümumi uzunluğu 17,2 kilometr olan yolun eni 6 metrdir. 4-cü dərəcəyə aid Təklə–Sündü–Xilmilli avtomobil yolu 2 hərəkət zolaqlıdır. Layihə çərçivəsində müxtəlif diametrli 23 suötürücü boru tikilib, 9 avtobus dayanacağı quraşdırılıbdır. Bu yolun*

*yenidən qurulması yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin edəcək, nəqliyyatın hərəkətinin təhlükəsizliyində mühüm rol oynayacaqdır. Bundan başqa, layihə bu yaşayış məntəqələrinin sosial vəziyyəti ilə yanaşı, iqtisadi durumuna da müsbət təsir edəcəkdir. Belə ki, kənd təsərrüfatı işçiləri məhsullarını daha tez və rahat şəkildə alıcılara çatdıra biləcəklər.*

*Onu da deyək ki, bu yol 2017-ci ildə ölkəmizdə həyata keçiriləcək «40 yol» layihəsindən biridir. Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına əsasən bu il reallaşdırılacaq «40 yol» layihəsinin nəticəsində 100 minlərlə sakin müasir səviyyədə inşa edilən yollardan istifadə edərək, rahat və təhlükəsiz şəkildə mənzil başına çatacaqdır. Ümumilikdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq, son illərdə respublikamızda yol infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər çərçivəsində çox sayda kənd yolları da yenidən qurularaq, müasir səviyyəyə çatdırılıbdır.*

*Dövlət başçısı Təklə–Sündü–Xilmilli avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

## ŞAMAXI RAYONUNA SƏFƏR

*2 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Şamaxı rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı Şamaxı şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, istehsal müəssisələri yaradılıbdır. Ulu öndərin abidəsinin yerləşdiyi parkda yenidən qurulma və abadlıq işləri görülüb, burada əhalinin istirahəti üçün hər cür şərait yaradılıb, yaşıllıq zolağı genişləndirilibdir.*

# ŞAMAXI–ÇÖL GÖYLƏR–PADAR AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Şamaxı–Çöl Göylər–Padar avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlət başçısına görülən işlərlə bağlı məlumat verildi.*

*Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, ölkəmizin 2 magistral avtomobil yolu – M-2 Bakı–Ələt–Qazax–Gürcüstan ilə dövlət sərhədi və M-4 Bakı–Şamaxı–Yevlax avtomobil yolları arasında yeni bir bağlantı yaratmaq, respublikadakı turizm potensialından daha uğurlu istifadə etmək məqsədilə 2011-ci ildə 35,8 min nəfər əhalinin yaşadığı 18 yaşayış məntəqəsini birləşdirən Şamaxı–Çöl Göylər–Padar avtomobil yolunun tikintisinə başlanılıb. Yolun uzunluğu 53 kilometrdir. Görülən işlər nəticəsində avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla, 3-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Yolun hərəkət hissəsinin eni 7 metrdir. Bundan başqa, yol boyunca müxtəlif diametrli 53 suötürücü boru tikilib ki, onların da ümumi uzunluğu 795 metrdir. Avtomobil yolunda avtonəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün zəruri olan yerlərdə 363 yol nişanı quraşdırılıb, 132,5 kilometr uzunluğunda yol-cizgi və yolgöstərici xətlər çəkilibdir.*

*Bildirildi ki, bu avtomobil yolunun tikintisi Aran iqtisadi rayonu ilə Dağlıq Şirvan iqtisadi rayonu arasında 53 kilometr uzunluğunda yeni avtomobil yolu əlaqəsi yaradacaqdır. Bu da indi istifadə edilən hərəkət marşrutları ilə müqayisədə orta*

*hesabla 120–180 kilometr az məsafə qət etməyə, yanacağa və vaxta qənaət etməyə imkan verəcəkdir.*

*Şamaxı–Çöl Göylər–Padar avtomobil yolunun tikintisi zamanı rayonun Adnalı və Çarhan kəndlərinə giriş yollarında təmir işləri aparılıb. Adnalı kəndinin 4 kilometrlik giriş yolu 4-cü texniki dərəcəyə uyğun inşa olunub. Çarhan kəndinin eyni texniki dərəcəyə uyğun inşa edilən giriş yolunun uzunluğu isə 3,2 kilometrdir. Adnalı və Çarhan kəndlərinə giriş yollarının təmiri 4,2 min nəfər əhalinin yaşadığı 2 kəndi birləşdirərək, yük və sərnişindaşımanı xeyli yaxşılaşdırmağa imkan verəcəkdir.*

*Prezident İlham Əliyevə Şamaxı rayonunun Göylər–Quşçu avtomobil yolunun tikintisi barədə də məlumat verildi. Dövlət başçısının 2017-ci ilin iyul ayında imzaladığı sərəncama uyğun olaraq, ümumi uzunluğu 11 kilometr olan Göylər–Quşçu avtomobil yolunun tikintisinə 3,9 milyon manat vəsait ayrılıb. Yol-tikinti işləri qısa müddət ərzində başa çatdırılıb. Hərəkət hissəsinin eni 6 metr olan bu yolun tikilməsi 14 min nəfər əhalinin yaşadığı 4 kəndi birləşdirərək, yük və sərnişindaşımanı xeyli yaxşılaşdırmağa imkan yaradacaqdır.*

*Dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü və tədbirdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sizi ürəkdən salamlayıram. Bu mənim Şamaxıya prezident kimi, altıncı səfərimdir. Çox şadam ki, Şamaxı rayonunda işlər yaxşı gedir, böyük layihələr icra edilir. Onlardan biri də Şamaxı–Padar yoludur. Bu çox böyük layihədir, böyük investisiyalar qoyulubdur. 53 kilometrlik yoldur. İndi tam əsaslı şəkildə bərpa edilib və 16 kəndi birləşdirən rahat bir yol artıq Şamaxı sakinlərinə təqdim edilir.

Bu yolun həm sosial, həm də iqtisadi baxımdan çox böyük əhəmiyyəti vardır. Bu yolun üstündə böyük kənd təsərrüfatı müəssisələri yaradılır. Şamaxı rayonunun yol infrastrukturu yaxşılaşır. Əvvəlki illərdə biz bir neçə kəndi birləşdirən yolların

açılışını etmişik. Hazırda Bakı–Şamaxı yolu 4 hərəkət zolağına genişləndirilir, çox rahat bir yol olacaqdır. Bu böyük yolun layihəsi çərçivəsində bir neçə kəndə ayrıca yollar çəkilib. Yol inkişaf, həyat, rahatlıq deməkdir. Əlbəttə, kənd təsərrüfatı ilə məşğul olan fermerlər bu imkanlardan istifadə edib daha da yaxşı məhsul yetişdirəcəklər və öz məhsullarını daha da tez bir zamanda bazarlara çıxaracaqlar.

Bu layihə bir çox layihələrin arasında önəmli yer tutur. Ancaq yeganə layihə deyil. Son illərdə Şamaxı rayonunda inkişafla bağlı çox böyük işlər görülür, quruculuq-abadlıq işləri həyata keçirilir. Şamaxının sosial infrastrukturu yaxşılaşır, müasir Diaqnostika Mərkəzi tikilibdir. Mərkəzi Rayon Xəstəxanası, Olimpiya İdman Kompleksi, bir çox məktəb binaları tikilib, yollar çəkilib, qazlaşdırılma layihələri uğurla gedir. Məndə olan məlumata görə, qazlaşdırılma təqribən 70 faizə çatıbdır və daha da artacaqdır.

Şamaxı şəhərinin içməli su layihəsi də artıq öz həllini tapıbdır. Bu gün bu layihənin rəsmi açılışı olacaqdır. Bu da çox böyük, tarixi layihədir. Çünki içməli su hər bir insan üçün bəlkə də ən vacib məsələlərdən biridir. Biz Şamaxıda bu məsələni də həll etmişik. Bu gün Qobustan şəhərinin içməli su layihəsi istifadəyə verilibdir. Ona görə bu layihə də infrastruktur layihələri arasında, əlbəttə, önəmli yer tutur. Elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapır. Yəni bir sözlə, yol, içməli su, elektrik, qazlaşdırılma, səhiyyə, idman, təhsil məsələləri öz həllini tapıbdır.

Hamımız yaxşı bilirik ki, Şamaxı bizim qədim diyarımızdır, tarixi şəhərimizdir. Qədim xəritələrdə Şamaxının adı vardır. Bu bizim böyük sərvətimizdir. Şamaxı rayonunda yerləşən tarixi abidələr bizim milli sərvətimiz, dəyərimizdir. Mən onların arasında Şamaxı Cümə məscidini xüsusi qeyd etməliyəm. Bu, Azərbaycanın ən qədim məscididir. Dünyanın ən qədim məscidlərindən biridir, 743-cü ildə tikilib və bir neçə il bundan əvvəl əsaslı şəkildə təmir olunub, yenidən qurulub, əlavə binalar inşa edilibdir. Şamaxı

Cümə məscidinin bütün müsəlman aləmi üçün böyük əhəmiyyəti vardır. Mən İslam Əməkdaşlıq Təşkilatının xətti ilə keçirilmiş bütün tədbirlərdə həm ikitərəfli münasibətlər əsnasında, həm də çıxışlarda qeyd edirəm ki, Azərbaycan qədim müsəlman diyarıdır, dünyanın ən qədim məscidlərindən biri də bizdə yerləşir.

Bu gün eyni zamanda, Dəmirçi kəndində qədim məscidin əsaslı bərpadan sonra açılışı olacaqdır. Bu onu göstərir ki, Şamaxı rayonunda doğrudan da bir çox tarixi, dini abidələrimiz vardır. Biz onları qoruyuruq, Azərbaycan xalqı onları əsrlərboyu qoruyubdur. Bütün ictimai-siyasi quruluşlardan asılı olmayaraq, xalqımız bizim milli, dini dəyərlərimizi qoruyubdur. Bu gün isə müstəqil Azərbaycan dövləti onları qoruyur, saxlayır, bərpa edir. Şamaxı rayonunun ölkəmizin tarixində və bugünkü həyatında çox böyük yeri və rolu vardır. Bütün Azərbaycan xalqı bunu yaxşı bilir.

Şamaxının iqtisadi inkişafı ilə bağlı ciddi addımlar atılır. Bu yolun üstündə yeni aqroparklar salınır. İndi mənə verilən məlumata görə, Şamaxı rayonunda 3 aqropark artıq fəaliyyətə başlayıb. Aqroparklarla bağlı bizim siyasətimiz artıq bəyan edilib, ölkəmizdə 37 aqropark yaradılır. Onların bir neçəsi istifadəyə verilib. Aqroparklara texnika verilir, infrastruktur yaradılır. Özəl sektora kreditlər verilir, fermerlər, iş adamları da öz vəsaitlərini qoyurlar ki, tezliklə bitkiçilik və heyvandarlıq sahələrində daha da yaxşı nəticələr əldə edək. Bax, o 37 aqroparkın 3-ü Şamaxı rayonundadır. Birinin ərazisi 15000 hektar, digərinin ərazisi 1500 hektar, üçüncünün isə ərazisi 2000 hektardır. Yəni 20000 hektara yaxın ərazidə kənd təsərrüfatı üçün gözəl imkanlar yaradılır. Həm insanlar işləyəcək, məhsul yetişdiriləcək, bolluq yaranacaq, həm də ixrac imkanlarımız genişlənəcəkdir.

Ona görə bu sahədə görülən işlər, əlbəttə ki, məni çox sevindirir. Son vaxtlar Şamaxı üçün ənənəvi sahə olan üzümçülük bərpa edilir, yeni üzüm bağları salınır. Mən bu gün onların birinə baxacağam. Burada 300 hektardan çox sahədə yeni

bağlar salınıb. Bilirəm ki, digər böyük layihə də icra edilir, oranın da sahəsi təxminən 300 hektardan çoxdur.

Biz Azərbaycanda üzümçülüyü bərpa edəcəyik və edirik. Şamaxılılar yaxşı bilirlər ki, keçən əsrin 70-ci illərində ulu öndərin təşəbbüsü ilə bizim əsas üzümçülük mərkəzlərimizdən biri də Şamaxı idi. İnsanlar nə qədər xeyir götürdülər, evlər tikildi, avtomaşınlar, soyuducular alındı. Bütün bunlar o vaxt Heydər Əliyevin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Düzdür, indi biz başqa sahələrə də üstünlük veririk – maldarlıq, bitkiçilik, taxılçılıq. Bilirsiniz ki, o vaxt biz bu sahələri o qədər də inkişaf etdirmirdik. Çünki həm ət, həm süd başqa respublikalardan gəlirdi. İndi isə əkin sahələrinin bir hissəsi o məqsədlər üçün istifadə olunur. Ancaq üzümçülüyün çox böyük perspektivləri, ənənələri var və biz indi xarici bazarlara da çıxırıq. Biz artıq böyük müqavilələr imzalamışıq, dövlət kömək göstərir və üzümçülüyün bərpası Azərbaycanda sürətlə gedəcəkdir. Burada da Şamaxı rayonu lider olmalıdır. Mən görürəm ki, burada üzümçülüyə böyük maraq var, belə də olacaqdır.

Əlbəttə ki, Şamaxı turizmin inkişafı üçün çox böyük imkanlara malik olan bir rayondur. Həm tarixi, dini abidələr var, həm yeni, gözəl, ən yüksək səviyyəyə cavab verən hotellər tikilir. Bu gün Şamaxıda ölkəmizdə ilk dəfə olaraq Safari parkı açılır. Bu da çox əlamətdar hadisədir. Çünki inkişaf etmiş ölkələrdə belə parklar vardır. Orada açıq şəraitdə heyvanlar – ceyranlar, marallar müşahidə olunur. Bizdə də Safari parkı məhz Şamaxıda açılır. Dəmirçi kəndinin – o da tarixi bir yerdir – bərpası da artıq öz həllini tapıb. Ona görə turizmin inkişafı daha da sürətlə getməlidir. Çünki Şamaxının həm təbii şəraiti, iqlimi, gözəlliyi, eyni zamanda, Bakıya yaxınlığı, infrastruktur layihələrinin, hotellərin mövcudluğu bunu şərtləndirir. Əminəm ki, Şamaxı bundan sonra da uğurla inkişaf edəcəkdir – kənd təsərrüfatı, emal müəssisələri, turizm, sənaye istehsalı, aqroparklar. Sizi bütün nailiyyətlər münasibətilə təbrik edirəm.

* * *

**A l l a h v e r d i H ü m b ə t o v:** Cənab Prezident, Şamaxıya xoş gəlmisiniz! Biz Sizi bütün Şamaxı sakinləri adından ürəkdən salamlayırıq. Siz hər dəfə Şamaxıya gələndə bizim üçün bayram olur. Biz böyük bir layihənin, 53 kilometrlik bir yolun açılışında Sizinlə iştirak edirik. Sizin xeyir-duanızla bu yol artıq istifadəyə verilir və rayonumuzun bütün əhalisinin ürəyincədir. Bu yoldan istifadə edən bütün insanlar Sizə həmişə dua oxuyacaqlar. Ona görə ki, uzun müddət bu yol bərbad vəziyyətdə idi. Bu gün isə çox yüksək səviyyədə, bərpa olunmuş vəziyyətdə xalqımızın istifadəsinə verilir.

Cənab Prezident, ulu öndərimizin yol haqqında fikirləri var idi. O deyirdi ki, yol iqtisadiyyatdır, mədəniyyətdir, insanların həyatıdır. Doğrudan da belədir. Bu yolun təkcə bizim gediş-gəlişimiz üçün yox, Azərbaycan iqtisadiyyatının gələcəyi, inkişafımız üçün çox böyük əhəmiyyəti vardır. Eyni zamanda, yol insanların həyatı deməkdir. Bu, həyati bir məsələni həll edən infrastrukturdur.

Cənab Prezident, bu yolun çəkilməsinin əhəmiyyəti bir də ondan ibarətdir ki, bizim qonşu bölgələrimiz olan ulu Şirvanla Muğanı birləşdirirsiniz. Siz bununla tarixdə yeni bir səhifə açırsınız. Buna görə Sizə çox minnətdarıq. Hər iki bölgənin insanlarının rahatlığı üçün bu yolun əhəmiyyəti çox böyükdür.

Cənab Prezident, Sizin diqqət və qayğınız nəticəsində Şamaxı gündən-günə gözəlləşir. Sizin dediyiniz kimi, burada turizmin inkişafı üçün böyük potensial vardır. Bu gün insanlar, turistlər yüksək səviyyədə təmir olunmuş qədim tarixə malik Cümə məscidini, yenidən bərpa edilmiş rəsədxananı görmək üçün axın-axın Şamaxıya gəlirlər. Onlar gəlib Şamaxının səfalı mənzərəsini görürlər. Biz hər gün görürük ki, Cümə məscidinin qarşısında nə qədər turist avtobusu dayanır. Bu bizim üçün şərəfdir, bütün bunlar Sizin sayənizdə mümkün olubdur.

Möhtərəm Prezident, ulu öndərimiz bizə torpaq bağışlamışdır. Biz kənddə yaşayırıq. Bizim iş yerimiz torpaqdır. Bütün

ailələrimiz torpaqda çalışır və evlərinə ruzi-bərəkət gətirirlər. Bütün bunlar hamısı Sizin sayənizdə mümkün olubdur. Bu gün Siz insanlara torpağı sevməyi öyrədirsiniz. Biz bu gün torpağı sevirik, torpaqda çalışırıq və bu, demək olar ki, Sizin adınıza yazılmış olan bir inqilabdır. Siz bizə torpağı sevdirdiniz. Buna görə Sizə təşəkkür edirik.

Hörmətli Prezident, biz şamaxılılar Sizi çox sevirik. Bu həqiqətən, belədir. Hər evdə, hər ailədə, ürəyimizin başında Sizin yeriniz vardır. Ona görə də Sizə çox dərin təşəkkürümüzü bildiririk. Sizin apardığınız uğurlu siyasətin, Azərbaycan naminə gördüyünüz bütün işlərin arxasında dayanmışıq. Sizə arxa-dayaq olacağıq. İnşallah, Sizin sayənizdə Azərbaycan qüdrətli bir dövlətə çevriləcəkdir. Sizə Allahdan kömək, möhkəm cansağlığı diləyirik. Cənab Prezident, ulu Tanrı Sizə yar olsun, Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Bu yol Şirvan, Muğan, cənub və Aran zonalarını birləşdirir. Ağsu aşırımı bağlı olanda bu istiqamətlərə ancaq Bakıdan getmək mümkün idi. Çünki bu yol bərbad vəziyyətdə idi.

**A l l a h v e r d i H ü m b ə t o v:** İndi bu yol əsas yoldur, çox gözəldir.

**İ l h a m Ə l i y e v:** Bəli, əsas yoldur. İndi cənub, Aran və ətraf zonalara rahat getmək mümkündür.

**S a k i n l ə r:** Sizin sayənizdə, cənab Prezident. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Çox gözəl layihədir. Mən çox şadam ki, bunu icra etdik. Növbəti ildə «bir kənd yolu» layihəsi də vardır. 2018-ci ildə biz onu da icra edəcəyik ki, Şamaxı rayonunda bir dənə də təmirsiz kənd yolu qalmasın.

**S a k i n l ə r:** İnşallah. Cənab Prezident, Allah köməyiniz olsun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Sizi təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun, Allah Sizi qorusun!

* * *

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## «Az-Granata» MMC-yə məxsus üzüm bağları ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də «Az-Granata» MMC-yə məxsus üzüm bağları ilə tanış olmuşdur.*

*Azərbaycanda aparılan məqsədyönlü uğurlu siyasət nəticəsində iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın yüksəldilməsinə, qeyri-neft sektorunun sürətli inkişafına, yoxsulluğun azaldılmasına əlverişli şərait yaradıb, əhalinin etibarlı sosial müdafiəsini, maddi rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını təmin edibdir. Prezident İlham Əliyevin hazırda intensiv metodlara əsaslanan aqrar sektorun yaradılmasına yönələn siyasəti, həyata keçirilən dövlət dəstəyi tədbirləri uğurlu nəticəsini verir. Bu, kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olur. Üzümçülüklə bağlı həyata keçirilən tədbirlər də bunun əyani təsdiqidir.*

*Şamaxı rayonunda əhalinin əksər hissəsi bitkiçilik və heyvandarlıqla məşğul olur. Bitkiçilikdə taxıl, kartof, tərəvəz, bostan, üzüm və meyvə məhsulları istehsalı üstünlük təşkil edir. Rayon üzümlükləri isə vaxtilə böyük şöhrət qazanıbdır. Belə ki, ötən əsrin 70–80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından biri olubdur. Sonradan Sovet İttifaqının dağılması, XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaşanan gərginlik, baxımsızlıq iqtisadiyyatın digər sahələri kimi, üzümçülüyü də, demək olar ki, sıradan çıxarıbdır. Hazırda bu gəlirli sahənin bərpası və yenidən inkişaf etdirilməsi xüsusi diqqət mərkəzindədir. Bu baxımdan prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan və qəbul edilən «2012–2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına da-*

*ir Dövlət Proqramı» bu sahənin yenidən dirçəldilməsində mühüm rol oynayır. Bu Dövlət Proqramı üzümçülüklə məşğul olan sahibkarların fəaliyyətini də gücləndirib, yeni üzümçülük təsərrüfatlarının yaradılmasına müsbət təsir göstəribdir. Təsadüfi deyil ki, Şamaxıda da son illər təsərrüfatın bu gəlirli sahəsi sürətlə inkişaf edir. Artıq üzüm bağlarının sahəsi 1650 hektara çatdırılıb ki, bunun da 1550 hektarı məhsul verir. Mütəxəssislər cari mövsümdə rayonda 14 min tondan çox üzüm istehsal olunacağını proqnozlaşdırırlar.*

*«Az-Granata» MMC də Şamaxı rayonunda üzümçülüyün inkişafı istiqamətində xeyli iş görüb. 5 ildir ki, məhsul istehsal olunur. 2016-cı ildə «Az-Granata»nın üzüm bağlarından 3000 ton məhsul tədarük edilibdir.*

*Dövlət başçısına görülən işlərlə bağlı ətraflı məlumat verildi.*

*Bildirildi ki, Şamaxı üzüm bağları 2009-cu ildə 25 hektar sahədə salınmağa başlanıb. Hazırda üzüm bağı 375 hektardır. Onun 309 hektarı texniki üzüm növləri, 66 hektarı isə süfrə üzümü bağıdır. Ərazinin dəniz səviyyəsindən yüksəklikdə yerləşməsi, illik yağıntıların miqdarı, temperatur göstəriciləri və bu yerlərdən götürülən torpaq nümunələrinin laboratoriyalarda aparılan analizləri Şamaxıda yüksəkkeyfiyyətli nadir üzüm növlərinin yetişdirilməsinin mümkünlüyünə əsas verir. Bu göstəricilərə əsasən, ərazidə əkilən üzüm növləri və onların kök sistemləri seçilib. Seçilən növlər üzrə ölkəmizə yüksəkkeyfiyyətli üzüm tingləri gətirilib və onlar mövcud normativlər əsasında lazımi aqrotexniki tədbirlərin həyata keçirilməsi yolu ilə əkilibdir. Üzüm bağlarında əkin və becərmə işləri aparmaq üçün xüsusi texnika da alınıbdır. Bütün bu amillər ixrac qabiliyyətli yüksəkkeyfiyyətli məhsul istehsalına təminat verir.*

*Qeyd edildi ki, üzüm tingləri Fransa, Türkiyə və Gürcüstandan gətirilən ən yaxşı növlərdən ibarətdir. Texniki növlərdən «Şardane», «Cabarne», «Cabarne Frans», süfrə növlərindən «Prima», «Cardinal», «Sultaniye», «Alfonz Lavalle», «Danuta» və s. kimi növləri misal göstərmək olar. 2016–2017-ci məhsul ilində*

*«Superior Seedless», «Crimson Seedles», «Red Globe» kimi yeni növlər gətirilərək, cavan bağlar salınıb. Kişmiş və əla şərab üzümü olan «Mədrəsə» kimi yerli növlər də bağda yetişdirilərək, məhsul istehsalı ildən-ilə artırılır. Cari ildə texniki üzümün hektar üzrə məhsuldarlığı 7-8 ton, süfrə üzümünün məhsuldarlığı isə 15 ton olubdur. Növbəti ilə hədəf texniki üzümdə 10-11 ton, süfrə üzümündə isə 17-18 tondur. 2015-ci ildə süfrə üzümü bağında ən müasir suvarma sistemi qurulub. Texniki üzüm isə dəmyə şəraitində yetişdirilir. Hazırda «Az-Granata» MMC-nin üzüm bağlarında 250 nəfər işlə təmin edilib ki, onlardan 200 nəfəri qadındır.*

*Bildirildi ki, təsərrüfatda istehsal edilən üzüm sortları Bakı şəhərində fəaliyyət göstərən «Meyvəli» ticarət mərkəzində və 8-ci Kilometr bazarında topdansatış qaydada satılır. Texniki sortlar isə «Az-Granata» MMC-nin nəzdində fəaliyyət göstərən Şərab Emalı zavoduna təhvil verilir. Ümumilikdə, 2012–2020-ci illəri əhatə edən üzümçülüyün inkişafı ilə bağlı Dövlət Proqramının icrası nəticəsində bölgələrdə həm sahibkarlıq inkişaf edəcək, həm də Azərbaycanın üzümçülük şöhrəti bərpa olunacaqdır.*

## Şamaxı şəhərinin içməli su təchizatı layihəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Şamaxı şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak etmişdir.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına «Şamaxı şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi üzrə görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, layihə Azərbaycan hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi «Milli su təchizatı və kanalizasiya xidmətləri layihəsi» çərçivəsində həyata keçirilib. Bu layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla, Şamaxı şəhərində 41*

*min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıbdır. Layihənin icrasına 2010-cu ildə başlanılıb. Birinci mərhələdə Şamaxı şəhərini keyfiyyətli və dayanıqlı su ilə təmin etmək üçün Pirsaatçayın məcrasında məhsuldarlığı saniyədə 120 litr olan drenaj tipli suqəbuledici qurğu, xlorlaşdırma binası, həcmi 1000 kubmetr olan 2 su anbarı, 1 su nasos stansiyası tikilib. Su mənbəyindən anbarlara qədər 3,4 kilometr magistral kəmər çəkilib. Bu mərhələ üzrə işlər 2011-ci ildə yekunlaşıbdır.*

*Layihənin 2012-ci ildə başlanan ikinci mərhələsində ümumi tutumu 7000 kubmetr olan 4 anbar inşa edilib. Şəhərdə 8,9 kilometr uzunluğunda magistral su kəməri, 134 kilometrlik içməli su şəbəkəsi yaradılıb. Layihədə nəzərdə tutulan 8300 ünvana birləşmə verilib və sayğaclar quraşdırılıb. Bununla da abonentlərə yeni şəbəkə vasitəsilə suyun verilməsi təmin edilibdir.*

*Layihəyə uyğun olaraq Şamaxı şəhərində 130 kilometr uzunluğunda kanalizasiya şəbəkəsinin və baxış quyularının inşası yekunlaşıb. Şəhərdə yaranan tullantı sularının toplanıb təmizləyici qurğuya ötürülməsi üçün kanalizasiya nasos stansiyası inşa edilib, 11 kilometr uzunluğunda kanalizasiya kollektoru tikilibdir.*

*Layihənin sonuncu mərhələsində isə məhsuldarlığı sutkada 10 min kubmetr olan bioloji tipli tullantı sutəmizləyici qurğu inşa edilərək, istismara verilib. Qurğunun inşası və bütövlükdə layihə Şamaxı şəhərində əhalinin artımı, sənayenin və turizmin inkişafı perspektivi nəzərə alınmaqla, həyata keçirilib. Bundan başqa, layihə çərçivəsində Şamaxı Sukanal İdarəsi üçün yeni inzibati bina da inşa edilib. İkimərtəbəli binada işçilərin fəaliyyəti və müştərilərin qəbulu üçün yüksək şərait yaradılıb. Ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıbdır.*

*Bildirildi ki, perspektivdə Şamaxı şəhərinin böyüməsi, turizmin inkişafı nəzərə alınaraq, şəhərin sabit və etibarlı su təchizatının aparılması üçün alternativ su mənbəyinin yaradılması da planlaşdırılır. Bu məqsədlə artıq Ağsuçayın məcrasında su-*

*qəbuledici qurğunun, nasos stansiyasının və buradan Şamaxı şəhərinə qədər 22 kilometr uzunluğunda magistral kəmərin inşasına başlanılıb. Yeni mənbədən magistral kəmər boyunca yerləşən kəndlərə suyun verilməsi də nəzərdə tutulur.*

*Qeyd edək ki, Azərbaycan hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi «Milli su təchizatı və kanalizasiya xidmətləri layihəsi» çərçivəsində Şamaxı şəhəri ilə yanaşı, Qəbələ, Sabirabad və Saatlı şəhərlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması da nəzərdə tutulub. Sabirabad və Saatlı şəhərlərində su təchizatı sistemlərinin tikintisi başa çatıb, bu şəhərlərə magistral su kəmərindən suyun verilməsi təmin edilibdir. Qəbələ şəhərində su mənbəyində işlər tam yekunlaşıb, içməli su və kanalizasiya şəbəkələrinin, həmçinin tullantı sutəmizləyici qurğunun inşası davam etdirilir. Ümumilikdə, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq 45 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 21-də su və kanalizasiya şəbəkələrinin, 8-də isə su şəbəkəsinin inşası yekunlaşıbdır.*

*Prezident İlham Əliyev Şamaxı şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

## Əsaslı surətdə yenidən qurulan Pirqulu–Dəmirçi avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 2-də əsaslı surətdə yenidən qurulan Pirqulu–Dəmirçi avtomobil yolunun açılışında iştirak etmişlər.*

*Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Belə layihələrdən biri də Şamaxı rayonunda həyata keçirilibdir.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov Pirqulu–Dəmirçi avtomobil yolunun texniki göstəriciləri barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, yolun uzunluğu 8 kilometrdir. Pirqulu–Dəmirçi avtomobil yolu uzun müddət təmir olunmadığı, həmçinin burada yola asfalt qatı vurulmadığı üçün hərəkət hissəsi sıradan çıxmış vəziyyətdə idi. Bu isə avtonəqliyyat vasitələrinin xüsusən payız-qış mövsümündə hərəkətində problemlər yaradırdı. Görülən işlər nəticəsində Pirqulu–Dəmirçi avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla, 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Yolun hərəkət hissəsinin eni 3,5-4 metr, çiyinlər də daxil olmaqla, yol yatağının eni 7-8 metrdir. Yol boyunca müxtəlif diametrli 14 suötürücü boru tikilib ki, onların da ümumi uzunluğu 210 metrdir. Avtomobil yolunda nəqliyyat*

*vasitələrinin normal hərəkətinin təşkili üçün zəruri olan yerlərdə 92 yol nişanı quraşdırılıb, 24 min metr uzunluğunda yol-cizgi və yolgöstərici xətlər çəkilib, həmçinin 3 yerdə avtobus dayanacağı tikilibdir.*

*Pirqulu–Dəmirçi avtomobil yolunun tikintisi dövlət başçımızın tapşırıqlarına əsasən «Azəravtoyol» ASC tərəfindən yüksək keyfiyyətlə yerinə yetirilib. Şamaxı rayonunda dağlıq ərazidə yerləşən bu avtomobil yolunun tikintisi 1,6 min nəfər əhalinin yaşadığı 5 kəndi birləşdirərək, yük və sərnişindaşımanı xeyli yaxşılaşdıracaqdır.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Dəmirçi kəndində görülən işlərlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 2-də Şamaxı rayonunun Dəmirçi kəndində görülən işlərlə tanış olmuşlar.*

*Turizm sahəsi ölkəmizdə böyük perspektivlərə malikdir. Bu gün Azərbaycanda turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Son illər əldə olunmuş sürətli sosial-iqtisadi tərəqqi bu sahənin hərtərəfli inkişafına yeni imkanlar açıb. Turizm ehtiyatlarının öyrənilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, hotellərin və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması istiqamətində həyata keçirilən davamlı tədbirlər real nəticələrini verməkdədir. Əsas məqsəd turizmin ölkə iqtisadiyyatının dayanıqlı, səmərəli və rəqabətədavamlı sahəsinə çevrilməsindən ibarətdir.*

*Prezident İlham Əliyev bir neçə mühüm sahə ilə yanaşı, Azərbaycanda turizmin inkişafını da qeyri-neft sektorunun əsas istiqamətlərindən biri elan edib və bununla bağlı atılan addımlar artıq öz bəhrəsini verir. Dövlət başçımızın vurğuladı-*

*ğı kimi, Azərbaycanda turizmin inkişafı sürətlə gedir, yeni hotellər, istirahət zonaları, beynəlxalq səviyyəli turizm kompleksləri açılır. Son illərdə ölkəmizin uğurlu sosial-iqtisadi inkişafı, möhkəm daxili sabitlik respublikamıza turist axınını şərtləndirən əsas amillərdəndir. Zəngin potensialı olan paytaxt Bakı ilə yanaşı, ölkənin bütün bölgələrində turizm obyektlərinin yaradılması kompleks xarakter daşıyır və regionlarda inkişafın mühüm amillərindən biri kimi çıxış edir. Şamaxı rayonunun Dəmirçi kəndində turizm infrastrukturunun yenilənməsi, tarixi abidələrin bərpası və abadlıq-quruculuq işlərinin aparılması da bu qəbildən olan işlərdəndir.*

*Dəmirçi Şamaxının ən qədim kəndlərindən biridir və onun tarixi XV əsrə gedib çıxır. Qədimdə adı Güneyçay olan kənddə dəmirçilik sənəti geniş yayıldığından sonralar buraya Dəmirçi adı verilib. Bir vaxtlar qədim İpək yolunun kənarında yerləşən kənddə bir neçə karvansara da olub. Lakin karvansara da daxil olmaqla, Dəmirçidəki qədim tikililərin çoxu sovet hakimiyyəti illərində dağıdılıb. Maraqlı adət-ənənələri, özünəməxsus mədəniyyəti olan yerli əhali elmə, təhsilə böyük maraq göstərir. Odur ki, kəndin bərpası və tarixi simasının qorunması ilə bağlı son illərdə həyata keçirilən işlər ölkəmizin bu nadir abidəsini qoruyub saxlamaq və onu gələcək nəsillərə çatdırmaq istiqamətində mühüm tədbirlərdən biridir.*

*Görülən işlər bir neçə istiqamətdə həyata keçirilib və kompleks xarakter daşıyıb. İlk növbədə, kənddəki məscid bərpa olunub. Ölkəmizin ən qədim dini ocaqlarından olan Dəmirçi məscidi 755-ci ildə tikilib və prezident İlham Əliyevin göstərişi ilə bərpa edilibdir. Bu da ondan irəli gəlir ki, dövlət başçımız bütün ölkədə qədim və tarixi əhəmiyyəti olan dini ocaqların bərpasına diqqətlə yanaşır. Bir neçə il öncə Yaxın Şərqin ən qədim məscidlərindən olan Şamaxı Cümə məscidində bərpa və yenidən qurulma işlərinin aparılması da bu məqsədə xidmət edirdi.*

*Dövlət başçısı məscidin axundu Nəbi İsgəndərov ilə söhbət etdi.*

**N ə b i İ s g ə n d ə r o v** *(axund):* Möhtərəm cənab Prezident, bizim Dəmirçi kəndinə xoş gəlmisiniz! Bizim bu məscidin keçmiş forması belə olub. Yəni uzun illər ibadətə yararsız olub, ibadət edə bilməmişik. Sizin sayənizdə bu məscidi bugünkü vəziyyətə gətirib bizim istifadəmizə veriblər. Biz Sizdən çox razıyıq, Allah Sizi, ailənizi qorusun. Çox sağ olun ki, bizə bu məsciddə belə gözəl şərait yaratdınız.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bu bizim tarixi abidəmiz, tarixi irsimizdir, qədim məsciddir. Mənə məlumat verilib ki, bu məscid 755-ci ildə tikilib, ölkəmizin və müsəlman aləminin ən qədim məscidlərindən biridir. Bilirsiniz ki, Azərbaycanda bütün tarixi abidələr, məscidlər bərpa edilir, əsaslı təmir olunur, yeni məscidlər tikilir. Onların arasında, əlbəttə ki, Şamaxı Cümə məscidi xüsusi yer tutur. Çünki bu, ölkəmizin ən qədim məscididir və bir neçə il bundan əvvəl biz bu məscidin yenidən qurulmasını təmin etdik. Məscid yenidən bərpa olundu, əlavə binalar tikildi. Yəni Şamaxı Cümə məscidi tam şəkildə əsaslı təmir olundu və demək olar ki, məscidin böyük bir hissəsi yenidən quruldu. Şamaxı rayonunda tarixi dini abidələr çoxdur, onlardan biri də təbii ki, bu məsciddir. Bizim də borcumuz idi ki, bu qədim tarixi dini abidəni bərpa edək, qapılarını dindarların üzünə açaq. Çox şadam ki, biz buna nail ola bilmişik. Bu, məscidin köhnə şəkilləridir, demək olar ki, burada ibadət etmək qeyri-mümkün idi. İndi isə biz məscidi bərpa etmişik. Bərpa zamanı qədim daşlardan istifadə olunub, yəni məscidin tarixi görkəmi tam qorunubdur. Bu, təkcə sizin kənd üçün, Şamaxı üçün yox, bütün Azərbaycan, bütün müsəlman aləmi üçün çox əlamətdar hadisədir. Xüsusilə də bu il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunubdur. Bax, bu gözəl tarixi dini abidəni biz bu il istifadəyə veririk.

**N ə b i İ s g ə n d ə r o v:** Bu məhərrəm ayında bizə belə gözəl hədiyyəni etdiyinizə görə Sizə bir daha təşəkkür edirik, bunun savabı hər şeydən üstündür. Biz bilirik ki, Siz də, ailəniz də dinə, Allaha bağlı insanlarsınız. İcazə verin, Sizə müqəddəs

Qurani-Kərimi  hədiyyə edək. Allah Sizdən razı olsun. Allah Sizi bizim başımızın üstündən əskik etməsin.

*Dəmirçi məscidində dövlət başçısına Qurani-Kərim hədiyyə edildi.*

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Dəmirçi kəndinə də yol çəkilib. Xoşunuza gəlir? İşıq, qaz, su, indi rahat yol, körpü.

**N ə b i  İ s g ə n d ə r o v:** Çox sağ olun, cənab Prezident, saymaqla qurtaran deyil, biz sadalamadıq ki, vaxtınızı alarıq.

**İ l h a m  Ə l i y e v:** Buradan da Lahıca qədər yol çəkiləcəkdir. Sizin Lahıcda da qohumlarınız yaşayır, indi onlara tez-tez baş çəkərsiniz.

**N ə b i  İ s g ə n d ə r o v:** Lahıca getmək üçün 70–80 kilometr yol qət edirdik. İndi 20 kilometr gedəcəyik. Bu Sizin sayənizdə olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Mən tapşırıq vermişəm, bu il işlər başlayacaq və yol gələn il istifadəyə veriləcəkdir. Beləliklə, Dəmirçi kəndinə maraq böyük olacaq, turistlər gələcək. Necə ki, il ərzində Lahıca minlərlə turist gəlir, buraya da gələcək. Bu həm yeni iş yerləri, həm də dolanışığın yaxşılaşması deməkdir. Dəmirçi kəndi ölkəmizin ən gözəl turizm mərkəzlərindən birinə çevriləcəkdir. Dünya da biləcək ki, Azərbaycanda, Şamaxıda belə bir kənd və onun qədim məscidi vardır, burada gözəl insanlar yaşayırlar. Bax, Azərbaycanın gözəlliyi və qüdrəti bundan ibarətdir.

**N ə b i  İ s g ə n d ə r o v:** Çox sağ olun, cənab Prezident, bunlar hamısı Sizin sayənizdə mümkün olub. Biz Sizdən çox razıyıq.

* * *

*Yerli əhalinin və turistlərin istirahəti, onların gəzintisinin yaddaqalan olması üçün burada bir sıra maraqlı layihələr icra olunub. Buraya ailə biznesinin qurulmasını və bu biznesdən alınan məhsulların satışını nəzərdə tutan, Prezident yanında*

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmış ABAD publik-hüquqi şəxsin fəaliyyəti də daxildir. Burada turistlərə müxtəlif suvenirlər, əl işləri təqdim olunur və hazır məhsullar bütün regionları əhatə edir. Kənddə turistlər üçün maraqlı əyləncə və istirahət yerləri də təşkil olunub. Bunlardan biri də bir neçə yerdə qoyulan təndirdir. İl ərzində turistlər Dəmirçi kəndinin özünəməxsus qonaqpərvərliyinin şahidi olacaqlar. Onlara məhz bu bölgəyə aid olan milli yeməklər təqdim ediləcəkdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva isti təndir çörəyinə qonaq oldular.*

*Kənddə Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin eksponatlarından ibarət sərgi də açılıb. Bu eksponatlar turistlərdə Şamaxının qədim tarixi barədə geniş təsəvvür yaradacaqdır. Burada turistlərdə maraq doğuracaq sərgi-kompozisiyalardan da istifadə olunacaqdır. Bundan əlavə, müxtəlif məişət obyektləri əhalinin və turistlərin istirahətinə maraqlı anlar qatacaqdır.*

*Dövlət başçısını və xanımını Dəmirçi kəndində çay içməyə dəvət etdilər.*

*Dəmirçi turizm infrastrukturunda «Azərxalça» ASC də yer alıb. Burada toxunacaq xalçalar sonradan turistlərə satılacaq ki, bu layihə Azərbaycan xalçalarının şöhrətini daha da artıracaqdır.*

*Bərpa və yenidənqurma işləri zamanı yeni xalq sənəti obyektlərinin tikilib istifadəyə verilməsi diqqət mərkəzində saxlanılıb. Kənddə dəmirçilik sənətinin dirçəldilməsi və bu sahəyə marağın artırılması məqsədilə dəmirçi dükanı və emalatxanası yaradılıbdır.*

*Azərbaycan Prezidenti və xanımı dəmirçi dükanı və emalatxanası ilə tanış oldular.*

*Prezident İlham Əliyevə inşası nəzərdə tutulan Dəmirçi Arxeoloji-Etnoqrafik Muzeyinin layihəsi təqdim edildi.*

*Layihə çərçivəsində Şamaxı ilə yanaşı, bütün Şirvanın tarixi keçmişi barədə məlumatlar və eksponatlar sərgilənəcək, açıq səma altında muzey salınacaqdır. Qeyd edək ki, ötən il Dəmirçi kəndindən Lahıc qəsəbəsinə yol çəkilişi zamanı saxsı qablar və insan skeleti fraqmentləri aşkar olunub. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşlarının Dəmirçi–Lahıc yolunun 4-cü kilometrliyində, Gəgəli yaylağı adlanan ərazidə apardıqları araşdırmalar nəticəsində 1,5 hektar ərazidə nekropol olması müəyyən edilibdir. Qazıntılar zamanı ərazidən qızıl və gümüşdən bəzək əşyaları, muncuqlar, sikkələr və digər maddi-mədəniyyət qalıqları aşkarlanıbdır. Bu il nekropolda aparılan qazıntılar zamanı 18 qəbir açılıb. Əldə edilən maddi-mədəniyyət nümunələri əsasında Gəgəli nekropolunun Son Antik və İlk Orta əsrlərə aid edildiyi məlum olubdur.*

*Beləliklə, Dəmirçi kəndində turizm infrastrukturunda yaradılan şərait bir daha təsdiqləyir ki, Azərbaycanın müxtəlif bölgələrində qısa müddətdə turist marşrutları üzrə mükəmməl infrastrukturun və müasir turist yerləşdirmə obyektlərinin yaradılması artıq öz bəhrəsini verir. Bu isə Azərbaycanın qədim və zəngin mədəniyyətini, milli mətbəximizin müxtəlifliyini, xalqımızın qonaqpərvərliyini turistlərə təqdim etməyə geniş imkanlar açır.*

## Yeni yaradılan Şamaxı Safari parkı ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 2-də yeni yaradılan Şamaxı Safari parkı ilə tanış olmuşlar.*

*Müasir dövrdə ekoturizmin geniş yayılmış növlərindən biri də Safari turizmidir. Turizmin bu növü ilk olaraq zəngin təbiəti ilə seçilən Afrikada yaranıb. «Safari» sözü də Afrika xalqlarından olan tanzaniyalıların dilindən götürülüb, səyahət etmək,*

*yolçuluq, gəzinti mənasını verir. Belə turlar Afrikanın bir sıra ölkələrində Qərbi Avropadan və Amerikadan gələn imkanlı turistlərin maraqlarını yerli vəhşi fauna nümunələri ilə cəlb etmək üçün həyata keçirilib. Bu gün Safari turizmi ovçuluq və ya fotoovçuluq, balıq tutmaq, açıq məkanda təbii halda heyvanları müşahidə etmək məqsədilə təşkil olunan turizm növü kimi məşhurdur. Ənənəvi safarilər heyvanları nəsli kəsilmək təhlükəsi ilə üz-üzə qoyduğu üçün son dövrlərdə təşkilatçılar ov məqsədli turlardan imtina edərək, sırf fotosafarilərə istiqamətləniblər. Fotosafariləri bədii dillə «sakit ov» da adlandırırlar. Azərbaycanda da fotosafari turlarının həyata keçirilməsi üçün geniş imkanlar vardır. Ölkəmizin müxtəlif guşələrində xüsusi mühafizə olunan təbiət əraziləri – milli parklar, qoruqlar xarici turistlərin belə turlara cəlb edilməsində mühüm rol oynaya bilər.*

*Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi»ndə də bununla bağlı məsələlər yer alıb. Strateji Yol Xəritəsində qeyd edilib ki, Mədəniyyət və Turizm Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Azərbaycanın ekoloji turizm imkanlarının tədqiqini həyata keçirərək, bunun əsasında milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili ilə bağlı tədbirlər planı hazırlayacaqdır. Yaradılacaq marşrutlar üzrə əlverişli fəaliyyət cədvəli tərtib ediləcəkdir. Buraya milli parklarda potensial turizm kampinq yerlərinin müəyyən edilməsi və işlənib hazırlanması üzrə də təkliflərin irəli sürülməsi daxildir. Təhlil nəticəsində məqsədəuyğun hesab edilərsə, bu kampinq yerlərinin işlədilməsi özəl operatorlara da həvalə oluna bilər. Qeyd edək ki, sənəddə Şamaxı Safari parkının yaradılacağı da qeyd olunmuşdu. Artıq Şamaxı Safari parkı hazırdır.*

*Parkla tanışlıq zamanı dövlət başçısına və xanımına məlumat verildi ki, Azərbaycanda elmi əsaslarla ov ekologiyasının yaranması, vəhşi populyasiyada olan heyvan növlərinin Azərbay-*

*can təbiətinə adaptasiyası məqsədilə 2014-cü ildə yaradılan «Azər Ekov» MMC qısa müddətdə bu istiqamətdə zəruri olan işləri görməyə başlayıb. «Azər Ekov» MMC ilk olaraq vəhşi dırnaqlılar və maral fermerlərinin Beynəlxalq Assosiasiyasına – IDUBA-ya üzv olub. Bununla da «Azər Ekov» MMC bu assosiasiyanın Cənubi Qafqazda təmsilçilik hüququnu əldə edib və bu quruma Ermənistanın üzv olmasının qarşısını alıb. IDUBA-nın təşkil etdiyi görüşlər sayəsində üzvlər müəyyən vaxt ərzində yığıncaqlar təşkil edib heyvan yetişdirilməsi, ovların təşkili, buynuz ticarəti, yem və yem əlavələrinin istehsalı və s. ilə bağlı fikirlərini bölüşürlər. Bu assosiasiyanın tədbirlərində bərabərhüquqlu üzv kimi iştirak edərkən «Azər Ekov» MMC qarşısına beynəlxalq təcrübəni mənimsəmək, xarici mütəxəssislərin Azərbaycan təbiətinə marağını cəlb etmək kimi hədəflər qoyubdur.*

*Bildirildi ki, «Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi»ndəki tapşırıqlara uyğun olaraq vəhşi heyvanlar üçün ekoloji qoruğun yaradılması məqsədilə Şamaxı rayonunun ərazisində olan Pirqulu adlanan dağ-meşə sahəsində 620 hektar ərazinin hüdudları içərisində 480 hektar ərazi beynəlxalq standartlara uyğun formada çəpərlənib. Buraya Latviya, Polşa, Slovakiya, Çexiya və Macarıstan təsərrüfatlarından 3 növdən ibarət 420 baş nəcib maral, lan və muflon adlı genetik qiymətli heyvanın gətirilərək, xüsusi mühafizə olunan əraziyə buraxılması təmin edilibdir. Görülən seleksiya və baytarlıq tədbirləri nəticəsində bu heyvanların sayı 2 dəfəyə yaxın artıbdır. Belə ki, hazırda parkda 790 heyvan, o cümlədən 260 baş nəcib maral, 250 baş muflon və maral cinsinə daxil olan 280 baş lan vardır.*

*Ekoloji parkın daxili infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Belə ki, 36 kilometr uzunluğunda enli yol çəkilib. Bundan başqa, heyvanlar üçün çox sayda təbii daldalanacaqlar düzəldilib. Maral, lan və muflonları kənar təsirlərdən və yoluxucu xəstəliklərdən qorumaq üçün beynəlxalq standartlara uyğun dəmir-beton dayaqlara hörülmüş 52*

*kilometr uzunluğunda çəpər çəkilib. Bundan başqa, parkın ərazisində inzibati bina və Qonaq evi də inşa olunub. İnzibati bina və Qonaq evinin ərazisində geniş abadlıq işləri aparılıbdır.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA**

Hörmətli cənab Prezident!

Las Veqas şəhərində keçirilən musiqi festivalı zamanı insanların qəddarcasına atəşə tutulması nəticəsində çoxsaylı tələfat və yaralananlar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu dəhşətli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 oktyabr 2017-ci il*

## QADIN VOLEYBOLÇULARDAN İBARƏT MİLLİ KOMANDAMIZIN HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də qadınlar arasında voleybol üzrə Avropa çempionatında dördüncü yeri tutan milli komandamızın heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev layiqli çıxışları münasibətilə qadınlar arasında voleybol üzrə Avropa çempionatında dördüncü yeri tutan milli komandamızın heyətini təbrik etdi. Bildirdi ki, milli komandamızın çıxışı bütün azarkeşlərə böyük sevinc bəxş etdi. Bu, son dərəcə maraqlı idman mübarizəsi idi və çempionat bizim qadın voleybolumuzun səviyyəsini bir daha nümayiş etdirdi. Bütövlükdə, qadınlar arasında voleybol üzrə Avropa çempionatı çox uğurla keçdi və təşkilatçılıq yüksək səviyyədə oldu. Avropa federasiyalarının rəhbərləri və digər qonaqlar da bunu qeyd ediblər.*

*Çempionatın yalnız Bakıda deyil, həm də regionda – Göygöl şəhərində keçirildiyinin əlamətdar olduğunu vurğulayan dövlət başçısı bildirdi ki, bu bizim idman infrastrukturunun inkişafını göstərir. Bütün idman növləri, o cümlədən voleybolda idmançılar üçün yaradılan yaxşı şərait olmadan belə dinamik inkişaf mümkün olmazdı. Bütövlükdə, Azərbaycan dünya olimpiya ailəsində artıq öz layiqli yerini tutubdur. Bu bizimlə yanaşı, beynəlxalq strukturların, o cümlədən Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya komitələrinin verdiyi qiymətdir.*

*Prezident İlham Əliyev bu yaxınlarda Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının 25 illik yubileyinin qeyd*

*edildiyini və həmin tədbirdə dünyanın yüksəkvəzifəli idman məmurlarının çıxışlarında Azərbaycanın çox böyük, misilsiz uğurlar qazandığını qeyd etmələrini xatırlatdı.*

«Əsasən bizim idman uğurlarımız fərdi idman növlərində qazanılıb. Komanda növlərində isə hesab edirəm ki, qadın voleybolu birinci yerdədir» – *söyləyən dövlət başçısı vurğuladı ki, bunu milli komandamızın oyunu və əldə edilən nəticə də göstərdi. Avropada dördüncü yeri qazanmağın böyük nailiyyət olduğunu bildirən prezident İlham Əliyev dedi ki, qrupdakı və dörddəbir final oyunundakı rəqiblər üzərində böyük üstünlüklə qazanılan qələbələr azarkeşlər üçün gözlənilməz idi.*

«Əlbəttə, ilk növbədə, sizin üçün təəssüfləndiricidir ki, medal qazana bilmədiniz. Ancaq qarşıda xeyli digər yarışlar var. Əminəm ki, qələbələr olacaq. Əsas odur ki, layiqli çıxış etdiniz» – *deyən prezident İlham Əliyev komandamızın yüksək məharət göstərdiyini və yarımfinal oyununda qələbəyə yaxın olduğunu söylədi. Dövlət başçısı bildirdi ki, idman idman olaraq qalır. Burada hadisələr müxtəlif cür inkişaf edir.*

*Prezident İlham Əliyev milli komandanın baş məşqçisi Faiq Qarayev başda olmaqla, məşqçi kollektivinin əməyini qeyd etdi. Faiq Qarayevin uzun illər ərzində dünya voleybolunda böyük nüfuz qazandığını, komandamıza uğurla rəhbərlik etdiyini vurğulayan dövlət başçısı Azərbaycanda müasir qadın voleybolunun inkişafının onun adı ilə bağlı olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev, həmçinin idmançılar üçün yaxşı şərait yaradılması istiqamətində Voleybol Federasiyasının təşkilatçılıq fəaliyyətinin də yeni keyfiyyət səviyyəsinə qalxdığını bildirdi. Dövlət başçısı meydançada belə yaxşı nəticələrə nail olmaq üçün çalışan, yüksək ustalıq nümayiş etdirən və azarkeşlərin böyük rəğbətini qazanan komandamızın oyunçularına bir daha təşəkkürünü bildirdi.*

Bizim idmançılar çox peşəkar və vətənpərvərdir. Çünki qələbə uğrunda belə əzmlə mübarizə aparmaq səmimi-qəlbdən milyonlarla Azərbaycan vətəndaşına sevinc bəxş etmək istəyən

idmançıya xasdır – *deyərək prezident İlham Əliyev idmançılarımızın gələcəkdə də bizi yaxşı nailiyyətlərlə sevindirəcəklərinə əminliyini ifadə etdi.*

*Çempionat keçirilən müddət ərzində göstərdiyi dəstəyə görə dövlət başçısına minnətdarlığını bildirən milli komandanın üzvü Valeriya Məmmədova qeyd etdi ki, bu dəstək komandanın rəqiblər üzərində qələbə qazanmasında çox vacib idi. O, prezident İlham Əliyevin komandanın çətin və sevincli anlarında yanında olduğunu vurğuladı, bu gün Azərbaycan idmanının inkişafı istiqamətində atılan addımların çox sevindirici olduğunu bildirdi. Milli komandanın üzvü gələcəkdə də böyük uğurlar qazanaraq, ölkəmizə sevinc bəxş edəcəklərinə əminliyini ifadə etdi.*

*Milli komandanın baş məşqçisi Faiq Qarayev göstərdiyi dəstəyə və diqqətə, həmçinin onun haqqında dediyi xoş sözlərə görə dövlət başçısına komanda adından təşəkkürünü bildirdi. Qeyd etdi ki, bu illər ərzində komanda daim prezident İlham Əliyevin diqqət və dəstəyini hiss edib.* Əlbəttə, biz indi Sizin yanınıza medalla gəlmək, Sizi daha çox sevindirmək istərdik – *deyən Faiq Qarayev dövlət başçısının hər dəfə oyunu izləməyə gəlməsinin komandamız üçün çox böyük dəstək olduğunu dedi. O vurğuladı ki, milli komandamızın üzvləri arasında olan bəzi gənclər ilk dəfə idi belə böyük yarışda çıxış edirdilər. Yüksək səviyyədə hər cür şəraitin yaradıldığını deyən Faiq Qarayev komandamızın hazırlığı İtaliya və Sloveniyada keçdiyini, güclü komandalarla oynadıqlarını bildirdi. Son 1 il ərzində milli komandanın 23 rəsmi oyun keçirdiyini və bunların heç birində də məğlub olmadığını qeyd edən baş məşqçi dünya çempionatının seçmə yarışlarında 5 oyunun hamısında 3-0 hesabı ilə, o cümlədən Avroliqada qələbə qazandığımızı xatırlatdı, 2018-ci ildə Yaponiyada keçiriləcək dünya çempionatının finalına vəsiqə qazandığımızı bildirdi. Faiq Qarayev komandamızın bundan sonra da yeni qələbələr qazanmaq üçün bütün səylərini əsirgəməyəcəyini qeyd etdi.*

*Voleybol Federasiyasının prezidenti, «Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qurbanov prezident İlham Əliyevə milli komandamıza göstərdiyi dəstəyə, həmçinin idmanın bu növünün inkişafı üçün yaradılan şəraitə görə təşəkkürünü bildirdi.*

*Voleybol üzrə qadınlardan ibarət milli komandamızın dünyanın güclüləri sırasında olduğunu bildirən prezident İlham Əliyev qadınlar arasında voleybol üzrə Avropa çempionatında dördüncü yeri tutmağımızın böyük nailiyyət olduğunu bir daha vurğuladı. Dövlət başçısı qeyd etdi ki, Azərbaycan əhalisinin sayına görə o qədər də çox olmasa da, komandamız dünyanın aparıcı, böyük tarixi, ənənələri və potensialı olan voleybol üzrə yığma komandaları ilə bərabər səviyyədə mübarizə apardı. Azərbaycan Prezidenti komandamıza yeni-yeni uğurlar arzuladı.*

*Sonra milli komandamızın üzvləri dövlət başçısına xatirə hədiyyələri təqdim etdilər.*

# UKRAYNA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ PAVLO KLİMKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Ukrayna Respublikasının Xarici İşlər naziri Pavlo Klimkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçımız ölkələrimiz arasında münasibətlərin səviyyəsindən məmnunluğunu ifadə etdi, Ukraynanın prezidenti Petro Poroşenkonun Azərbaycana səfərinin bu münasibətlərin möhkəmləndirilməsi işində mühüm rol oynadığını vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, bu səfər ölkələrimizin müvafiq strukturları arasında əlaqələrin, xüsusilə iqtisadi-ticarət, investisiya sahələrində əməkdaşlıq imkanlarının genişləndirilməsi işinə təkan verdi. Dövlət başçımız bildirdi ki, əsas məsələlərdən biri iki ölkənin imkanlarından istifadə edərək, ticarət dövriyyəsinin artırılmasından, ixrac-idxal əməliyyatlarının genişləndirilməsindən və mümkün investisiya layihələrinin müəyyənləşdirilməsindən ibarətdir.*

*Ölkələrimiz arasında dostluq münasibətlərinin mövcud olduğunu bildirən prezident İlham Əliyev beynəlxalq strukturlarda da fəal əməkdaşlığın həyata keçirildiyini dedi.*

*Dövlət başçımız nəqliyyat sahəsində də əməkdaşlığın önəmini qeyd edərək, bu gün Ukraynadan Asiyaya göndərilən yüklərin bir hissəsinin Azərbaycandan keçdiyini vurğuladı və dəmir yolu strukturları arasında beynəlxalq formatda fəal əməkdaşlığın aparıldığını diqqətə çatdırdı.*

*Ukraynanın Xarici İşlər naziri Pavlo Klimkin prezident Petro Poroşenkonun salamlarını və xoş arzularını Azərbaycan Prezidentinə çatdırdı. İqtisadi əməkdaşlığa toxunan Pavlo Klimkin son yarım ildə ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artdığını vurğuladı. Ukraynanın Xarici İşlər naziri yüksək səviyyədə keçirilən görüşlərin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. O, Azərbaycan Prezidentinin Ukraynaya səfərinin ölkəsində səbirsizliklə gözlənildiyini bildirdi.*

*Dövlət başçımız Ukrayna prezidenti Petro Poroşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukrayna Prezidentinə çatdırmağı xahiş etdi.*

## ÜMUMDÜNYA BOKS ŞURASININ BAKIDA KEÇİRİLƏN 55-ci KONVENSİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Ümumdünya Boks Şurasının Bakıda keçirilən 55-ci Konvensiyasının nümayəndə heyətini qəbul etmişdir.*

*Nümayəndə heyətinə Ümumdünya Boks Şurasının rəhbəri Maurisio Süleymanın başçılığı altında Avropa Boks İttifaqının, Şimali Amerika Boks Federasiyasının, Britaniya Boks Nəzarəti Şurasının prezidentləri, WBC versiyası üzrə keçmiş dünya çempionları Evander Holifild, Kostya Dzyu, Yuri Arbaçkov, Vitali Kliçko, Nino Benvenuti, Karlos Zarate, Azumah Nelson, Bernard Hopkins və WBC versiyası üzrə hazırkı dünya çempionu Jelena Mrdjenoviç daxildir.*

**İ l h a m Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz! Çox şadam ki, Azərbaycan sizin Konvensiyanın iclasına ev sahibliyi edir. Kiyev meri Vitali Kliçko ilə görüşəndə biz bu məsələni müzakirə etdik və dedik ki, bu Konvensiyanın Bakıda keçirilməsi yaxşı olardı. O sizinlə əlaqə saxladı, siz də qərar verdiniz. Azərbaycanın bu qədər məşhur insanların iştirakı ilə belə mötəbər tədbirə ev sahibliyi etməsi bizi çox şad edir və fərəhləndirir. Dünya idman əfsanələri Azərbaycandadır. Düşünürəm ki, çoxlarınız üçün bu, ölkəmizə ilk səfərdir. Siz burada bir neçə gün qalacaqsınız, beləliklə, xalqımız, ölkəmiz haqqında daha çox məlumat əldə edəcəksiniz. Əlbəttə, ölkəmizdə keçirilən bu Konvensiya Azərbaycan üçün, sizi tanıyanlar, sizin döyüşlərinizi, qələbələrinizi televiziyada

izləyənlər üçün mühüm tədbirdir. Bir daha xoş gəlmisiniz və Konvensiyanın işinə uğurlar arzulayıram.

**M a u r i s i o  S ü l e y m a n** *(Ümumdünya Boks Şurasının rəhbəri*): Bizim üçün bu, böyük şərəf və olduqca sevindirici haldır. Biz dünyanın bir çox ölkələrindən böyük məsafə qət edərək gəlmişik. Azərbaycana, Bakıya ilk qədəm qoyduğumuz andan bəri hər kəs bizi təbəssümlə qarşılayıb və hər şey mükəmməl olub. Atanızdan Sizə qalmış miras bizim hamımız üçün stimuldur. Siz idman vasitəsilə çox uğurlar qazanmış yeni dünya, yeni ölkə yaratmısınız. Bu bizi məmnun edir və biz Sizə minnətdarıq.

Ümumdünya Boks Şurası ən önəmli boks təşkilatıdır və boks bütün dünyada çox mühüm idman növüdür. Azərbaycan həvəskar boks yarışlarında uğurlar qazanıb və biz yaxın gələcəkdə peşəkar boks yarışlarında Azərbaycandan dünya çempionunun yetişdirilməsi prosesinin təməlini qoymaq istəyirik. Bizim çempionlarımızın münasibəti, onların əməlləri örnəkdir. Çünki boks sadiqlik, idmana sevgi və qurban tələb edir. Siz böyük rəhbər olmaq üçün məhz bu xüsusiyyətlərdən istifadə etmisiniz. Bu qəbulun baş tutmasında böyük rol oynamış qəhrəmanımız Vitali Kliçko sayəsində Sizinlə görüşmək bizim üçün şərəf və olduqca sevindirici haldır.

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm. Ölkəmiz haqqında xoş sözlərə görə çox sağ olun. Sizin hamınızın bir neçə gün Azərbaycanda olacağınız məni çox sevindirir. Bu, Azərbaycanda boksun inkişafına müsbət təsir göstərəcəkdir. Qeyd etdiyiniz kimi, həvəskar boks yarışlarında yaxşı idmançılarımız var. Bu il boksçularımızdan biri üçqat dünya çempionu adına layiq görülüb. Olimpiya oyunlarındakı boks yarışlarında da medallar qazanmışıq, bürünc medallarımız olub. Hesab edirəm ki, boksçularımızın peşəkar boksçu olması üçün potensial mövcuddur, çünki boks Azərbaycanda çox məşhur idman növüdür. Ümumiyyətlə, Azərbaycanda idmanın inkişafı çox uğurla gedir.

Mən Milli Olimpiya Komitəsinin yaradılmasının 25-ci ildönümü ilə əlaqədar keçirilən tədbirdə sizi gördüm. Biz həqiqətən də uğurlu fəaliyyət göstərmişik, tarixdə ilk dəfə keçirilən Avropa oyunları kimi önəmli idman tədbirini Azərbaycanda təşkil etmişik. Çünki bütün digər qitə oyunları dəfələrlə təşkil olunub, məsələn, Amerika, Asiya və Afrika oyunları, lakin olimpiya hərəkatının başlandığı Avropanın özünəməxsus oyunları olmamışdı. Beləliklə, ilk Avropa oyunları 2 il bundan əvvəl burada təşkil edildi. Bu il Azərbaycanda minlərlə atletin iştirakı ilə İslam Həmrəyliyi oyunları da keçirildi. Bir neçə gün əvvəl voleybol üzrə qadınlar arasında Avropa çempionatı keçirildi. Bizim komanda medal qazanmağa çox yaxın idi və dördüncü yerdə qərarlaşdı. Digər müxtəlif idman yarışları da keçirilmişdir. Onların sırasında «Formula-1» şəhər halqası da var, Rio-de-Janeyroda keçirilən Yay Olimpiya oyunlarındakı nəticələrimiz də. Riodakı Yay Olimpiya oyunlarında biz 18 medal qazandıq və ümumi medal sayına görə dünyada 14-cü yerdə qərarlaşdıq. 10 milyon əhalisi olan və cəmi 25 il bundan əvvəl müstəqilliyini bərpa etmiş bir ölkə üçün bu, böyük bir nailiyyətdir. Hər dəfə Bakıya nüfuzlu idmançılar təşrif buyurduqda, biz idmanın inkişafının şahidi oluruq. Əminəm ki, səfərinizdən sonra sizin kimi məşhur olmaq üçün idman seksiyalarına, idman komandalarına çoxlu sayda uşaqlar yazılacaqlar.

**Maurisio Süleyman:** Onlar hamısı icmalarda uşaqlarla məşğul olur, məktəblərə, uşaq evlərinə gedir və həmişə ədalətli oyun prinsiplərini, idmanı və daha yaxşı insan olmağın yollarını öyrədirlər. Mən öz döyüşçülərimizlə çox fəxr edirəm, onlar nəinki ölkə, dünya miqyasında qəhrəmandırlar. Bütün dünyanın diqqəti bu həftə boksun paytaxtı olan Bakıya yönəlibdir. Biz çox fərəhlənirik, Sizə minnətdarıq, qonaqpərvərliyiniz dünyada bir çoxları üçün nümunədir.

**İlham Əliyev:** Çox sağ olun. Məşhur atletlər uğurla çıxış etdikdən və karyeralarına son qoyduqdan sonra uğurlu biznesmen, siyasətçi olurlar. Vitali çox uğurlu fəaliyyət gös-

tərən merdir. Mənə gəldikdə isə mən də bu vəzifəyə Olimpiya Komitəsindən gəlmişəm. Çünki 20 il bundan əvvəl mən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti və yalnız ondan 6 il sonra Azərbaycan Prezidenti seçildim. Beləliklə, mən də idmanı təmsil edirəm, mən də sizin ailənizin bir üzvüyəm.

*Gənclər və İdman naziri Azad Rəhimov bu tədbirdə iştirak edən dünya çempionlarının Azərbaycandakı uşaq evlərinə baş çəkəcəklərini və uşaqlarla görüşəcəklərini dedi, qonaqlar üçün Bakıda rəngarəng proqramların təşkil olunduğunu və keçirildiyini bildirdi. Nazir Ümumdünya Boks Şurasının Bakıda keçirilən 55-ci Konvensiyasının işi barədə də məlumat verdi.*

**Maurisio Süleyman:** Konvensiya dünyada 55 ildir ki, keçirilir. Biz bir çox ölkələrdə bu Konvensiyanı keçirmişik. Bizim ümumi rəyimiz belə oldu ki, tədbirin ən səmimi, ən qonaqpərvər və gözəl şəkildə təşkil olunduğu yer Azərbaycandır. Əgər Siz göstərdiyiniz nümunə əsasında – Azərbaycanın idman qurğuları sanki başqa bir aləmdir – işə başlamaq üçün bu şərəfi və imkanı versəniz, biz Ümumdünya Boks Şurasının İdarə Heyəti və çempionları olaraq, Azərbaycanda peşəkar boksu inkişaf etdirmək üçün üzərimizə öhdəlik götürməyə hazırıq. Çünki Azərbaycanda yaxşı, genişürəkli idmançılar vardır və onlar dünya çempionları ola bilərlər. Biz əminik ki, 3 ildən çox olmayan müddətdə Azərbaycandan peşəkar boks üzrə ilk dünya çempionu çıxacaq.

**İlham Əliyev:** Mən buna dəstək göstərəcəyəm. Düşünürəm ki, sizin dəstəyinizlə nazirliklə birlikdə bunu təşkil etmək olar, çünki boks çox məşhurdur.

**Vitali Kliçko** (*keçmiş dünya çempionu*): Cənab Prezident, mən bir neçə söz demək istəyirəm. Bu çox möhtəşəm bir tədbirdir. Ümumdünya Boks Şurasının prezidenti Maurisio Süleymanın qeyd etdiyi kimi, hər bir kəs məmnundur. Gözəl ab-hava vardır. Bütün dünyanın diqqəti Azərbaycandadır. Dünyanın müxtəlif yerlərindən olan jurnalistlər Bakını, bu çox önəmli tədbiri dünya miqyasında işıqlandırırlar. Bu tədbir çox

qeyri-adi bir tədbirdir, çünki ilk dəfə Konvensiyanın iclası boks üzrə dünya çempionu olmayan ölkədə keçirilir. Mən əminəm ki, bütün infrastrukturla, belə bir yaxşı komanda ilə – məni infrastrukturun necə inkişaf etməsi heyrətləndirib – Ümumdünya Boks Şurasının köməyi ilə çox tezliklə Azərbaycanda yaxşı boksçular, Evander Holifild kimi dünya ulduzları yetişdirilə bilər.

**İ l h a m Ə l i y e v:** Azərbaycanda biz həmişə deyirik ki, gənc nəsil idmanda çox fəal olmalıdır. Çünki idman nizam-intizam, ləyaqət deməkdir, idman insanlara yaxşı hisslər aşılayır. Həqiqi idmançı heç vaxt özündən zəif olana hücum etməz, xüsusilə çox güclü fiziki imkanlara malik olan boksçuları, karateçiləri, güləşçiləri nəzərdə tuturam. Məşhur idmançıların davranışı gənc nəsil üçün yaxşı örnəkdir. Mən ölkəmizdə həmişə atletlərimizə dəstək olmağa çalışıram, çünki onlar buna layiqdir, onlar yaxşı medallar qazanır, bayrağımızı ucaldır, həm də gənc nəslə örnəkdirlər. Çünki idman gənc nəsli yaxşı əməllərə cəlb etmək, onları küçələrdən, narkotiklərdən, spirtli içkilərdən, pis vərdişlərdən, cinayətdən ayırmaq üçün ən yaxşı vasitədir. Əfsuslar olsun ki, Sovet İttifaqının dağılması ərəfəsində və ondan sonrakı ilk illərdə tam xaos, yoxsulluq və anarxiyaya görə bir çox idmançılar qeyri-qanuni fəaliyyətlə məşğul idilər. Buna görə də 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçildikdə mənim əsas məqsədim idmançıları yenidən idmana qaytarmaq idi və bu, baş verdi. Bu gün idmançı Azərbaycanda çox hörmətli adamdır. Hökumət onlara mükafat, çoxlu imtiyazlar verir, dövlət səviyyəsində keçirilən təşviqat kampaniyalarında biz onların təkcə necə döyüşdüyünü yox, həm də necə davrandığını, gənc nəslə necə münasibət göstərdiklərini nümayiş etdiririk. Həqiqətən də cəmiyyətin maariflənməsi və sağlamlığı üçün idmanın çox böyük təsiri vardır. Siz etdiklərinizi təkcə idman naminə etmirsiniz, bunu dünya üçün, sülh üçün edirsiniz. Ailəniz çoxmillətli, müxtəlif etnik mənsubiyyətli, çoxkonfessiyalıdır.

Siz sülhsevər, eyni zamanda, çox güclü, həmişə özünü, ətrafındakı insanları müdafiə etmək iqtidarında olan, lakin gücündən və döyüş qabiliyyətindən yaxşı əməllər üçün istifadə edən insanlar kimi, dünyanın necə fəaliyyət göstərməli olduğunu nümayiş etdirirsiniz. Ona görə mən sizi təbrik etmək istəyirəm. Ümidvaram ki, gələcəkdə də Bakıda görüşəcəyik.

* * *

*Sonra prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya idmanın boks növünə verdikləri dəstəyə görə Ümumdünya Boks Şurasının çempion kəmərləri xatirə hədiyyəsi olaraq təqdim edildi.*

*Sonda xatirə şəkilləri çəkdirildi.*

*Qeyd edək ki, Ümumdünya Boks Şurasının 55-ci Konvensiyasının Bakıda keçirilməsi və dünyanın ən məşhur boksçularının bu tədbirdə iştirakı bir daha ölkəmizin dünya idmanına mühüm töhfələr verdiyini, Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini göstərir. Bu həm də ölkəmizin təbliği və Azərbaycan idmanının dünyada tanıdılması baxımından son dərəcə əhəmiyyətli addımdır. Fərəhləndirici haldır ki, artıq Azərbaycanda idmanın müxtəlif növləri inkişaf edir, onlara maraq durmadan artır. Bu da ölkəmizdə yeni və güclü idmançı nəslinin yetişməsinə xidmət edir.*

## İTALİYANIN «LEONARDO» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ALESSANDRO PROFUMONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 oktyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də İtaliyanın «Leonardo» şirkətinin baş icraçı direktoru Alessandro Profumonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*«Leonardo» şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilk dəfə Bakıda olduğunu, paytaxtımızın gözəlliyinin onda dərin təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Alessandro Profumo bu ilin mayında «Leonardo» şirkətinin baş icraçı direktoru təyin olunduğunu və ilk xarici səfərini Azərbaycana etdiyini vurğulayaraq, ölkəmizin İtaliya üçün və eləcə də təmsil etdiyi şirkət üçün böyük əhəmiyyət daşıdığını dedi. Alessandro Profumo «Leonardo» şirkətinin çoxşaxəli fəaliyyət göstərdiyini qeyd edərək, ölkəmizdə keçirəcəyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev Alessandro Profumonu «Leonardo» şirkətinin baş icraçı direktoru təyin olunması münasibətilə təbrik etdi. Dövlətimizin başçısı bu ilin əvvəlində «Leonardo» şirkətinin sabiq baş icraçı direktoru Mauro Moretti ilə görüşünü xatırladaraq Alessandro Profumonun ilk xarici səfərini Azərbaycana etməsini ölkəmizə olan marağın yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycan ilə İtaliya arasında əlaqələrə toxunan prezident İlham Əliyev ikitərəfli əməkdaşlığımızın gündəliyinin çox geniş olduğunu, ölkələrimizin bir çox isti-*

*qamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, sənaye, ticarət sahələrində uğurlu əməkdaşlıq etdiklərini bildirdi.*

*Görüş zamanı «Leonardo» şirkəti ilə ölkəmizin bir çox strukturları, o cümlədən Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, SOCAR, «Silkway» şirkəti arasında əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, kibertəhlükəsizlik sahəsində perspektivlər müzakirə edildi və əməkdaşlığımızın yaxşı potensiala malik olduğu bildirildi.*

## QEYDLƏR

**1. Elçin Quliyev,** E l ç i n  İ s a ğ a  o ğ l u (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 5.

**2. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 5, 65, 89–90, 101, 190, 206, 246, 278–279.

**3. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yaran-

dıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 6, 20, 38, 112, 117, 120, 129, 130, 131, 132, 135, 136, 147, 162, 218, 228, 282, 293, 298.

**4. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 8.

**5. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 11.

**6. V Məhəmməd** (d.1969) – 2016–2019-cu illərdə Malayziyanın Sultanı olmuşdur. – 11.

**7. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 12, 195.

**8. Almazbek Atambayev** (d.1956) – Qırğız Respublikasının dövlət və siyasi xadimi. 2011–2017-ci illərdə Qırğız Respublikasının Prezidenti olmuşdur. – 12, 195.

**9. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Zilhiccə ayının 10-cu günü başlanır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 13–14.

**10. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 16, 105.

**11. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 16, 105.

**12. Vyetnam,** Vyetnam Sosialist Respublikası (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min km$^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 18, 116–117.

**13. Ramin Quluzadə** (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini işləmişdir. 2017-ci ildən Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar naziridir. – 30.

**14. Füzuli rayonu** (1959-cuilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 36, 190.

**15. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 36, 72–73, 139, 143–144, 205, 206.

**16. Şahin Mustafayev,** Şahin Abdulla oğlu (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 61, 199, 210.

**17. Makedoniya,** Şimali Makedoniya Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 25,3 min $km^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. Paytaxtı Skopye şəhəridir. – 63.

**18. George İvanov** (d.1960) – Makedoniyanın dövlət və siyasi xadimi. 2009-cu ildən Makedoniya Respublikasının Prezidentidir. – 63.

**19. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin

sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 64–65, 120, 288.

**20. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 70, 163, 165, 204, 232.

**21. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 120,5 min km$^2$, əhalisi 25,5 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyan şəhəridir. – 76.

**22. Mixeil Canelidze** (d.1981) – Gürcüstanın ictimai və dövlət xadimi, 2015–2018-ci illərdə Gürcüstan Respublikasının Xarici İşlər naziri olmuşdur. – 72–73.

**23. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 73.

**24. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 74–75, 104, 132, 136–140, 148, 151–152, 183, 206, 254–255, 281.

**25. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 74–75.

**26. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində isə yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 74, 75, 104, 137–138, 151–152, 254–255.

**27. Kim Çen In** (d.1982) – Şimali Koreyanın siyasi xadimi. 2011-ci ildən Koreya Əmək Partiyasının Birinci katibi, Koreya Xalq Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin Birinci sədri, Koreya Xalq Ordusunun Ali Baş Komandanıdır. – 76.

**28. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min $km^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 77, 119–120.

**29. Emoməli Rəhmon,** E m o m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 77, 119, 120.

**30. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 78, 147.

**31.** «**Şahdəniz-2**» – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmış, 2019-cu ildə isə 2 milyard $m^3$ qazın çıxarılması nəzərdə tutulur. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa ölkələrinə nəql edilməsi üçün mövcud infrastrukturun genişləndirilməsi və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 78, 137, 138.

**32. Səngəçal terminalı** – Azərbaycanın neft və qaz sənayesində həyati əhəmiyyətə malik obyektlərdən biri. Terminal dənizdəki yataqlardan hasil olunan nefti və qazı qəbul edir, texnoloji emaldan keçirir, saxlayır və ixrac edir. 542 hektar ərazini əhatə edir və dünyanın ən böyük neft və qaz terminallarından biridir. Tetminalın texniki emal sistemlərinin ümumi gücü gündə 1,2 milyon barrel neft və «Şahdəniz» qazı üçün gündəlik 25,5 milyon kubmetr qaz təşkil edir. – 79, 132.

**33. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 80, 97, 205, 245, 246, 247, 257, 276, 277.

**34. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 81.

**35.** «**Azəri–Çıraq–Günəşli**» – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km

şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 82, 83, 128–150.

**36. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 87–88.

**37. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 88, 133, 138, 139, 142**.**

**38. Valeri Gerasimov** (d.1955) **–** Rusiyanın hərbi xadimi. 2012-ci ildən Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisidir. – 89–90.

**39. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil-qərargahı Kopenhagendədir. Assambleyanın 14 daimi əməkdaşı vardır. – 93–94.

**40. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, erməni işğalçıları hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. – 94, 106, 111, 171 172, 188, 189, 196, 197, 250.

**41. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon km$^2$, əhalisi 133,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 95, 125, 198.

**42. Enrike Penya Nyeto** (d.1966) – Meksikanın siyasi xadimi. 2012–2018-ci illərdə Meksika Birləşmiş Ştatlarının Prezidenti olmuşdur. – 95, 125, 198.

**43. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 96–110, 189, 192, 297.

**44. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici

orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 96–111.

**45. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 97, 253.

**46. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 97, 170–172, 190.

**47. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 97, 148, 173–179, 182–184, 188–197.

**48. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 97, 144–146, 148, 155–156.

**49.** «**Atəşgah**» – Suraxanı qəsəbəsində atəşpərəstlər məbədi. Beşguşəli daxili həyəti əhatə edən hücrələrdən və həyətin ortasında tikilmiş üstü günbəzlə örtülən dördbucaqlı «od məbədindən» ibarətdir. «Atəşgah»ın əsası şübhəsiz ki, qədim zamanlarda qoyulmuşdur. Lakin indiki binanı XVIII əsrdə Hindistanın Multan vilayətindən gələn atəşpərəst tacir və zəvvarlar tikdirmişlər. Hücrələrin üzərindəki hind dilində yazılmış kitabələrdə 1713-cü ildə tikildiyi göstərilir. – 98.

**50. Qobustan qayaüstü rəsmləri** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü rəsmlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların 5-də Mezolit, 4-də Neolit, 7-də Tunc, 1-də Antik və 5-də orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 98.

**51. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 100–102, 105.

**52. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 100–102, 105.

**53. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ - l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadim, Qazaxıstan Respublikası Təhlükəsizlik Şurasının sədri, 1979-cu ildə Qaza-

xıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti, 1991-ci ilin dekabrından 2019-cu ilin martına qədər Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 103–110.

**54. Myanma,** Myanma İttifaqı Respublikası – Cənub-Şərqi Asiyada, Hind-Çin yarımadasının şimal-qərb hissəsində dövlət. 1989-cu ilə qədər Birma adlanırdı. Sahəsi 678,5 km$^2$, əhalisi 55 milyon nəfərdir. İnzibati ərazisi 7 milli və 7 administrativ vilayətə bölünür. Paytaxtı Neypyido şəhəridir. – 104.

**55. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,7 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 104–105, 109.

**56. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 104–105, 109.

**57. Mavritaniya,** Mavritaniya İslam Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 1031 min km$^2$, əhalisi 3,89 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşot şəhəridir. – 105.

**58. Məhəmməd Uld Əbdüləziz** (d.1956) – Mavritaniyanın hərbi və siyasi xadimi, 2009-cu ildən Mavritaniya İslam Respublikasının Prezidentidir. – 105.

**59. Qvineya,** Q v i n e y a  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 246 min km$^2$, əhalisi 12,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Konakri şəhəridir. – 105.

**60. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107.

**61. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 107, 189.

**62. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar

və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 107, 108.

**63. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 1994-cü ilin əvvəlində kənd Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cocuq Mərcanlı cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. – 107, 108, 197.

**64. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 109, 250.

**65. Məhəmməd Qani,** Əşrəf Qani (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 109.

**66. Banqladeş,** Banqladeş Xalq Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 109.

**67. Əbdül Həmid** (d.1944) – Banqladeşin siyasi və dövlət xadimi. 2013-cü ildən Banqladeş Xalq Respublikasının Prezidentidir. – 109.

**68. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 109.

**69. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman boşnak, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya və Herseqovinadan ibarət federativ respublika yarandı. Sahəsi 51,2 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 109–110, 111, 153–154.

**70. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 110, 185, 186.

**71. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir. (İngiltərə hökuməti artıq qurumdan çıxmaq üzrədir).

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 122, 123–124.

**72. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı, BMT-nin ixtisaslaşmış orqanı. BMT-nin Bretton-Vudsda keçirilən konfransının qərarına əsasən (1944) yaradılıb, 1947-ci ildən əməliyyatlara başlayıb. Mənzil-qərargahı Vaşinqtondadır. 189 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383 milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 126–127.

**73. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış,

1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan Konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 126.

**74. Mehriban Əliyeva,** M e h r i b a n   A r i f   q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond  milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları  şəkər, talassemiya  və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına  yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə  YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkə-

mizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 128, 161,162, 163, 164, 173, 182, 188, 197, 260,265, 273, 276, 280, 311, 312, 328.

**75. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 129, 133, 134, 137, 139, 141, 146, 147, 148, 150, 158, 330.

**76. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dün-

yanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 129, 130, 132, 134, 135, 138, 142, 145.

**77. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 132, 136, 138, 142, 144.

**78. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. –132, 138.

**79. *bp*,** «British Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 134, 142, 146–149, 150, 157.c

**80. Berat Albayrak** (d.1978) – Türkiyə biznesmeni və siyasətçisi. 2018-ci ildən Türkiyənin Xəzinə və Maliyyə naziridir. 2015–2018-ci illərdə Türkiyənin Enerji və Təbii Sərvətlər naziri olmuşdur. – 136–140, 151–152.

**81. Böyük Britaniya,** Böyük Britaniya və Şimal-i İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi

65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 140–143, 153–154.

**82. Tereza Mey** (d.1956) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2016-cı ildən Böyük Britaniyanın Baş naziridir. – 141–142, 153.

**83. Zaha Hadid,** Zaha Məhəmməd Hadid (1950–2016) – ərəb mənşəli Britaniya memar və dizayneri, dekonstruktivizmin görkəmli nümayəndəsi. Zaha Hadid, demək olar ki, gənc yaşlarından çoxlu layihələri özünün fantaziyası əsasında – dekonstruktivizm üslubunda işləmişdir. Zaha Hadidin ən gözəl layihələrindən biri də Bakıda inşa edilmiş Heydər Əliyev Mərkəzidir. – 141.

**84. Şinzo Abe** (d.1954) – Yaponiyanın dövlət və siyasi xadimi. 2006–2007 və 2012-ci ildən Yaponiyanın Baş naziridir. – 145.

**85. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 146–149, 157.

**86. Bakı Ali Neft Məktəbi (BANM)** – Azərbaycanda ali təhsil müəssisəsi. 2011-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibində yaradılmışdır. Bu ali məktəb beynəlxalq standartlara uyğun ən müasir tədris proqramları və tədris texnologiyaları əsasında sənayenin müasir tələblərinə cavab verən yüksəkixtisaslı mütəxəssislər hazırlayır.

BANM 3 ixtisas üzrə – Neft-qaz mühəndisliyi; Kimya mühəndisliyi; Proseslərin avtomatlaşdırılması mühəndisliyi üzrə mütəxəssislər hazırlayır. – 149.

**87. Azərbaycan Diplomatik Akademiyası** (A D A U n i v e r s i t e t i), – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit və s. sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 149.

**88. Chevron korporasiyası** – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Ramon şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən Chevronun dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41000 işçisi vardır. – 150.

**89. IMPEX** – Yaponiyanın neft korporasiyası. 1966-cı ildə yaradılmışdır. – 150.

**90. Statoyl** – Norveç şirkəti, 1972-ci ildən fəaliyyət göstərir. Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 150, 158.

**91. ExxonMobil** – dünyada ən böyük özəl neft şirkətlərindən biri. Neftin çıxarılması, istehsalı və paylanması ilə məşğuldur. Baş ofisi ABŞ-ın İrvinq şəhərində yerləşir. – 150.

**92. TPAO**, Türkiyə Petrolları şirkəti – 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. Hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 150.

**93. İTOÇU –** Yaponiya şirkəti. 1858-ci ildə yaradılmışdır. Dünyanın 176 ölkəsində şirkətləri və firmaları vardır. 1996-cı ilin avqustundan Bakıda fəaliyyət göstərir. – 150.

**94. AŞPA-nın Monitorinq Komitəsi** – 1993-cü ildə yaradılmışdır. Avropa Şurası Parlament Assambleyasının Hüquq siyasəti və İnsan hüquqları komissiyaları AŞ-a qəbul edilmiş yeni dövlətlərin öz üzərlərinə götürdükləri öhdəlikləri necə yerinə yetirmələrini yoxlayır və hesabat verir. Təqdim olunan məruzələr parlament üzvləri tərəfindən müzakirə edilir. – 159.

**95. Çili,** Çili Respublikası – Cənubi Amerikanın cənub-qərbində dövlət. Sahəsi 756, 9 min $km^2$, əhalisi 18 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı ikipalatalı parlamentdir. (Senat və Deputatlar Palatası). Paytaxtı Santyaqo şəhəridir. – 160.

**96. Emmanuel Makron** (d.1977) – Fransanın dövlət və siyasi xadimi. 2017-ci ildən Fransa Respublikasının Prezidentidir. İrəli, Respublika siyasi partiyasının yaradıcısı və lideridir. – 171.

**97. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 173–179, 182–184, 188–197.

**98. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat. 2017-ci ildən ABŞ-ın 45-ci prezidentidir. – 177, 182, 183, 184, 316.

**99. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların İşi üzrə Baş Komissar olmuşdur. 2017-ci il yanvarın 1-dən BMT-nin Baş katibidir. – 177, 196–197.

**100. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun

vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 182, 188.

**101. Salman ibn Əbdüləziz Al Səud** (d.1935) – 2015-ci ildən Səudiyyə Ərəbistanının Kralıdır. – 185.

**102. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 189, 190, 191.

**103. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri vardır. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 190.

**104. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 190.

**105. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 190, 197.

**106. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 193, 204, 304, 305.

**107. Ukrayna,** U k r a y n a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 206, 321–322.

**108. Cəmil Əliyev,** C ə m i l  Ə z i z  o ğ l u (d.1946) – tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Respublika Milli Onkologiya Mərkəzinin direktoru, Rusiya TEA-nın və Azərbaycan MEA-nın akademiki. 1979-cu ildə yazdığı «Dərinin bədxassəli şişlərində plastik operasiyalar» monoqrafiya SSRİ TEA-nın N.N.Petrov adına mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 222.

**109. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 228.

**110. Sinqapur,** S i n q a p u r R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 724,2 $km^2$, əhalisi 5,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 244.

**111. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 247.

**112. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 250.

**113. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 253.

**114. Frank-Valter Ştaynmayer** (d.1956) – Almaniyanın siyasi və dövlət xadimi. 2017-ci il martın 19-dan Almaniya Federativ Respublikasının Prezidentidir. – 257.

**115. Lütfi Zadə,** Lütfəli Rəhim oğlu Ələsgərzadə (1921–2017) – dünya şöhrətli azərbaycanlı alim. Süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi. Qeyri-səlis məntiq nəzəriyyəsi Amerika elmi cəmiyyəti tərəfindən qəbul edilməsə də, ötən əsrin 80-ci illərində bu nəzəriyyə yapon alimlərinin diqqətini cəlb etmiş və onlar bu nəzəriyyədən yaraqlanaraq, milyonlar qazanmışlar. Bu gün bu nəzəriyyə iqtisadiyyatın bütün sahələrində geniş tətbiq olunur.

Lütfi Zadə bundan  başqa 5 fundamental nəzəriyyənin banisidir. O, ömrünün sonuna kimi Berkli (Kaliforniya) Universitetinin professoru olmuşdur. – 264.

**116. Dünya İqtisadi Forumu,** D a v o s  İ q t i s a d i  F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 271, 288.

**117. Nikolay Patruşev** (d.1951) – Rusiyanın dövlət xadimi, ordu generalı. 2008-ci ildən Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədridir. – 278–279.

**118. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 278, 279.

**119. Faiq Qarayev** (d.1959) – SSRİ idman ustası, Azərbaycanın Əməkdar məşqçisi, Azərbaycanın Əməkdar bədən tərbiyəsi və idman xadimi, 2002-ci ildən qadınlardan ibarət milli yığma voleybol komandasının baş məşqçisi olmuşdur. Azərbaycan Voleybol Federasiyasının vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 318, 319, 320.

**120. Cavid Qurbanov,** C a v i d  Q ə n b ə r  o ğ l u (d.1958) – mühəndis. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir

Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının üzvüdür. Azərbaycan Voleybol Federasiyasının prezidentidir.

Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya məsələləri daimi Komitəsinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 320.

**121. Petro Poroşenko** (d.1965) – biznesmen və siyasətçi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali Radasının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014-cü ildən Ukrayna Respublikasının Prezidentidir. – 322.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Rövnəq** – 78, 147
**Abe Şinzo** – 145
**Abutalıbov Hacıbala** – 62, 86
**Ağayev Asif** – 293
**Al Səud Məhəmməd** – 186
**Al Səud Salman** – 185
**Albayrak Berat** – 136–140, 151–152
**Appaturay Ceyms** – 250
**Arbaçkov Yuri** – 323
**Atambayev Almazbek** – 12, 195
**Azur Cihad** – 126–127
**Bağırov Hüseynqulu** – 241
**Baxer Lars** – 158
**Bernard Hopkins** – 323
**Boriçiç Aleksandr** – 261–262
**Cabbarov Mikayıl** – 91, 161
**Canelidze Mixeil** – 72–73
**Canikli Nurəddin** – 254–255
**Couns Qari** – 78
**Çavuşoğlu Mövlud** – 74–75
**Çakrabarti Suma** – 87–88
**Çan Day Kuanq** – 18
**Çionq Txi May** – 116–117
**Dadli Robert** – 146–149, 157
**D'ambrosio Vanessa** – 17

**Dodon İqor** – 8
**David Mario** – 256–257
**Dunkan Alan** – 140–143, 153–154
**Dosayev Yerbolat** – 96
**Dzyu Kostya** – 323
**Eloşvili Elia** – 143–144
**Eminov Etibar** – 202
**Əhmədova Qərənfil** – 28–29
**Əhmədzadə Əhməd** – 223
**Əl-Falih Xalid** – 110
**Əl-Osaymin Yusif** – 105–106
**Əliyev Cəmil** – 222
**Əliyev Heydər** – 6, 20, 38, 112, 117, 120, 129, 130, 131, 132, 135,136,147, 162, 218, 228, 282, 293, 298
**Əliyeva Leyla** – 182, 188
**Əliyeva Mehriban** – 128, 161,162, 163, 164, 173, 182, 188, 197, 260,265, 273, 276, 280, 311, 312, 328
**Ərdoğan Rəcəb Tayyib** – 74, 75, 104, 137–138, 151–152, 254–255
**Əsgərov Cahangir** – 9
**Əzizova Aygün** – 238–239
**Gerasimov Valeri** – 89–90
**Hacıyev Əlihüseyn** – 225–227
**Hadid Zaha** – 141
**Hamid Abdul** – 109
**Həsənov Avdı** – 239–240

**Hətəmov Sevindik** – 228
**Holifild Evander** – 323
**Honlayn Malkolm** – 178–179
**Hori Manabu** – 144–146, 155–156
**Hümbətov Allahverdi** – 299–300
**Hüseynzadə Çingiz** – 273
**Hüseyn Məmnun** – 104–105, 109
**Hüseynov Qorxmaz** – 290, 304
**Xeriya Mişel** – 160
**Xo Şi Min** – 117
**İsgəndərov Nəbi** – 308–309
**İvanov George** – 63
**İzetbeqoviç Bakir** – 109–110, 111
**Kalla Yusuf** – 109
**Katulin Georgi** – 262–263
**Keyta İbrahim** – 187
**Kim Çen In** – 76
**Kiska Andrey** – 15
**Kliçko Vitali** – 313
**Klimkin Pavlo** – 321–322
**Konde Alfa** – 105
**Koçijançiç Janez** – 260, 272–273
**Kvirikaşvili Giorgi** – 143–144
**Qani Məhəmməd** – 109
**Qaraşov Taleh** – 38
**Qarayev Faiq** – 318, 319, 320
**Qayıbov Ənvər** – 289–290
**Qolikova Tatyana** – 65
**Quliyev Elçin** – 5

**Quliyeva Zəhra** – 190
**Quluzadə Ramin** – 30
**Qurbanov Cavid** – 320
**Quterreş Antonio** – 177, 196–197
**Layçak Miroslav** –182
**Lömuan Jan-Batist** – 170–172
**Lukaşenko Aleksandr** – 251, 252
**Lütfi Zadə** – 264
**Maduro Nikolas** – 110
**Mahmudov Tofiq** – 218
**Makron Emmanuel** – 171
**Moretti Mauro** – 329
**Medenitsa Vesna** – 248–249
**Merkel Angela** – 247
**Mey Tereza** – 141–142, 153
**V Məhəmməd** – 11
**Məmmədov Adil** – 282
**Məmmədov Saleh** – 20, 234, 282, 306
**Məmmədov Tələt** – 41
**Mirziyoyev Şavkat** – 16, 105
**III Msvati** – 19
**Mustafayev Şahin** – 61, 199, 210
**Muttonen Kristin** – 93–94
**Mun Ce-İn** – 258
**Niinistö Sauli** – 195
**Nazarbayev Nursultan** – 103–110
**Nyeto Enrike** – 95, 125, 198
**Hori Manabu** – 144
**Orban Viktor** – 121, 122

**Park Cu-sun** –84–85
**Patruşev Nikolay** – 278–279
**Predan Sezar** – 159
**Preka Mari-Luiz** – 181
**Poroşenko Petro** – 322
**Profumo Alessandro** – 329–330
**Putin Vladimir** – 278, 279
**Rəhimov Azad** – 272
**Rəhmon Emoməli** – 77, 119–120
**Rossellon Sezar** – 256
**Ruddi Ceyms** – 175
**Ruhani Həsən** – 100–102, 105
**Rzayev Baba** – 219
**Sarouma Abdallah** – 109
**Seyidli Jalə** – 169
**Səlimova Cənnət** – 264
**Si Cinpin** – 253
**Soliyev Rustam** – 119–120
**Szederkenyi Viktor** – 121–122
**Süleyman Maurisio** – 323, 324, 325, 326
**Şennak Stefan** – 159
**Şnayev Mark** – 174–176
**Şirəliyev Oqtay** – 220
**Ştaynmayer Frank-Valter** – 257
**Temer Mişel** – 182
**Tramp Donald** – 177, 182, 183, 184, 316
**Uld Məhəmməd Əbdüləziz** – 105
**Vizer Marius** – 273–274
**Vəliyev Rauf** – 78

**Vuyanoviç Filip** – 248
**Yaqub Həlimə** – 244
**Yankauskas Kestutis** – 123–124
**Zas Stanislav** – 251–252

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Ağcabədi** | – 36 |
| **Ağdam** | – 107 |
| **Ağdaş** | – 61 |
| **Ağdərə** | – 190 |
| **Afrika** | – 105, 313 |
| **Alxanlı** | – 190 |
| **Almaniya** | – 80, 97, 205, 245, 246, 247, 257, 276, 277 |
| **Amerika Birləşmiş Ştatları** | – 97, 148, 173–179, 182–184, 188–197, 264, 313, 316 |
| **Antalya** | – 9 |
| **Aralıq dənizi** | – 144 |
| **Asiya** | – 194 |
| **Astana** | – 96–111 |
| **Astara** | – 41, 61 |
| **Avropa** | – 138, 139, 194 |
| **Badamdar** | – 112–113 |
| **Balaxanı** | – 199–204 |
| **Banqladeş** | – 109 |
| **Belarus** | – 206, 251–252 |
| **Belçika** | – 206 |
| **Bolqarıstan** | – 206 |
| **Bosniya və Herseqovina** | – 109–110, 111, 153–154 |
| **Böyük Britaniya** | – 140–143, 153–154 |

**Braziliya** – 97, 182
**Brüssel** – 124
**Ceyhan** – 132
**Cəbrayıl** – 190, 197
**Cəlilabad** – 20–37
**Cənub-Şərqi Asiya** – 117
**Cənubi Qafqaz** – 314
**Cocuq Mərcanlı** – 107, 108, 197
**Çexiya** – 206, 314
**Çili** – 160
**Çilov** – 98
**Çin** – 39, 97, 253
**Dağlıq Qarabağ** – 94, 106, 111, 171 172, 188, 189, 196, 197, 250
**Dəmirçi** – 297
**Əfqanıstan** – 109, 250
**Finlandiya** – 195
**Fransa** – 97, 170–172, 190
**Füzuli** – 36, 190
**Göyçay** – 215
**Gürcüstan** – 36, 72– 73, 139, 143–144, 205, 206
**Hacıqabul** – 215
**Həştərxan** – 5
**Hindistan** – 148
**Xaçmaz** – 286
**Xankəndi** – 81
**Xəzər dənizi** – 5, 7, 98, 101, 142, 241
**Xıdırlı** – 241

**Xızı** – 286
**Xocalı** – 107, 189
**Xorvatiya** – 206, 281
**İndoneziya** – 109
**İordaniya** – 183
**İran** – 100–102, 105
**İspaniya** – 97
**İsrail** – 176
**İtaliya** – 139, 206, 246, 329–330
**Kaliforniya** – 264
**Kanada** – 97
**Kazan** – 9
**Kiyev** – 9
**Komor Adaları İttifaqı** – 109
**Koreya Xalq Demokratik Respublikası** – 76
**Koreya Respublikası** – 41, 47, 84–85, 258
**Kürdəmir** – 36
**Qafqaz** – 250
**Qax** – 36
**Qala** – 205
**Qara dəniz** – 132
**Qazaxıstan** – 96–111
**Qərbi Avropa** – 313
**Qırğız Respublikası** – 12, 195
**Qobustan rayonu** – 282–292
**Qusar** – 286
**Qvineya** – 105
**Lahıc** – 312
**Las Veqas** – 315

**Latviya** – 314
**Livan** – 183
**Lənkəran** – 38–61
**Macarıstan** – 121–122, 205, 243, 246, 314
**Makedoniya** – 63
**Malayziya** – 11
**Mali** –187
**Malta** – 181
**Masallı** – 41, 215
**Mavritaniya** – 105
**Meksika** – 95, 125, 198
**Mərkəzi Asiya** – 105, 126
**Mineralnıye Vodı** – 9
**Moskva** – 9
**Mingəçevir** – 215
**Mərkəzi Asiya** – 250
**Moldova** – 8
**Monteneqro** – 248–249
**Myanma** – 104
**Naftalan** – 286
**Neftçala** – 210–227
**Niderland** – 206, 277, 280
**Norveç** – 80, 148
**Nyu York** – 173–179, 182–184, 188–197, 248
**Ordubad** – 102
**Orta Şərq** – 126
**Özbəkistan** – 16, 105
**Pakistan** – 104–105, 109

**Pirallahı** – 98
**Polşa** – 246, 314
**Rusiya** – 5, 65, 89–90, 101, 190, 206, 246, 278–279
**Saatlı** – 36
**Sabunçu** – 62
**Salyan** – 36, 228–242
**San-Marino** – 17
**Serbiya** – 206, 246
**Səudiyyə Ərəbistanı** – 110, 185, 186
**Sinqapur** – 244
**Slovakiya** – 15, 314
**Sumqayıt** – 215
**Supsa** – 132
**Suriya** – 183
**Svazilend** – 19
**Şamaxı** – 36, 293–315
**Şuşa** – 107, 108
**Tacikistan** – 77, 119–120
**Tbilisi** – 9
**Tehran** – 9, 101
**Tovuz** – 191
**Türkiyə** – 74–75, 104, 132, 136–140, 148, 151–152, 183, 206, 254–255, 281
**Ucar** – 61
**Ukrayna** – 206, 321– 322
**Venesuela Bolivar Respublikası** – 110
**Vyetnam** – 18, 116 117

**Yaxın Şərq** – 308
**Yaponiya** – 97, 144–146, 148, 155–156
**Yunanıstan** – 139
**Zaqatala** – 41
**Zuğulba** – 91

# MÜNDƏRİCAT

YENİ İNŞA EDİLMİŞ «TUFAN» TİPLİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ İLƏ TANIŞLIQ

*24 avqust 2017-ci il ..........................................................................5*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İQOR DODONA

*24 avqust 2017-ci il ..........................................................................8*

«BUTA AİRWAYS» AVİAŞİRKƏTİNİN BAKIYA GƏTİRİLƏN İLK «EMBRAER 190» TƏYYARƏSİ İLƏ TANIŞLIQ

*25 avqust 2017-ci il ..........................................................................9*

MALAYZİYANIN XV ALİ BAŞÇISI ƏLAHƏZRƏT SULTAN V MƏHƏMMƏDƏ

*28 avqust 2017-ci il ........................................................................11*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*28 avqust 2017-ci il ........................................................................12*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*29 avqust 2017-ci il ........................................................................13*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDREY KİSKAYA

*29 avqust 2017-ci il ........................................................................15*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAVKAT MİRZİYOYEVƏ

*29 avqust 2017-ci il ........................................................................16*

SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ XANIM MİMMA ZAVOLİYƏ VƏ XANIM VANESSA D’AMBROSİOYA

*30 avqust 2017-ci il ........................................................................17*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DAY KUANQA

*30 avqust 2017-ci il ........................................................................18*

SVAZİLEND KRALI ƏLAHƏZRƏT III MSVATİYƏ

*30 avqust 2017-ci il ........................................................................19*

CƏLİLABAD RAYONUNA SƏFƏR

*2 sentyabr 2017-ci il.......................................................................20*

CƏLİLABADIN İÇMƏLİ SU TƏCHİZATI SİSTEMİNİN VƏ KANALİZASİYA ŞƏBƏKƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 sentyabr 2017-ci il ......................................................................24*

LƏNKƏRAN RAYONUNA SƏFƏR

*2 sentyabr 2017-ci il*.........................................................................*38*
LƏNKƏRANDA ÇAY, ÇƏLTİK VƏ SİTRUS
MEYVƏLƏRİ İSTEHSALININ İNKİŞAFI
MƏSƏLƏLƏRİNƏ DAİR RESPUBLİKA
MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*3 sentyabr 2017-ci il*.........................................................................*48*

YEKUN NİTQİ

*3 sentyabr 2017-ci il*.........................................................................*54*

SABUNÇU RAYONUNDAKI 74 SAYLI TAM ORTA
MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA
YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*4 sentyabr 2017-ci il*.........................................................................*62*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB GEORGE İVANOVA

*5 sentyabr 2017-ci il*.........................................................................*63*

MDB ÜZV DÖVLƏTLƏRİ ALİ MALİYYƏ NƏZARƏTİ
ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ BAKI
SESSİYASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*5 sentyabr 2017-ci il*.........................................................................*64*

NİZAMİ RAYONUNDA 62 SAYLI MƏKTƏB-LİSEYDƏ
ƏSASLI TƏMİR İŞLƏRİNDƏN SONRA YARADILAN
ŞƏRAİTLƏ TANIŞLIQ

*5 sentyabr 2017-ci il*.........................................................................*66*

NİZAMİ RAYONUNDA 10 SAYLI TAM ORTA
MƏKTƏBDƏ ƏSASLI TƏMİR İŞLƏRİNDƏN SONRA
YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*5 sentyabr 2017-ci il*.........................................................................*68*
NİZAMİ RAYONUNDA 201 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİR İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*5 sentyabr 2017-ci il*.........................................................................*70*

GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ MİXEİL CANELİDZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2017-ci il*.........................................................................*72*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*5 sentyabr 2017-ci il*.........................................................................*74*

KOREYA ƏMƏK PARTİYASININ SƏDRİ, KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ, KOREYA XALQ ORDUSUNUN ALİ BAŞ KOMANDANI ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN INA

*6 sentyabr 2017-ci il*.........................................................................*76*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*6 sentyabr 2017-ci il*.........................................................................*77*

«XANKƏNDİ» SUALTI TİKİNTİ GƏMİSİNİN TƏQDİMAT MƏRASİMİNDƏ İŞTİRAK

*6 sentyabr 2017-ci il*.........................................................................*78*

KOREYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDR MÜAVİNİ PARK CU-SUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 sentyabr 2017-ci il*......................................................................*84*
NƏRİMANOV RAYONUNDA 212 SAYLI TAM ORTA
MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*7 sentyabr 2017-ci il*......................................................................*86*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ
PREZİDENTİ SUMA ÇAKRABARTİNİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*7 sentyabr 2017-ci il*......................................................................*87*

RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİNİN
BAŞ QƏRARGAH RƏİSİ VALERİ GERASİMOVUN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*7 sentyabr 2017-ci il*......................................................................*89*

«TƏHSİL» RESPUBLİKA İDMAN MƏRKƏZİNİN
ZUĞULBA TƏDRİS İDMAN BAZASININ AÇILIŞI
MƏRASİMİ

*8 sentyabr 2017-ci il*......................................................................*91*

ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ
XANIM KRİSTİN MUTTONEN İLƏ GÖRÜŞ

*8 sentyabr 2017-ci il*......................................................................*93*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NYETOYA

*9 sentyabr 2017-ci il*......................................................................*95*

QAZAXISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*9 sentyabr 2017-ci il*......................................................................*96*
«EXPO–2017 ASTANA» BEYNƏLXALQ SƏRGİSİNDƏ AZƏRBAYCANIN VƏ QAZAXISTANIN MİLLİ PAVİLYONLARI İLƏ TANIŞLIQ

*9 sentyabr 2017-ci il*......................................................................*97*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2017-ci il*....................................................................*100*

İƏT-in ELM VƏ TEXNOLOGİYA ÜZRƏ BİRİNCİ SAMMİTİNDƏ İŞTİRAK

*10 sentyabr 2017-ci il*....................................................................*103*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN ÜZVÜ BAKİR İZETBEQOVİÇ İLƏ GÖRÜŞ

*10 sentyabr 2017-ci il*....................................................................*111*

SƏBAİL RAYONUNDA 239 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*11 sentyabr 2017-ci il*....................................................................*112*

SƏBAİL RAYONUNUN 162 SAYLI TAM ORTA MƏKTƏB BİNASINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*11 sentyabr 2017-ci il*....................................................................*114*

VYETNAM KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN KATİBİ ÇİONQ TXİ MAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2017-ci il* ........................................................................*116*
NƏSİMİ RAYONUNDA 268 SAYLI XÜSUSİ
MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA
YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*11 sentyabr 2017-ci il* ........................................................................*118*

TACİKİSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA
YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ RUSTAM SOLİYEV
İLƏ GÖRÜŞ

*12 sentyabr 2017-ci il* ........................................................................*119*

MACARISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA
YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ
VİKTOR SZEDERKENYİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2017-ci il* ........................................................................*121*

AVROPA İTTİFAQININ AZƏRBAYCANDAKI
NÜMAYƏNDƏLİYİNİN YENİ RƏHBƏRİ
KESTUTİS YANKAUSKAS İLƏ GÖRÜŞ

*12 sentyabr 2017-ci il* ........................................................................*123*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB ENRİKE PENYA NYETOYA

*13 sentyabr 2017-ci il* ........................................................................*125*

BEYNƏLXALQ VALYUTA FONDUNUN ORTA ŞƏRQ
VƏ MƏRKƏZİ ASİYA DEPARTAMENTİNİN
DİREKTORU CİHAD AZURUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2017-ci il* ........................................................................*126*

«AZƏRİ», «ÇIRAQ» VƏ «GÜNƏŞLİ» NEFT
YATAQLARI BLOKU ÜZRƏ YENİ SAZİŞİN
İMZALANMASI MƏRASİMİ

*14 sentyabr 2017-ci il* ......................................................................*128*
TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ BERAT ALBAYRAK İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il* ......................................................................*151*

BÖYÜK BRİTANİYANIN DÖVLƏT NAZİRİ ALAN DUNKAN İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il* ......................................................................*153*

YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN PARLAMENTARİ MÜAVİNİ MANABU HORİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il* ......................................................................*155*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il* ......................................................................*157*

STATOYL ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ LARS KRİSTİAN BAXERİN  BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il* ......................................................................*158*

AŞPA MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2017-ci il* ......................................................................*159*

ÇİLİ RESPUBLİKASININ PREZİDENTİ XANIM MİŞEL BAÇELET XERİYAYA

*15 sentyabr 2017-ci il* ......................................................................*160*

ARİF HÜSEYNZADƏ ADINA 20 SAYLI MƏKTƏB-LİSEYİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2017-ci il .........................................................................161*

FRANSA RESPUBLİKASININ AVROPA VƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ JAN-BATİST LÖMUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 sentyabr 2017-ci il .........................................................................170*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA SƏFƏR

*17 sentyabr 2017-ci il .........................................................................173*

ABŞ ETNİK ANLAŞMA FONDUNUN SƏDRİ RAVVİN MARK ŞNAYER VƏ BİR SIRA DİNİ LİDERLƏRLƏ GÖRÜŞ

*18 sentyabr 2017-ci il .........................................................................174*

«BMT İSLAHATLARINA DAİR SİYASİ BƏYANNAMƏYƏ DƏSTƏK» ADLI YÜKSƏK SƏVİYYƏLİ TƏDBİRDƏ İŞTİRAK

*18 sentyabr 2017-ci il .........................................................................177*

AMERİKA YƏHUDİ TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*18 sentyabr 2017-ci il .........................................................................178*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*18 sentyabr 2017-ci il .........................................................................180*

MALTA RESPUBLİKASININ PREZİDENTİ XANIM MARİ-LUİZ KOLEYRO PREKAYA

*18 sentyabr 2017-ci il .........................................................................181*

BMT-nin BAŞ QƏRARGAHINDA KEÇİRİLƏN ÜMUMİ MÜZAKİRƏLƏRDƏ İŞTİRAK

*19 sentyabr 2017-ci il* ......................................................... *182*

ABŞ PREZİDENTİ DONALD TRAMPIN VƏ XANIMININ ADINDAN TƏŞKİL OLUNMUŞ QƏBULDA İŞTİRAK

*19 sentyabr 2017-ci il* ......................................................... *184*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*19 sentyabr 2017-ci il* ......................................................... *185*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT MƏHƏMMƏD BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*19 sentyabr 2017-ci il* ......................................................... *186*

MALİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İBRAHİM BUBAKAR KEYTAYA

*19 sentyabr 2017-ci il* ......................................................... *187*

BMT BAŞ ASSAMBLEYASININ 72-ci SESSİYASININ AÇILIŞINDA İŞTİRAK

*20 sentyabr 2017-ci il* ......................................................... *188*

BMT-nin BAŞ KATİBİ ANTONİO QUTERREŞ İLƏ GÖRÜŞ

*20 sentyabr 2017-ci il* ......................................................... *196*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NYETOYA

*20 sentyabr 2017-ci il ......................................................................198*

BALAXANI SƏNAYE PARKININ AÇILIŞI MƏRASİMİ

*22 sentyabr 2017-ci il ......................................................................199*

AVROPA ÇEMPİONATININ «A» QRUPUNDA YER
ALAN QADINLAR ARASINDA VOLEYBOL ÜZRƏ
AZƏRBAYCAN MİLLİ KOMANDASININ
MACARISTAN YIĞMASI İLƏ OYUNUNA BAXIŞ

*22 sentyabr 2017-ci il ......................................................................205*

«AZƏRBAYCAN İQTİSADİYYATININ STRATEJİ YOL
XƏRİTƏSİ: HESABATLILIQ VƏ ŞƏFFAFLIQ
PROBLEMLƏRİ» MÖVZUSUNDA BEYNƏLXALQ
ELMİ-PRAKTİKİ KONFRANSIN İŞTİRAKÇILARINA

*22 sentyabr 2017-ci il ......................................................................207*

NEFTÇALA RAYONUNA SƏFƏR

*24 sentyabr 2017-ci il ......................................................................209*

NEFTÇALA SƏNAYE MƏRKƏZİNİN AÇILIŞI
MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*24 sentyabr 2017-ci il ......................................................................210*

SALYAN RAYONUNA SƏFƏR

*24 sentyabr 2017-ci il ......................................................................228*

ÇUXANLI–GƏNCƏLİ–PİRATMAN–PARÇA XƏLƏC–
SEYİDAN AVTOMOBİL YOLUNUN AÇILIŞINDA

SALYAN RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*24 sentyabr 2017-ci il ..........................................................................234*
AVROPA ÇEMPİONATININ «A» QRUPUNDA YER
ALAN QADINLAR ARASINDA VOLEYBOL ÜZRƏ
AZƏRBAYCAN MİLLİ KOMANDASININ POLŞA
YIĞMASI İLƏ OYUNUNA BAXIŞ

*24 sentyabr 2017-ci il ..........................................................................243*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
XANIM HƏLİMƏ YAQUBA

*25 sentyabr 2017-ci il ..........................................................................244*

ALMANİYA MİLLİSİNƏ QALİB GƏLƏRƏK,
AVROPA ÇEMPİONATININ DÖRDDƏBİR FİNALINA
YÜKSƏLƏN AZƏRBAYCANIN
QADIN VOLEYBOLÇULARININ NÖVBƏTİ
OYUNUNA BAXIŞ

*25 sentyabr 2017-ci il ..........................................................................245*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ
FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ

*26 sentyabr 2017-ci il ..........................................................................247*

MONTENEQRO ALİ MƏHKƏMƏSİNİN SƏDRİ VESNA
MEDENİTSANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2017-ci il ..........................................................................248*

NATO BAŞ KATİBİNİN QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY İLƏ GÖRÜŞ

*26 sentyabr 2017-ci il .......................................................................250*

BELARUS RESPUBLİKASININ TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİ STANİSLAV ZAS İLƏ GÖRÜŞ

*27 sentyabr 2017-ci il .......................................................................251*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*28 sentyabr 2017-ci il .......................................................................253*

TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ NAZİRİ NURƏDDİN CANİKLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2017-ci il .......................................................................254*

MƏRKƏZÇİ DEMOKRAT İNTERNASİONALININ VİTSE-PREZİDENTİ VƏ BAŞ KOORDİNATORU SEZAR ROSSELLON İLƏ GÖRÜŞ

*28 sentyabr 2017-ci il .......................................................................256*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANK-VALTER ŞTAYNMAYERƏ

*29 sentyabr 2017-ci il .......................................................................257*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUN CE-İNƏ

*29 sentyabr 2017-ci il .......................................................................258*

AVROPA OLİMPİYA KOMİTƏLƏRİNİN, BEYNƏLXALQ İDMAN TƏŞKİLATLARININ VƏ XARİCİ MİLLİ OLİMPİYA KOMİTƏLƏRİNİN RƏHBƏRLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2017-ci il ............................................................259*

DÜNYA ŞÖHRƏTLİ AZƏRBAYCANLI ALİM LÜTFİ ZADƏ İLƏ VİDA MƏRASİMİNDƏ İŞTİRAK

*29 sentyabr 2017-ci il ............................................................264*

MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 25 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*29 sentyabr 2017-ci il ............................................................265*

AVROPA ÇEMPİONATININ YARIMFİNALINA YÜKSƏLƏN QADIN VOLEYBOLÇULARIMIZIN QƏLƏBƏ OYUNUNA BAXIŞ

*29 sentyabr 2017-ci il ............................................................276*

RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ NİKOLAY PATRUŞEV İLƏ GÖRÜŞ

*30 sentyabr 2017-ci il ............................................................278*

QADIN VOLEYBOLÇULARIMIZIN FİNALA VƏSİQƏ UĞRUNDA NİDERLAND YIĞMASI İLƏ OYUNUNA BAXIŞ

*30 sentyabr 2017-ci il ............................................................280*

VOLEYBOL ÜZRƏ AVROPA ÇEMPİONATINDA MİLLİ KOMANDAMIZIN SONUNCU YARIŞINA BAXIŞ

*1 oktyabr 2017-ci il*.........................................................................*281*

QOBUSTAN RAYONUNA SƏFƏR

*2 oktyabr 2017-ci il*.........................................................................*282*
QOBUSTAN ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2017-ci il*.........................................................................*285*

ŞAMAXI RAYONUNA SƏFƏR

*2 oktyabr 2017-ci il*.........................................................................*293*

ŞAMAXI–ÇÖL GÖYLƏR–PADAR AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2017-ci il*.........................................................................*294*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA

*2 oktyabr 2017-ci il*.........................................................................*317*

QADIN VOLEYBOLÇULARDAN İBARƏT MİLLİ KOMANDAMIZIN HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2017-ci il*.........................................................................*318*

UKRAYNA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ PAVLO KLİMKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2017-ci il*.........................................................................*322*

ÜMUMDÜNYA BOKS ŞURASININ BAKIDA

KEÇİRİLƏN 55-ci KONVENSİYASININ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2017-ci il* ........................................................................ *323*

İTALİYANIN «LEONARDO» ŞİRKƏTİNİN
BAŞ İCRAÇI DİREKTORU ALESSANDRO
PROFUMONUN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 oktyabr 2017-ci il* ........................................................................ *329*

QEYDLƏR ........................................................................ *331*

*Şəxsi adlar göstəricisi* ........................................................................ *360*

*Coğrafi adlar göstəricisi* ........................................................................ *365*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.